SEÇİLMİŞ ƏSƏRLƏRİ

# AFAD QURBANOV

*Müasir Azərbaycan ədəbi dilinə dair praktikum*

I cild

90

illik

yubileyinə

həsr olunur



**Afad Qurbanov**

*(1929–2009)*

***Beynəlxalq və milli akademiyaların akademiki,
Azərbaycanın görkəmli dilçi alimi, türkoloq və
ictimai xadim, müasir Azərbaycan Əlifbasının müəllifi və
Azərbaycan Onomastika Elmi Məktəbinin banisi***

SEÇİLMİŞ ƏSƏRLƏRİ

# AFAD QURBANOV

*Müasir Azərbaycan ədəbi dilinə dair praktikum*

I cild

Azərbaycan Milli Elmlər Akademiyasının Prezidentinin
121 saylı 07 mart 2019-cu il tarixli sərəncamı ilə çap olunur.

Afad Qurbanovun "Seçilmiş əsərləri" toplusunun
hazırlanması üzrə məsul şəxslər:

Akademik İsa Həbibbəyli
Akademik Kamal Abdullayev
Akademik Nizami Cəfərov
Akademik Möhsün Nağısoylu
Akademik Yaqub Mahmudov

**Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. I cild (2 cilddə).** Bakı, 2019. 352 səh.

Kitab respublika universitetlərinin filologiya fakültələrinin proqramları əsasında hazırlanmışdır. Burada məqsəd müasir Azərbaycan ədəbi dilinin nəzəri məsələlərinin təcrübə ilə əlaqələndirilməsinə kömək etməkdən ibarətdir.

Əsərə daxil edilmiş çalışmaların bir hissəsi konkret dil hadisələrinin qarşılaşdırılması, digər qismi müqayisə edilməsi və təsvir olunması prinsipi əsasında qurulmuşdur. Çalışmalardakı materiallar müxtəlif dövrlərdə yazılmış bədii, elmi, ictimai-publisistik əsərlərdən götürülmüşdür. Əsərdən tələbə və müəllimlər, dil öyrənənlər istifadə edə bilərlər.

Vəsait Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Təkmilləşdirilmiş 4-cü nəşr.

ISBN 9 789952 835878

© Azərbaycan Milli Elmlər Akademiyası, 2019

www.afadgurbanov.az

# ÖN SÖZ

*Ömrünü elmə sərf edən insan heç vaxt ölmür!*
***Məhəmməd peyğəmbər***

Ali məktəblərin tədris planlarında mühüm yerlərdən birini "Müasir Azərbaycan ədəbi dili" fənni tutur. Fənnin mövzu və məqsədini bilmək üçün, hər şeydən əvvəl, bir neçə anlayışı, o cümlədən "Azərbaycan dili", "ədəbi dil" və "müasir dil" anlayışlarına nəzər yetirmək lazım gəlir.

***Azərbaycan dili anlayışı.*** Azərbaycan dili Azərbaycan xalqının milli dilidir. Bu dildən respublikamızda dövlət dili kimi istifadə olunur. Hər bir azərbaycanlı istədiyi idarə və müəssisəyə Azərbaycan dilində müraciət edə bilir və yığıncaqlarda, qurultaylarda, radio və televiziyada bu dildə danışır.

Dünyanın bir çox ölkələrində Azərbaycan dilindən istifadə olunur: Yaxın Dağıstan, Gürcüstan, Türkmənistan və digər ölkələrdə – Özbəkistan, Qazaxıstan, İran, İraq, Türkiyə və başqa ölkələrdə də bu dildə danışanlar vardır. Bundan başqa, bəzi xalqlar arasında Azərbaycan dili ikinci ana dili kimi də işlənir. Hazırda Azərbaycan ərazisində yaşayan bir sıra azsaylı xalqlar, o cümlədən, lahıc, talış, tat, qrız və başqaları Azərbaycan dilindən ikinci ana dili kimi istifadə edirlər.

Azərbaycan dili anlayışını elmi şəkildə hərtərəfli müəyyənləşdirmək üçün Azərbaycan dilinin dünya dilləri sırasında yerini də xatırlatmağı unutmamalıyıq. Məlumdur ki, yer üzündə üç minə yaxın dil vardır. Bunların bəzisi bir-birinə yaxın, bəzisi isə tamamilə fərqlidir. Məsələn,

əgər biz erməni dili ilə gürcü dilini müqayisə etsək, bunların arasında yaxınlıq olmadığını dərhal hiss edəcəyik. Lakin türkmən dili ilə tatar dilini müqayisə etdikdə, bunların arasında oxşarlıq, yaxınlıq olduğunu görəcəyik. Dillərin bu yaxınlığı əsasında onların qohumluğu müəyyən edilir. Bir-biri ilə qohum olan dillər isə dil ailələrində qruplaşdırılır. Dilçilikdə bir sıra dil ailələri müəyyənləşdirilmişdir ki, bunlardan biri də ***Altay dilləri*** ailəsidir.

***Azərbaycan dili Altay dillər ailəsinin türk dilləri qrupuna mənsubdur.*** Bu qrupa daxil olan dillər də bir-birinə həm leksik, həm morfoloji, həm də sintaktik cəhətdən çox yaxındır. Nümunə üçün bir neçə sözün müxtəlif türk dillərində necə işləndiyini nəzərdən keçirək. Məsələn, Azərbaycan dilindəki bülbül, heyva, toyuq sözləri, qaqauz dilində bulbul, ayva, tauk, tatar dilində bılbıl, ayva, tavık, başqırt dilində bılbıl, ayva, tauk, kumuk dilində bulbul, qayva, tavuk, noqay dilində bılbıl, ayva, tavık, türk dilində ouou, ayva, tavuk formasında işlənir.

Türk dilləri qrupuna daxil olan dillərin yaxınlığı eyni dərəcədə olmadığından bunların özləri də bir neçə yarımqrupa bölünür. Azərbaycan dili türk dilləri qrupunun oğuz dilləri yarımqrupuna daxildir.

Azərbaycan dilinə münasibətinə görə türk dilləri qrupundaki dilləri beş qismə bölmək olar: Azərbaycan dilinə yaxın qohum olan dillər, ən yaxın qohum dillər, uzaq qohum dillər, ən uzaq olan qohum dillər. Azərbaycan dili üçün ən yaxın qohum dil türk (osmanlı), qaqauz və türkmən dilidir.

Azərbaycan dili öz mahiyyətinə görə indi dünyanın ən zəngin milli dillərindən sayılır. Bu dilin özünəməxsus gözəlliyi və ahəngi vardır. Azərbaycan dili, hər şeydən əvvəl, xoş avaz yaradan zəngin səslər sisteminə, bol, eyni zamanda rəngarəng söz ehtiyatına, tam sabitləşmiş qrammatik quruluşa malikdir.

Azərbaycan dilində ən dərin duyğulan, ən incə mənaları istənilən şəkildə çox müxtəlif bədii boyalarla ifadə etmək olur. Bu dil elmi, siyasi, fəlsəfi fikirləri çox aydın ifadə etməyə qadir olduğu kimi, bədii təfəkkürün gözəl nümunələrini yaratmaq üçün də çox yararlıdır. Müxtəlif dillərdə yazılmış və Azərbaycan dilinə tərcümə edilmiş bədii, fəlsəfi-siyasi əsərlər bu dildə də çox gözəl səslənir. Eyni zamanda, dünya mədəniyyəti xəzinəsinə qiymətli hədiyyə kimi daxil olan və onu zənginləşdirən Məhəmməd Füzulinin məşhur "Leyli və Məcnun" poeması, Mirzə Fətəli Axundovun komediyaları və bir çox sənət əsərləri bu dildə – Azərbaycan dilində yaranmışdır.

Azərbaycan dilinin gözəlliyi, onun zənginliyi və digər xüsusiyyətləri tarixən bır sıra görkəmli şəxsiyyətlərin nəzər-diqqətini özünə cəlb etmişdir. Böyük rus şairi M.Y.Lermontov Azərbaycan dili haqqında: "...mən bir çox dağlar aşdım, Şuşa, Quba və Şamaxı şəhərlərində oldum... azərbaycanca öyrənməyə başladım; həmin dil burada və ümumiyyətlə, Asiyada, fransız dilinin Avropada olduğu qədər zəruri bir dildir" deyərək bu dilin Qafqazda ümumünsiyyət vasitəsi olmasını nəzərdə tuturdu.

Məşhur şəxsiyyətlərdən Bestujev-Marlinski, L.Budaqov və başqaları da Azərbaycan dilinin əhəmiyyətindən dönə-dönə bəhs etmişlər. Görkəmli ictimai xadim olan Sultanməcid Qənizadə Azərbaycan dili haqqında yazmışdır: "Həqiqətən, bu dil (Azərbaycan dili − **A.Q.**) öz təbiətinə görə çox elastikdir və asanlıqla zərif üslubi formalara düşmə bacarığına malik olmaqla öz xüsusiyyətləri ilə fəxr edə bilər. Bu xüsusiyyətlər öz mahiyyətlərinə görə çox maraqlıdır... buradakı xüsusiyyətlərə bənzər hadisələrə hər hansı bir başqa dildə az təsadüf etmək olar".

***Ədəbi dil anlayışı.*** Hər xalqın və millətin ancaq bir dili olur. Həmin dil o xalq və ya millətin ümumi dili olduğu üçün buna ümumxalq dili deyilir. Məsələn, Azərbaycan ümumxalq dili, özbək ümumxalq dili, qazax ümumxalq dili və s.

Ümumxalq dili çox geniş məfhumdur. Belə ki, ümumxalq dili dedikdə, işlənmə yeri və sahəsindən asılı olmayaraq bütün söz və ifadələrin, qrammatik forma və qanunların, orfoepik və orfoqrafik qaydaların cəmi nəzərdə tutulur.

Məlumdur ki, hər bir xalq və ya millətin bütün üzvləri dildən eyni şəkildə istifadə edə bilmirlər. Məsələn, ziyalılar, xüsusən alim və yazıçılar dildən daha məharətlə istifadə etməyə meyl göstərirlər. Onlar istifadə etdikləri dilin söz və ifadələrini, qayda-qanunlarını daha da cilalayır və daha mükəmməl şəklə salırlar. Lakin savadsızlar və azsavadlılar isə dildən, bir növ "xam" şəkildə istifadə edirlər.

Bu deyilənlərə görədir ki, müasir Azərbaycan ümumxalq dili iki qola ayrılır: 1) ədəbi danışıq dili, yaxud ədəbi dil, 2) qeyri-ədəbi danışıq dili, yaxud danışıq dili.

Ümumxalq dilinin iki qola ayrılmasını şərti mənada başa düşmək lazımdır, çünki ədəbi dil dedikdə bir dili, danışıq dili dedikdə ikinci dili düşünmək olmaz. Bunların hər ikisinin əsası eynidir. Başqa şəkildə desək, bütövün qolları və ya tamın hissələridir.

Bəs ədəbi dil nədir? Ədəbi dilin mahiyyətini başa düşmək üçün ona aid olan başlıca əlamətləri xatırlamaq lazımdır.

Ədəbi dil ümumxalq dilinin ən yüksək formasıdır. Bu dil ictimai müəssisə və idarələrdə, nəşriyyat və mətbuatda, kino və teatrlarda, radio və televiziyada, maarif və mədəniyyət ocaqlarında istifadə olunan dildir. Ədəbi dilin hamı üçün aydın və ümumi olması onun əsas əlamətlərindəndir. Bu xüsusiyyət onu danışıq dilindən fərqləndirən başlıca cəhətdir.

***Ədəbi dil normalaşmış dildir.*** Normativlik ədəbi dildə başlıca şərtdir. Ümumi normalardan kənarda ədəbi dil ola bilməz. Ədəbi normalar fikrin aydın, dəqiq ifadə olunmasına, hamı tərəfindən eyni formada anlaşılmasına, düzgün və vahid nitq yaratmağa kömək edir.

Ədəbi normalar dilin bütün sahələrinə aid olur; məsələn, fonetik, orfoepik, orfoqrafik, qrammatik, semantik, leksik və üslubi normalar. Ədəbi normalara riayət etmək azərbaycanca danışanların və yazanların hamısı üçün məcburidir. Bu normaları bilmək hər bir mədəni adam üçün çox vacib və zəruridir.

Ədəbi normalar ayrı-ayrı şəxslərin istək və arzularının, yaxud da uydurmalarının nəticəsində yaranmır. Hər cür uydurma və qondarmalar dilin təbiətinə ziddir.

Ədəbi dilin normaları dil praktikasında, xüsusilə söz sənətkarlarının, alimlərin fəaliyyəti prosesində yaranıb formalaşır. Sonra isə geniş kütlə tərəfindən sınaqdan keçirilərək hüquq qazanır. Həmin normalar, eyni zamanda, dəyişikliyə uğraya bilir ki, bu da dilin ümumi inkişafı ilə bağlıdır. Elə buna görə də müasir dövrün tələblərini ödəyə bilməyən normalar arxaikləşərək sıradan çıxır.

***Ədəbi dil üslublar sistemindən ibarətdir.*** Ədəbi dilin xarakterik cəhətlərindən biri də onun müxtəlif üslublara malik olmasıdır. Dilin üslubları bir sıra səbəblər nəticəsində əmələ gəlir. Bu, hər şeydən əvvəl, insan fəaliyyətinin müxtəlif sahələri ilə əlaqədar olaraq bu və ya başqa şəraitdə fikrin ifadə olunması üçün dil vasitələrindən istifadə edilərkən yaranır.

Hər bir üslub dilin milli xüsusiyyətləri əsasında qurulur. Bunların yaranmasında həm yazıçıların, həm də alim, müəllim və digər qrup ziyalıların böyük xidməti olur.

Hazırda Azərbaycan ədəbi dilinin aşağıdakı üslubları vardır: bədii üslub, elmi üslub, ictimai-publisistik üslub və rəsmi üslub. Bu üslubların həm ümumi, həm də hər birinin özünəməxsus fərqli xarakterik cəhətləri vardır.

Deməli, ümumxalq dilinin cilalanmış, müəyyən normalara salınmış və bir sıra üslubları yaradılmış qolu ədəbi dildir.

***Müasir dil anlayışı.*** Bu anlayışın mahiyyətini ətraflı bilmək üçün müasir sözünün mənasından başlamaq lazımdır. Dildən bəhs edərkən bu sözü iki mənada götürmək

olar. Birincisi dar, ikincisi isə geniş mənada. Dar mənada götürdükdə "Müasir Azərbaycan dili" anlayışı altında ancaq hazırkı, yəni bu gün istifadə etdiyimiz dili nəzərdə tutmalıyıq. Belə olduqda, qarşıya sual çıxa bilər ki, bəs Məmməd Səid Ordubadinin dili, bir az da uzağa fikir versək, Nəriman Nərimanovun, Əbdürrəhim bəy Haqverdiyevin dili, bir daha uzağa nəzər salsaq, Mirzə Fətəli Axundovun dili hansı cəhətə görə müasir deyildir? Axı, oxucu bu yazıçıların əsərlərini çətinlik çəkmədən başa düşür. Buna görə də "müasir dil" terminindəki müasir sözü geniş mənada götürülür ki, bu da ***dövrlə*** bağlıdır. "Müasir dil" dedikdə hansı dövrün dilinin bizə daha yaxın olduğu başlıca prinsip hesab edilir. Belə bir prinsipə görə, şübhəsiz ki, bizə XVI əsrdəki Azərbaycan dilindən XVIII əsrdəki Azərbaycan dili daha yaxındır. Bunu əyani görmək üçün XVI əsrin məşhur sənətkarı M.Füzulinin "Leyli və Məcnun" əsərindən və XVIII əsrin görkəmli şairləri olan Vaqiflə Vidadinin deyişməsindən götürülmüş nümunələrə nəzər yetirək:

*Bir-bir eşidib sözün atası,*
*Bildi ki, qəbul olur duası.*
*Əfzun olur ol qəmü məlamət,*
*Mümkün deyil oğluna səlamət,*
*Çox qıldı fəğanü naləvü zar,*
*Oğlundan ümidi kəsdi naçar.*
*Ol pir qalıb orada heyran,*
*Məcnun tutuban rəhi-biyaban,*
*Tənha səfər ixtiyar qıldı,*
*Əzmi, səri-kuyi yar qıldı.*
*Gündüz gözü yaşı hadiyi-rah,*
*Gecə yolu şəmi şöleyi-ah.*
*Gərdi-rəhi-yari yad edərdi.*
*Gəh otura, gəh dura gedərdi* (Füzuli).

**Yaxud,**

*Vaqif* – Ey Vidadi, sənin bu puç dünyada
Nə dərdin var ki, zar-zar ağlarsan?
Ağlamalı günün axirətdədir.
Hələ indi səndə nə var, ağlarsan?

*Vidadi* – Vaqif, nə çox yan, baş-ayaq atarsan,
Mənə dersən nə bu qədər ağlarsan?
Sənin də başında məhəbbət beyni,
Əgər olsa, eylər əsər, ağlarsan!

*Vaqif* – Ta cəsədin cida olmayıb candan.
Bil özünü artıq sultandan, xandan,
Qəriblik, ayrılıq nədir ki, ondan
Bu qədər çəkübən azar, ağlarsan?

*Vidadi* – Ağlamaq ki, vardır məhəbbətdəndir,
Şikəstə xatirlik mərhəmətdəndir,
Əsli bunlar cümlə mürüvvətdəndir,
Olsa ürəyində betər, ağlarsan!

Göründüyü kimi, hazırkı Azərbaycan dili ilə müqayisə edildikdə XVI əsrə aid parçada arxaikləşmiş leksik vahid və qrammatik formalar daha çoxdur. Lakin XVIII əsrə aid nümunə müasir Azərbaycan dilindən bir o qədər də fərqlənmir. Deməli, XVIII əsrdəki Azərbaycan dili hazırkı dilimizə daha yaxındır. Buna görə də biz müasir Azərbaycan ədəbi dili dedikdə, Vaqifdən başlamış bu günə qədərki dili nəzərdə tutmalıyıq.

Deməli, "Müasir Azərbaycan ədəbi dili" fənninin obyekti ümumxalq Azərbaycan dili deyil, müasir Azərbaycan ədəbi dilidir. Buna görə də burada Azərbaycan ədəbi dilinin müasir inkişafı elmi surətdə təsvir olunmalıdır.

## 1

***"Müasir Azərbaycan ədəbi dili"*** fənninin öyrənilməsinin həm nəzəri, həm də praktik əhəmiyyəti vardır. Hər şeydən əvvəl, bu fənn tələblərin ümumi inkişafına, onlarda şifahi və yazılı nitq mədəniyyətinin yüksəlməsinə xidmət edir. Tələbələr dilin incəliklərini dərindən öyrəndikcə ondan daha bacarıqla və daha səmərəli istifadə edə bilirlər. Bunun nəticəsində onların nitqi rəvan, cəlbedici və təsirli olur. Elə buna görə də, bir tədris fənni kimi onun məqsədi tələbələrə müasir Azərbaycan ədəbi dilinin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu, həmçinin, orfoepiya və orfoqrafiyası haqqında geniş bilik verməkdir.

Ali məktəblərdə ***"Müasir Azərbaycan ədəbi dili"*** fənni mühazirə və praktik məşğələ yolu ilə öyrədilir. Mühazirələrdə tələbələrə bu dilin normaları haqqında elmi-nəzəri bilik verilir. Praktik məşğələlərdə isə həmin nəzəri bilik daha da dərinləşdirilərək möhkəmləndirilir.

Praktik məşğələlər müxtəlif formada ola bilər. Keçirilən mövzuların xarakteri ilə əlaqədar məşğələlərdə bir sıra vasitələrdən istifadə olunur. Lakin burada ən əsas yeri çalışmalar, özü də diqqəti səfərbəredici çalışmalar təşkil edir.

Praktik məşğələlərdə müntəzəm olaraq çalışmalar aparmaq faydalı yollardan biridir.

Düzgün təşkil olunmuş çalışma nəzəri materialı şüurlu mənimsəməyə, onu dərinləşdirməyə, eləcə də tələbələrdə müstəqillik bacarığı yaratmağa kömək edir. Buna görə də tədris prosesində təcrübi məşğələlərə, əməli işə xüsusi diqqət yetirmək, tələbələrin dil qanunlarını və hadisələrini əməli iş prosesində qavraya bilmələrinə nail olmaq lazımdır. Praktikada qazanılmış bilik insanın hafizəsində daha dərin həkk edilir və onun ömrü çox uzun olur.

## 2

***"Müasir Azərbaycan ədəbi dilinə dair praktikum"***un bu hissəsi giriş, fonetika, orfoepiya, əlifba, qrafika, orfoqrafiya bəhslərini əhatə edir. Bəhslərin belə düzülüşü tədrislə və dilin quruluşu ilə əlaqədardır. Məlum olduğu üzrə dilin ən kiçik vahidi səsdir. Məhz elə buna görə də pedaqoji cəhətdən ən kiçik vahidin öyrənilməsindən başlamaq daha məqsədəuyğundur. Təcrübə də belə bir formadan istifadə etməyin həm nəzəri, həm də əməli cəhətdən əlverişli olduğunu göstərir.

*Fonetik çalışmalar.* Proqramın tələbinə uyğun olaraq fonetik çalışmalar sistemində danışıq üzvləri, fonem məsələlərinə müəyyən yer ayrılmışdır. Bundan sonra Azərbaycan dilinin səs sisteminə, fonetik hadisə və qanunlarına, heca və vurğuya dair müxtəlif həcmli və müxtəlif tipli çalışmalar verilmişdir.

*Orfoepik çalışmalar.* Müasir dövrdə ali məktəblərin qarşısında duran çox mühüm problemlərdən biri gənc nəslin şifahi nitqini lazımi səviyyədə inkişaf etdirməkdən ibarətdir. Belə bir məsələnin həyata keçirilməsində şübhəsiz ki, orfoepik çalışmalar aparmağın da xüsusi əhəmiyyəti vardır. Lakin qeyd etməliyik ki, indiyə kimi Azərbaycan dilinin orfoepik normaları elmi cəhətdən dəqiqləşdirilmədiyindən ədəbi tələffüz məsələlərinə aid çoxlu rəngarəng çalışma vermək mümkün olmur. Vəsaitdəki orfoepik çalışmalar ədəbi tələffüzün ancaq bu və ya digər məsələsini əhatə edir. Təcrübə göstərir ki, bu tipli çalışmalarda nəsrə nisbətən şeirdən istifadə etmək daha məqsədə müvafiqdir, çünki şeir parçası ilə sözün düzgün tələffüzü daha asan öyrənilir və əməli cəhətdən faydalı olur.

*Əlifba və qrafikaya dair çalışmalar.* Vəsaitdəki çalışmaların bir qismi əlifba və qrafika məsələlərinə həsr edilmişdir. Bu hissədə tələbələr dilimizdəki səslərlə əlifbamızdakı

hərflərin nisbətinə, saitlərin, samitlərin əks olunmasına dair düşündürücü çalışmalara rast gələcəklər.

*Orfoqrafik çalışmalar.* Məlum olduğu kimi, dilin yazılı və şifahi normalarına yiyələnmək yüksək nitq mədəniyyəti üçün əsas şərtlərdəndir. Bu məqsədlə vəsaitdə tələbələrin yazılı nitq mədəniyyətini inkişaf etdirməyə, onlarda yazı texnikasını daha mükəmməl mənimsəmək bacarığı aşılamağa kömək edən orfoqrafik çalışmalara geniş yer verilmişdir. Vəsaitdəki orfoqrafik çalışmalar sistemində orfoqrafiyanın, demək olar ki, bütün məsələləri əks olunmuşdur.

Çalışmalardakı materiallar müxtəlif üslublarda və müxtəlif dövrlərdə yazılmış bədii, elmi, ictimai-publisistik əsərlərdən götürülmüşdür. Burada kitab, qəzet, jurnal və lüğət materiallarından istifadə edilmişdir. Şübhəsiz ki, materialın belə rəngarəngliyi tələbələrin ədəbi dilin üslubları haqqındakı məlumatlarını da dərinləşdirəcəkdir.

**3**

***"Praktikum"***a daxil edilmiş çalışmaların bəzisi konkret hadisələrin qarşılaşdırılması, bəzisi müqayisəsi, bəzisi də təsvir prinsipi əsasında qurulmuşdur. Çalışmalar sıralanarkən metodikanın asandan çətinə prinsipinə də ciddi riayət edilmişdir. Yəni hər bir bölmənin, hətta mövzunun əvvəlindəki ilk çalışmalar olduqca sadə və asan qurulmuşdur. Sonrakıların məzmunu isə tədricən müvafiq şəkildə çətinləşir.

Məcmuədəki çalışmalar öz xarakterinə görə iki cürdür: a) çalışdırıcı – öyrədici, b) yoxlayıcı – yekunlaşdırıcı. İkinci növ çalışmalar mövzuların, yaxud bəhslərin sonunda verilmişdir. Bəzi çalışmaların icrasına istiqamət vermək üçün onun yanında nümunələr göstərilmişdir.

Vəsaitdəki çalışmalar sistem şəklində verilmişdir. Hər bir çalışma ümumi zəncirin halqaları olub, mühazirədə bu

və ya digər bəhsin mövzularına dair verilmiş biliyin ardıcıl şəkildə möhkəmləndirilməsinə xidmət edir.

Tələbələrin şifahi və yazılı nitqlərinin vəhdət şəklində inkişafı nəzərdə tutularaq vəsaitə *şifahi*, yaxud *yazılı* icra oluna bilən çalışmalar daxil edilmişdir.

**4**

Məlum olduğu üzrə, müasir Azərbaycan ədəbi dilindən aparılan praktik məşğələlərin səmərəli təşkilində müəllimin üzərinə böyük iş düşür. O, hər şeydən əvvəl, məşğələləri elə qurmalıdır ki, tələbələr fəal olsunlar, onların müşahidəçilik qabiliyyəti inkişaf etsin, dil hadisələrinə həvəsləri artsın, dilin emosionallığını və digər cəhətlərini hiss etsinlər.

Təcrübi məşğələlərdə çalışmaların lazımi səviyyədə aparılması müəllimdən böyük pedaqoji ustalıq tələb edir. Belə ki, müəllim bu zaman hər bir məsələni ölçüb biçməli, hər şeyi öz yerində icra etdirməyi bacarmalıdır. Çalışma aparılarkən mövzular, bəhslər arasındakı əlaqə məsələsini unutmamaq lazımdır.

Buna görə də fonetik çalışmalar orfoepik çalışmalarla, yaxud leksik çalışmalarla, yaxud da leksik çalışmalar qrammatik çalışmalarla əlaqəli şəkildə aparılmalıdır. Belə əlaqə mövzular arasında möhkəm bağ əmələ gətirir və faydalı nəticələr əldə edilir. Praktik məşğələdə müəllim tələbələrin nitq mədəniyyətini inkişaf etdirmək məsələsini ön plana çəkməlidir. Bunun üçün də leksik-üslubi, frazeoloji-üslubi və sair tipli çalışmalara xüsusi yer verilməlidir.

Çalışma aparılarkən tələbələrin müstəqil işləmələrinə xüsusi nəzarət edilməlidir. Bu cəhət nəzərə alınaraq vəsaitdəki çalışmalar, əsasən, üç variantda verilmişdir. Çalışmaların belə çoxvariantlılığı tələbələrin müstəqil işləmələrinə kömək edir.

Çalışmaları həm müəllimin rəhbərliyi ilə məşğələ zamanı, həm də müstəqil şəkildə evdə icra etmək olar. Bunu

fənn müəllimi müəyyənləşdirir. İstər məşğələdə, istərsə də auditoriyadan kənar icra edilmiş çalışmaları müəllim mütləq yoxlamalıdır.

"Praktikum" müasir Azərbaycan ədəbi dili tədris olunan fakültələrin tələbələri üçün yazılmışdır. Burada ayrı-ayrı fakültələrin proqramı, demək olar ki, nəzərə alınmışdır. Məlum olduğu üzrə, "Müasir Azərbaycan ədəbi dili" fənni ölkəmizin bir çox ali məktəblərinin bir sıra fakültələrində tədris edilir. Fakültələrin profilləri ilə əlaqədar olaraq proqramlarında müəyyən fərqlər vardır. Bu fərqlər, əsasən, ayrı-ayrı bəhslərin tədrisi həcmində özünü göstərir. Belə ki, bu və ya başqa bir bəhs fakültələrin birində geniş, digərində isə müxtəsər öyrədilir. Lakin fakültələrin hamısında "Müasir Azərbaycan ədəbi dili" fənninin məqsədi yeganə olub, dilimizin müasir vəziyyətini öyrətməkdən ibarətdir.

Vəsaitdə eynitipli bir sıra çalışmaların verilməsi, məhz müxtəlif fakültələrin proqramlarının nəzərə alınmasının nəticəsidir. Buna görə də hər bir müəllim öz auditoriyasına müvafiq çalışma seçib iş apara bilər.

Hər bəhsin sonunda özünüyoxlama üçün suallar verilir və müvafiq, ədəbiyyat siyahısı göstərilir. Verilmiş ədəbiyyat siyahısı məcburi və ya dəyişilməz deyildir. Buna görə də göstərilən ədəbiyyatdan əldə edilən əsərləri oxumaqla bərabər yeni nəşr olunmuş materiallardan da istifadə etmək lazımdır.

# GİRİŞ

## AZƏRBAYCAN DİLİ VƏ ONUN İNKİŞAFI

**§ 1.** Azərbaycan dili tarixinin müxtəlif dövrlərinə aid verilmiş aşağıdakı materialları oxuyun, dilimizin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşunda müşahidə olunan dəyişiklikləri müasir dil əsasında izah edin.

*XI–XII əsrlərə aid:*

İrağından tutuban yaxınından gəlişdilər. Gizli yaxa tutuban iyləşdilər. Dadlı damaq veribən soruşdular. Ağboz atlar minib yortuşdular. Bəy babası yanına irişdilər.

Babası oğlancığın gördü, Allaha şükürlər elədi. Oğluyla, gəliniylə Qanlı Qoca Oğuza girdi. Göy ala görklü çəmənə çadır tikdi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. Düyün etdi. Qalın Oğuz bəylərin ağırladı.

Altunlu günlüyün tikib Qanturalı gərdəyinə girib muradına, məqsuduna irişdi.

Dədəm Qorqud gəlib şadlıq çaldı. Boy boyladı, söy söylədi, ğazi ərənlər başına nə gəldiyini söylədi:

– İmdi qanı dediyim bəy ərənlər? Dünya mənim deyənlər! Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? Gəlimli, gedimli dünya! Son ucu ölümlü dünya!

Əcəl gəldiyində arı imandan ayırmasın! Qədir səni namərdə möhtac etməsin! Allah verən ümidin üzülməsin! Ağ alnında, beş kəlmə dua qıldıq, qəbul olsun Amin deyənlər didar görsün! Yığışdırsın, dürüşdürsün günahınızı adı görklü Məhəmməd Mustafaya bağışlasın xanım, hey (*"K.D.Q"*).

*XIV əsrə aid:*
Qanı bir əhdü peymanı bütün yar,
Qanı bir qövlü gərçək doğru dildar?
Qanı dövranda bir qəlbi dəğəlsiz,
Qanı aləmdə bir ariçə dinar?
Qanı əhdində şol sabit qədəm kim,
Qoyum anın adın doğru, vafadar.
Qanı həqqi bilən bir gərçək ər, kim,
Ola doğru anın dilində göftar?
Qanı ol inciyü ari sədəf kim,
Buluna anda min lölöi-şəhvar?
Qanı dilində iqrar eyləyən, kim,
Həqə yoxdur anın gönlündə inkar?
Qanı dünyada, yarəb, şol əmin kim,
Kim, anda gizlənə min dürlü əsrar? (*İ.Nəsimi*)

*XVI əsrə aid:*
Saqi, kərəm eylə, cam gəzdir!
Tutma qədəhi, müdam gəzdir!
Dövranə çox etibar qılma,
Gəzdir qədəhi, qərar qılma!
Tök alıb ələ gümüş sürahi,
Zər sağərə ruhbəxş rahi.
Sərf eylə riayətimdə əltaf,
Tənhalığımı gör, eylə insaf!
Şüğlüm bu büsat içində çoxdur,
Səndən özgə mədədçi yoxdur.
Həmdəmliyim ilə ar qılma!
Məndən nifrət şüar qılma!
Gər bilməz isən ki, mən nə zatəm,
Nə zülməti-çeşmeyi, həyatəm,
Feyzi-hünərim şərabdən sor,
Suzi-cigərim kəbabdan sor.
Tutsan əlini məni-fəqirin,

Həqq ola həmişə dəstgirin.
Mən şairi Museyi-kəlaməm,
Sahirlərə möcüzi-təmaməm
Mən sahiri-Babili nəjadəm,
Harutə bu işdə ustadəm.
Söz dərkinə sərf edib fərasət,
Əmlakına bulmuşam rəyasət (*Füzuli*).

*XVIII əsrə aid:*
Düyün oldu, bütün xublar yığıldı,
Gəlmədi bir bizim gülbədən gəlin.
Sən gəlmədin deyin yasa batmışam,
Gələ gör, ey zülfli yasəmən, gəlin.

Bir qədəm bas ki, toy sənin toyundur,
Toylar yaraşığı sənin boyundur,
Mollalar məskəni səri-kuyundur,
Onu görən dönər Kəbədən, gəlin!

Cam içmişəm mən, məstanə gəlmişəm,
Eyləyim bağrımı şanə gəlmişəm,
Sənin həsrətindən canə gəlmişəm,
Əl götür bu nazü-qəmzədən, gəlin!

Saz tutulub yüz min sənəm oynasa,
Cəm oluban rumü əcəm oynasa,
Göydə mələk, yerdə adam oynasa,
Həzzim olmaz hərgiz özgədən, gəlin!

Gəl oyna, əlinə kələğay dola,
Buyur, şabaş versin Vaqif tək qula!
Mat qalıb desinlər: kimindir ola
Kəklik kimi səkib, bu süzən gəlin! (*M.P.Vaqif*)

*XIX əsrə aid:*

*Hacı Qara* – Dükanı Allah batırsın, malı yoxa çıxsın! Satılır məgər! Qoymazsan başımın çarəsin görüm?

*Tükəz* – A kişi, başına nə gəlibdir, çarəsin görəsən? Nə danışırsan?

*Hacı Qara* – Dəxi nə gələcəkdir. Evim yıxılıb gedib. Düz yüz manat indiyədək zərərim var. Boğazıma çörək getmir!

*Tükəz* – Səni görüm boğazın elə tutulsun ki, su da ötməsin, ay göyərmiş! Uşaq aşıq yığan kimi, bu qədər pulu yığıb nə eləyəcəksən! Yüz il ömrün ola yeyəsən, geyəsən, içəsən, sənin pulun tükənməz. Yüz manat zərərdən ötrü nə özünü öldürürsən?

*Hacı Qara* – Min kərə sənə demişəm ki, sən arvadsan, get arvadlığına, mənə öyüd, nəsihət vermə! Yaraqları yerə qoy! (Əlin uzadıb tüfəng, tapança dartıb alır).

*Tükəz* – Yəni, sən bu yaraqları qurşanıb onlar ilə adam qorxudacaqsan? Bu tüfəng, tapançanın iyirmisin üstünə götürsən, mən bu arvadlığım ilə səndən qorxmanam! Torpaq sənin başına! (İkiəlli başına qarıyır).

*Hacı Qara* – Səni lənətə gələsən, arvad! Toxumunuz yer üzündən götürülsün! İtil buradan!

*Tükəz* – Kişi, dəli olubsan! Mən evimdən hara itiləcəyəm? De görüm, hara gedirsən?

*Hacı Qara* – Cəhənnəmə, gora! Əl çəkməzsən? Nə istəyirsən məndən?

*Tükəz* – Kaş cəhənnəmə, gora indiyədək getmiş olaydın! O günü görərəmmi toy-bayram edəm. Çifayda, əzrailin yolu yumrulsun ki, sənin kimi murdarı yer üzündə qoyub gözəl cavanları qara torpaq altına yollayır!

*Hacı Qara* – Yer üzündə qalan murdarların biri özünsən ki, tövqi-lənət olub keçibsən mənim boğazıma! Mən ömrümdə bir kimsəni incitməmişəm, bir kimsəyə bir zərər yetirməmişəm! Mən niyə murdar oluram?

*Tükəz* – Bir kimsəyə zərər yetirməmisən, xeyir də verməmisən! Ondan ötrü murdarsan ki, öz malını nə özün yeyib-içirsən, nə əyalına məsrəf edirsən. Sən ölsən, heç olmazsa arvad-uşağın doyunca çörək yeyər.

*Hacı Qara* – Arvad-uşaq zəhirmar yesin!

*Tükəz* – Sənin evində zəhirmar da tapılmaz; olsaydı, onu da qıyıb bizə verməzdin! (M.F.Axundov)

**§ 2.** Dildəki dəyişikliklərin başvermə səbəbi və dilin inkişafı haqqındakı nəzəri biliyinizi yazılı şərh edin.

**§ 3.** Azərbaycan dilinin tərkib hissələrini göstərən cədvəl tərtib edin.

## AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN NORMALARI

**§ 4.** Bəstəkar Üzeyir Hacıbəyovun 1906-cı ildə çap olunmuş “Hansı vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik” adlı məqaləsindən götürülmüş aşağıdakı parçanı diqqətlə oxuyun, müasir ədəbi dil normalarına uyğun gəlməyən faktları müəyyənləşdirin.

Dil, həyati-bəşəriyyənin ən ümdə müəssirlərindən biridir desəm, xəta etmərəm zənnindəyəm. Bütün ixtiraat və kəşfiyyatın ağıllılarımızı heyran qoyan səmərəsi hüsulinə və bu səmərələrin az bir müddətdə aləm içrə yayılmasına, insanın öz həməsrlərinin hal və ovzaindən baxəbər olmasına, minlərcə il bundan əqdəm yer üzünü iskan babalarımızın həyat və məişəti sadiqəsindən kəsbi-ittila etməsinə və hətta, ondan sonra yaşayacaq adamlarımızın həyati müstəqbələsinə və vaqe olacaq hadisatın necə bir halda cərəyan edəcəyinə təqribən və təxminən də olmuş olsa vaqif olmasına və həyat və məişəti bəşəriyyənin rifah və səadət üzrə ömür edilməsinə dilin zor bir təsiri olubdur.

Xülasə, insanın hər bir ehtiyacatını, ağlına gələn ali əfkarını, qəlbində törəyən hissiyati-şairanəsini ən müsbət surətdə izhar və bəyan etməyə vasitə dildir. Belə olan halda, dilin geniş, zəngin, bəliq və səlis olması, insanın hər bir cəhətdən təali və tərəqqisinə nə böyük bir xidmət etmiş olar.

Bəs dilimizi vüsət və zənginləşdirməyə qeyrət etməliyik. Lakin hankı vasitə və nə tövr vəsilələr ilə bu xeyir işə iqdam etməliyik ki, kəsbinə çalışdığımız nəticə müradimizə mütabiq və müvafiq ola?

İştə, bu məsələnin həllini hər bir sahibi-qələmimiz özünə bir vəzifeyi-ümdə ədd edib, bu yolda öz təsəvvür və mülahizələrini meydana çıxarmalıdır. Zira, bu məsələyə əhəmiyyət verən oxumuşlarımızın ağıllarını buna dair dürlü-dürlü fikirlər işğal etməkdədir. Əzon cümlə biri də dilimizdən ərəb və fars kəlmələrini ixrac, əvəzinə yeni türk sözləri icad və idxal etməkdədir. Lakin bunun imkanı vardırmı?

Bəhsimin ikinci qismində təklif etdiyim vasitə mənim belə bir təşəbbüsün imkan xaricində olduğunu etirafıma işarədir.

Heç bir dil yoxdur ki, onun lüğəti, təbirat və islahatiəcnəbiyyədən ari olmuş ola. Bunun da səbəbi odur ki, hansı bir dil olursa-olsun, havı olduğu əcnəbi təbirlərin mənasını müsbət surətdə ifadə edə bilən özünəməxsus bir təbiri yoxdur. Binaənəleyh, üləma və üdəba tayfası bir əcnəbi sözünü öz lisanına idxal etməyə məcbur olduqda, məzkur sözü ya qəbul edər və yaxud onu üçüncü bir dil təbirləri vasitəsilə ifadə ediö, hər bir halda öz dilinə əcnəbi kəlməsi idxal edir. İndi biz də istəsək ki, "samovar" təbirini rusca deməyib, öz dilimiz vasitəsilə ifadə edək, lazım gəlir ki, bu sözü ya fars və ya ərəb və ya sair dil köməyilə təsmiyə edək. Məsələn: "Hudpəz", "xüdcuş" və sair və illa "özüqaynayan" desək əvamımız anlamaz. Çünki "özü" və "qaynayan" təbirləri əvama məlum olduğundan onun zehnində dürlü-dürlü şeylər zahir edib "samovar" ifadə

edilmir. Əvamdan sorsan ki, "uzaq-yazan" nədir? Heç vaxt deməz ki, "teleqraf"dır. O səbəbdəndir belə sözlər camaat arasında qəbulə keçib, əcnəbi sözü öz-özlüyündə qalır.

**§ 5.** Verilmiş mətndə müasir ədəbi dilin leksik normalarına uyğun olmayan faktları qeyd edib düzəlişlər aparın.

Bir dəfə mən ikitərəfli ağciyər iltihabı xəstəliyinə tutulmuşdum. Xəstəlik başlanan gündən uçitel ilə məşhur həkim M.V. başımın üstünü aldılar. Xəstəliyin böhran vaxtlarında bu iki şəxs gündə bir dəfə institutun həyətində yerləşən tələbə xəstəxanasına gəlir, lazım olan dərmanları tapıb gətirir və sağalmağım üçün əllərindən gələni edirdilər. Nəhayət, xəstəliyin 7-ci günü – böhranın son günü gözümü açarkən hiss etdim ki, gənc şəfqət bacısı başımın üstündə dayanmışdır. Gecə saat bir olardı. Şəfqət bacısının yanında əziz uçitel ilə mehriban həkim dayanmışdı. Uçitel üzünü divara tutub həzin-həzin ağlayır, həkim isə kədərli nəzərlərlə mənə baxaraq şəfalı əlləri ilə nəbzimi yoxlayırdı. Mən ölüm ilə həyat arasında çarpışarkən, birdən gözümü açaraq, bəlkə də evdə anamın yanında olduğumu zənn edərək, zəif bir səslə: – Ana, mənə pendir-əppək ver, demişdim. Bu səsi eşidən uçitel ilan vuran adamlar kimi, tez üzünü çevirdi. Doktor Vəkilov sevincək:

– Hə!.. Həbib! Darıxma, böhran keçdi, indi daha acılacaqdır, – dedi (*"G. müəl."*.).

**§ 6.** Verilmiş mətndə ədəbi dilin morfoloji və sintaktik normalarına uyğun olmayan faktları müəyyənləşdirin və müvafiq düzəliş edin.

Hörmətli yoldaşlar! Mənim övladım X.S. təhsil almaqda əzmlə çalışıb universitetin alim və dosentlərinin təhsil haqqındakı zəhmətini itirməyib, sizin hörmətinizi qazanıbsa, əlbəttə, bu mənim fəxrimdir.

Lakin bu tək mənim fəxrim olmayıb, siz professor, dosentlərin də təhsil haqqında gənc nəslə çəkdiyiniz zəhmətin bəhrə verdiyi üçün sizin də fəxrinizdir.

Mən bir valideyn kimi, çox yaxşı bilirəm ki, siz alim və dosentlər nə qədər zəhmət və əziyyətlər çəkirsiniz, elmin əsaslarının dərindən öyrənilməsində, gənc nəslin təhsil və tərbiyəsində.

Mən bir valideyn kimi, universitetin bütün professor və dosentlərinə öz dərin minnətdarlığımı bildirirəm. Sizə gənclərin tərbiyəsində, təhsildə müvəffəqiyyətlər, dünyanın ən gözəl neməti olan çansağlığı arzulayıram (*məktub*).

## AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN ÜSLUBLARI

**§ 7.** Müasir Azərbaycan ədəbi dilinin üslublarına dair sxem çəkin.

**§ 8.** Verilmiş parçalarda "axşam" və "payız" anlayışlarının bədii təsvirində yazıçının sözlərdən necə istifadə etdiyinə fikir verin və bu cəhətdən bədii üsluba aid olan xüsusiyyətləri aydınlaşdırın.

Axşam idi, sərin və lətif ruzigar yay fəzasının çöhrəsinə düşən ləkələri silib təmizləyirdi. Ucan və Savalan dağlarından qopub gələn küləklər Qızıl Arslan sarayının bağçasına yayıldıqca yasəmənləri təzə yuxudan qalxmış gəlinin saçları kimi dağıdırdı.

Qoca bağban yayın istisindən qorunmaq üçün yarpaqların çətri altına girib yatan güllərin çöhrəsinə su çiləyirdi.

Ruzigardan və sudan təzə həyat alan qönçələr pərdəsini ataraq yeni bir həyata atılmağa hazırlaşırdı.

Küsmüş qızlar kimi kirpiklərini bir-biri üzərinə tökən nərgiz gülü də şəhla gözlərini açıb qızıl gülün çöhrəsindəki qırmızılığa baxırdı.

Yetim qızlar kimi bir guşədə unudulub qalan bənövşə boynunu çiyninə qoyub yarpağın yaşıl xalçası üstündə oturmuşdu.

Hovuzun kənarında ağ qətifələrə bürünüb duran ördəklər günəşin Sərdrud təpələrinin dalında gizləndiyini görərək axşam nəğməsinə başlamışdı.

Payız idi, yaşıl yarpaqların rəngi ölümə gülən və son dəqiqələrini keçirən bir xəstənin yanaqları kimi saralırdı. Qızıl güllərin tac qoyub bahar taxtına əyləşdiyi yaşıl budaqlarda acı tikanlardan başqa bir şey görünmürdü.

Daima gül budaqlarının kölgəsində nazlanan yuvasız bülbüllər xəzan yağışlarının acısını hiss edir və laqeydanə həyatın zəhərlərini içməyə və tənhalıqdan inləməyə başlamışdı. Şaxəsindən qopan yarpaqlar, öz müqəddəratını xəzan küləklərinə tapşırıb heçliyə doğru uçub gedirdi.

Çiçəklərin zərif yarpaqları heyvanların dırnaqları altında çeynənirdi.

Çinardan fırlanıb ayaq altına düşən yarpaqlar bir dilənçinin əli kimi beş barmağını açıb yalvarırdı.

Xəzan fəslinin bu kədərli günlərində Atabəy Məhəmmədin böyük ordusu Araz çayından keçib Şimali Azərbaycana doğru irəliləyirdi (*M.S.O.*).

**§ 9.** Aşağıdakı şeir parçasını oxuyun, bədii üsluba aid olan leksik və semantik xüsusiyyətləri göstərin.

Gözəl Vətən! Mənan dərin,
Beşiyisən gözəllərin!
Aşıq deyər sərin-sərin,
Sən günəşin qucağısan,
Şer, sənət ocağısan.

Ölməz könül, ölməz əsər,
Nizamilər, Füzulilər!
Əlin qələm, sinən dəftər,

De gəlsin hər nəyin vardır,
Deyilən söz yadigardır.

Bir dön bizim Bakıya bax,
Sahilləri çıraq-çıraq,
Buruqları hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə.

Nazlandıqca sərin külək
Sahillərə sinə gərək,
Bizim Bakı – bizim ürək!
İşıqdadır qüvvət sözü,
Səhərlərin ülkər gözü.

Gözəl Vətən! O gün ki, sən
Al bayraqlı bir səhərdən
İlham aldın... yarandım mən.
Gülür torpaq, gülür insan,
Qoca Şərqin qapısısan! (*S.V.*)

**§ 10.** Aşağıda müxtəlif elm sahələrinə dair verilmiş nümunələri üslubi təhlil edin və ***elmi üslubu*** başqa üslublardan fərqləndirən cəhətləri göstərin.

Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti hələ ən qədim zamanlarda burada insanın yaşaması üçün imkan yaratmışdı. Ölkənin suyu bol olan çaylarının sahilləri, meşələr və dağ yamacları ibtidai insanların məskəni olmuşdur.

Azərbaycan ərazisində arxeoloqlar tərəfindən tapılmış bir sıra əmək alətləri burada insanın hələ paleolit – qədim daş dövründə yaşadığını sübut edir. Azərbaycan ərazisində paleolit mədəniyyəti hələlik az öyrənilmişdir. Aparılan ilk kəşfiyyat işləri Azərbaycanda daş dövrünün ən ibtidai izləri haqqında təsəvvür yaratmağa material verir.

Binəqədi kəndi ətrafında (Bakı yaxınlığında) qır (neftin bərkiyib qatılaşması nəticəsində əmələ gələn təbii asfalt) qatlarında tapılmış nəsli kəsilmiş heyvan sümükləri paleolit izlərini xatırladır. Burada mağara şiri, mağara ayısı, kərgədən, canavar, tülkü, at, öküz və maral sümüklərindən ibarət bütöv bir qəbiristanlıq vardır. Bu qədər böyük sümük yığını qədimdə burada, ehtimal ki, göl olduğunu və müxtəlif heyvanların su içmək üçün buraya gəldiyini göstərir. Suyun üzünə çıxan nefti külək sahilə gətirib çıxarırdı. Bu isə heyvanları təmiz suya çatmaq üçün gölə girməyə məcbur edirdi. Lakin onlar gölün dibindəki palçıqda batır, çıxmağa cəhd edərək taqətdən düşür və məhv olurdular. Binəqədi qır qatlarında bitki izləri – söyüd yarpaqlı armud, ardıc, fıstıq ağacı, nar budaqları, güllərin və dənələri, lobya qıçası, tənək çubuğu qalıqları da tapılmışdır (*"Azərb. tarixi"*).

* * *

Mineral sular – yer altından çıxan, içərisində bəzi kimyəvi elementlər və ya onların birləşməsi, habelə qazlar olan sulara deyilir. M. s. adi içməli sudan ümumi minerallaşması 1 q/l-dən çox olması ilə fərqlənir. Minerallaşmasından, kimyəvi elementlərdən və tem. dərəcəsindən asılı olaraq m. s.-ın müxtəlif adları vardır. Tərkibində ərimiş halda 0,25-dən 1 q/1-ə qədər karbon qazı və kalsium, maqnezium, kükürd oksidi olan sular cod sular adlanır. Minerallaşması l0q/l-ə qədər olursa, şortəhər; 10 q/1-dən 50 q/1-ə qədər olursa, şor; 50 q/1-dən çox olursa, acı-şor sular adlanır. Tərkibində xeyli sərbəst $CO_2$ olan m.s. turş sular, hidrogen-sulfıd ($H_2S$) olan kükürdlü sular, dəmir olan – dəmirli sular adlanır və s. m. s.-ın temperaturu 20°-yə qədər olanda soyuq, 37°-yə qədər olanda isti (və ya termal), 42°-dən yüksək olanda – qaynar (və ya hipertermal) sular adlanır. M. s.-ın böyük sağlamlıq əhəmiyyəti vardır (*"İzah.coğr.lüğəti"*).

**§ 11.** Mətni oxuyun, onun hansı elm sahəsinə aid olduğunu müəyyənləşdirin və həmin elmə aid olan xüsusi mənalı leksik ünsürləri seçin.

Romantik üslub məsələsi ədəbi təcrübədə çox zaman müvəffəqiyyətlə həll olunsa da, nəzəriyyədə həmişə mübahisə doğurmuşdur. Məsələn, böyük fəlsəfi fikirlərin ifadəsində, yazıçının öz şəxsi görüşlərinin ifadəsində və gələcəyi, bugünün sabahını göstərməsində romantik üslubdan necə istifadə etməlidir? Bu üslubun başlıca vəzifəsi və bədii ifadə imkanları nədən ibarətdir? Ədəbiyyatda ayrıca, müstəqil, realizmdən kəskin surətdə fərqlənən "saf" bir romantizmə ehtiyac varmı? Romantik üslub (stil) anlayışını necə başa düşmək lazımdır? – sualları Azərbaycan tənqidində öz aydın cavabını gözləyir. Azərbaycan ədəbiyyatında romantikanın, romantik üslubun əhəmiyyətindən və zərurətindən danışanda, bu üslubu realist üslubdan prinsip etibarilə fərqlənən və ya realizm ilə az əlaqəsi olan "saf, müstəqil" bir üslub, xüsusi yaradıcılıq üsulu şəklində təsəvvür edənlər olmuşdur. Ədəbi təcrübə isə bunun əksinə olaraq göstərmişdir ki, romantik üslub sovet ədəbiyyatında heç də ayrıca yaradıcılıq metodu olmamışdır. Bu üslub özünün müəyyən bədii formaları, xüsusi bədii təsvir vasitələri ilə bərabər, yenə bədii idrak prinsipi nöqteyi-nəzərindən, estetik prinsipləri etibarilə sosialist realizminə və onun ayrılmaz tərkib hissəsi olan inqilabı romantikaya əsaslanmışdır. Romantik üslub sovet ədəbiyyatında ayrıca yaradıcılıq metodu deyil, məhz çox zaman müəyyən yazıçıların fərdi üslub, stil xüsusiyyəti şəklində təzahür etmişdir.

Romantik üslubun başlıca vəzifəsi nədən ibarətdir? Bu suala da müxtəlif şəkildə cavablar verənlər olmuşdur. Məsələn, belə güman edilmişdir ki, romantik üslubun başlıca vəzifəsi böyük fəlsəfi fikirləri ifadə etməkdir. Guya yüksək fəlsəfi fikirləri təbliğ etmək üçün realist üslub lazımi imkanla-

ra malik deyilmiş. Bu mülahizə, əlbəttə, tənqidə dözə bilməz. Söz yox ki, sənətdə fəlsəfi dərinlik gözəl şeydir. Lakin böyük fəlsəfi fikirlərin bədii ifadəsini vermək üçün mütləq və yalnız romantikmi olmaq lazımdır? Yalnız "saf' romantikadanmı istifadə etmək mümkündür? M.Qorki "Ana" romanında, M.Şoloxov "Sakit Don" romanında zəmanənin qabaqcıl fəlsəfi fikirlərini nə qədər müvəffəqiyyətlə təbliğ etmişlər. Əgər romantik üslubdan məqsəd ancaq böyük fəlsəfi fikirləri təbliğ etmək isə, o halda "Ana" və "Sakit Don" yolu, vüsətli realizm yolu daha münasib deyilmi? Bu əsərlər, eyni zamanda, yüksək inqilabi romantika ilə ruhlandırılmamışdırmı?

* * *

Eldəgizlər dövləti, İldənizlər dövləti (1136–1225) – Azərbaycan dövləti. Azərbaycan (Kür çayından cənuba, şimal-qərbi Azərbaycan vilayətləri və s. yerləri əhatə edirdi. Paytaxt müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. Mühüm şəhərləri: Təbriz, Gəncə, Həmədan, Naxçıvan, Beyləqan, Urmiya, Ərdəbil, Zən-can, Xoy, Şəmkir və s. idi. Eldəgizlər dövlətinin siyasi həyatında iqta sahibləri olan hərbçi feodallar və ali müsəlman ruhaniləri əsas rol oynayırdılar. Eldəgizlər dövlətinin yaranması Azərbaycan atabəyi Şəmsəddin I İldəgizin adı ilə bağlıdır. Eldəgizin iqamətgahı Naxçıvan şəhəri idi. 1136-cı ildə Eldəgiz Səlcuq sultanı Toğrulun oğlu Arslan şahın atabəyi və Azərbaycanın cənub vilayətlərinin hakimi təyin olundu. İraq Səlcuq sultanlığının ictimai, siyasi həyatında mühüm rol oynayan Eldəgiz, formal surətdə Səlcuqilərə tabe olsa da, 12-ci əsrin 30-cu illərindən müstəqil hökmdar kimi dövləti idarə edir və öz adına sikkə kəsdirirdi. 1152-ci ildə Arran, bir qədər sonra isə Marağa hakimi Xass bəyin idarə etdiyi Ərdəbil Eldəgizin hakimiyyətinə keçdi. O, Şirvanşahı da asılı vəziyyətə salmışdır. XII əsrin 50-ci illərinin sonlarında Azərbaycan feodallarının mənafeyini müdafiə edən Eldəgizlə Səlcuq sultanı Rüknəddin

Məhəmməd (1153–60) arasında toqquşma oldu. Beyləqan yaxınlığındakı vuruşma (1158) Eldəgizin məğlubiyyəti ilə nəticələndi. Lakin tezliklə Səlcuqilər dövlətinin bütün işlərini ələ keçirən Eldəgiz 1160-cı ildə "Atabəy Əzəm" titulu aldı.

1161-ci ildə Eldəgiz yaranmış vəziyyətdən istifadə edərək yaxın əmirlərin köməyi ilə oğulluğu Arslan şahın (1161–76) Səlcuq sultanı elan edilməsinə nail oldu. Arslan şah formal olaraq sultan titulu daşıyırdı. Dövlətin bütün işlərini müstəqil idarə edən Eldəgiz öz oğullarını yüksək vəzifələrə – böyük oğlu Cahan Pəhləvanı hacib, kiçik oğlu Qızıl Arslanı isə sipəhsalar (ordu komandanı) təyin etdi. Eldəgiz Azərbaycanın şimal və cənub torpaqlarını yenidən birləşdirə bildi. İsfahandan Şirvan və Gürcüstanadək uzanan ərazi onun hakimiyyətinə keçdi (*Y.V.Ç.*).

**§ 12.** Verilmiş parçalarda "söz" məfhumunun elmi və bədii təsvirini müqayisə edin, onların hansı cəhətdən fərqləndiyini göstərin.

Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

Artıran söz qədrini sidqilə qədrin artırır,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.

Bir nigari-ənbərinxətdir könüllər almağa,
Göstərir hərdəm niqabi-ğeybdən rüxsar söz.

Xazini-gəncineyi-əsrardır hərdəm çəkər
Rişteyi-izharə min-min gövhəri-əsrar söz.

Olmayan ğəvvasi-bəhri-mərifət arif degil
Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar söz.

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.

(*Füzuli*)

* * *

Rübabın incə tellərdir... Min aləm var təranəndə,
Adın "Sözdür", özün insan! Nə mənalar yaşar səndə!
Sənin səyyar qanadlarla uçan bir aləmin vardır!
Sözün mənası hədd bilməz! Uçub yüksəl bu qüdrətlə.
Kamalın incilər saçsın, danış hər yerdə hikmətlə.
Sözün eşqilə, qəlbilə yaşar aləmdə dastanlar.
Sözün səyyar xəyalilə gəzər dünyanı insanlar.
Sözün qəlbində gizlənmiş bütün dahilərin eşqi,
Sözün qəlbində sakindir göyün eşqi, yerin eşqi.
Sözün şənində şöhrət var, bu məna qəflətən solmaz,
Çiçəksiz, sözsüz, insansız, səadətsiz bahar olmaz!

(*S.V.*)

* * *

**Söz** – dilin daxili qayda-qanunları əsasında yaranıb, müəyyən səs, yaxud səs kompleksinə və mənaya malik olan dil vahididir. Dil sistemində hər bir sözün yeri və vəzifəsi vardır. Cümlədə yerinə düşməyən söz fikrin ifadəsinə xidmət etməyib, onun təhrif edilməsinə səbəb ola bilir. Sözlər səs və morfem quruluşuna görə müxtəlif sistemə malikdir. Bunların yaranma və inkişafı müxtəlif yol və üsullarla olur.

**§ 13.** Verilmiş mətni oxuyub üslubi cəhətdən təhlil edin. ***Publisistik üsluba*** aid olan xüsusiyyətləri aydınlaşdırın.

Necə illətdirsə, neçə illərdir Bakıda telefon məsələsi düzəlmir ki, düzəlmir (əlbəttə, kəmiyyət etibarı ilə yox, keyfiyyət etibarı ilə deyirik). Neçə müddət zəhmət çəkirsən, nə qədər

tər tökürsən, ayaq vurub, qapıda durub növbə çəkirsən; uzun intizardan sonra, nəhayət arzuna nail olub mənzilinə telefon çəkdirirsən. Və ürək döyüntüsü ilə köhnə bir dostunu müjdələmək üçün təzə aparatının dəstəyini götürüb kamal-səliqə ilə qulağına qoyursan. Başlayırsan... nə eləməyə? Moskvalı, yaxud kiyevli vətəndaşlar bu suala cavab olaraq deyərlər: "Başlayırsan istədiyin nömrəni yığmağa". Bakılı vətəndaş isə deyir: "Xeyr, başlayırsan, səs işarəsi, yəni zumer gözləməyə".

Bir neçə il əvvəl bakılılar bu sözləri çox əsəbiliklə deyirdilər. İndi isə çox sakit tələffüz edirlər. Çünki artıq adətkərdə olublar. Afərin səbrinizə, bakılı qardaş və bacılar!..

Bəli, telefonun dəstəyini qulağına yapışdırıb səs işarəsini gözləyirsən. Saniyələr ötür... Papiros yandırırsan, çay içirsən və haçandan-haçana qulağını cədvəldən çıxmış parovoz fitinə oxşar uzaq bir səs qıcıqlayır: duu... Tez birinci rəqəmi yığırsan. Lakin bayaqdan gözlədiyin həmin zəhrimar zumer indi daha səndən əl çəkmir, pəncərə şüşəsinə ilişmiş milçək kimi nömrələr arasına girib hey qulağında vızıldayır... Pribaltikalı, yaxud uzaqşərqli vətəndaş yəqin ki, bu zaman özündən çıxıb dəstəyi aparat üstünə çırpar. Bakılı vətəndaş isə yalnız dərindən ah çəkməklə kifayətlənir və telefonun düyməsini basıb yenə təzədən, qırılmış zumeri gözləməyə başlayır. Çünki o, buna da alışıbdır. Afərin bakılı bacı və qardaşlarımızın bu hövsələsinə!

Nə isə, nəhayət, istədiyin nömrəni yığmağa müvəffəq olursan və "Allo", yaxud "Bəli" kəlməsini eşidən kimi ədəblə salam verib istədiyin adamı soruşursan. Və eyni ədəb-ərkanla belə bir cavab alırsan:

– Siz oraya düşməmisiniz, yoldaş!

Dərhal üzr istəyirsən:

– Bağışlayın, mən filan nömrəni yığmışam, necə olubsa...

Yenə də eyni nəzakətlə sənə bildirirlər:

– Üzr istəməyinə dəyməz, yoldaş. Bu gün bizə əlli dəfə səhvən zəng vurulub, siz də əlli birincisi... Axı, sizdə nə təqsir? Sağ olun!..

Vallah, billah, afərin bakılıların bu mədəniyyətinə!

Təsəvvür edin ki, bir nəfərin evinə, yaxud idarəsinə dalbadal zəng vurulur, ev sahibi, ya idarə işçisi bütün günü dəng olunur və hər dəfə aydın olur ki, tamam yad adamlar tamam başqa nömrələrə zəng edir, lakin, necə olursa, buraya düşürlər.

Üç-dörd il əvvəl elə bizim Bakıda da bu vəziyyətə düşən abonement sahibləri hansı bir xuliqan tərəfindənsə ələ salındıqlarını düşünüb özlərindən çıxır, ev, ya idarə telefonunun nömrəsini səhvən yığmış adamlara kobud cavablar verirdilər. İndi isə vəziyyət tamam əksinədir. Çünki alışmışıq. Bilirik ki, telefon nömrəmizə səhvən "ilişmiş" abonement bunu qəsdən etməyibdir.

Buna görə də hər gün telefonlarda neçə dəfə bu dialoqları eşidirik:

– Bağışlayın, bacı, üzr istəyirəm... İnanın ki...

– Üzr istəməyinizə dəyməz, qardaş. Bilirik ki, təqsir sizdə deyil, telefon stansiyasındadır. Elə biz özümüz də bayaqdan neçə dəfə sizin kimi başqa nömrələrə düşüb tanımadığımız vətəndaşlardan üzr istəməli olmuşuq. Sağ olun!

"Dəyməz" demirik, vallah, bu nəzakət üçün ən dərin təşəkkürə dəyər! Doğrudan, afərin bu mədəniyyətinizə, əziz bakılı telefon abonentləri!.. (*"Kirpi"* j.)

**§ 14.** "Yaşayış evləri üçün yanğın təhlükəsizliyi tədbirləri haqqında yaddaş"dan verilmiş parçada ***rəsmi üslubun*** tələblərinə necə riayət edildiyini müəyyənləşdirin.

Bakı şəhərinin yaşayış evlərində yaşayan vətəndaşlar aşağıdakı yanğınaqarşı qaydalara riayət etməlidirlər:

*1. Qızdırıcı və isidici cihazlar işlədilərkən:*

a) tüstü yolları nöqsanlı olan, arakəsmə və tavanı yanğından mühafizə məqsədilə baca ətrafına kərpic qatı hörülməmiş və sair nöqsanı olan sobalar yandırılmamalıdır;

b) yandırılmış soba, primus, keroqaz, kerosinka və başqa cihazlar nəzarətsiz buraxılmamalı və onlara nəzarət edilməsi uşaqlara tapşırılmamalıdır;

c) sobaları alışdırmaq üçün ağ neft, benzin və tezalışan başqa duru yanacaq işlədilməməlidir;

ç) yandırılmış sobaların, kerosinka, keroqaz və sair cihazların yaxınlığında ehtiyat odun və ağ neft saxlanılmamalıdır;

d) qızdırıcı qaz cihazları gecə vaxtı yana-yana qalmamalı, söndürülməlidir;

e) dövlət yanğından mühafizə orqanlarının icazəsi olmadan otağı qızdırmaq üçün müvəqqəti də olsa, tənəkə və dəmir sobalar qurulmamalıdır;

ə) ev ehtiyacı üçün lazım olan miqdardan artıq ağ neft saxlanılmamalıdır;

f) yanmaqda olan və eləcə də qızışmış vəziyyətdə olan kerosinkalara, keroqazlara və başqa cihazlara yanacaq tökülməməli, eləcə də yanacaq tökərkən işıqlandırmaq üçün açıq od işlədilməməlidir;

g) yanmaqda olan primuslar və ya kerosinkalar yana bilən şeylərin və eləcə də içində ağ neft olan qabların yaxınlığında qoyulmamalıdır;

ğ) saz olmayan kerosinka, keroqaz və primuslardan istifadə edilməməlidir;

h) qızdırıcı və isidici cihazlara gedən qaz borularının kranları açıq qalmamalıdır;

x) döşəmələr, benzinlə hazırlanmış mastika ilə silinməməlidir;

i) qaz cihazları və sobaları gecələr səhərə qədər yana-yana qalmamalıdır.

*2. Elektrik təsərrüfatında:*

a) tez əriyən elektrik qoruyucuları (predoxranitelləri) əvəzinə məftil topası, mismar və başqa metal şeylər işlədilməməlidir;

b) elektrik məftillərini mismardan və başqa metal şeylərdən asmamalıdır;

c) elektrik xətti məftilləri üstündən divar kağızı yapışdırılmamalı, elektrik lampoçkalarını kağız və parça ilə sarımamalı, elektrik məftilləri kəndirlə bir yana çəkilməməlidir, elektrik açarlarına (vıklyuçatellərinə), ştepsel rozetkalarına və başqa elektrik armaturasına paltar və başqa şeylər asılmamalıdır;

ç) xüsusi elektrik xətti çəkməmiş və ayrıca ştepsellər qoymamış radio cihazlarını və qızdırıcı cihazları elektrik şəbəkəsinə qoşmamalı, şəbəkəyə qoşulmuş radio və televiziya cihazlarını nəzarətsiz qoymamalıdır;

d) elektrik şəbəkəsinə eyni vaxtda bir nöqtədə bir neçə qızdırıcı elektrik cihazları (plitka, soba, ütü və sairə) qoşulmamalıdır;

e) şəbəkəyə qoşulmuş olan qızdırıcı elektrik cihazları yana bilən şeylər üstünə qoyulmamalı, nöqsanlı qızdırıcı elektrik cihazlarından istifadə edilməməlidir;

ə) mənzildən çıxıb getdikdə qızdırıcı elektrik cihazları şəbəkəyə qoşulmuş halda qalmamalıdır.

*3. Pilləkənlərdə, koridorlarda və həyətlərdə:*

a) pilləkən qəfəsələrində, ümumi koridorlarda, vestibüllərdə və dəhlizlərdə anbar düzəldilməməli, müxtəlif materiallar saxlanılmamalıdır;

b) çıxış qapılarında, pilləkən meydançalarında, ümumi istifadə olunan dəhlizlərdə və koridorlarda mebel və başqa şeylər qoyulmamalıdır;

c) pilləkən meydançalarında qaz taqanokları, kerosinka, keroqaz və sair cihazlar qurulmamalıdır;

ç) çıxış qapıları, balkon qapıları və sair çıxış yollarının qapıları mıxlanmamalı, qabağı tutulmamalıdır;

d) həyətlərdəki gediş-gəliş yollarına, keçidlərə, xarici yanğın nərdivanına yanaşma yollarına iri şeylər qoyulmamalıdır;

e) yanğın kranlarından, şlanqlardan və yanğınsöndürmə avadanlığından təsərrüfat ehtiyacı üçün istifadə edilməməlidir. Hər bir evdə olan ilk yanğınsöndürmə vəsaiti görkəmli yerlərdə və elə halda saxlanılmalıdır ki, lazım gəldikdə heç bir maneçilik olmadan onlardan yanğını söndürmək üçün istifadə etmək mümkün olsun.

**§ 15.** "Azərbaycan" qəzetinin axırıncı səhifəsində verilən elanları oxuyun, rəsmi üsluba aid olan əlamətləri tapın.

**§ 16.** Bir neçə müxtəlif sənədi nəzərdən keçirin, rəsmi üsluba aid müşahidə etdiyiniz səciyyəvi cəhətləri yazın.

**§ 17.** Rəsmi üslubun tələblərinə riayət etməklə arayış, protokol və akt tərtib edir.

**§ 18.** Aşağıdakı söz və ifadələrin ən çox hansı üsluba aid olduğunu müəyyənləşdirin.

Əlvida, tikanlı söz, canan, ahu baxışlı, əfsus, əyə, tərlan uçuşlu, səma, qıy vurmaq, söz yaradıcılığı, iti söz, şəhla gözlər, tənqidi fikir, demək olar ki, tədqiqat üsulu, qamarlamaq, gözünü döymək, kibernetika, kosmik uçuş, izafi dəyər, əbədiyyət, ülviyyət, sayə, əldə edilmiş nəticə, qorxunc, kəndciyəz, qırıq xətt, camal, cahan, pillə, mühazirə, aşiq, ambisiya, təmizlik, tapşırıq, təyinat, say, müəllim, bəyənat, çıxış.

**§ 19.** M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" adlı kitabından verilmiş aşağıdakı mətnləri oxuyun, ədəbi dil normalarından fərqli olan cəhətləri mötərizədə göstərin.

***Nümunə:*** padşahun (padşahın), arvadu (arvadı), noxoş (naxoş)

***Bakı dialekti*** (nağıldan bir parça). Bir padşahun arvadu noxoş olur. Həkim dir ki, arvadun noxoşdığınun dərmani armuddur.

Padşah vəzirə əmr edir ki, görginən hər yerdən armud müəssər iliyəsən noxoşdan ötrü. Bir kəntdi eşidir ki, padşahun arvadi noxoşdu, həkim unnan ötru armud isdiyib.

Bir kənd əhli də arvadĭna dir ki, görginən ki, samanlığda basdırdığun armuddan gör qalıb ki, padşahun arvadi üçün aparağ, bizə ənam vərsün. Arvad gedir, samannığdan armud tapır, götirir, gətirir, oni verir kişiyə; bu da götirir, gedir, padşahun tərəfinə. Gedir, yetişir padşahun qapısına, qapĭni taqqılbab elir. Qapıçı gəlir qapiyə. Qapĭçi xəbər alır ki, götirdigün nədü?

– Bes, padşahun arvadi noxoşdu, onınçun armud gətirmişəm.

Qapĭçi xəbər verir ki, armud gətiriblər. Ordan hökm çıxır ki, bıraxun gəlsün, Kətdi gedir çıxır yuxari. Yuxarda vəzir dīr ki, padşahun arvadi noxoşdu, onınçun armud gətmişəm. Alır armudi, vərir padşaha, Sora hökm elir ki, aparun muni, salun zindana. Aparıllar, salıllar zindana. Zindanda da bir neçə nəfər adam unnan xəbər alıllar ki, sənün nə təxsürün var ki, səni də gətirib salıblar bu zindana. O da cāb verir ki, padşahun arvadi noxoşdi, ə̄lan eləmişdi ki, kim armud gətsə, ona ənāmım çatacek, mən də armud gətirdim, məni saldılar zindana.

Bir neçə müddət zindanda qalır, il gəlir başa. Padşahun arvadi bu armuddan bir neçəsini yir, sağalır və bir dənə oqli olır. Bir ildən sonra bu tusdağlari padşax yoxlir. Zindanda olannar çıxır bayra, armud gətirən çıxmır və dir ki, yerim yaxçıdu.

***Qazax dialekti*** (nağıldan bir parça). Biri varıymış, biri yoxuymuş, bir paccah varıymış. Bu paccahın da bir oğlu varıymüş. Bu oğlanın, anadan olannan çişləri dəmir iymiş. Bu, öylərində heş şey qoymur, hamsını yērmiş. Bir gün ata-

sı görör kün, munun oğlu öydə heççə nə qoymadı. Onu qoğor meşiyə. Oḡlan geder, meşədə məskən saler, meşədə oy oylor və bir tə̄r dolaner. Bir gün munun atası munu axtarmax üçün meşiyə geder və tüstü gələn öyü açıf içəri girer. Görer kün, oğlu yatıf. Oğlunu durğozor və görüşöllər. Sora oğlan atasınnan soruşor kun: "Ata, atın toyladadımı" Atası dē̄r: "Hə".

Oğlan gedif atasının, minif gəldiyi atın bir əyağını yer. Gəlif atasına der kin: "Ata, atın üç əyaxlıdırmı?" Atası dē̄r: "Hə". Oğlan geder, bir əyağını da yē̄r. Oğlan der: "Ata, atın iki əyaxlıdımı?" Atası der: "Hə".

Belə-belə atın dörd əyağını da yer. Sora atın özünü də yer. Oğlan dē̄r: "Ā̄ta, elə beləmi gəlifsən". Der: "Hə:"

Hal-qərəz kin, oğlan atasını yeməy ister. Atası der kin: "Oğul, məni yerdə yimə: mən çıxem bajadan əyağımı sallem, sən də xalvırı götü, mana bir az çaydan su gəti": "Oğlan geder, Xalvarı çaydan doldurmağa. Kişi çəhməsini soynor, içini külnən dolduror və bajadan aser. Oğlan xalvırı suya nə qədər salersa, xalvır dolmor. Ajığı tutor kin, gedif bu sat onu yiyəjəm. Gəlif öyə girəndə görör kün, bajadan əyax sallanıf. Tutuf çəkəndə kül gözünə tökülör. Bundan da ajıxlanıf atasının dalınca yola çüşer. Az geder-üz geder, dərə-təpə düz ge̅der. Atasına çater. Atası görör kün, oğlu munu tutuf yiyəjə̄x. Tez bir hündür ağaja dırmaner.

Oğlan dē̄r kin: "Ordan çüşməsən, bu sat çişimnən ağajı kəsəjəm. Ordan yerə çüşüb öləjəksən. Kişinin, öydə iki şir balası varıydı. O, düdüyü əlinə aler, çalanda şir baları ağajın dibində hazır olollar. Atası şirrərə fit verəndə şirrər oğlanı parça-parça elellər.

***Naxçıvan dialekti*** (nağıl). Biri varĭdı, biri yoxĭdı, bir pətişah varıdı. Bı padĭşahın üş oğlu varıdı. Dınqılı qardaşın adı Baxtıcamal idi. Bı gedədə qorxu əsərəti yoxdu. Küçədə xızannarı həməşə döyərdi, ancaq qoca kişilərə hörmət edərdi. Ortancıl qardaş Hüsen də iyid oğlan idi.

Böyük qardaşları isə çoxlu öddək və sifətcən bəd olduğu üçün ona Həsən deyirdilər. Məylisdə çox danışdığı üçün ona gəvəzə və laqqal Həsən də deyərdilər.

Cımbılı qardaş gəvəzə Həsən danışanda ona xoşu gəlmədiyiçün həməşə dəngimi tökmə deyərdi. Günnərin bir günü pətĭşah azarrıyır. O, adam göndərir ki, oğlannarını yanına çağırsınnar. Pətĭşah oğlannarını yanına çağırıb onnara vəlivəs eləyir ki, mən ölürəm, ancaq bir midətdən sorasına bağda olan mufarın dibini qazarsız. Heş kəsə pisliy etməzsiniz, yaxşılıx eliyəsınız deyib canını tapşırdı.

Bir midət keşdi, uşaxların əli əskiyliyə tüşdü. Yaddarĭna tüşdü ki, atasının vəlivəsinə əməl etsinnər. Bir gün zilqarannıxda qardaşlar bağa getməy istədilər və külüy, qazma götürüb, bağa getdilər. Atasının dediyi kimi gedib tufarın dibin qazdılar və burdan içi dolu bir bəmi tapdılar. Qaş qaraldığıyçun bir manşal yandırdılar, ancax yorulduxlarınnan əvlərinə gedib, həmən gecə səvinə-səvinə yatdılar. Bınnar gedənnən sorasına solxüncü qonşu gəlib xəlbəççə bəmini komlayıb və əvinə aparır.

Qardaşlar tezdənən bağa gəlib görüllər bəmi yoxdu. Onnar bir-birinin boynuna atıllar, bir-birini tülü adlandırıllar. Bınnar bir-biriylə dalaşır və döyüşüllər. Əyər qonşu gəlməseydi, bınnar xəncəlləşəcəydilər.

Qonşu gəlib bınnar arasında sini-saflıx qoyur, deyir ki, bərnini tappaxçun üş gün yol aşın, bir dığır və totux biləndərə iras geleminiz. O sizə bəminin tapılmasında kömək elər...

***Şəki dialekti*** (naxıldan bir parça). Padcahın bir vəziri varmış. Un da bir qızı varmīş. Vəzir də duymuş çox. Bir gün padcah eşidər ki, vəzirin yaxşı qızı var. Padcah vəziri cağrıf diyər üş məsələ soruşucəm, tapbasan bōynū vurucam. Un gün sā möhlət verəm: – iylixdə nə iylidi, qüvvətdə nə qüvvətdidi, şirinnixdə nə şirindi?

Vəzir hər kəsdən soruşdu, didilər biz bilmirux. Diyər, ay padcah, izin ver gedim bir qızım var, unnan halallıx

alım, görüşüm, sora gəlim. Vəzir geder əhvalatı qıza diyər. Qız diyər heş xüfət eləmə, yi iç, kef elə, ata minəndə sa o məsələni diycam. Pilō-ciloni yidilər, işdilər, ata minəsidi, atdanasıdı, qız diyər iylilixdə çörəx iylidi, qüvvətdə at qüvvətdidi, şirinnixdə əmən arvat şirindi.

Bir də padcah gördü ki, vəzir kefi kök gəlir. Padcah soruşar tafdınmı? Diyər bəli, tafdım. Bir qızım var o tapıfdı. Padcah diyər qızı bura gətĭrin görax hardan bilir. Qızı faytın göndərdilər gəldi, bir cənnət hūrisi.

Qızdan paccah soruşdu sən buları hardan bilirsən? Qız didi ki, mənim aşbazxanamda bişmiyən xörək yoxdu, ūn iysi ma gəlmir. Amma yeddi fəs mənnən uzağda çörək yapılır, ūn iyisi mā gəlir. Mənim öymin dalınnan qəflan, əslan keçir, ūn gubbultusı mā gəlmir, amma at iraxdan gələndə gubbultusı gəlir.

**§ 20.** Yaşadığınız yerin bəzi şivə xüsusiyyətlərini (fonetik, leksik, qrammatik) yazın.

**§ 21.** Azərbaycan dilinin hissələrə görə quruluşunu göstərən cədvəl çəkin.

**§ 22.** Azərbaycan dilinin vahidlərə görə quruluşunu göstərən sxem tərtib edin.

**SUALLAR:**

1. Dil nədir?
2. Dil necə inkişat edir?
3. Dilin hansı hissəsi daha çox dəyişir və bunun səbəbləri nədən ibarətdir?
4. Azərbaycan dili nəyə deyilir?
5. Ədəbi dil anlayışının mahiyyəti nədən ibarətdir?
6. Müasir dil nəyə deyilir?
7. Müasir dövrdə Azərbaycan ədəbi dili hansı cəhətlərdən inkişaf etmişdir?

8. Üslub nəyə deyilir?
9. Müasir Azərbaycan ədəbi dilinin hansı üslubları vardır?
10. Bədii üslubun xüsusiyyətləri hansılardır?
11. Elmi üslubun hansı xarakterik əlamətləri vardır?
12. Publisistik üslub hansı cəhətlərə görə digər üslublardan fərqlənir?
13. Rəsmi üslub nə kimi xüsusiyyətlərə malikdir?
14. Epistolyar üslubun əlamətləri hansılardır?
15. Ədəbi dilin inkişafında yazıçı və alimlərin rolu nədən ibarətdir?
16. Dilin ən kiçik vahidi nədir?

**ƏDƏBİYYAT:**


1. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi və danışıq dili. Bakı, 1965.
2. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2003.
3. Əbdüləzəl Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
4. Əbdüləzəl Dəmirçizadə. Azərbaycan ədəbi dilinin inkişaf yolları. Bakı, 1958.
5. Əbdüləzəl Dəmirçizadə. “Kitabi-Dədə Qorqud” dastanının dili. Bakı, 1959.
6. Əlövsət Abdullayev. Azərbaycan dili məsələləri. Bakı, 1992.
7. Hadi Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962.
8. Hadi Mirzəzadə. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı, 1968.
9. Məmmədağa Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968.

# I

# FONETİKA

## DANIŞIQ ÜZVLƏRİ

**§ 23.** Şəklə fikir verin, oradakı rəqəmlər üzrə danışıq üzvlərinin adlarını yazın.




**§ 24.** Danışıq üzvlərinin vəzifələrinə görə təsnifini verin.

## SƏS VƏ FONEM

**§ 25.** Verilmiş sözlərin səs və fonem tərkibini müəyyənləşdirin.

**I**
Quş, qoşa, qonaq, toqqa, yanaq, onluq, soraq.

**II**
Fənn, yarpız, maaş, kirpi, kişi, Səbirə, asma.

**III**
İnək, kəklik, ipək, kitab, corab, çörək, murad.

**§ 26.** Verilmiş misallarda sözü fərqləndirən səslən göstərin.

| I | | II | | | III | | |
|---|---|---|---|---|---|---|---|
| dil | gül | bel | ən | əttər | və | qol | mən |
| bil | göl | sel | ön | əlpər | də | kol | sən |
| mil | gəl | tel | un | əkhər | nə | yol | dən |
| lil | gil | yel | ün | ərsər | hə | bol | bən |

## AZƏRBAYCAN DİLİNİN SƏSLƏRİ

**§ 27.** Suallara şifahi cavab verin.

1) Nəyə əsasən danışıq səsləri sait və samitlərə bölünür?
2) Səsləri əmələ gəlmələrinə görə necə izah etmək olar?
3) Fonemlərin səslənmə fərqləri nə deməkdir?

**§ 28.** Aşağıdakı səsləri sait və samitlərə görə təsnif edin: a, b, v, q, ğ, d, e, ə, j, z, i, ı, y, k, g, l, m, n, o, ö, p, r, s, t, u, ü, f, x, h, ç, c, ş.

*Saitlər:* *Samitlər:*
**A . . .** **B . . .**

### Saitlər və onların təsnifi

**§ 29.** Köçürün, saitlərin altından xətt çəkin.

Mənim azadlığım, mənim işimdir,
Həyatım, qüvvətim, yüksəlişimdir.
Mənə öz əməyim, öz haqqım yetər,
Bu zəngin vətənim, bu xalqım yetər.
Qələm bülbülümə yetər bu gülşən,

Qaldırsın səsini göylərə şən-şən.
Məcnunum qüssədən çöllərə düşməz,
Leylim ağızlara-dillərə düşməz.
Fərhad külüngünü çalır Qoşqara,
Düşür Şirinimin əksi daşlara.
Daşlara kök salır bizdə gözəllik.
Dostlar nə haldadır sizdə gözəllik?
Sıçramış atına yenə Koroğlu,
Kəsilmiş hər yandan düşmənin yolu (*M.M.*).

**§ 30.** Verilmiş şeir parçalarındakı saitləri dilin vəziyyətinə görə təsnif edib yazın.

I

Biz, sirdaş yarandıq hər gözəlliyə,
Baş əydik hər yerdə ona hörmətlə...
Məhəbbət insana şöhrətdir, deyə,
Yaşadıq müqəddəs bir məhəbbətlə (*S.V.*).

II

Bü gün ellər bayramıdır əziz, mübarək!
Vətən mülkü başdan-başa al-əlvan geyir.
Göydə ulduz gülümsəyir, yerdə gül-çiçək,
Hər dost əli bizim yurda qonaq gəl, deyir (*Ə.C.*).

III

O bağçaya girən olmaz
Yuz il ötər viran olmaz.
Səni mənə verən olmaz
Səni sevdiyim günlərdən (*A.Mirzə*).

**§ 31.** Köçürün, qalın saitlərin altından bir, incə saitlərin altından isə iki xətt çəkin.

I

Göyün üzündə ulduzlar parıldaşır, ay dənizin iki gün kükrəyib, sonra sakit düşmüş sularına mehribanlıqla öz nurunu səpələyirdi (*Q.İ.*).

II

Günəş üfüqlərə doğru əyiləndə bu adam artıq Heybət stansiyasından uzaqlarda idi. Lökbatan adlanan bomboz bir səhra ilə qarşıda görünən dağlara sarı gedirdi (*S.Rəhman*).

III

Yar gülün telə bağlar,
Kəmərin belə bağlar.
Üzmədim gül qönçəsin
Kor olsun belə bağlar (*Bayatı*).

**§ 32.** Şeir parçalarını oxuyun, saitləri dodaqların vəziyyətinə görə təsnif edib yazın.

I

Siyahtel görmədim Kür qırağında,
Məgər heç yaşılbaş olmaz bu yerdə? (*M.P.V.*)

II

Lazımdır ki, edək belə qonağa,
Ellik ilə malü-mülkü sadağa.
Özgə əmir ilə tutmaz əlaqə,
Ta doyunca munu görən canımız! (*Q.B.Z.*)

III

Sevgim mübarizə, sevgilim həyat,
Yəhərlənmiş bana qanadlı bir at.
Gör nə deyir sizə çaldığım qanad:
Hələ bundan sonra qiyamətim var (*M.M.*).

**§ 33.** Köçürün, dodaqlanan saitlərin altından bir, dodaqlanmayan saitlərin altından iki xətt çəkin.

I

Hacıyevin rotası mövqeyə səhərə yaxın çatdığı üçün bütün günü düşmən gülləsi tutmayan xırda meşəlikdə dayandı (Ə.Ə.).

II

Biz açdıq torpağın altında qalmış
Gün üzü görməmiş dəfinələri.
Köhnə kağızların üstə saralmış
Ağlın yaratdığı xəzinələri... (*S.V.*)

III

Ümid kənd mənzərəsinin seyrindən doymur, hər şeyə – danışıb gülən adamlara, kəndin gümrah və qırmızıyanaq qızlarına, kənd axşamının gözəlliklərinə heyran-heyran baxırdı (*B.B.*).

**§ 34.** Oxuyun, saitləri alt çənənin vəziyyətinə görə təsnif edib yazın.

I

Nazənin-nazənin edərsiz avaz,
Ruhlar təzələnir, olur sərəfraz,
Vaqifin də könlü çox edər pərvaz,
Hərdəm sizin ilə gəzə, durnalar! (*M.P.V.*)

II

Gözüm yolda qaldı, könül intizar,
Gəlmədi cavabi-namələr səndən!
Bir aydan artıqdır gedib uşaqlar,
Yetişmədi bizə bir xəbər səndən (*Q.Z.*).

III

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da, həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da, batsın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?! (*M.Ə.S.*)

**§ 35.** Saitlərin təsnifinə aid cədvəl çəkin.

**§ 36.** Oxuyun, saitləri xarakterizə edib yazın.

***Nümunə:***

*İ səsi* – dilönü (incə), dodaqlanmayan (damaq), qapalı saitdir.

I

Bir göl içrə üzürdü bir yekə qaz,
Özünə fəxr edib, uzatdı boğaz (*S.Ə.Ş.*).

II

Mən aşiqəm gülərlər,
Güldürərlər, gülərlər.
Dəryaca ağlın olsa
Yoxsul olsan gülərlər (*Bayatı*).

III

Doğrudur yolum,
Bükülməz qolum!
Alnımın təri
Güldürər yeri.
Dostumdur zəhmət,
Qazandım şöhrət
Öz gücümlə mən;
Çəkicimlə mən (*S.R.*).

**§ 37.** Şeri oxuyub, saitlərin işlənmə miqdarını müəyyənləşdirin.

Qaranlıq gecədə səni gözləyib,
Durmaqdan yoruldum, ey dan ulduzu!
Uzaq üfüqlərə göz gəzdirməkdən
Az qala kor oldum, ey dan ulduzu!
Öksüz taleyim tək gecikdin nədən?
Karvanqıran doğdu, görünmədin sən,
Oxşatdım, yanıldım, könül verdim mən,
Bilmədən vuruldum, ey dan ulduzu!
Arxasınca qoşdum sonsuz bir yola,
Hər addımda tuş gəlincə bir kola,
Qaranlıqda çox baxındım sağ-sola.
Hər yana buruldum, ey dan ulduzu!
Büsbütün yorulub gücdən düşərkən,
Bir ulduz parladı uzaq üfüqdən.
Bu görünən səndin, artıq gəldin sən,
Axır səni buldum, ey dan ulduzu! (*C.C.*)

**§ 38.** Verilmiş saitlərin məxrəcini (artikulyasiyasını) təsvir edin.

I

**< a >, < ı >, < u >, < o >, < e >,**

II

**< ə >, < ı >, < u >, < ö >, < a >,**

III

**< e >, < ö >, < ü >, < ə >, < i >,**

**§ 39.** Aşağıdakı səslər məxrəccə hansı cəhətlərinə görə bir-birindən fərqlənir?

**<a-ə>, <u – ü>, <o-ö>, <ı-i>**

## Samitlər və onların təsnifi

**§ 40.** Mətni köçürün, samitlərin altından xətt çəkin.

Bağda əyləşib, ətrafa tamaşa eləyirdim; hər tərəfdə ağaclar çiçək açmağa başlayırlar: quşlar bu ağacdan o ağaca atılaraq nəğmələri ilə baharı təbrik edirlər. Göy otlar qaranlıq torpağın altından başlarını çıxarıb, yüksəlmək üçün bahar havasından rişələrinə qüvvət diləyirlər (*Ə.H.*).

**§ 41.** Oxuyun, saitləri əmələgəlmə yerinə görə nümunədə göstərildiyi kimi təsvir edin:

***Nümunə:***

*1. Dil samitləri:*

a) dilönü samitləri: **t,** .......
b) dilortası samitləri: **k,** .....
c) dilarxası samitləri: **q,** .....

2. Dodaq samitləri:
a) qoşa dodaq samitləri: **m,** ....
b) dodaq-diş samitləri: **v,** .....

3. *Boğaz samiti:* **h.**

I

Yoldaşı sıradan qalarkən geri,
Tutub ətəyindən çəkib irəli,
Ona qüvvət verən, ona ruh verən,
Ona ən uğurlu bir yol göstərən,
Həm sevgi bəsləyən, həm can yandıran.
Sönük duyğulan işıqlardıran,
Günəşlə yarışan nə bəxtiyardır! (*M.M.*)

II

Ey Vətən, ana Vətən
Heyranam sana, Vətən!
Dupduru göllərin var,
Yamyaşıl çöllərin var.
Dağlann baş-başadır,
Düzlərin tamaşadır.
Dərələrin dərindir,
Yaylaqların sərindir,
Nə gözəldir qucağın
Doğma odun, ocağın!
Kəndlərin gül-çiçəkdir,
Şəhərlərin göyçəkdir (*Ə.C.*).

III

Gözəldir, şəfalıdır
Ölkəmin yaylaqları.
Dağlardan, təpələrdən
Süzülən bulaqları.
Bizim eldə hər çəmən,
Bənzəyir göy məxmərə.
Quşlar dastan söyləyir
Rəngbərəng çiçəklərə.

Əsdikcə səhər mehi
Dalğalanır lalələr.
Günəşin şəfəqində
Parlayır şəlalələr (*M.S.*).

**§ 42.** Köçürün, dilönü samitlərin altından bir, dilortası samitlərin altından iki, dilarxası samitlərin altından üç xətt çəkin.

I

Yanımda gər düra cəllad əlində şəmsiri.
Ölüm gücilə mənə hökm edə olum təslim.
Əyilmərəm yenə haşa! Ölüm nodır ki, onun
Gücilə xalqa həqiranə eyləyim təzim?
Cahanda yox elə bir qüvvə baş əyim ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu!
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağım icz ilə. Kimdir o? Nədir o?

Ana! Ana!.. O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir;
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir (*C.C.*).

II

Həyatdan doymayan, işdən doymayan,
Əfsanə sözlərə məhəl qoymayan,
Könlünü, gözünü verib işinə,
Baxıb həyatının yüksəlişinə,
Xalqilə titrəyən, xalqilə gülən,
Vətənçin yaşayan, vətənçin ölən
Səmimi bir insan nə bəxtiyardır (*M.M.*).

III

O vermiş könlünü vətənə, yurda,
Sadə bir güzəran keçirmiş burda.
Ey könül, gördüyün bu yer, bu diyar
İndi bir gülşəndir azad, bəxtiyar.
Sən əyil, hörmətlə öp bu yerləri,
Burada çox qədim zamandan bəri
Qoca Nizaminin məzarı durur.
Bu yerlər şairin ana yurdudur (*Ə.C.*).

**§ 43.** Köçürün, qoşa dodaq samitlərinin altından bir, dodaq-diş samitlərinin altından iki xətt çəkin.

I

Xeyli vaxtdır, yarın fərağındayam.
Pərvanə tək hüsnün çırağındayam,
Bir ala gözlünün sorağındayam,
Görünürmü, görün, gözə, durnalar! (*M.P.V.*)

II

Həvəs sövq eylər insanı həyatə,
Ətalət cəlb edər şəxsi məmatə?
Həvəs isal edər zatı səfayə,
Ətalət mübtəla eylər bəlayə;
Həvəs pirayeyi-əqlü hünərdir,
Ətalət mayeyi-iczü kədərdir (*M.Ə.S.*).

III

Bakının dərdi var, Bakı xəstədir,
Könül intizarda, göz yol üstədir...
Soyuq divarlarda güllə nişanı.
Didir, parçalayır insan insanı.
Burda döngələrin yeri darısqal.

Oturmuş palanın üstündə hambal,
Dərin fikirlərə qərq olmuş yazıq.
Dincəlmək istəyir o da azacıq (*S.V.*).

**§ 44.** Oxuyun, samitləri əmələgəlmə üsuluna görə təsvir edin.

***Nümunə:***

| *Partlayan samitlər:* | *Sürtünən samitlər* |
|---|---|
| **B, …** | **H, …** |

I

*Xan* – Bu gün çox xoş havadır; divandan sonra istəyirəm dərya üzündə bir az seyr edəm, könlüm açıla. Əziz ağa, buyur gəmiçilərə ki, dərya kənarında lötkə hazır etsinlər (*M.F.A.*).

II

Meydançaya kölgə salır
Çadır kimi göy budaqlar,
Yazın ılıq nəfəsində
Yasəmənin xoş ətri var.
Göy çadırdan sallayaraq,
Yarpaqların arasından
Süzülmüşdür saçaq-saçaq
Təzə paltar geyinmişdir
Burda har şey bahar kimi (*N.R.*).

III

Günəş tovuz qanadlarını Nil çayı sahillərinə çətir kimi açmış, quşlar xurma, limon və portağal ağaclarında səhər şənliyinə başlayaraq, budaqdan-budağa atılır, yeni doğmaqda olan günəşi şən nəğmələri ilə budaqlarını kəsib yerə atırdılar (*A.Ş.*).

**§ 45.** Koçürün, parlayan samitlərin altından bir, sürtünən samitlərin altından iki xətt çəkin.

I

Hindistanda Qanq çayı bizim Kür çayından çox böyükdür və həmişə yağışın altındadır; amma bu sudan vəba zəhəri heş əskik olmur və həmin azann mədəni Qanq çayı hesab olunur. Bir çayın başı azarlı vilayətlərdən axıb gələndə çayın aşağılarında düşən əhaliyə o suyu içməyi həkimlər qədəgən eləyirlər. Amma dünyada elə sular var kı, insanı ölümdən qurtarır; məsələn, Qafqaz mədən suları, Avropa Karlsbad suyu və qeyri min-min sular (*M.C.*).

II

Ta gəlirik bizdə bir az anlayaq, –
Məhzəri-irfanda vurur tək səbir.
Ya deyirik işlən səhmanlayaq, –
Məclisi-əyanda vurur tək səbir.
İstəyirik bir iş açaq filməsəl,
Söyləşirik bir-iki il laəqəl,
Ta deyilir pul verin, aşsın əməl, –
Ölkədə, hər yanda vurur tək səbir (*M.Ə.S.*).

III

Dəftərxanada Mirzənin hörmətini gözlərdilər. Çünki sair mirzələr bir abbası, altı şahı hər işə gələndən rüşvət alardı, amma Mirzə öz maaşına kifayət edib bir qəpik də olsun rüşvət almazdı və deyərdi: "Rüşvət almaq adamı qorxaq və gözükölgəli edər, rüşvət aldığın adamların hansını görsən, gərək ikiqat baş əyəsən... Nə lazım? Qulluğumda təmiz olaram, maaşıma qənaət edərəm, heç kəsə ehtiyacım olmaz, həmişə də başı uca gəzərəm..." (*Ə.H.*)

**§ 46.** Şeir parçalarını oxuyun, samitləri səs tellərinin vəziyyətinə görə təsnif edin.

***Nümunə:***

| *Kar samitlər:* | *Cingiltili samitlər* |
| --- | --- |
| **K, …** | **B, …** |

I

Bağdır, əkindir
Hər bir bucağın.
Qızıl təkindir
San torpağın.

Böyütdün bizi,
Verdin qol-qanad.
Yoxdur qəm izi,
Şəndir bu həyat.

Qəlbim, canımsan,
Ey ana yurdum!
İsti qoynunda
Şən yuva qurdum.

Çöllərindir şən,
Hər yerin gülşən
Sən nə gözəlsən,
Ey ana Vətən (*A.Ş.*).

II

Dağ dalından günəş gülər,
Yamaclarda quzu mələr,
Ceyran qaçıb suya gələr,
Bizim yerdə səhər-səhər.

Çəkilməmiş duman hələ,
Yaşıl ördək uçar gölə,
Mahnı səsi düşər çölə
Bizim yerdə səhər-səhər.

Çaylar axar daşa-daşa,
Al geyər çöl başdan-başa.
Quşlar qonar daşdan-daşa
Bizim yerdə səhər-səhər (*Ə.C.*).

III

Hamı kimi mən də baxdım,
Gül bitib, reyhan dayanıb.
Gözələ baxmaq savabdır
Can durub, canan dayanıb.
Bir gecəsi düz bir ilə,
Bərabər dövran dayanıb.
Fikir vermir, nə də baxmır
Eşqinə yanan dayanıb.

Qəddi uca, beli incə
Gözəllərin gözəlidi.
Bəzək vuran, sığal çəkən
Bir Allahın öz əlidi
Beləsinə canım qurban.
Demə şeytan əməlidi,
Halaldan da halaldı bu,
Xan durub, Sultan dayanıb.
Hikmətə bax, ismətə bax
Necə məğrur, şux dayanıb.
Baxanları dərdə salır
Günəş çıxıb, ay dayanıb
Gözdə sürmə, qaşda vəsmə

Anadan gəlmə yaranıb
Zəki İslam, arzu-dilək
Ürəkdə cavan dayanıb (*Z.İslam*).

**§ 47.** Köçürün, kar samitlərin altından bir, cingiltili samitlərin altından iki xətt çəkin.

I

Yayın isti günlərindən biri idi; günün axırıncı şəfəqi uca ağacların başını qızıl rəngində etmişdi və nazik yel yavaş-yavaş əsib, yarpaqları tərpədirdi. Belə bir gözəl vaxtda ağacın altında, otun üstündə bir universitet tələbəsi "student" əyləşmişdi və hərdənbir öz ətrafına nəzər yetirib fikrə gedirdi. Bu növcavan gülüzlü, xoş sifətli olub, ağıl və kamalı üzündən məlum edirdi. Amma bununla belə də, üzü ürəyindəki pünhan qəmini bəyan edirdi (*N.Nərimanov*).

II

Baharın orta ayı di. Şəhərin kənarında olan böyük bir bağçada, hər yerdə olan kimi, ağaclar göyərib yarpaq açmışdı. Bu bağ dövlətli adamın deyildisə də, lakin sahibi Aslan çox çalışqan olduğu üçün hər gün öz ruzisini qazanıb külfəti ilə bahəm bəxtiyar yaşayırdı. Aslan bağçaya çox qulluq etdiyi üçün, bağ şəhərin bütün başqa bağlarından gözəl idi. Hər tərəfdə ağaclar, sərvlər, çinarlar, alma, armud, gilas ağacları qayda və nizam ilə əkilib, aralarında alçaq göy ot bitmiş idi (*C.C.*).

III

Sadıq əmi ortaboylu, üzü ətli, çıxıq yanaqları qırmızı, vücudu polad kimi möhkəm, sağlam bir kişi idi. O, cavanlığından qışda, yayda otaqda yatmazdı, açıq havanı sevərdi. Hər səhər soyuq suda çimməyi vərdiş etmişdi. Altmış yaşa

dolduğuna baxmayaraq, bu vaxtadək onun ağır xəstələndiyini görən, eşidən olmamışdı. Qar düşdüyü zamanlarda da açıq eyvanda, kefi gələndə gecəni meşədə yatardı. Meşə ona öz canından əziz idi. Gecə-gündüz çalışar, yeni ağaclar əkər, meşənin içini bağ kimi təmizləyərdi. Meşə onun üçün hər şey idi (*A.Ş.*).

**§ 48.** Kar samitlərin cingiltili qarşılığını göstərən cədvəl düzəldin.

**§ 49.** Oxuyun, sonor samitləri tapın və izah edin.

I

Ürəyimdən xəbər verən bu sözlər şadlıq süfrəsi üzərinə müjdə gətirmiş qaranquşu xatırlatdı. Qəlbim xoş hisslər, nəcib duyğularla doldu (*Ə.V.*).

II

Gün çıxar, dağların əriyər qarı,
Pozulmaz dostların əhdi, ilqarı,
Keçər ürək dərdi, könül qubarı,
Gəl etmə meydanda cövlan, ayrılıq (*N.R.*).

III

Rayonda açılmış tibb məktəbi şəhərin qurtaracağında pambıq məntəqəsinin qarşısındakı ikimərtəbəli binada yerləşmişdi (*İ.Ş.*).

**§ 50.** Mətni oxuyun, samitləri tərkibə görə təsnif edin.

***Nümunə:***

| *Saf samitlər.* | *Qovuşuq samitlər.* |
|---|---|
| B, … | Ç, … |

I

Böyük bir şəhərin ən qaranlıq və tənha küçələrindən birində olan kiçik, birmərtəbəli evdə iki qardaş, bir bacı yaşayırdı (*C.C.*).

II

Dan yeli yavaş-yavaş əsdikcə yarpaqlar bir-biri ilə pıçıldaşır kimi səslənir, kollarda, budaqlarda ötüşən quşlar yeni səhəri yaradan günəşi salamlayırdı (*A.Ş.*).

III

Yay fəsli idi. Şamaxı cavanları yığma qoyub, məndən savayı da iki dəstə çalğıçı götürüb, neçə günün müddətinə yaylağa səyahətə getmişdilər (*Ə.H.*).

**§ 51.** Qovuşuq **< ç >** və **< c >** səslərinin tərkibini izah edib yazın.

**§ 52.** Samitlərin təsnifinə dair cədvəl tərtib edin.

**§ 53.** Oxuyun, sözdəki sırasına görə samitləri xarakterizə edib yazın.

**Nümunə:**
Q səsi – dilarxası, partlayan, cingiltili, saf samitdir.

I

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?

Təsbih kimi qatarınız düzərsiz,
Havalanıb ərş üzündə süzərsiz,
Gah olur ki, danə-xuruş gəzərsiz.
Siz düşərsiz pərişana, durnalar!

Ərz eləyim bu, sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır,
Şahin-şunqar sürbənizi dağıdır,
Boyanırsız qızıl-qana, durnalar!

Əzəl başdan Bəsrə, Bağdad eliniz,
Bəylər üçün ərməğandır teliniz,
Oxuduqca şirin-şirin diliniz,
Bağrım olur şana-şana, durnalar (*M.V.V.*).

II

Mən səadət aşiqiyəm əzəl gündən,
Yaranmışam ilk baharın günəşindən.
Eşit məni, ana torpaq, ana Vətən!
Mən yenə də səadətə səs verirəm!

Tel-tel olsun qərənfillər, yasəmənlər,
Yaşıl geysin göy dənizlər, göy çəmənlər,
Bülbül desin bu nəğməni səhər-səhər,
Mən insana, ədalətə səs verirəm!

Azad rübab, azad qələm əlimdədir,
Arzularım ulusumda, elimdədir.
Qardaşlığın ilk nəğməsi dilimdədir,
Vətən adlı bir cənnətə səs verirəm (*S.V.*).

III

Ey pərvasız qələm, ey azad ilham,
Siz mənim işimə çəkin sərəncam.
Durun bu yüksəliş inadınızda,
Uçurun fikrimi qanadınızda.
Azadlıq dünyanın dərin ruhudur,
Azadlıq sənətin, şerin ruhudur.
Bu sözlə qaplamış hər yeri şadlıq,
Dar gəlmiş çoxuna geniş azadlıq.
Azaddır hər günəş nur saçmasında,
Şaşqın bir yolçuya yol açmasında.
Azaddır, baxınız, bütün fələklər.
Buludlar, dalğalar, quşlar, küləklər.
Azaddır əbədi hərəkət, azad,
Bir qanun əlində təbiət azad (*M.M.*).

**§ 54.** Aşağıdakı samitlərin məxrəcini (artikulyasiyasını) təsvir edin.

I

**< l >, < ş >, < r >, < t >, < v >, < ğ >, < j >,**

II

**< m >, < h >, < p >, < f >, < d >, < j >, < k >,**

III

**< n >, < x >, < s >, < b >, < q >, < j >, < g >,**

**§ 55.** Verilmiş samitlər məxrəccə hansı cəhətlərinə görə bir-birindən fərqlənir.

I

< t – d >, < s – ş >,

II

< z – j >, < ç – c >,

III

< b – p >, < v – f >,

## AZƏRBAYCAN DİLİNDƏKİ FONETİK HADİSƏ VƏ QANUNLAR

### Assimilyasiya

**§ 56.** Mətni oxuyun, hansı sözdə assimilyasiya olduğunu müəyyənləşdirin. Assimilyasiyanın səbəbini, tam və natamam, irəli və geri növünü göstərin.

I

1. Seyrə çıxıb dəstə-dəstə gözəllər,
Çiçək dərib tər buxağa düzəllər,
Qaqqıldaşa-qaqqıldaşa gəzəllər,
Canlar alan sövtə, sədaya bir bax (*Q.Z.*).

2. İşlək malı əyəllər.
Tənbəlini söyəllər,
Öküz cütə getməsə
Qaşqasına döyəllər (*Bayatı*).

3. Çəkilib dağa divar,
Üstümə yağa divar.
Gözün bağ, qaşın bağman,
Kirpiyin bağa divar (*Bayatı*).

II

1. Tutdum orucu İrəmazanda,
Qaldı iki gözlərim qazanda.
Mollam da döyür yazı yazanda (*M.Ə.S.*).

2. Maralın dizi qannı,
Gözü qan, üzü qannı.
Yar özü qan eyləyib,
Tutubdur bizi qannı (*Bayatı*).

3. Yaralandım yanımnan,
Quşlar doymaz qanımnan.
Bir bəlaya düşdüm ki,
Bezar oldum canımnan (*Bayatı*).

III

1. Haray naşı əlinnən.
Atmaz daşı əlinnən.
Yastıq şikayət eylər
Gözüm yaşı əlinnən (*Bayatı*).

2. Gözümün qarasınnan,
Yaş axar arasınnan.
Adam da əl çəkərmi
Öz ciyərparasınnan? (*Bayatı*)

3. Burdan bir ağa getdi,
Sallandı bağa getdi.
Qaşınnan, qabağınnan
Qar yağa-yağa getdi (*Bayatı*).

**§ 57.** Verilmiş sözləri assimilyasiyaya uğradıb yazın.

I

1) Tapmaq, 2) tozlu, 3) rusca, 4) gözlər, 5) fərli, 6) rəhbərlik, 7) dilimdən, 8) yurdlar, 9) düzlər, 10) dinmək.

II

l) Atamdan, 2) qızlar, 3) yapmaq, 4) yazsaq, 5) dürlü, 6) üzləri, 7) sirlər, 8) əlindən, 9) dənizlər, 10) gözlə.

III

l) Tapmaca, 2) çəmənlər, 3) azca, 4) qarlı, 5) qolundan, 6) insanlar, 7) çapmaq, 8) zərlər, 9) yadlar, 10) varlı.

**§ 58.** Assimilyasiyanın xüsusiyyətlərini göstərən sxem çəkin.

**Dissimilyasiya**

**§ 59.** Köçürün, dissimilyasiyaya uğrayan sözləri tapın və onların dissimilyasiyaya uğrama səbəbini yazın.

1. Xırmanlar döyülüb, yığılmış taxıl,
Fələk dedikləri o namərd paxıl,
Çiləyib yağışı, tökməmiş qarı,
Yarımdır çoxunun buğda anbarı (*M.M.*).

Sümbülüm, sümbülüm, sarı sümbülüm!
Sənmisən çiçəyim, sənmisən gülüm?! (*S.V.*)

Əzbərləyir kitabı, buraxmaz birin dala,
Guya ki, oxşadır bizi zənbilli hambala (*C.C.*).

2) Otuz yaşında saralmaq, açılmadan solmaq;
Bu iştə bir mələyin virdi-şairanəsidir.(*H.C.*).

*Şeyx* – Şair, rənginizdə bir sarılıq var?
*Vaqif* – Qafil, gün batanda rəngi saralar (*S.V.*).

3) İtirmişəm maralımı,
Bir sinəsi yaralımı,
Gündüz səbrü qəralımı,
Gecə yuxum kəsən dilbər (*Aşıq Valeh*).

**Səsartımı**

**§ 60.** Mətni köçürün, səsartımı olan sözü fərqli yazın və artırılan səsi mötərizəyə alın.

***Nümunə:***

Onun böyük *bacı(s)ı* üçüncü kursda oxuyur.

I

1. Qulaq as, gör nə deyirəm: nəçərnik divanxanasının qabağında bir yekə dam-daş var, qapısının ağzında bir qutu vurulub divara, həmin qutu poçt qutusudu. 2. Onun bir xırda və uzun qapağı var (*C.M.*). 3. Hər ikisi birlikdə deyər, gülər, oynardılar. 4. Hətta öz ata və anası da Muradı sevməzdi. 5. Onun əlindən bacısı Bilqeyisin ki heç rahatlığı yox idi. 6. Səfər onu görüncə qorxusundan gözləri kəlləsinə çıxdı. 7. Dalı-dalı gedib səbətin üstünə yıxıldı, yumurtaların yarısı sındı. 8. Ustü-başı tamam yumurtaya bulandı. 9. Səfər ağlaya-ağlaya yerindən qalxdı (*A.Ş.*). 10. Qətibənin ona tez-tez yoxsul deyə təkrar etməsi, xüsusən onun evinin fəqirliyindən danışması, hətta Rənanın adını çəkdiyi

zaman "bir kəndli qızı" deyə onu təhqir eləməsi Nizaminin acığına gəldi. 11. Mən istəyirəm ki, bütün Şərqdə məşhur olan nəcib Qətibənin dünyası səninlə bir daha şərəflənsin. 12. Biri-birinin mülkünü zorlarsa və yaxud suyunu kəsib öz bağına apararsa, onu cəzalandırmaq vəzifəsi kimin öhdəsinə düşəcəkdir? 13. Mən onların bacısı oğluyam. 14. Bacın Qətibənin mübarizəsi də bu zəmində gedir, çünki o mənim anamı bir kəndli qızı hesab etdiyi üçün məni vəliəhdliyə səlahiyyətli görmür (*M.S.O.*). 15. Qapının arasından içəriyə tez-tez nazik işıq şüaları düşür və komanın hisli divarlarında dolaşırdı. 16. O, cib fənərinin nazik işığını otağın içinə yönəltdi, sonra komanın divarlarını, künc-bucağı işıqlandırdı. 17. Birdən necə oldusa, fənərin işığı döşəməyə düşdü və axşamdan süpürülmüş torpaq döşəmədə hələ də qurumamış ləpirlər və plaşlardan süzülən suyun əmələ gətirdiyi ləkələr zabitin diqqətini cəlb etdi (*Q.M.*).

II

1) Mirzənin atasının evində saat birdə nahar yeyilirdi (*Ə.H.*). 2. Bu vaqiədən sonra müəllim Xosrovu sıxı bir nəzarət altında tutaraq onun hər hal və hər bir hərəkətinə diqqət edir və gündən-günə uşaqda yaxşılığa doğru bir meyl oyandığını hiss edirdi (*A.Ş.*). 3. İndi bir parça üzü gülməyə başlamış, dərslərinə maraq edir, çalışır, yoldaşlarla, müəllimlərlə çox səmimi görüşür və onları unutmurdu (*A.Ş.*). 4. Onun haqsız olduğunu bununla isbat və sənin gələcəyini təmin edəcəyəm (*A.Ş.*). 5. Mərdan anasının uzun-uzadı şikayətlərini dinləyib hərdənbir etiraz edir və eyni zamanda təsirinə də düşürdü (*Y.V.Ç.*). 6. Uşaqların atalarının vəziyyətləri mənə məlum deyil, məlum olsa da mənim əlimdən bir iş gəlməz, sizin oğlanlarınızın hər ikisi yaxşı oxuyurlar. (*Ə.H.*). 7. Qədim dayının səbri tükəndi, hövsələsi daralıb cini kəlləsinə çıxdı (*S.Rəh.*). 8. O, iki əl ilə

suyu şappıldadıb ayağa qalxdı (*S.Rəh.*). 9. Onun hərəkətsiz gözləri ərizəsinə baxaraq qırpınmadan sönmüşdü (*S.Rəh.*). 10. Mən əvvəlcə düşünüb, dama çıxan qapını böyük bir qıfılla bağlamışdım (*H.H.*) 11. Şirməmməd qayanın üstündə oturub dar keçiddən o yandakı zəmiyə baxanda birdən sanki onun gicgahına yumruq dəydi. 12. İsmayılın yarası sağalana kimi Şirməmməd onu yanından heç bir yana buraxmadı (*S.Şamilov*). 13. O gün stansiyada əziz qonaqları gətirən qatarı qarşılayanda, gələnlərdən birisini tanımağa cəhd edən qoca dilmancı İsmayılın orada olduğunu eşitdikdə onun xəyalında hər şey yenidən canlanmışdı (*S.Şami.*). 14. Bir dəqiqə sonra onun qara və iri gözləri örtüldü; artıq, gərgin yumşaq sinəsi enib qalxmırdı (*H.N.*). 15. İlin iki ayı da quş balasını yemləyən kimi ər-arvad səhərdən-axşama onun böyrünü kəsib əlimizi ağzından çəkmədik (*Ə.V.*). 16. Mən baltanı götürüb həm qazan altına qoyulmaq üçün, həm də kabab bişirmək üçün odun yardım (*Ə.V.*). 17. Onların hərəsi bir tərəfdə oturub əlini qoynuna, boynunu çiyninə qoydu (*Ə.V.*).

III

1. Qızın anası Mirzənin anasını çox hörmətlə qəbul etdi (*Ə.H.*). 2. Evdə kiçik bir şey onu hiddətləndirir, əsəbiləşdirir (*A.Ş.*). 3. Birdən-birə başını qaldırıb sözlərini bitirmiş və ondan son söz gözləməkdə olan müəllimə baxdı (*A.S.*). 4. Üç gün sonra qayınanaya ayrıca bir otaq təxsis olundu; ümumi yoldan belə məhrum edildi (*Y.V.Ç.*). 5. Ənənəyə istinadən malik olduğu hüquq tamamilə ləğv olunaraq heç bir işə qarışmayacağı qərarlaşdırıldı (*Y.V.Ç.*). 6. Böyük oğlu təbib bir yanında əyləşib tez-tez atasının sinəsinə yaş məhraba salırdı (*Ə.H.*). 7. Qədim dayının inəyi də mələyə-mələyə balasının üstünə gəldi (*S.Rəh.*). 8. Gecə yarısı Tükəz xala ipi boşaldıb Qədim dayını yerə endirdi (*S.Rəh.*). 9. Qədim dayı yeri yarıb

suyu oradan-buradan buraxdı (*S.Rəh.*). 10. Qəhrəman soyumaqda olan çaya mürəbbə salmaqla məşğul ikən yoldaşları onun hərəkətini səbirsizliklə təqib edir və hekayəsinin mabədini dinləməyə tələsirdilər (*H.N.*) 11. Sol qabırğasına basdığı barmaqlarının arasından qəliz, qırmızı bir maye süzülür və ağ çitdən tikilmiş donunun ətəklərindən yerə damırdı (*H.N.*). 12. Şirməmmədin sözləri Əsəd kişinin gicgahına dəmir kimi dəyib onun huşunu başından çıxarır, bütün mənəviyyatını alt-üst edirdi. 13. Bahar insanın ruhunu oxşayır və onda romantik bir sevgi oyadırdı. 14. İndi keçmiş zülm və iztirablar dünyasından yalnız bir xatirə qalmışdır. 15. Ömrünün son çağlarında xəyalına belə gəlməyən bu pəncərədən o indi səadət və fərəhlə dolu olan yeni bir dünyaya baxırdı. 16. Gölün camaxlı ılıq suyunu içməkdən iki gün idi ki, Əsəd kişi qızdırırdı (*S.Şamilov*). 17. Birdən kənd küçəsində at ayaqlarının tappıltısı eşidildi (*Ə.M.*).

**§ 61.** Aşağıdakı misallarda səsartımı hadisəsini aydınlaşdırın və bunun ədəbi dil üçün yararlı olub-olmadığını söyləyin.

1. Bizim evdə baxasan hər tərəfə,
Taxçaya, boğçaya, ya ki, irəfə,
Görəcəksən bütün işqabda kağız,
Kasada, nimçədə, boşqabda kağız (*M.Ə.S.*).

2. Ağ alma, qızıl alma,
İrəfə düzül alma.
Yarım yoldan keçəndə
Cərgədən üzül alma (*Bayatı*).

3. İstəkanın qırılsın,
Çayın yerə tökülsün.

Sizin bağın meyvəsi
Bizim bağa tökülsün (*Bayatı*).

4. Belə saatlarda onun üzünü görmə: xörək qabları, istəkanlar atılar, qırılardı (*T.Simurq*).

**Səsdüşümü**

**§ 62.** Səsdüşümü hadisəsi olan sözləri tapın.

I

1. Qapı ağzında durmuş iki matros da, görünür ki, zabitin çoxdan bəri axtarılan bir adamı ələ keçirdiyini hiss etdikləri üçün ayaqlarını araladılar və tüfəngin lülələrini bizə tərəf çevirdilər (*Q.M.*). 2. Gülün arxasında dəyirmi bir hovuz var idi ki, bina bu hovuzun içərisində qayrıldığı üçün bir ada şəklini almışdı (*M.S.O.*).

2. Kişmiri şalın ollam,
Ağ üzdə xalın ollam.
Anama yalvar, oğlan,
Mən sənin yarın ollam (*Bayatı*).

3. Farağat-farağat otduğum yerdə,
Oxuyub dərsimə çatdığım yerdə,
Şirin xab içində yatdığım yerdə,
Ana, mənim dərdim Cahan dərdidir (*Aş.A.*).

4. Əyləşib qələmi alıb gözəl xətlə yazdı (*Ə.H.*). 5. Ailə həyatı ilə məktəb həyatı arasında bir pərdə, bir anlaşılmazlıq olursa, gənc nəslimizin istedadının inkişafına əngəl olur (*A.Ş.*). 6. Sən sinfimin ən çalışqan və ən namuslu tələbələrindən idin (*A.Ş.*). 7. Bir atanı oğlunun istiqbalı nə qədər

məşğul edərsə, biz müəllimləri də hər tələbənin müqəddəratı və gələcək bəxtiyarlığı bir o qədər düşündürür (*A.Ş.*). 8. Qədim dayı burnunu ovub ayağa qalxdı, xurcuna əl atdı, ancaq əli boşa çıxdı (*S.Rəh.*). 9. Arvadın pıçıltısı və kişisi ilə xısın-xısın danışması Qədim dayını şübhəyə saldı (*S.Rəh.*) 10. İkinci gün şəhərdə olduqca şiddətli bir vuruşma gedirdi (*H.N.*).

II

1. Oğlunun pəncərəsinin yanından ötərkən nə gördü, oğlunun sifəti nar tək qızarmış, gözləri böyümüş, başı, libası pəjmürdə, tər alnından sel kimi axır, otaqda o baş, bu başa dayanmadan yüyürür (*Ə.H.*). 2. İllərdən bəri hər kəsdən, hər yaxın əqrəbasından saxladığı və hələ müəllimdən saxlamağa çalışdığı sirlərini açmaq istəmədi (*A.Ş.*). 3. İntiqam sislərində çırpınan beyni ayılan kimi oldu (*Y.V.Ç.*).

4. Dad fələk sənin əlindən,
Axır gətdin zara məni (*Aş.A.*).

5. Mələkdir bir insan şəklinə girmiş,
Günəşdən torpağa salam gətirmiş (*M.S.O.*).

6. Ağlına ən vəhşi fikirlər gəldi – başı intiqam buludlarında dalğalandı (*Y.V.Ç.*). 7. Silahlı soldat Qədim dayının boynunun ardından yapışdı, onu darvazadan bayıra itələdi, iki təpik də arxadan ona çaldı (*S.Rəh.*). 8. Onlardan birisi cəld çiynindən tüfəngini çıxardıb bir neçə addımdan biçinçilərə bağırdı. 9. Yaz səhərinin havası bədmüşk ağaclarının ətri ilə dolmuşdu (*S.Şamilov*). 10. Bu sözləri eşidərkən içəridə pəncərəyə qısılıb dayanmış Çimnazın alnını soyuq tər basdı (*Ə.M.*).

III

1. Mirzə Səfər hərçi çalışdısa, ikinci misra gəlmədi (*Ə.H.*). 2. Təbiətin dilbər qoynunda azad böyümüş insan rütubətli, dar və qaranlıq bir məhbəsə düşmüşdü (*H.M.*). 3. Səfərin oğluna xeyir-dua verib, yaxşı yol və müvəffəqiyyət diləyib bir qızıl saat da peşkəş verdi (*Ə.H.*). 4. Beyni bir qədər də qızışdı (*Ə.H.*). 5. Sözümə cavab ver, kimsən, hardansan (M.S.O.). 6. Cinayət fikri alnını qırışdırıb, dodaqlarını əydi (Y.V.Ç.). 7. Bunların qara qıvrım saçlı, iri və parlaq gözlü, üzünün xətləri daha iri olanı – Qəhrəman, dodaqlarından ayırdığı böyükcə fincanı masa üzərinə qoyaraq dərindən bir ah çəkdi (*H.M.*). 8. Şırməmməd orağını çiyninə qoyub zəminin baş tərəfindən boz qurd kimi duran qayanın bərabərindəki dar keçidə doğru gedirdi. 9. Onun mənəviyyatını çidarlayan mövhumat bağları çürüyüb parçalanmışdısa da, ancaq bu mənəviyyat yeni və müəyyən bir şəkil almamışdı (*S.Şami.*). 10. Rəisin yekə ağzında, qırışıq üzündə, çal saçında, qırmızı burnunda çoxdan bəri keçirdiyi sərxoşluq həyatının izi vardı (*S.Rəh.*).

**§ 63.** Oxuyun, səs düşümü hadisəsi olan sözləri seçin, səs düşümünün xarakterini, səbəbini yazın.

***Nümunə:*** nəslin.

1). Birinci cümlədəki bu sözə saitlə başlanan şəkilçi qoşulduğu üçün ikinci hecadakı sait səs düşmüşdür.

I

1. Boynundan asdığı ağır zəncirin nə olduğunu hər kəs soruşsa idi, cavab bu olardı: – Haqq mövcud! (*Ə.B.Ç.*) 2. Cənab Linney bunu fərz edir yeddimci dərəcədə və cənab Turnefort onu fərz edir altımcı dərəcədə, amma mən

onu fərz edəcəyəm onuncu dərəcədə və bu otun adı latınca qimlina afriqanadır ki, diş ağrısının əlacı münhəsirdir buna (*M.F.A.*). 3. Allahı sevərsən, ağlına zor vermə. Sən lap azışıbsan, get işinə (*M.F.A.*).

4. Cəm olmaz başıma əqlü xəyalım
Könlümü zülfünə verəndən bəri (*Q.Z.*).

5. Qoyma qəmindən ola pamal kişi
Ağzı dualı, qoca baqqal kişi (*M.Ə.S.*).

6. İndi mən ömrümün bahar çağları
Bilmədiklərimi bilirəm burda (*S.V.*).

7. Usta Zeynal bunu eşitdikdə dəzgahın dalından qalxıb gəlib Mirzənin boynunu qucaqlayıb üzündən öpdü (*Ə.H.*). 8. Uşaqlar sevindiklərindən sıçrayırdı. Bircə Kərim kişi sevinmir, nəyi isə düşünürdü (*A.Ş.*). 9. Dəyirmi binanın ətrafındakı xiyaban qırmızı əqiq daşları ilə şahmat taxtası şəklində döşədilmişdi. 10. Mən elə bilirəm ki, əlahəzrət qızın xasiyyəti ilə tanış olarsa, öz fikrindən daşınar (*M.S.O.*). 11. O, beləliklə bizi bir-bir komanın ortasına çağırır, diqqətlə yoxlayır, burnunun altında nə isə mızıldayaraq o biri tərəfə keçirirdi (*Q.M.*). 12. Ali məktəblərdə tədris olunan dilçilik fənlərindən biri də müasir Azərbaycan ədəbi dilidir.

13. Heyva əkdim nar gəldi,
Kətan köynək dar gəldi.
Evə kölgə düşəndə
Elə bildim, yar gəldi (*Bayatı*).

II

1. Həkim diqqətlə uşağa baxıb başını buladı və xeyli fikrə getdi. 2. Həkim dedi: – Uşağın beynini su alıbdır (*N.N.*).

3. İyirminci ilə qədər səkkiz-doqquz metr dərinlikdə quyunun iki-üç ilə qazıldığı indi bizə qəribə və gülünc görünür (*M.M.*). 4. O, bütün bunlardan sonra, burnu işıldayan çəkməsindən tutmuş ta üstündən yuxarıya – şinelinin ətəyini, belini, döşünü, qollarını gözdən keçirdi (*Ə.Ə.*).

5. Ev süpürər, kül götürər əlilən,
Palçıq əzər ayaqilən, vəlilən.
Şəklini də murdar eylər şəlilən,
Zəhlən qaçar sən də nifrət eylərsən (*M.V.V.*).

6. Nə yazıq ki, qüdrətimi səyyah kimi seyr edənlər
Qoynumda bir qara tüstü, bir də tozlu külək gördü-
Nə başımda kamal şövqü, nə cismimdə ürək gördü...
Odur ki, mən yaranmadım, şer, sənət dünyasında.
Bu hiss ilə boğuluram bəzən fikir dəryasında (*S.V.*).

7. Səndən söz soruşdum mənə cavab ver.
Burda nə gəzirsən, qoruqdur bu yer (*M.S.O.*).

8. Sənin ilham dənizindən çıxan nadir incilər, bir kəndli qızının boynundan yox, Qətibənin boynundan asılsın (*M.S.O.*). 9. İt ağzını sağ tərəfə tutub hey hürür, gah qabağa qaçır, gah da elə bil, nədənsə qorxurmuş kimi geri çəkilirdi. (*Q.M.*) 10. Ümidi darıxdıran məsələnin ikincisi beşillik təhsildən sonra hansı rayona təyin edilməsi idi (*B.A.*). 11. Adilə özünü sərbəst və yüngül hiss edir, o sanki oynamır, uçurdu (*Ə.Q.*). 12. Keçən ilki yarışlarda Ağəli çempion adı aldı. 13. Kainatın ən gizli sirlərini bilmək üçün dərin biliyə sahib olmaq lazımdır.

III

1. Limon ağaclarının arxasında Bağdad səmasına baş çəkmiş sərv ağacları boynunu ruzigara əyməyən qəhrə-

manlar kimi səf çəkib dayanmışdı (*M.S.O.*). 2. Göyərtədə güclə seçilən şeylər də daha aydınlaşıb öz şəklini almışdı, dor ağaclarından, alçaq tüstü bacalarından, asma qayıqlardan göyərtəyə uzunsov qatı kölgələr düşmüşdü (*Q.M.*). 3. Allah səni bədnəzərdən saxlasın, oğlum, – deyə Rəhimə Nurəddinin boynunu qucaqladı (*S.S.A.*). 4. Dükanlarda, bazarda, yığıncaqlarda ancaq Mahmud bəylə Əhməd bəyin çeşmək əhvalatından başqa bir söhbət yox idi (*Ə.B.H.*).

5. Sən hər gün yorulmuş dönərkən işdən,
Bir arzu könlümü çəkər qarşına (*M.M.*).

6. Keçdisə dustaqda günlərin, amma
Fikrin hürr olmusan, azad olmusan (*M.R.*).

7. Nazlı saçlarını sallayıb iydə,
Çinarlar sükutla qatarlanıbdır.

8. Sanıram torpaq da, sanıram göy də,
İydənin ətrindən xumarlanıbdır (*H.X.*).

9. O, bu günlərdə yarışın nəticəsinin yoxlanılmasını istəmirdi (*İ.Ş.*). 10. Bu gün, o balaca Sürəyyanı hələ karxana açılmamış, qaranlıq ikən gətirib qapı ağzında qoymuş, özü bazara getmişdi (*Ə.M.*). 11. Adilin on dörd yaşı vardı, altıncı sinfə təzəcə keçmişdi (*S.Q.*). 12. Elə bir zamandan danışıram ki, böyüklərin xatirəsində çox yaxşı qalıb, kiçiklərin isə heç ağlına gəlməz (*Sab.Rəh.*). 13. Hələ lap qədim dövrlərdə insanlar öz fikirlərini əşya vasitəsilə ifadə edərkən şərti mənalı ibtidai xətlərdən, cizgilərdən istifadə etmişlər. 14. Tələbələr Əlisa müəllimin tapşırıqlarını vaxtında yerinə yetirməyə daha çox səy göstərirdilər.

## Yerdəyişmə

**§ 64.** Oxuyun, səslərin yerdəyişmə hadisəsini izah edin və müasir ədəbi dil qarşılığını göstərin.

1. Dünyadan əl çəkdim, ərkandır işim,
Çeşmilə bürhandır, tökülür yaşım,
Sizlərə hədiyyə elədim başım,
Ol yaşıl yarpağı Səlmandan aldım (*S.İ.X.*).
2. Gəhi torpağə eylər hikmətin min məhliqa pünhan,
Gəhi sünnü qılır torpaqdan min məhliqa peyda (*M.F.*).

3. Durma, yıxıl yat hələ, Fahrat kişi!
Əsri görüb qalma belə mat, kişi! (*M.Ə.S.*)

4. Əkiztayı İrvahımla,
Başkənddə o girdi cəngə,
Öz gücünə qürrələnib
Əkiztayı qalxdı həngə,
Qırğı tək kəsdi üstünü,
İrvahımı gətdi təngə (*Bi.T.*).

**§ 65.** Mətni oxuyun, sözdə hansı fonetik hadisə baş verdiyini müəyyənləşdirin; Səbəbini, xarakterini izah edin.

1. Şaxəli sünbülün, yerin sirdaşı
Polad da əridir alov da, od da.
Onun mahir əli, düşünən başı
Bu gün tarladadır, sabah zavodda.

2. Biz ana qoynunda yatıb doyunca
Bol süd də əmmədik ana döşündən.
Bizim eşqimiz də, gəncliyimiz də

Ağır zincir kimi səsləndi canda,
Taleyin ulduzu söndü bir anda (*S.V.*).

3. Bunların yaralarına duz səpməkdən vaz keçməm yaxşı deyilmi? (*Y.V.Ç.*) 4. Evdə ağzımı açıb danışa bilmirəm: – Sən danışma, heç bir şey bilmirsən: Böyüyün sözünə bax! – deyə hər tərəfdən ağzıma vururlar (*Y.V.Ç.*). 5. Mahmud bəy hərçənd çeşməyi tapmışdı, bununla belə təfrih üçün dostu Əhməd bəyi bir növ dilxor etmək fikrinə düşür (*Ə.B.H.*). 6. /Yaşar/: Proyekt olardadır. Mənimlə ancaq pozuluşmaq üçün bəhanə axtarırlar (*C.Ç.*). 7. /Yaşar/: Mən, professor, kəndimizin yanından başlanan geniş duzdağı bu tərkiblə təmizləyib pambıq tarlasına çevirəcəyəm (*C.Ç.*).

8. Ətrindən məst olur yüz bağça, yüz bağ!
Açır piyalə tək ağzını zanbaq...
İnsan əllərini duyduqca torpaq,
Göz açır xəstə tək gülümsəyərək!
Yerin sinəsində çarpır min ürək!.. (*S.V.*)

**Ahəng qanunu**

**§ 66.** Mətni oxuyun, həmcins sait və samitlərin bir – birini izləməsinə fikir verin.

I

Eşitdiyimə görə bu evin sahibi şəhərin ən böyük və nüfuzlu bəyi imiş. İnqilab olan kimi özü böyük oğlu ilə qaçmış, evdə arvadını, on yaşlı oğlunu və bir nəfər qadın qulluqçusunu qoymuşdu.

Biz evdə iki gün qaldıq. Bu iki gündə nə ev sahibi xanım ilə, nə də qulluqçu ilə bir kəlmə danışmaq ehtiyacımız

olmadı. Onlar nə qədər həyəcanlı olsalar da, özlərini yaxşı saxlayır və vüqar göstərirdilər.

İkinci gün şəhərdə olduqca şiddətli bir vuruşma gedirdi. Gah bizim qoşun, gah da üsyançılar qalib gəlirdilər. Mən bunu çox yaxşı duyurdum. Üsyançılar qalib gələn kimi, bizim olduğumuz bu evə yağan güllələrin sayı-hesabı olmayırdı. Bizimkilər irəliləyəndə, mən yoldaşlarım ilə bir az asudə nəfəs alırdıq, çünki bizə ancaq təsadüfi güllələr atılırdı...

Qəhrəman duruxdu. Kənarda şiddətlə əsən qış ruzigarı birqat pəncərələri yumruqlayır, kiçik qar və buz zərrələri ilə bombardman edirdi.

– Günorta zamanı olardı. Şəhəri yarımsaatlıq bir sükut bürüdü. Sükut deyirəm, səhv etməyiniz. Onu ancaq o vaxt sakitlik adlandırmaq olardı: yəni minlərlə atılan yaylım atəşləri bir az seyrəldi: topların səsi lap kəsildi.

Hər iki tərəf qəti hücuma hazırlaşırdı. Fikrim doğru çıxdı. Yarımsaat sonra bütün ətrafı od və qurğuşun tufanı bürüdü. Bütün bina gurultudan lərzəyə gəlir, yüzlərlə güllə bu evin damına, divarına yağış kimi səpələnirdi. Mən üçüncü mərtəbənin şimala baxan bir pəncərəsində iki nəfər ilə bərabər meydanı gözləyir və oradan körpüyə sarı adam keçməyə qoymayırdım.

Qapı açıldı və ev sahibinin qulluqçusu daxil oldu. O, əvvəlki qədər sakit deyildi. Bunu dərhal anladım (*H.N.*).

II

Hər axşam günbatandakı meşədən bir mahnı səsi yüksəlirdi. Bu, həsrət dolu kədərli bir səs idi, onun çağırdığı mahnıları sanki meşə özü oxuyurdu. Bu səslə bərabər gah yaz gəlir, çiçəklər açılır, qaranquşlar doğma yuvalarına qayıdır, gah payız düşür, xəzan yarpaqları yerə tökülür, soyuq küləklərin nəfəsindən diksinən bahar quşları uçub uzaq ölkələrə gedirdi...

Nə qədər zaman idi ki, bütün kənd bu səsə qulaq verir, bu səsin kədəri ilə qüssələnir, bu səsdəki ümidlərlə təsəlli tapır, bu səsin sevinci ilə sevinir, onun acıları ilə məyus olurdu. Kəndin ağır günlərində – zəmilər quraqlıqdan yananda bu səsdə susuz səhraların qüssəsi duyulur. Tarlalar bərəkətli yaşıllıqla örtüləndə bu səsdə ümidlər baş qaldırır, uzaq bir səadət sanki müjdələr vəd edirdi.

Bu kimin səsi idi? Bunu heç kəs bilmirdi. Lakin o kim idisə, hamı onun yaxın və doğma olduğunu duyurdu; çünki onun çağırdığı mahnılarda həmişə kəndin əhvali-ruhiyyəsi səslənir, insanların məşəqqətli həyatının şikayətləri dillənirdi. Zaman çatdı ki, bu səsin sorağı daha uzaqlara yayıldı. Meşə yanındakı kənddən bir çoxları mahnı oxuyanı tapmaq üçün meşəyə getdi. Lakin heç kəs onu tapa bilmədi. Hamı məyus geri qayıtdı. Kəndin cavan qızları isə hər axşamüstü bu səsə qulaq verib onun haqqında cürbəcür nağıllar düzəldir, xəyallarında ona əfsanəvi bir aşıq donu geyindirirdilər.

Kəndin gözəli Çimnaz da hər axşamüstü bu səsə qulaq asır, lakin meşəyə bu səsi axtarmağa getmirdi. Qıza elə gəlirdi ki, əgər o, meşəyə getsə, mütləq o adam kimdisə, ona rast gələcək, həyatında nə isə bir hadisə baş verəcəkdir; çünki bir hiss ona deyirdi ki, bu səs onun üçün oxuyur, bu səs daima onu çağırır. Buna görə o, meşəyə getməkdən çəkinir, anlaşılmaz bir həyəcanla bu səsi dinləyir, böyük bir intizar içərisində nəyi isə gözləyirdi (*Ə.Məmmədxanlı*).

III

Məktəbli uşağı olan ailələr avqustun axırlarında köçmüşdülər. Yerdə qalanlar da havaların soyuduğunu, gecələr daha açıqda yata bilmədiklərini görüb yavaş-yavaş bağları tərk etmişdilər. Lakin meynələrdə hələ də sibri vurmuş xırda üzüm salxımları görünür. Əncir ağaclarında böyrünü quş yemiş tək-tək əncirlər saralırdı.

Neçə gündən bəri ayaq dəyməyən qumlu yollardakı kohnə ləpirləri külək hamarlamışdı. İndi səhərlər Bakıya gedib, qaş qaralanda qayıdan minik maşınlarının gurultusu eşidilmirdi. Əvvəllər gecəyədək qonşulardan gələn qızların, oğlanların qəhqəhələri daha kəsilmişdi.

Doğrudan da təbiətə gözəllik verən insanlarmış. Onlarsız həyat lal-dinməz görünür. İnsan səsi eşitməyən, insan nəfəsi dəyməyən yer nə qədər darıxdırıcı olurmuş!

Həmişə ağaclarda civildəşən quşlar indi bu bağlardan baş götürüb dəstə-dəstə hara isə uçurdular. Axşamlar evlərdən işıq gəlmir, ətraf dərin bir sükuta batırdı. Sakit küçələrdə bu sükutu ilbizlərin səsi, küləkli vaxtlarda Xəzərin uğultusu pozurdu.

Belə gecələrdə dəniz üfüqlərə qarışıb görünməz olurdu.

Gündüzlər hərdən yol üstə, quyu başında rastlaşan bağ gözətçiləri bir-birini tanısalar da, tanımasalar da salamlaşıb kef-əhval tutur və söhbətə başlayırdılar. Bekarçılıqdan, belə söhbətlər saatlarla uzanardı; onlar bağların, bostanların azmı, çoxmu məhsul verdiyindən, havaların necə keçdiyindən, hansı quyunun bol, şirin suyu olduğundan danışırdılar. Bu söhbətlər bir-birinə oxşasa da onları bezdirmirdi; çox vaxt müsahiblər böyürlərini yerə verib hərəsi bir papiros yandırır, qutularını, kibritlərini ortaya atıb tüstülədə-tüstülədə hey aram-aram oradan-buradan deyərdilər (*S.Q.*).

### 1. Saitlərin ahəngi

**§ 67.** Oxuyun, dilin aldığı vəziyyətə görə saitlərin bir-birini izləməsini müəyyənləşdirin. Nümunədə göstərildiyi kimi birinci sütunda dilönü, ikinci sütunda isə dilarxası ahəngə tabe olan sözləri seçib yazın.

***Nümunə:***

| *Dilönü ahəng:* | *Dilarxası ahəng:* |
|---|---|
| tərpənib | maşın |
| örtmüş | |
| düzləri | |
| getdi | |

I

Maşın tərpənib qar örtmüş düzləri işıqlandıra-işıqlandıra getdi. Mən pəncərədən başımı çıxarıb geri baxaraq ağaran qarın üzərində Südabənin qaraltısını seçdim. O, hələ də eyni yerdə durub baxırdı. Sonra, xeyli sonra balaca, zəif bir işığın ağır-ağır yuxarı qalxdığını gördüm. Yəqin ki, bu onun əl fənərinin işığı idi.

Maşın uzaqlaşdıqca tez-tez pəncərədən başımı geriyə döndərib fermanın işıqlarına baxırdım və zaman keçdikcə onlar da bir-birinin ardınca sönürdülər. Nəhayət, qaranlıq düzənliyin ortasında güclə seçilən bir işıq qaldı. Sonra da o yox olduqda, "Doğrudanmı o çırağı söndürdü?" deyə mən kədərlə düşündüm. Lakin o tək işıq yenə də göründü və yalnız biz gəlib asfalt Bakı yoluna çıxandan bir qədər sonra tamam gözdən itdi. Elə bil ki, çölü bürüyən qaranlıq daha qatı, soyuq və kədərli oldu. O zaman mən balaca əl çamadanını götürüb dizlərim üstünə qoydum. Lakin onu açıb əllərimlə şala təmas etdikdə iki saat bundan əvvəl neft çırağının sarı ziyası içində oturub məktub yazan qızın siması bütün o əzəmətli gözəlliyi ilə qarşımda görünüb bir anda da məndən uzaqlaşdı və mən çölü bürüyən soyuq qaranlıq içində ağır, dərin bir ümidsizlik, bir qəriblik hiss edərək yun şalın üzərinə yıxıldım...

Səhər gəlib evimizə çatdığım zaman bütün ailəmiz böyük yemək otağında əyləşib çay içirdi. İnstitutda professor olan və yaşına nisbətən çox gənc görünən atam da, bacım Firəngiz və onun həddindən artıq uzun xətbaşı sax-

layan çəhrayı bənizli nişanlısı da, həmişə yaxşı geyinməyi sevən, qəddü-qamətli anam da buradaydılar.

Hamısı məni xoşbəxt və mehriban təbəssümlə qarşılayıb oradan-buradan sorğu-suala tutdular. Yalnız bacım Firəngiz susub mənə təəccüblə baxırdı və mən bunu hiss edərkən tələsik öz otağıma keçib qapını örtdüm, daha doğrusu bağladım. Sonra yun şalı çıxardıb açarı həmişə özümdə olan böyük kitab şkafında gizlətdim. Axşam saat doqquzda yenə də otağımın qapısını bağlayaraq yun şalı sahibinə göndərmək üçün şkafdan çıxartdım. Çit bağlamanın qırçını arasından təzə merinos yunundan toxunmuş şalın bir parçası görünürdü (*İ.Ə.*).

II

Sənin bu rejimin məni lap təngə gətirdi. Bax, sənə qəti deyirəm, Kəmalə, bu fantaziyalarından birdəfəlik əl çək. Şəxsi fikirlərlə ümumi işlərə əngəl törətmə. Yoxsa, mən səninlə çox ciddi danışmalı olaram.

Eldar bu kəskin xəbərdarlıqdan sonra dönüb sürətlə qonşu sahəyə tərəf getdi. Onun hirsli-hirsli dediyi sözlərdən, bu gözlənilməz hərəkətindən Kəmalə duruxdu. Dəfələrlə etdikləri mübahisələrdən fərqli olaraq, bu dəfə gördüyü münasibət onun qəlbində Eldara qarşı anlaşılmaz bir şübhə doğurdu. Aylardan bəri özünə yaxın hesab etdiyi Eldar elə bil ki, bir anda ürəyindən qoparaq ayrıldı, ona çox uzaq, çox yad göründü. Lakin bu qorxunc hiss bircə anlıq yaşaya bildi. Sonra isə mədənin ümumi işinə bütün varlığı ilə bağlı olan mühəndis, sevgilisinə heç bir vəch ilə xəyanət etməyəcək. Eldar öz böyük məhəbbəti və işgüzarlığı ilə onun qəlbində yenidən ucaldı.

Kəmalə sətin iş pencəyini geyərək mədəni budkadan çıxdı. Qarışıq düşüncələr içərisində, təmir işi aparılan quyulardan birinə tərəf irəlilədi. Yandakı təpənin üstünə

çıxınca onun gözləri qarşısında bütün sahə, bütün mədən canlandı. Hər addımında bir iş qaynayan buruqların arasından yüklü maşınlar sürətlə ötüb keçir, qaldırıcı traktorlar ağ tüstü buraxaraq gurlayır, kompressor stansiyasının boğuq fısıltısı eşidilir, mancanaq dəzgahları qalxıb enir, bütün bu işləri idarə edən adamlar yorğunluq bilmədən çalışırdılar. Kəmalənin nəzərini daha çox cəlb edən başqa bir şey idi. Onun baxdığı mancanaq dəzgahlarından bəziləri dik duraraq elə bil kiminsə yolunu səbirsizliklə gözləyir, bəziləri isə ümidləri qırılmış halda başlarını quyunun ağzına qoyub dərin yuxuya getmiş kimi dururdular. Bu mancanaqlardan birisi də 465-ci quyunun üstündə idi. Gənc usta kədərli baxışlarla buruğa xeyli nəzər saldı, sonra qəti bir hərəkətlə dönüb yoxuşu enməyə başladı. O, yeraltı təmir briqadasının işlədiyi quyunun döşəməsi üstünə qalxdı. Usta köməkçisi Saşa qızın salamını alan kimi məlumat verdi:

– İşlər yaxşı gedir, Kəmalə, uşaqlar söz veriblər ki, quyunu sabah səhər işə salaq (*Ə.Əs.*).

III

Gecə yarıya qədər qarı özü də yatmadı, gəlini Ağgülü də yatmağa qoymadı. Bir aydan bəri yığılan qatığı çalxaladı.

O, hər gün uşaqlara verdiyi süd-qatığı azaltdıqca deyərdi: "Qoyun bir az yığaq, çalxalayaq, yağımız olsun, təzə dən çıxan kimi sizə fəsəli bişirəcəyəm". Uşaqlar "fəsəli" sözünü eşidəndə atılıb-düşür, azacıq süd, yaxud, qatıqla kifayətlənərdilər.

Sənəm qarı körpələrinin boğazından kəsib yığdığı qatığı çalxaladı, ancaq uşaqlara heç nə göstərmədi. Sübh tezdən yağ kasasını, yumurta yığdığı xırda səbəti və çal xoruzu qoltuğuna vurub kəndin günbatanına tərəf yollandı.

Şeyx Mir Məmmədrəsul səhər tezdən qara yüsür təsbehini çevirə-çevirə, tünd-qırmızı saqqalını tumarlayıb kənddən gələn yola tamaşa edirdi.

Şeyx Ballıca kəndinin qərbində, çox səfalı bir yerdə kattanın "cənnəti-əla" adlanan bağçasında yaşayırdı. Ona xalçalarla bəzənmiş bir mənzil verilmişdisə də, "müqəddəs ağa" bağçanın üçgöz bulağa yaxın yerində, özünə çadır qurdurmuşdu. Həmin bulaqdan kəndin qız-gəlini su aparırdı...

Şeyx, qoltuqları dolu gələn qarını xeyli uzaqdan görən kimi özünü doğruldub ciddi bir görkəm aldı və dodaqlarını tərpətməyə başladı. Qarı yaxınlaşdıqda o, dodaqlarını tez-tez tərpətdi, qırmızı sifətini daha da ciddiləşdirməyə çalışıb gələn adama dua ilə məşğul olduğunu bildirmək istədi.

Sənəm, çadırın qapısından girib şeyxlə üz-üzə gəldikdə, taqətdən düşmüş kimi, qılçaları titrədi, əlləri əsdi, qolları boşaldı, çal xoruz onun qoltuğundan pırıltı ilə uçdu, qanadlarını ora-bura çırpıb şeyxin peysəri kimi qızarmış pipiklərini oynatdı. Şeyx dua üstündə ona mane olan bu quşa əyri-əyri baxdısa da, xoruz qapıdan çıxmaq istədikdə ayağı ilə vurub onu geri qaytardı.

Sənəm şeyxin qabağında baş əydi, dili tutula-tutula salam verdi. Şeyx qızarmış iri gözlərini hərləyib qadının sir-sifətinə və qoltuğundakılara xəlvəti baxdı.

Deyəsən qadının qocalığı və qoltuğundakı şeylərin azlığı şeyxi açmadı, o, üz-gözünü turşutdu. Dodaqları tez-tez tərpəndi (*B.B.*).

**§ 68.** Mətni oxuyun, dilönü və dilarxası ahəngə tabe olmayan sözləri seçib yazın.

I

Səbri təhsildən qayıtdığı gündən iki il keçirdi, amma yoldaşı Ədhəmlə birinci dəfə görüşürdü. Bunun səbəbi vardı. O, Ədhəmi həmişəki kimi yox, olduqca fövqəladə

bir şəraitdə, gözəl bir əsər yazdıqdan sonra görmək istəyirdi. Çünki Səbri hələ Moskvaya yola düşəndə, Ədhəm ona isteza edirdi: "Təhsil-gücünə kompozitor olacaq!" deyirdi. Həm deyirdi, həm də nəşə ilə gülürdü.

Ədhəmi bütün şəhər tərifləyəndə, Səbrini pisləyirdi. Ədhəm onun hər bir əsəri haqqında acı lətifələr düzəldirdi. O, istedadlı bir təlxək idi: həm özü gülürdü, həm də başqalarını güldürürdü. Bəzən Səbri özü də gülməyə məcbur olur və bu lətifələri uydurmağa vaxt tapan Ədhəmi alqışlayırdı. Bəlkə də səhv edirdi. Amma Ədhəm bu alqışlara layiq bir təlxək idi.

Hələ "məşhur tənqidçi" Ağazadə elə bil onunla əlbir idi. Hər şeyə dair məqalə yazmağı bacaran, teatrı, estradanı, sirki, tarixi, Azərbaycan ədəbi dilini və hətta ədəbiyyatını öz doğma ixtisası bilən bu tənqidçi musiqi haqqında az yazmamışdı. O, məşhur fransız ensiklopedistləri kimi geniş sahələri qavramaq istəyən, lakin onların qapısında süpürgə çəkməyə layiq olmayan bir tip idi. Qəzet sütunlarını, teatrın bahalı lojalarını, operanın qabaq cərgələrini böyük bir ehtiramla Ağazadəyə təqdim edənlər də vardı. Müxtəsər, "məşhur tənqidçinin" qələmi aləmə qan uddurduğu kimi, Səbriyə də göz verib işıq vermirdi. Cavan istedadları böyük məharətlə qəbrə gömən bu tənqidçidən kompozitorla dirijor arasındakı fərqi soruşsaydılar, o, sümüklü eynəyini düzəldib ötkün səslə cavab verərdi:

– İkisi də bir sözdür. Mədəni ölkələrdə kompozitor deyirlər, amma yarımmədəni ölkələrdə dirijor.

Həmin bu "məşhur tənqidçi" uzun müddət Səbrinin yazdığı əsərləri dinləyənlər üzünə həsrət qoydu, ona məsləhət gördü ki, "aqronomluğa, bəlkə də ondan daha mədaxilli olan baytarlığa getsin".

Səbri gənc idi. Təcrübəsiz idi. Təlxəkliyi bacarmırdı. Ancaq onun, "məşhur tənqidçi" qədər olmasa da, hər

halda özünə görə qənaəti vardı: – Mənim biliyim çatışmır, Moskvaya gedib oxuyacağam.

O, Ağazadə ilə məsləhətləşmədən təhsil almağa getdi. Dörd il oxudu, iki il də məşhur musiqi ustaları ilə birlikdə işlədi. Onların təcrübəsi ilə yaxından tanış oldu. Səbrinin qüvvətli istedadını görən qoca ustalar ona məsləhət gördülər ki, yenə vətənə qayıdıb bədii yaradıcılığa başlasın.

Beynəlxalq yarışlardan böyük qələbə ilə çıxan gənc ustalar yetirmiş qoca müəllim Səbrinin alnından öpüb deyirdi:

– Xalqınızın zəngin musiqisi var. Böyük rus kompozitorları çox vaxt sizin musiqinizdən istifadə edərək, ölməz əsərlər yaratmışlar. Siz də bu yolla gedin, ilk əsərinizdə xalq ruhunun aydın izləri görünür. Yalnız bir nöqsanı vardır ki, səviyyəcə yüksək deyil. Gedin əziz vətənə, bir neçə ildən sonra yenə görüşərik.

Səbri Bakıya qayıdandan sonra iki il də rayonları gəzdi, kəndləri dolaşdı, tütək çalanları dinlədi, zurnaçılara qulaq asdı, aşıqları oxutdurdu, toy məclislərində, el bayramlarında böyük bir həvəslə iştirak etdi. Xalq dastanlarını, el qəhrəmanlarının maraqlı sərgüzəştlərini öyrəndi və şəhərə dönərkən, özü ilə bərabər insanı heyrətə salan zəngin materiallar da gətirdi. Bu gün çaldığı əsər, onun yazdığı "Azad insan" simfoniyası idi.

O, istehzalı təbəssümlərə məruz qalan balaca əsərlərdən sonra, müəllimlərini və dostlarını sevindirən bir simfoniya yaratmağa müvəffəq olmuşdu. Səbri dərin bir sevinc hissi duymaqda haqlı idi (*M.H.*).

II

Konsert salonunda oturmağa yer yox idi. Çox adam cərgələrin arasında, geridə ayaq üstündə durur, gənc kompozitorun səhnəyə çıxmasını dərin bir intizar içində gözləyirdi. Bugünkü qəzetlərin axırıncı səhifəsində Səbrinin

yeni əsərinə dair bəzi qeydlər vardı. Məqalə yazanlardan biri sevinclə göstərirdi ki, cavan kompozitor zəngin xalq musiqisindən istifadə edib, dərin, orijinal, sarsıdıcı bir simfoniya yaratmışdır. Bu fikri söyləyən, əlbəttə, "məşhur tənqidçi" Ağazadə deyildi. Görünür o, konsert günündən sonra yazacaqdı. "Tamaşaçılar isə Ədhəmin düşündüyü kimi, heç də kinli deyildilər! Onlar bəlkə də Səbrini tamam unutmuşdular, yaxud altı il əvvəl eşitdikləri əsər haqqında Ağazadənin yazdığı sözləri etirazla qarşılayıb Səbrini bir də dinləmək istəmiş, amma buna imkan tapmamışdılar. Səbrini də, əsərlərini də dinləyənlər üzünə həsrət qoyan o olmuşdu. Xalq isə, həmişə olduğu kimi, indi də sevməyi bacarırdı. O, özünün böyüyüb yüksəltdiyi gənc oğlandan daha mənalı, daha istedadlı nəğmələr eşidib zövq almağa gəlmişdi.

Hələ konsertin başlamasına yarımsaat qalmış gələn Səbri köhnə kostyumunda idi; o, yalnız qara qıvrım saçlarını səliqə ilə darayıb; üzünü tərtəmiz qırxmışdı. O, hər şeyi unutmağa səy edib, xeyli dalğın görünürdüsə də, konsert başlanan vaxtın elə bil qeyri-adi bir sürətlə yaxınlaşdığını duyub, ürəyi bərk döyünə-döyünə estradanın yanındakı ağ məhəccərə söykənərək, oğrun-oğrun tamaşaçılara baxırdı. O, yenə birinci cərgədə Ağazadəni gördü. Yalnız intiqam üçün yaranmış bu insan, sümüklü eynəyinin altından dik-dik baxır, Səbri haqqında əvvəlcədən qərar hazırlayırdı.

Səbri tamaşaçılar içərisində yaxşı tanıdığı köhnə məktəb yoldaşlarını, qoca müəllimlərini, tanış qızları görəndə əllərinin titrədiyini, dərin və anlaşılmaz bir sevinclə dolan ürəyinin daha da şiddətlə döyündüyünü hiss edib, özünü toplamağa çalışdı və sonra qoca çalğıçıya dönərək soruşdu:

– Başlayırıqmı?

Uzun illərdən bəri dirijoru yalnız səhnədə, xeyli intizardan sonra görməyə vərdiş edən qoca, Səbrinin adi

adamlar kimi heç bir xüsusi hazırlıq görmədən, heç kəsi dalınca gəlib "vaxtdır, buyurun!" deməyə məcbur elmədən gəldiyini xəfifcə bir təbəssümlə qarşıladı, mehriban və titrək bir səslə:

– Vaxtdır, – deyib Səbridən uzaqlaşdı.

Səbri yenə məhəccərə söykəndi. Ancaq indi tamaşaçılara yox, Bakının düz üstündən dənizə enmiş ayın sularda əks edən gümüş pullarına, böyük bir qurşaq kimi şəhərin boynuna dolanmış sayrışan sahil işıqlarına baxırdı.

Bu gün Bakı daha gözəl idi. Böyük Qorkinin Sovet Neapolu adlandırdığı bu şəhərin axşamlarını Səbri ta uşaqlıqdan sevirdi. Yalnız bircə dəniz, onun sahili döyən möhtəşəm dalğaları, qəşəng bir dairə kimi uzanan sahil boyu nəyə dəyməzdi?

Səbri elə bil hər şeyi unudub, yalnız doğma şəhərinin əfsanəvi gözəlliklərini daha yaxşı duymaq üçün buraya gəlmişdi.

Səbrinin əsərində bir insanın taleyindən bəhs edilirdi: təbiətin dilbər qoynunda azad boyumuş insan rütubətli, dar və qaranlıq bir məhbəsə düşmüşdü. Uzun illər boyu sevinc üzünə həsrət qalmışdı. O, düşünürdü, həyəcanlanırdı. Güclü yumruqları ilə məhbəsin dəmir qapılarını döyəcləyirdi, haqsızlığa qarşı üsyan edirdi. Amma yenə də zindanın qatı zülməti əksilmirdi. İnsan günəşdən, həyat işığından məhrum qalmışdı. Sonra o, birdən əzəmətli şəhərin küçələri ilə axıb gedən xalqın nəğməsini eşitdi: azadlıq nəğməsini!.. (*M.H.*)

III

... Sanki yer üzündə qara bir örtük çəkilmişdi. Axşamdan başlayan yağış sakitləşmirdi. Buralarda insan yaşamırmış kimi bütün evlərin çırağı sönmüş, qapıları bağlanmışdı. Qaranlıq fəzada yanıb-sönən fişənglər və ara-sıra

eşidilən pulemyot atəşləri cəbhə xəttinin qəsəbənin kənarında olduğunu hiss etdirirdi.

Belə qaranlıq, yağışlı gecədə qoşun hissələrindən göndərilmiş kiçik bir kəşfiyyatçılar dəstəsi düşmən arxasında axtarış aparırdı. Cəmisi dörd igiddən ibarət olan bu dəstəyə ortaboylu, enlikürəkli, iti baxışlı bir serjant başçılıq edirdi. İlk baxışda bu adam hamıya əsəbi, kinli görünürdü. Lakin yoldaşlarının dediyi kimi, ondan yerdə sürünən qarışqalar da inciməmişdi, o yalnız faşistlərin qənimi idi.

Müharibə başlanan zaman o, kolxoz hesabdarı idi. Rayonun gəncləri ilə birlikdə o da cəbhəyə könüllü getmişdi. Sadə hesabdar müharibə cəbhələrində tez zamanda böyük şöhrət qazandı. Cəbhəyə gəldiyi ilk gündən kəşfiyyatçılıq edən bu serjant bütün döyüş fəaliyyəti dövründə yüzdən çox alman zabiti və soldatını əsir almışdı. Ən mürəkkəb və təhlükəli tapşırığı yerinə yetirməyə gedərkən belə halını dəyişdirməzdi. Getdiyi yerdən də boş qayıtmazdı.

Lakin bu gecə o, öz kiçik dəstəsi ilə diri alman tutmağa deyil, düşmən cəbhəsini öyrənməyə gəlmişdi. Axşamdan qəsəbənin ətrafında gəzib-dolanırdılar. Kimsə onları görmürdü. İsmayıl tapşırılan yerləri yoxlayıb gecədən xeyli keçmiş öz kiçik dəstəsi ilə geriyə döndü. Ancaq gəldiyi yolla deyil, tamamilə başqa yolla qayıtdı.

Qəsəbənin şimal-şərq qurtaracağına çatarkən birmərtəbəli böyük bir evin pəncərəsindən gələn işıq serjantın diqqətini cəlb etdi. O, evdən təxminən yüz metrlikdə olan ağacın dibinə uzanıb ətrafa qulaq asmağa başladı. O biri kəşfiyyatçılar da onun arxasında və yanlarında uzanıb plaş-palatkaya büründülər. Yağış əvvəlki şiddətlə yağmaqda davam edirdi.

Bu ev nədir? İşıq gələn otaqda kim var? Serjantı bu suallar məşğul etdi.

Doğrudur, evin işıq gələn pəncərəsi cəbhə tərəfə deyil, düşmənin öz arxasına baxırdı. Bəs nə üçün örtülməmişdir? Bəlkə də arxadan gələn maşınlar üçün bu mayakdır? Onsuz da maşınlar hər cür qaydanı pozaraq işıq verə-verə hərəkət edirdi. Yoxsa, əsgərlərin sadəcə səhlənkarlığı üzündən işıq açıq qalmışdır?..

Serjant bu fikirlərdə ikən onun qulağına musiqi səsləri gəldi. Ancaq səsləri ayırd edə bilmirdi. Gah ağız qarmonu səsi eşidirdi, gah da skripka səsi. Gecənin bu vaxtı bu nə konsertdir? Yoxsa alman zabitlərinin zövqünü oxşamaq üçün Berlindən buraya artistlər gəlmişdir? O gülümsəyərək yanındakı yoldaşlarına:

– Deyəsən bu gecə konsertə qulaq asacağıq, – deyə pıçıldadı.

Bir az sonra otaqda qəhqəhə qopdu və kobud kişi səsi ilə oxunan anlaşılmaz bir mahnı eşidildi.

Serjant uzun müddət müşahidə edib fikirləşdikdən sonra döyüşçülərə yaxın gəlməyi işarə etdi. Güclə eşidilən bir səslə:

– Çumakov, Vasya və Murad mənimlə gedəcək, Levon ilə Cahangir burada qalacaqlar. Yerinizi bildirməyin. Əgər biz gedən yerdə atışma olsa, demək geri çəkiləcəyik. Avtomatdan atəş açmaqla bizə kömək edərsiniz. Əgər bu tərəflərdə bir şey hiss etsəniz, tez xəbər verin. – Serjant kəşfiyyatçılarına müfəssəl göstəriş verdikdən sonra üç nəfərlə evə tərəf hərəkət etdi (*M.A.*).

**§ 69.** Oxuyun, dodaqların vəziyyətinə görə saitlərin bir-birini izləməsini müəyyənləşdirin. Birinci sütunda damaq, ikinci sütünda isə dodaq ahənginə tabe olan sözləri seçib yazın.

***Nümunə:***

| *Damaq ahəngi:* | *Dodaq ahəngi:* |
|---|---|
| sərsəri | odunçu |
| başlandı | oğlunun |

I

O gündən odunçu oğlunun sərsəri həyatı başlandı. O, yurdsuz-yuvasız azad bir nəğməkar idi. Az zaman içərisində onun şöhrəti bütün şəhər və kəndlərə yayıldı. Hər yerdə onu tanıyırdılar. Hər yerdə onu əziz bir qonaq kimi gözləyirdilər. Onun səsini bircə dəfə eşitmək üçün bəziləri həftələrlə onun dalınca gəzirdilər. O, yenə də öz təbiətinə sadiq idi: azad nəğməsini heç kəsə satmırdı; zəngin məclislərdə bir gecəsinə təklif edilən qucaq-qucaq qızıllardan imtina edir, təsadüfən gəlib çıxdığı yoxsul bir kəndli komasında isə gecə keçənə qədər oxuyur və muzd olaraq ona verilən bir batman arpanı minnətdarlıq hissi ilə dalına atıb yoluna davam edirdi.

İndi onun bəstələdiyi nəğmələr el arasında dildən-dilə gəzirdi. Bəzən o, öz mahnılarının meydanlarda, çayxanalarda başqaları tərəfindən oxunduğunu eşidərkən duyurdu ki, o, artıq ölüb gedəndən sonra da ondan bu dünyada nə isə qalacaq, onun azad könül nəğmələri heç vaxt ölməyəcəkdir. Onlar həmişə qanad çalıb gələcəyə ucalacaqlar, ağır günlərdə elin dərdinə şərik olacaqlar, xoş günlərdə xalqın sevincində səslənəcəklər.

Bir gecə o, qonaq qaldığı bir kəndli komasında gözlərini yumarkən birdən – sanki vücudunun ağırlığını itirdi, sinəsində yeni bir mahnının doğulduğunu hiss etdi. Səhərə qədər yata bilmədi. Qollarını başı altına çataqla – yaraq dodaqlarında bu mahnının gah ürküb qaçan, gah yenidən qayıdan tərənələrini zümzümə etməyə başladı və birdən bu

mahnıda Çimnazın unudulmuş xəyalı həzin bir külək kimi hardansa qopub ona doğru gəldi. O, səhər açılar-açılmaz durub kəndlərinə tərəf yola düşdü.

Aşxamüstü kəndləri yanındakı meşəyə çatdı. Dağlardan əsən külək üzünə vurduqca ilk gəncliyinin xatirələri xəyalında canlanır, mehriban bir dost kimi onu haraya isə çəkirdi. O, qeyri-ixtiyari meşəyə girdi. Ağır-ağır köhnə tanış cığırları dolandı. Nəhayət külək yıxmış qoca palıd ağacını tapdı, onun üstündə oturub dincəlmək istədi. Lakin dərhal ilk gəncliyinin həsrətli mahnıları sinəsində qaynadı (*Ə.M.*).

II

Sevinc və müdhiş fikirlər bir elektrik sürəti ilə bir-birini təqib edərək, zehnindən fırlanıb keçirdi. Hər halda Gülzar onun bütün iztirablarına şahid olan bu Quranın onu tək buraxmayacağına, kömək və himayə edəcəyinə, zəif bir inamla da olsa inanırdı. Bu ümidin nəticəsi olaraq, Gülzarın başında xoşbəxt və sürəkli bir ümid parladı: "İndi Mənsur qollarını açacaq, – eybi yox, mən səni bağışlayıram, çünki inanıram ki, səndə taqsır yoxdur, deyəcək və onu qucaqlayacaqdır". Hətta bunu Mənsurun da gözlərindən oxumaq olurdu. Ancaq Gülzar bu halında bunun fərqinə varmırdı; həm də bu dəqiqədə belə şeylərlə sevinmənin vaxtı deyildi. Burada artıq xəyal, xülya deyil, ümid, arzu deyil, bir həqiqət olaraq ölüm-dirim məsələsi həll edilirdi ki, o da Mənsurun verəcəyi cavabdan, edəcəyi hərəkətdən asılı idi.

Mənsur düşünürdü. Sanki bu sözlərin doğruluğunu Gülzarın üzündə oxumaq istəyirmiş kimi, bıçaq kimi iti baxışlarını onun üzünə dikdi: önündə iki uçğun, süzgün göz gördü ki, məsum baxışlarında odlu bir fəryad inləyir, tam dərinliklərində bir doğruluq, bir səmimiyyət, bir paklıq, bir günahsızlıq gülümsəyirdi. Gülzarın iki damcı göz yaşı yuvarlanmış, solğun yanaqlarında durmuşdu; indi

dodaqları hənuz əsəbi bir həyəcanla titrəyir və bütün bu həyəcanlarla, bütün bu solğunluqlarla Mənsur qarşısında pak və olduqca gözəl bir qız görürdü. Bu sevimli qızın məsum ruhuna toxunmaq, qəlbini qırmaq, incitmək heç də insafdan deyildi. O, təbiətin azad qoynunda bəslənmiş bir çiçək idi ki, ruzigarların xəfif bir ağırlığından solacaq, töküləcək, məhv olub gedəcəkdi... Halbuki o, ən tutqun bir həyatı süslədə bilər, həyatın ən dərin qaranlıqlarını bir səadət şəfəqilə işıqlandıra bilərdi. Xüsusilə bu dəqiqədə Gülzar elə bir görünüş almışdı ki, ona kimsə acımaya bilməz, eyni zamanda, onun bu vəziyyəti ilə aldığı məhzun bir gözəlliyə qarşı kimsə pərəstiş etməyə bilməz, onu sevməyə bilməzdi. Bəli, Gülzar kim olursa-olsun, nə olursa-olsun, indiki dəqiqəsində gözəl, sevimli, ən pak bir qızcığaz idi.

Mənsur bunları hiss edirdi, kim bilir, daha nə kimi doğrultmalar düşünmüşdü. Hər halda bir məsum qızı, bir an əvvəl sevindirmək üçün böyük bir zövq, bir məmnuniyyət və vüqarla: “Çox yaxşı, inanıram, ağlama”, – deyə bir kəlmə söyləmək, onu qucaqlamaq, ovundurmaq, sonra uzun-uzadı düşünüb, gələcək üçün bir çox şərtlər qoymaq istəyirdi (*C.C.*).

III

Bir neçə aylıq təcrübədən sonra Səlimə Sumqayıtdakı sintetik-kauçuk zavodunda lent maşınını idarə edirdi.

Onun geyimi başqa qızların geyimindən seçilməsə də, ağ bənizi, işıq saçan ala gözləri, oynaq, qıvrım saçları hamının, hətta qızların da ürəyinə yatır, zövqünü oxşayırdı. Amma Səliməni rəfiqələrindən ayıran başqa bir şey də vardı. Səlimənin xasiyyəti, davranışı, çevikliyi və ötkəmliyi onu qızdan çox davakar bir oğlana bənzədirdi. Bu da təsadüfi deyildi. Səliməgil təzə mənzilə köçməzdən əvvəl şəhərin ucqar məhəllələrindən birində yaşayırdılar. Ata-

anası işə gedən kimi evdə darıxan qız həyətə, küçəyə çıxıb uşaqlarla "topaldıqaç", "səndə-məndə" oynayırdı. Onun oyun yoldaşları, əsasən, oğlanlar, yeniyetmələr idi. Uşaqlıqdan bəri həyət və məhəllə oğlanları arasında böyümüş bu qız özü də oğlanlar kimi ötkəm olmuşdu.

İş zamanı maşınını səliqə ilə rahatlayıb hərtərəfli nəzərdən keçirdikdən sonra Səlimə gərdənini dəmir məhəccərə söykəyib zavodun ilk sexlərində hələ qaz halında olan xammalın, maye halında bu maşına yetişib elektrolitlə birləşərək get-gedə qatılaşmasını və bir neçə addım yol gedib bərkiməsini, fil dişi rəngli kauçuka çevrilməsini seyr edir, ürəyi fərəhlə dolurdu.

Aşağı şöbədə Səliməni hər şeydən çox maraqlandıran avtokar idi. O, belə maşınlara dəmiryol stansiyalarında təsadüf etmişdi. Onlar baqajı özlərinə yükləyir, anbarlara aparırdı. Qarşıdakı kiçik meydançada dayanmış bir nəfər əlindəki dəstəkləri aşağı-yuxarı verib bu maşını idarə edirdi.

Yəqin ki, bu maşınları sürmək çox asandır, – deyə Səlimə düşünürdü, – bu gün növbədən sonra xahiş edəcəyəm ki, sürücü mənə icazə versin, bir az mən də sürüm.

Səlimə heç vaxt öz qərarından dönməzdi. Növbəni təhvil verən kimi dəmir pillələrlə aşağı mərtəbəyə endi.

– Mənə bax, ay oğlan, deyə xahişdən daha çox tələbi andıran bir əda ilə dilləndi, – ver sənin maşınını sürüm... Mən...

Əllərini kilkə ilə silən oğlan heyrətlə ona sarı çevrildi və Səlimə nədənsə quruyub qaldı, nitqi kəsildi. Qısa, sıx kirpiklərlə əhatə olunmuş bu məsum baxışlı xırdaca qara gözlər ona hardansa tanış idi (*H.S.*).

**§ 70.** Oxuyun, dodaq və damaq ahənginə tabe olmayan sözləri seçib yazın.

*Nümunə:* Çoban, otararmış...

I

Vaxtı ilə dağlarda Qaya adlı bir çoban qoyun otararmış. Günlərin birində Qaya öz qoyunlarını suvarmaq üçün Nəsib çeşməsinin başına gətirdiyi zaman çeşmənin yaxınlığında bir ağlamaq səsi eşidir. O səs Qayanın fikrini məşğul edir, qoyunlarını buraxıb səs gələn tərəfi axtarır və o, hiss edir ki, bu səs uşaq səsidir. Qaya çoban bu cür hadisələrə tez-tez təsadüf edərmiş, çünki el köçdüyü zaman uşaqların köçdən düşüb qalması çox da təəccüblü iş deyildi. Qaya bir neçə saat gəzəndən sonra daşların arasında təmiz yorğana bürünmüş bir uşaq qoyulduğunu görür. Çoban uşağı götürərkən hər şeyi unudur, qoyunları çeşmənin başında buraxıb, karvana yetişib uşağı vermək üçün tələsir. O, dağdan düşüb həmin bu kəndin yerində olan dörd evli binəyə gəlir, uşağı qadınına göstərir. Arvadı uşağı yorğandan açıb baxdığı zaman onlar uşağın belinə bağlanmış qırmızı bir ipək dəsmal və dəsmalın içində bir qədər qızıl, bir çox qiymətli daşlar olduğunu görürlər. Qaya bu qızılları və daş-qaşı gördüyü zaman uşağı karvana yetirmək fikrindən daşınır, qızılları və qiymətli daşları, hətta dəsmalda olan yazılı bir kağızı haman ipək dəsmala bağlayıb balaca bir qutuda gizlədir. Qnlar bu sirri bir kimsəyə bildirməmək üçün kağızı da heç bir kəsə oxutmaq istəmirlər. Onlar uşağın adını Canpolad qoyub bəsləyirdilər. Uşaq 18 yaşına çatdığı zaman öz Gözəl adında qızlarını da Canpolada verirlər. İllər uzunu oğlanla qız qocalmış çobanı əvəz edib dağlarda qoyun otarırdılar, onların bir neçə uşağı da olur. Qaya çobanın yaşadığı kiçik binə böyüməyə başlayıb bir kənd şəklinə düşür. Qaya ölür, Canpoladla Gözəl şən bir həyat düzəldib yaşamağa başlayırlar. Günlərin birində axşamçağı Canpoladın qapısı vurulur. Canpolad qapını açdığı zaman beli bükülmüş və tükləri ağarmış bir qoca içəri girir. “Qonaq istəyirsinizmi?” – deyə soruşduqda, Canpo-

lad və Gözəl onu çox hörmətlə qəbul edirlər. Qoca onların evində bir neçə vaxt yaşayır. Canpolad və onun gənc qadını qocanı öz ataları kimi sevməyə başlayırlar.

Sən öz atanın kim olduğunu bilmək istəyirsənmi? – dedikdə, Canpolad diqqətlə qocanın üzünə baxır, "yəqin ki, qoca mənim atamdır" deyə qəlbində bir həyəcan başlayır və qocaya sual verir:

– Söylə, qoca, sən mənim atammısan?

– Yox, mən sənin atan deyiləm, lakin atanın kim olduğunu bilirəm. Ancaq çobandan sizə qalan mirası mənim yanıma gətirsən, atanın kim olduğunu sənə deyə bilərəm.

– O mirasdan xəbərim yoxdur.

– Axtarmaq lazımdır.

– Naməlum qocanın bu sözündən sonra Canpolad hər yeri axtarır. Nəhayət, odunların altından bir qutu çıxarıb gətirir. Qoca qutunu açıb əvvəlcə kağızı Canpolada oxuyur və sonra da qiymətli şeyləri ona qaytarıb deyir ki, bunları yaxşı saxlayın. Bunlar gələcək üçün müqəddəs bir mirasdır. Bu hadisədən sonra, qoca bir neçə ay da orada qalıb Gözələ və Canpolada dərs verib yazı öyrədir, onların atasının yolunu və qoyduğu qanunları nə ki var onlara və uşaqlarına tanıdır. Qoca bu vəzifəni bitirəndən sonra Canpolad və arvadı evdə olmadığı zaman birdən-birə yox olur, hansı tərəfə getdiyi məlum olmur (*M.S.O.*).

II

Yay fəsli ömrünün son günlərini başa vurub bu yerlərdən köçəndə bağların təravətini də, yaşıllığını da özü ilə apardı. Xəzan gəldi, təbiət donunu dəyişdi. Yarpaqlar saraldı, havalar soyudu, yağmurlu, çiskinli günlər başlandı. Əvvəllər səhər mehindən başlarını yırğalayan yaşıl otlar solub yerə yatdı. İndi günəş bozumtul buludların arxasında gizləndiyindən nə Xəzərin sinəsi parıldayır, nə də torpaq isinirdi.

Göylər qaşqabaqlı görünürdü. Dəniz tez-tez kükrəyir, şəffaf mavi suların rəngi bulanırdı; köpüklü dalğaların vurub sahilə çıxardığı xırda balıqları yeməyə gələn quşların sayı artırdı. Yel əsdikcə ağaclar xışıldayır, saysız-hesabsız yarpaqlar rütubətli torpağa düşürdü. Bu günlər Möhsün əmi çox kədərli olduğundan buludlu göylər kimi onun da qaşqabağı açılmırdı. Kişi narahatlıqdan evdə otura bilmirdi. Səhərdən axşamadək bir neçə yol Gülşənəm qarıgilə gedib gəlir, hey düşünürdü.

Möhsün əmini heç kim indiki qədər pərişan görməmişdi. Xəzan gələndə özü ilə qocaların qəlbinə bir kədər gətirdi. Qəfildən Gülşənəm qarını iflic vurub yerə yıxdı, qarı yorğan-döşəyə düşdü. Möhsün əmi onun dərdini öz canında duyurmuş kimi gündən-günə sınıxmağa başladı. Həyatda rahat yaşamasına yeganə kömək olan bu arvadın birdən-birə hərəkətsiz düşüb qalması kişinin əl-qolunu bağladı: ona heç bir iş görməyə imkan vermədi.

Möhsün əmi kəndə getdi, xəstənin üstünə həkim gətirdi. Lakin iş-işdən keçmişdi: qarının bədəninin sol tərəfi ölmüşdü. Ona vurulan iynələrin də təsiri olmadı. Vəziyyəti belə görən Möhsün əmi qarıya baxmağa bir arvad tutdu.

Möhsün əmi gecəni səhərədək kirpiyi ilə od götürüb arvadın yanından getmirdi. Ona yemək verir, su içirdir, dəsmalla alnını, üzünü silirdi. Kişi hərdən dözə bilməyib xəlvətdə ağlayırdı, isti göz yaşları yanaqlarından axıb saqqalının içində görünməz olurdu. Uşaq xətrindən keçən şeyi atasından istədiyi kimi, qarı da Möhsün əmiyə gündə bır sifariş edirdi: "Bir dilim qarpız olsaydı, yeyərdim, ürəyim sərinlərdi...". Yarımca saat sonra padnosda doğranmış qarpız hazır olurdu. "Mənə bir nar gətirsəydin savab iş görərdin". Azacıq keçmiş Möhsün əmi narı stəkana sıxıb suyunu qaşıqla ona içirirdi. Qarı sayıqlayanda gah yelləncəyə minməyi arzulayır, gah sinəsinə qoymağa buz parçası istəyir, gah da cürbəcür şeylər xahiş edirdi (*S.Q.*).

III

Sentyabr ayı sona yetdikcə yarpaqlar saralırdı. İndi nə Möhsün əmi, nə Gülşənəm qarı özünü bu kimsəsiz bağlarda tək sanmırdı. Onlar tez-tez bir-birlərinə baş çəkir, səhhətlərini soruşur, hərdən dadlı xörəklər bişirəndə birlikdə yeyirdilər. Möhsün əmi qarını ağır iş görməyə qoymurdu, ona əlindən gələni edirdi. Gülşənəm qarı da kişinin yanında xəcalətli qalmaq istəmirdi. “Sabah paltar yuyacağam ay kişi, gələndə dəyişəyini gətirərsən”, deyə xəbərdarlıq edirdi. Ertəsi gün Möhsün əmi arvadın vedrəsini aparıb ona su gətirər, odun yarar, ocaq qalardı...

Bəzən qarının əyni nazik olanda canıyananlıq edib ona ərklə acıqlanırdı da:

– Ay arvad, sən də mənim kimi yorğan-döşəyə düşmək istəyirsən? Cavan qız deyilsən ki, belə nazik geyinmisən! Bu saat keç içəri, əyninə bir şey gey!

Gülşənəm qarı da onun sözündən çıxmazdı.

Hərdən Möhsün əmi tanış bağ gözətçilərini də evinə qonaq aparardı. “Bizim o qonşu arvadı çağırmışam bu axşam yağlı dəvə ətindən yaxşı bir qutab bişirəcək; gedək sən də yeyərsən”, – deyərdi.

Bazar günləri Gülşənəm qarının oğlu anasına ərzaq gətirməyi unutmasa da, artıq qarı bu köməyə o qədər ehtiyac hiss etmirdi. Buna görə də oğlu, son zamanlar gələndə maşının motorunu söndürmür, ayaqüstü arvadın kefini xəbər alıb qayıtmağa tələsirdi.

...Bu gün Gülşənəm qarı həyətə yenicə çıxmışdı ki, quyu tərəfdən bir nəfərin gəldiyini gördü. Arvad indi uzaqdan belə Möhsün əmini tanımaqda çətinlik çəkmirdi. Kişinin boyu da, yerişi də, səsi də ona tanışdı.

– Hə, necəsən? – deyə əlində bir salxım üzüm tutmuş Möhsün əmi ona yaxınlaşcaq, tüfəngini çiynindən aşırıb soruşdu. – Bir yerin-zadın ağrımır ki?

Gülşənəm qəddini düzəldib cavab verdi:

– Hələ ki, yaxşıyam.

Kəndə bazarlığa getmişdim, – deyə Möhsün əmi ağzını arvadın sağ qulağına tərəf verib ucadan danışmağa başladı, – üzübəri, bağlararası kəsmə gəldim. Bir salxım dərbəndi gördüm meynədə. Dərib yarısını yedim, canıma nuş olmadı, dedim, qoy yarısını da aparım Gülşənəm yesin, al! – O, iki barmağı ilə saplağından tutduğu üzümü qarıya uzatdı. Arvad üzümü aldı, bir gilə qoparıb ağzına apardı:

– Lap məcundur! – deyə dodaqlarını marçıldatdı.

Günortaya yaxın Möhsün əmi əliboş kor-peşman geri qayıtmağa məcbur oldu. Nə üzlə Gülşənəm qarının qapısını açıb gözünə görünəcəyini bilmirdi. Kişi ümidini tamam kəsmədiyindən bir quş vurmaq niyyəti ilə yolunu başqa səmtdən saldı. O, kolxoz bağlarının böyründən keçəndə köhnə tayanın dibinə bir dəstə sığırçın qondu. Qocanın qəlbinə fərəh doldu. Tez dizini yerə verib tüfəngin qundağını çiyninə söykəyərək tayanın yanını nişan aldı. Daha burada iti göz də lazım deyil (*S.Q.*).

## 2. Samitlərin ahəngi

**§ 71.** Mətni oxuyun, samitlərin həmahəngləşdiyi sözləri tapın və yazılı izah edin.

I

Aylar keçdi, soyuqlar düşən vaxt bir gün nazirlikdən birbaş evə gəldim. Özümlə gətirdiyim hazır layihələri Nazlıya göstərib dedim:

– Bir bax, əzizim, bir ildən bəri çəkdiyimiz zəhmət müvəffəqiyyətlə nəticələndi. Nazir bu gün Azərbaycanın ucqar rayonlarından keçən yüz kilometr asfalt yolun layihəsini təsdiq etdi. O gün Nazlı da mənimlə bərabər se-

vincək və fərəhli idi. Axşam rayonumuzdakı mədəniyyət evinə getdik. Afişalarda xəbər vermişdilər ki, bu gecə müsamirə olacaqdır.

Müsamirənin çalğı, rəqs və nəğmələrə həsr edilmiş çıxışları çox xoşumuza gəldi. Belə nəğmələrə qulaq asdıqca adamın yorğunluğu çıxır, sevincək olursan, ömrünü daha da xoş və firavan keçirmək istəyirsən.

Müsamirənin axırıncı hissəsində bir çalğıçı qızın adını çəkdilər. Birdən səhnədə ucaboy, tən qamətli bir qız göy zolaqlı pərdənin arxasından çıxıb səhnəyə qoyulmuş royala tərəf gəldi... Biz Nazlı ilə bir-birimizə qısılıb salonu titrədən alqış səsləri içərisində bu qıza heyran-heyran baxırdıq. O, həmin ağörpəkli, mayili baxan, girdə, ağsifətli qız idi. O qız mənim xilaskarım idi.

Onun çaldığı nəğmələr Şopeninmi, Bethoveninmi, yoxsa Üzeyirinmi dühasından idi?! Mən o qədər həyəcanlı idim ki, nəğmənin adını eşitmədim. Ancaq onun rübabından qopan xoş avazlı, məlahətli səslər insan qəlbini xeyirxah və şirin arzularla doldururdu.

Nəğmə birdən kəsildi. Salon alqış səsindən titrədi. Tamaşaçılar onu dönə-dönə təbrik etdilər. Qız baxışlarını məhcub və təvazökar halda yerə dikərək yüngül bir hərəkətlə baş əydi... (*Ə.Y.*)

II

İlyas çayın kənarındakı söyüd kötüyünün üstündə oturub çaya baxırdı, çünki Xanəgah kəndindən Gəncəyə gələnlər çaydan keçib gəlməli idilər. Çayda su o qədər də çox deyildi. Lakin İlyasın nəzərində çayda bir coşğunluq var idi, dalğalar yenə də qartal kimi qanad açaraq bir-birini təqib edirdi. Çay nə qədər susuz və sakit olursa olsun. İlyas yenə də ondakı coşğunluğu heç bir zaman unuda bilmirdi; çünki o, öz sevgilisi Rənanı çayın ən coşğun bir günündə

görmüş və coşqun bir ürəklə də sevmişdi. Buna görə də o daima çayın kənarında oturduğu zaman fikri keçmişlərə qayıdardı.

Şair neçə gündən bəri Rənanın görüşə gəlmədiyini xatırlayıb çaya baxırdı. Çayın o biri sahilində Xanəgah kəndindən şəhərə gələnlər yığın-yığın durub çaydan nə cür keçməyi fikirləşirdilər. Heyvanı olanlar, heyvanı olmayan kəndlilərin şeylərini qucaqlarına alıb sudan keçirdilər. Suya yıxılıb qalxanlara, üstü-başı islananlara gülənlər, hətta sudan öz şeylərini keçirə bilməyənlərdən ağlayanlar da var idi. Körpü çox uzaqda idi. Bazar isə çayın körpü olmayan tərəfinə yaxın idi. Buna görə də kəndlilərin hamısı şeylərini axşam bazarında satmaq üçün körpüsüz yerlərdən çayı keçməyə tələsirdilər.

Keçmiş İlyasın gözü qarşısında canlandı:

Çaydan heyvanlı və heyvansızların hamısı keçmişdi. O tərəfdə yalnız gənc bir qız qalmışdı, o, öz şeylərini çaydan keçirə bilmədiyindən əlacsız qalıb ağlayırdı. Qızın bu ağır vəziyyəti İlyasa toxundu. O, dərhal çayın o biri sahilinə keçib qıza dedi:

– Ağlama! Mən sənin şeylərini sudan keçirməyə gəlmişəm (*M.S.O.*).

III

Fəqət bizim kimi gənclərdən deyil. O, gəncdir, lakin bir alim qədər yaşlıdır. Sən onunla oturub danışmamısan, onun simasında sənin və mənim şüurumun əhatə edə bilmədiyi bir əzəmət vardır. Onun həyata aid düşüncəsi, onun təbiətə dair nəzəriyyələri, onun fəlsəfi görüşləri ölçülməyəcək qədər böyükdür. Onun təbiətindəki kübarlıq, onun başında və fikrində yer tutan əyilməzlik dünyanın heç bir qəhrəman və heç bir hökmranında ola bilməz. O, sadə bir şair deyil; o, həyat təcrübələrini dərk etmiş olan və insanların ruhunu oxuya bilən bir ruhiyyatçı qədər mahirdir. Sənə gəldikdə sadə, sa-

vadsız, keçmişi unudan, gələcəyi xatırlamayan bir adamsan. Sən bir əsgərsən, tək bir qılıncın vardır. O kimi qılınclar isə bir hökmdarın kölgəsində işlədiyi zaman insana ad qazandıra bilər. Əks təqdirdə o, sadə bir dəmirdir. O, pas atar, qaralar, korşalar, dəmirlik qiymətini də itirə bilər. Lakin sənin fəqir saydığın gənc şairin yaratdığı şeirlər xalqın dilində əzbərləndiyi və oxunduğu üçün getdikcə seyğəllənir və parlayır. Bunun üçün də sənin o şairə ədavət bəsləməyin artıqdır, çünki o gənc heç bir vaxt mənə sevgi elan etməmişdir. Bir də budur ki, əbəs yerə mənim sevgimə mane olursan. O şair məni rədd etsə belə, sən mənim sevgimlə xoşbəxt ola bilməyəcəksən. Hələlik o məni sözləri və hərəkətləri ilə təhqir etməmişdir. O mənim qəlbimi sındırmamışdır. Sənin onu cəzalandırmaq fikrin də boş fikirdir, çünki onun arxasında Aran məmləkətinin məşhur qəhrəmanı Fəxrəddin durmaqdadır. Bəlkə də bir gün gələcəkdir ki, mən özüm o şairi cəzalandırmağa məcbur olacağam, o zaman mənim bu fikrimə kömək etmək istəsən təşəkkür edərəm. Lakin hazırda onu təhqir etmək məni təhqir etmək kimidir (*M.S.O.*).

### 3. Saitlərlə samitlərin ahəngi

**§ 72.** Mətni oxuyun, saitlərlə samitlərin həmahəngləşdiyi sözləri seçin və yazılı izah edin.

I

Kimsə təsəvvür etməzdi ki, Ənisə bir məruzə oxuya bilər. İctimaiyyət dərnəyi rəhbəri onun bu xüsusda olan müraciətini çox soyuq qarşılamışdı. Nəhayət könlü qırılmasın deyə, ona – özün münasib bir mövzu tap da hazırla!.. – cavabını vermişdi.

Ənisə məktəb daxilində özünə qarşı bir etinasızlıq olduğunu açıqcasına görürdü. Sinif yoldaşları ona etimad

etmədikləri kimi, müəllimlər də bir o qədər etimad etməyirdilər. Hər kəs onu dilsiz, ağızsız, bacarıqsız bir tələbə zənn edirdi. Buna özü səbəb olmuşdu: o, daha gənc bir yaşda idi, o da arkadaşları kimi danışıb gülməli, məktəbin hər işinə qarışmalı idi. Halbuki o, özünü kənara çəkir, tamamilə bitərəf, kənardan gəlmə bir adam kimi, hər işə tamaşaçı olurdu.

O, arkadaşlarının və müəllimlərinin təsəvvür etdikləri kimi, bir o qədər də bacarıqsız deyildi. O, öhdəsinə alacağı bir vəzifəni müvəffəqiyyətlə ifa edə bilərdi. Bununla belə o, ictimai işlərdən qaçırdı, çünki Ənisə, özünü tam sərbəst bilməyirdi. Bunun onun əl-ayağını bağlamış, bir ilan kimi boynuna sarılmış, ruhunu öldürmüşdü. Ənisə özünü bu ipdən xilas edə bilməyirdi; çünki bu ip onun qoca atası Məşədi Əhməddən ibarət idi.

Ənisə atasını sevir, ona qarşı böyük bir ehtiram bəsləyirdi. Bu möhtərəm, ağsaqqal Məşədi Əhməd olmasaydı o, nə yapa bilərdi? Məşədi Əhməd tamamilə əski həyatın yadigarı idi. İndiki zamanın tələbləri ilə qətiyyən hesablaşmırdı. Qızını da özünün getdiyi yola sürükləmək istəyirdi. Ənisə belə bir atanın itaətindən çıxmamağa, onu özündən razı salmağa çalışırdı.

Ənisə bir neçə ay sonra məktəbi bitirib həyat meydanına atılacaq, sinif arkadaşlarından və müəllimlərindən ayrılacaqdı. Bu adamlar, onun barəsində fəna bir fikrə gələcəkdilər. Bacarıqsızlıq onun üstündə daimi bir ləkə olaraq qalacaqdı. O, özünü bu ləkədən təmizləmək, acizlik töhmətini üzərindən qaldırmaq istəyirdi. Bunu ictimaiyyət dərnəyində söyləyəcəyi məruzə ilə yapacaqdı.

Ənisə titrəyən əlləri ilə qarşısındakı kağızları qarışdıraraq, məruzəsinin müqəddəməsini söyləyirdi. Səsində bir qırıqlıq vardı, kəlmələr dilinə dolaşır, cümlələr ağzından çıxmaq istəməyirdi. Kimsə onu dinləməyirdi. O, çıxılmaz bir vəziyyətdə qalmışdı. Nə etməli idi?

Ənisənin bütün vücudu titrəyirdi. Ümudsizlik ona qalib gəlmək istəyirdi. O isə vəziyyətə hakim olmaq əməlini təqib edirdi. Sükut etdi. Dalğın, eyni zamanda, əsəbi gözləri ilə məclisi, xüsusilə müəllimi süzməyə başladı. Qızlar onun baxışları altında əzilən kimi oldular, müəllim də öz hərəkətinin münasibətsizliyini anlayaraq, əlindəki kitabı bir tərəfə buraxdı. Get-gedə gurultu azaldı. Nəhayət ortalığı dərin bir sükut qapladı.

Ənisə tam bir saat danışdı. Məruzəsinin qayəsi yeni həyatda əski mədəniyyətin təsiri, bu təsirin mənfi cəhətləri idi.

Ənisə sözünü bu cümlə ilə bitirdi: – Əski həyatın mənəvi təsiri bizi özünə tərəf çəkir, irəliləməmizə mane olur. Biz türk qızlarının bugünkü növbəti şüarı özümüzü çürük bir ipdən başqa bir şey olmayan bu təsirdən qurtarmaq olmasıdır!

Dərnək Ənisəni alqışlayırdı.

Ənisə ilk müvəffəqiyyətindən hasil etdiyi nəşənin təsiri ilə evlərinə qayıtdı.

Ənisə qapıdan içəri girdikdə əmisi oğlu Muxtarı yenə evdə gördü. O, Ənisənin atası ilə şirin söhbət edirdi. Muxtar onun nişanlısı idi. Muxtar başı ilə Ənisəyə təzim edib salam verdi. O, əlindəki kitab və dəftərlərini taxçaya qoyub çadrası başında olduğu halda, bir tərəfdə oturdu, çünki Məşədi Əhməd qızı Ənisənin, əmisi oğlu və nişanlısı olsun, naməhrəm bir adamın yanında başı açıq oturmasına razı ola bilmirdi.

Ənisənin şöhrəti yavaş-yavaş öz oxuduğu məktəbin divarlarından dışarı çıxaraq başqa məktəblərə də əks etmişdi. Bir gün əvvəl Ənisə daha geniş bir icmada ikinci məruzəsini oxumuşdu. Ənisə gözəl natiq idi. Onun səsində hər kəsi məşğul edəcək bir qüvvət var idi.

Ənisənin qazandığı müvəffəqiyyəti Muxtar da eşitmişdi. Muxtar evdə əmisi Məşədi Əhmədin yanında Ənisə

ilə söhbətə girişə bilməyirdi. Bunun üçün o, bu gün məktəbə qədər gəlmiş, onu alaraq evlərinədək ötürmək istəmişdi. Muxtarın bir məqsədi var idi. O, istəyirdi ki, yayda toy eləsin. Ənisənin buna bir sözü olmayacaqdı. Bu barədə Ənisənin əvvəlcə razılığını almaq lazım idi.

Muxtar boynuna alırdı ki, həyata əski nəzərlə baxır. O, bunu bir fədakarlıq kimi göstərirdi. Guya Ənisənin uğrunda o hər şəklə düşə bilər. Bu barədə Ənisəyə uzun bir məktub da yazmışdı.

Muxtar Ənisənin razılığını almadan anasını elçi olaraq əmisinin yanına göndərmiş, əmisi də bir əski ata kimi, Ənisənin rəyinə müraciət etmədən qızını köçürməyə razılıq vermişdi. Bu xəbər Ənisəyə bir ildırım kimi təsir etmişdi.

Ənisə hər xüsusda atasının ehtiramını saxlayır, onun sözündən çıxmamağa çalışırdı. Fəqət onun son əmrinə baş əyib tabe ola bilməyəcəkdi. O, sevmədiyi, bəlkə bir qədər nifrət etdiyi Muxtarın arvadı olmayacaqdı. Bu fikrini ögey anasına bildirmiş və atasına söyləməsini rica etmişdi.

O gün məktəblərində buraxılış münasibətilə akt məclisi və müsamirə təşkil edilmişdi. Ənisənin öhdəsinə bir vəzifə verilmişdi: akt məclisində söylənəcək təbrik nitqlərinə cavab olaraq tələbələr tərəfindən cavab vermək.

Fəqət bir iş vardı ki, atasından müsaidə almalı idi. Bu məqsədlə atasının yanına getdi:

– Atacan, – dedi, – bu gün mənim son məktəbə getdiyim gündür! Ancaq bir iş var ki, bu axşam gərək mən məktəbə gedəm. Bütün qızlar öz valideynləri ilə oraya gələcəklər. Mən istərdim ki, siz də mənimlə bərabər gedəsiniz!..

Məşədi Əhmədin nəşəsi qaçdı:

– Yox qızım, mənə zəhmət vermə! Mən elə yerlərə getmərəm!

– Onda izn verin, mən gedim; çünki getməsəm yaramaz.

– Qız xeylağı gecə vaxtı... bayıra çıxsın? Nə danışırsan?

– Ata, axırıncı xahişimdir. Rica edirəm, məni yoldaşlarımdan geri qoyma!..

Atası onun xahişini yerə salmaq istəmirdi. Anasız, eyni zamanda yeganə bir qızı olduğu üçün, əqidəsinə zidd də olsaydı, yenə də izn vermək istəyirdi.

Məktəb müsamirəsində Muxtar da vardı. Bir hədiyyə olmaq üzrə, Ənisəyə qiymətli bir çiçək dəstəsi də təqdim etmişdi. O, bu gecə Ənisənin razılığını və könlünü alacağına çox arxayın idi.

Akt gecəsi çox təntənəli keçmişdi. Müxtəlif təşkilatların nümayəndələri bir çox nitqlər söyləmiş, məktəbi bitirən qızların üzərində yeni həyat qurmaq uğrunda məsul vəzifələr olduğunu xatırlatmışlardı. Bunların hamısına Ənisə cavab vermişdi: – Biz qızlar, – demişdi, – əlimizi ürəyimizin üzərinə qoyub sizin bütün təsvirlərinizi dinləyir, yeni həyat yaratmaq uğrunda, səmimiyyətlə çalışacağımıza söz veririk.

Akt məclisindən sonra tənəffüs zamanı Muxtar Ənisəyə yaxınlaşıb onu təbrik etdi. Sonra onun qoluna girib məktəbin geniş həyətinə çıxarmaqla, onu xəlvət bir bucağa, ətrafına gözəl ətir saçan bir akasiya ağacının altına çəkdi. Ənisə onun məqsədini anlayırdı. Buna baxmayaraq ondan çəkinmədi. Muxtar başladı: – Mən sizinlə danışmaq istəyirəm. – Elə mən də sizinlə danışmaq istəyirdim. – Çox yaxşı, buyurun. – Onu söyləmək istəyirəm ki, bizim zamanımızın xüsusiyyəti odur ki, əski həyat uçulur, yerində yeni bir həyat qurulur. Biz elə bir cəmiyyətin üzvüyük ki, o, öz içərisinə ancaq yeni adamları qəbul edir. Yeni adam o deyil ki, yalnız zahiri şəklini və qiyafəsini dəyişmiş olsun. Yeni adamın həyatı da, görüşü də, düşüncəsi də əxlaqı da, hətta damarlarında axan qanı da yeni olmalıdır. Siz əgər, dediyiniz kimi, yeni adam olsaydınız, mənim işimə və gələcək həyatıma aid olan bir məsələni özümlə danışıb həll edərdiniz, nəinki atamla.

– Haqlısınız, – dedi, – mən öz qəbahətimi etiraf edirəm. Sizinlə görüşməkdən məqsədim razılığınızı, eyni zamanda, könlünüzü almaqdır. Mən sizin yolunuzda hər fədakarlığa hazıram.

– Elə isə sizə təşəkkür edirəm.

– Elə isə izn verin toyumuz olsun. Mənim istədiyim səninlə evlənməkdir.

– Mənim də istədiyim budur ki, hələlik kimsə ilə evlənməyim. Ənisə atasının "tez qayıt!" əmrinə itaətlə evlərinə qayıtmaq üçün məktəb binasından dışarı çıxdıqda, müsamirə başlanmışdı. Şərqin əski musiqi aləti olan yastı balabanın rəfaqəti və qərb musiqi aləti klarnetində çalınan hava ilə rəqs edən gənc qızlar və oğlanların səsləri küçədə eşidilirdi. Muxtar onu təşyir edirdi. Hər ikisi sükut etmişdi.

Payız mövsümü yaxınlaşdıqca, Ənisənin vəziyyəti ağırlaşırdı. Üç ay olardı ki, o, məktəb həyatından ayrılmışdı. Bu üç ayın ərzində öz gələcək həyatı barəsində müəyyən bir qərara gələ bilməmişdi. Onun qarşısında üç yol vardı: darülfünun, ictimai həyatı, ər evi.

Ənisənin bütün yoldaşları darülfününuna girmək üçün çalışırdılar. O, hələlik heç bir təşəbbüsdə bulunmamışdı. Çünki Ənisəyə hər şeydən əvvəl özünü və ailəsini keçindirmək lazım idi. Bunun üçün Ənisə darülfününun yolunu hələlik ikinci mövqeyə buraxıb ictimai həyat yolunu tutmalı idi. O, burada müvəffəqiyyətlə çalışa bilərdi. Onun maddi və iqtisadi vəziyyəti də burada təmin edilərdi. Ancaq bir məsələ vardı ki, atası ona müsaidə verməyirdi. Atası Ənisəni üçüncü yolu tutmağa, ər evinə getməyə məcbur edirdi. Ənisə çox yaxşı bilirdi ki, ər evinə getməklə istər özünün, istər atasının maddi həyatı qismən yoluna düşə bilər. Fəqət mənəviyyatca özü süqut edəcəkdi. Bununla bərabər o, nədən ötrü ər evini başqalarına tərcih verməli idi. Halbuki ictimai həyat səhnəsi onun ailəsinin maddi halını təmin edə biləcəyi kimi öz mənəviyyatını da yüksəldə bilərdi.

Ənisə ər evinə getməkdə mütərəddid deyildi. O qətiyyən oraya getməyəcəkdi. O, gedəcəyi yerin harada olduğunu çox yaxşı bilirdi. Buna baxmayaraq istədiyi cəhətə hərəkət etməkdə aciz idi.

Ənisə iki həyatın arasında qalmışdı. Yeni həyat onu öz tərəfinə çəkirdi, əski həyatın ipləri onu tutub buraxmayırdı. Əskilik yalnız Məşədi Əhməddən ibarət deyildi. Özünü yeni şəklə salan Muxtar da onun əl və ayağını tutmuşdu. Onun çevirdiyi fırıldaqlar səbəbi ilə Ənisə bu vaxtadək özünə bir vəzifə tapa bilməmişdi. Qulluq üçün müraciət etdiyi idarə və müəssisələr onun əmək birjasında qeyd edilib-edilmədiyini sorurdular. Əmək birjasında da bir ixtisası olmadığı üçün qeyd etməyirdilər. Bu hal Ənisəni sevmədiyi Muxtarın evinə tərəf itələyirdi.

Ənisənin yoldaşlarından bir neçəsi Maarif Şöbəsinə müraciətlə özlərinə müəllimlik yeri almışdı. Ənisə də oraya müraciət etdi. Müəllimlik yeri vardı. Fəqət şəhərdə deyil, kəndlərin birində idi. O təkbaşına olaraq kəndə gedə bilməyəcəkdi. Onun yalnız bir ümidi vardı: atasını və ögey anasını yanına alıb kəndə getmək.

Bu fikrini atasına açıb söyləmək üçün münasib bir vaxt aradığı halda, atası onu yanına çağırdı:

– Ənisə, – dedi, sən özün görürsən ki, mən qocalmışam. Gözlərim yaxşı görməyir, əllərim işləməkdən qalıbdır. Yavan çörəyi belə doyunca yeyə bilməyirik; nə üçün sən qoca atanın bu halını nəzərdə tutmayırsan? Ənisənin üzü qızardı. Bilirdi ki, atası onunla Muxtara getmək barəsində danışacaqdır. Başını aşağı saldığı halda cavab verdi:
– Bilirəm, siz atalıq haqqı ilə məni bəsləyib böyütdünüz, məktəbdə oxumağa imkan verdiniz, mən də övladlıq vəzifəsi ilə qocalığınız zamanında sizi bəsləməli və zəhmətdən xilas etməliyəm. Mən buna çalışıram.

Məşədi Əhməd məmnun bir tərzdə:

– Çox sağ ol qızım. Mən bu barədə səndən razıyam, – dedi.

– Mənim sizə köməyim yalnız öz zəhmətim sayəsində olacaqdır.

Məşədi Əhməd hirsləndi:

– Qız! Sən nə danışırsan? Ağlın çaşıbdır. Necə yəni özüm çalışıb qazanaram. Xalq sonra mənə nə deyər? Qız xeylağı nə iş görə bilər?

– Nə üçün görə bilmir? Minlərlə qızlar idarə və müəssisələrdə qulluq edib öz ata-analarını saxlayırlar; mən də onların biri. Maarif Şöbəsi mənə kənddə müəllimlik yeri verib. Yığışıb kəndə gedərik. Orada daha yaxşı yaşamaq olar. Xalq da sənə bir söz söyləməz.

– Sən xəriflənmisən! Belə boş-boş fikirləri başından çıxar. Sənin qulluğun yalnız Muxtarın evidir.

Ənisənin üzü təkrar qızardı. O, atasının əmrinə boyun əyə bilməyəcəkdi. Dedi:

– Atacan, məni bağışla, əmrindən çıxıram. Mən ərə getmək istəmirəm.

Məşədi Əhməd qızından belə cavab alacağını heç təsəvvür etməzdi. Başını aşağı salıb əlini qaşlarının üstünə qoydu. O, nədənsə axır illərdə əvvəlki kimi sərt təbiətli deyildi. Bir qədər yumşalmışdı.

Dedi: – Əgər sən atanın əmrindən çıxsan, o zaman mənim keçinmək üçün yalnız bircə çarəm qalıb: küçəyə çıxıb yoldan keçənlərə əl açmaq. Demək Muxtarı rədd etməklə, sən atanı dilənçiliyə göndərirsən?!

– Yox ata... Mən qulluq edəcəyəm. Mən sizi saxlayacağam.

Məşədi Əhməd qarşısında ayaq üstə duran Ənisənin üzünə baxdı:

– O günə daş düşəydi ki, sən məktəbə getdin, – dedi.

* * *

Məşədi Əhməd papaqçı idi. Vaxtı ilə onun bazarda karvansara qapısı ağzında kiçik bir dükanı vardı. Bir tərəfdən papaqçılığın get-gedə tənəzzülü, o biri tərəfdən özünün qocalığı ona dükan saxlamaq imkanı verməmişdi. Üç il əvvəl dükanını yığmışdı. Bu tarixdən sonra o, evdə işlər, qoyun və quzu dərisindən tikdiyi tüklü papaqları bazarda və meydanda əlində gəzdirməklə satardı. Qış fəslində bir növlə keçinərdilər. Yayda tüklü papaqlar işə getmədiyindən çox çətinlik çəkirdi. Son zamanlarda əli daha iynə tuta bilməyirdi. Onun yeganə ümidi Muxtar idi. İstəyirdi ki, Ənisəni ona verməklə öz yanına alsın, onun sayəsində həyatının son günlərini ibadətlə keçirsin.

Məşədi Əhməd Ənisənin oxumasına qətiyyən razı deyildi. Ənisəni anası ondan gizli məktəbə qoymuşdu. Məşədi Əhməd hər səhər tezdən evdən çıxar, bir də axşam azanı qayıdırdı. Beləliklə, Ənisə bir dərəcəli məktəbi bitirmiş, iki dərəcəli məktəbə daxil olmuşdu. İkinci sinfə keçərkən, Ənisənin anası vəfat etmişdi. Məşədi Əhməd də bu dükanını yığışdırıb evdə işləməyə məcbur olduğundan, bununla bərabər başqa bir qadınla evləndiyindən, Ənisənin məktəbdə oxuması aşkara çıxmış, beləliklə Ənisə məktəbdən qalmışdı. Payız fəsli gəlib məktəblər açılınca Ənisə məktəb eşqi ilə xəstə düşmüşdü. Bunun üzərində Məşədi Əhməd bu anasız qızın könlünü ələ almaq məqsədi ilə qohum-qonşu arvadların tövsiyəsini dinləyib Ənisənin məktəbə davamına razılıq vermişdi. Məşədi Əhməd indi özünü töhmətləndirirdi. Ənisənin oxumasına imkan verdiyindən dolayı peşiman olmuşdu.

Məşədi Əhmədin ailəsində böyük bir məyusluq davam edib gedirdi. Hər nə qədər özü şəxsən ikinci kərrə Ənisəyə bir söz söyləməmişdisə də, Ənisənin xalası və bibiləri hər gün gəlib onu min dürlü sözlərlə danlayır, Mux-

tarın məziyyətlərini onun üçün sayıb tökürdülər. Bu sözlərin Ənisəyə, demək olmazdı ki, təsiri olmayırdı. Bununla bərabər Ənisə atasının maddi halını görürdü. O, bəlkə də Muxtarın ona tərəf uzatdığı izdivac əlini də tutardı. Fəqət bu ən son çarə idi. Ənisə çox yaxşı bilirdi ki, ayda əlli-altmış manatlıq bir gəlirlə evlərinin maddi böhranını ortadan qaldırıla bilər. Hazırda belə bir vəzifə də vardı. Yalnız Məşədi Əhmədin müsaidəsi lazım idi. Ənisənin fikrinə gəlirdi ki, özünü tutub bağlayan ipləri bir kərəlik qırıb atsın. Onu əskiliyə çəkən mühitə atası Məşədi Əhməd də onların içərisində, üsyan edib hər kəsə eşitdirəcək bir səslə:

– Mən artıq sərbəstəm, ixtiyarım öz əlimdədir. İstədiyim kimi hərəkət etməyə haqqım vardır, – deyib təklif edilən kəndə getsin. Ənisə bunu yalnız düşünürdü. Fəqət bu fikrini yapa biləcək bir cəsarəti yoxdu.

İki gün əvvəl yeni məktəb bitirib özünə bir vəzifə arayan bir gənc Maarif Şöbəsində ona demişdi ki; – Əgər kəndə getmək sizə müyəssər deyilsə, Maarif Şöbəsinə bildiriniz, mən oraya getmək istəyirəm. Ənisə ona iki-üç gün sonra qəti cavab verəcəyini bildirmişdi. O, Maarif Şöbəsinə nə yolla cavab verməli idi? Vaxt yaxınlaşırdı. Bəzi məktəblərdə dərslər başlanmışdı.

O gecə Ənisənin yuxusu qaçdığı üçün sabaha kimi bu kimi fikirlərlə zehnini yormuşdu. Qəti bir qərara gələ bilməyirdi. Birdən atasının səsini eşitdi: adəti üzrə ucadan sübh namazını qılırdı.

Məşədi Əhməd namazdan sonra hər gün oxuduğu ərəbcə duaları təkrar etdi. Bu cümlələri Məşədi Əhməd hər nə qədər çox yavaşdan deyib Allahına yalvarırdısa da, yeni açılmaqda olan sabahın sükutu isində Ənisə onları çox aydın bir tərzdə eşidirdi. Məşədi Əhməd ağlar bir səslə yalvarırdı: – Pərvərdigara, sən məni dilənçiliyə göndərməklə imtahana çəkmə, sən onun qəlbinə bir işıq ver ki, məni bu ağır vəziyyətdən qurtarsın.

Bu sözlərin ardınca qoca kişi bir cocuq kimi ağlamağa başladı.

Məşədi Əhmədin bu halı Ənisənin bütün ruhunu şaşırtdı. Atası onun özündən bəhs edirdi. "Onun qəlbinə..." dediyi öz qəlbindən başqa bir şey deyildi. Atası doğru söyləyirdi. Onun qəlbinə işıq verəcək bir qüvvə lazım idi. Onun özündə belə bir qüvvə yoxdu ki, ona qəti addım atacaq bir cəsarət verəydi. Ənisə düşündü, düşündü, qəti qərar vermək zamanı yetişmişdi. İndi onun xəyallarında iki şey canlanmışdı:

Muxtar, kənd məktəbi...

Tez-tez bunlar yerlərini dəyişir, Ənisənin qarşısına gəlirdi. Atasını özündən razı salmaq məsələsi də vardı. Yorğanını başına çəkdi, səsini çıxarmadan o da ağlamağa başladı. Ənisə qarşısında belə bir məsələ qoydu: Mən, atamı razı salmaq üçün onun istədiyi düşüncə və zehniyyətdə bir qız ola bilərmiyəm?

Ənisə atasının istədiyi bir ruhda qız ola bilməyəcəkdi. Ərə getdikdən sonra da onu razı sala bilməyəcəkdi. Ənisə atasını aldatmaq istəmirdi. O, Muxtar kimi gündə bir rəngə düşməyi bacarmayırdı. Beləliklə, atası hər zaman ondan narazı olub qalacaqdı. Bu surətdə hissiyyata qapılıb fədakarlıqda bulunmağın bir mənası yoxdur. Bir zamanda ki, Məşədi Əhməd ondan narazı idi, burax bir qədər də artıq narazı olsun. Hər halda atasının həyatını öz maaşı ilə təmin etməli idi. Bunun üçün Ənisə, o gün səhər evdən çıxıb saat ikidə qayıtdı. Sabahısı gün də evdən bayıra çıxıb bir-iki saat sonra gəldi. Üçüncü gün saat on radələrində evdən bayıra çıxarkən, atasına verilmək üçün ögey anasına bir məktub verdi. Məşədi Əhməd axşamüstü evə qayıtdıqda, Ənisə hələ gəlməmişdi. Qızdan nigaran qalmağa başladılar. Muxtarın dalınca adam göndərdilər. Ənisənin yazdığı məktubu Muxtar Məşədi Əhmədə oxudu: "Atacan!..

Bilirəm məni təlin edəcəksən; çünki mən sənin sözündən çıxdım. Sənin xahişinə əməl etmədim. Yalnız bununla kifayətlənməyib sənin razı olmadığın bir işə iqdam etməklə, sənin evini tərk edib kəndə gedirəm.

Mən çox yaxşı bilirəm ki, qoca atalara ehtiram etmək lazımdır. Kor-korana onların əmrinə tabe olmaq, ehtiram deyil, bəlkə də fədakarlıqdır. Mən belə bir fədakarlıqda nə sizə və nə də özümə maddi və mənəvi bir fayda görmədim. İnanıram ki, indilik mənim bu hərəkətimə qarşı nifrət etsəniz də, gələcəkdə mənə haqq verərsiniz.

Sizi heç bir zaman unutmayacaq qızınız Ənisə" (*S.Hüseyn*).

**Cingiltiləşmə**

**§ 73.** Mətni oxuyun, cingiltiləşmə qanunu müşahidə olunan sözləri seçib yazın və cingiltiləşməni izah edin.

I

1. Bilqeyis isə çörəyi parça-parça edib, bir az Məstan xoruza, bir az toyuq-cücələrə, bir az da it və pişiyə atardı. Hamısı soxulub yeməyə məşğul olardı (*A.Ş.*).

2. Hələ qapılarındakı Dəmir köpəyə onun əlindən gün və dirilik yox idi (*A.Ş.*) 3. Murad əlinə çomağını alıb naxırın içinə girirdi, əlindəki çomaqla o inəyin, bu öküzün harası gəldisə vurardı (*A.Ş.*). 4. Muradın ayağı bir ağaca ilişib yıxıldı (*A.Ş.*). 5. Hətta sarı toyuq da cücələri ilə Bilqeyisin Məstan xoruza bağışladığı papağa diqqətlə baxırdı (*A.Ş.*).

II

1. Çörəyin yeyilməyi iki saat çəkdi (*C.M.*). 2. Ancaq çörəkdən sonra Novruzəlinin kağızı poçta aparmağı xanın yadına düşdü (*C.M.*). 3. Sadıq əmi Xəlili o qədər sevməyə başladı ki, uşağın ağac sındırmaq əhvalatını tamamilə yadından çıxartdı

(*A.Ş.*). 4. Baharın gözəl gecələrindən biri idi; təzə yarpaqlar ay işığında tərpəşir, körpə cocuq kimi sanki əllərini işığa doğru uzadırdı (*Y.V.Ç.*). 5. Qapıdan girən kimi qarşılarına Ziba çıxıb, gülə-gülə onları otağa aparardı (*Y.V.Ç.*).

III

l. Bu qədər uzun danışmaqdan məqsəd tək bir məsələni indidən ortalığa qoyub onu həll etməkdir (*C.M.*). 2. Qoy onlar həyatımızın timsah, gəncliyimizin baharı, vətənimizin səhəri kimi hər gün açılsın (*H.M.*).

3. İşləmirsə, bəs hara gedir, evə gələn kimi alayarımçıq bir stəkan çay içər-içməz tez durub işə gedir (*C.C.*).

4. Alıb yerdən qarı sovurur külək,
Dağları, daşları qovurur külək,
Hər tərəf bir bəyaz zülmət içində.
İnləyir kainat dəhşət içində (*M.M.*).

5. Yaşıl mənzərələr bir xəyal kimi
İndidən gözümün qabağındadır (*M.M.*).

6. O səni unutdu, sən unutmadın,
Yaşa məhəbbətim, yaşa ürəyim (*M.M.*).

7. Əncir ağacının altına qoyulmuş ağ örtüklü masanın yanına gəldik, məni yoldaş Badisəba xanımla tanış etdi (*Y.V.Ç.*).

## MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ HECA

**§ 74.** Oxuyun, sıra ilə hər bir sözdə heca yaradan səsi göstərin.

***Nümunə:***

| | |
|---|---|
| *Atlantik dəryası...* | *Gecə tən yarı.* |
| **a-a-i ə-a-ı** | **e-ə ə a-ı** |

I

Atlantik dəryası...
Gecə tən yarı.
Duyğular, arzular sıxır sinəmi.
Udub dalğa-dalğa qaranlıqları,
Afrika boyunca şütüyür gəmi.

II

Günləri barmaqla hey sayıram mən,
Bir aydır gəzirik yad ölkələri.
Vətənlə daha çox yaşayıram mən
Bu uzun səfərə çıxandan bəri.

III

Dərya çalxalanıb aşıb-daşdıqca,
Elə bil mən özüm aşıb-daşıram.
Gəmi vətənimdən uzaqlaşdıqca,
Vətənə daha çox yaxınlaşıram!.. (*S.V.*)

**§ 75.** Oxuyun, sözləri hecalara bölüb yazın.

***Nümunə:*** Qa-ran-lıq pa-yız ge-cə-si i-di...

I

Qaranlıq payız gecəsi idi, xəzri yeli axşamdan hirs ilə qalxıb Bakı küçələrinin toz-torpağını daşa-divara çırpırdı. Tozun və küləyin təsirindən fənərlərdə yanan lampalar – od işığı bulud dalısında ulduz kimi ancaq-ancaq görünərdi. Bu soyuq, tozlu gecədə biçarə Məşədi Əsgər adlı bir kişi əli qoynunda o küçədən bu küçəyə, bu küçədən o küçəyə sərgərdən gəzib balaları üçün ruzi axtarırdı.

Həmin Fələkzadə Məşədi Əsgər qırx yaşında, qısaboylu, amma çox zorlu bir kişi idi. Məşədi Əsgər əslində Quba kəndlərinin birisindən idi. Hələ on iki yaşında olduğu halda kəsb üçün Bakıya gəlib neft gəmilərinin birisində muzdurluğa başlamışdı.

Gəmi muzdurçuluğu fılvaqe çox ağır sənətdir: gecələr ayazda, gündüzlər al gün altında gəmi muzdurunun zəhməti hər bir zəhmətdən fövqdür. Qanlı dəryalar içində məhabətli ləpələrlə pəncə-pəncəyə qoyan muzdurların yardımı fılhəqiqə Xıdır İlyas özüdür. Zatən muzdurların bədənləri davamlı, ruhları qüvvətli olur. Muzdur Məşədi Əsgər iyirmi səkkiz ilin ərzində su ilə od arasında bişib bərkidikdə əsla azar-bezar bilməzdi.

Adətən muzdurların muzdu az olursa, gəmi muzdurlarının vəzifəsi lap az olur. Həmin muzdur Məşədi Əsgərin ayda iyirmicə manat məvacibi var idi. Azacıq məvacibə qənaət edən muzdur öz boğazından qəpik-qəpik kəsib, on ilin ərzində altı yüz manat pul cəm etmişdi və o məbləğə Bakıda "Qanlı təpə" adlanan yerdə özu üçün bir alçacıq daxma alıb, sonra yenə on il şiddətli qənaət ilə bir altı yüz manat da cəm eləyib evlənmişdi. İndi səkkiz il idi ki, muzdur Məşədi Əsgər Qanlı təpədə bir arvadı və üç baş xırdaca uşaqları ilə ayda iyirmicə manat məvacibə qənaət edərək dolanırdı (*S.M.Q.*).

II

Yavaş-yavaş yay gəldi. Məxluq bağlara köçdü. Fərhadgil də bağa köçdülər. Gülzar öz qulluqçusu ilə bağda, Aslan ilə Fərhad şəhərdə öz işlərində olurdular. Arabir hərəsi bir neçə günlüyə bağa gedib, yenə də qayıdırdı.

Yayın orta ayı idi. Fərhad istidən dayana bilməyib bağa getdi. Aslan şəhərdə qaldı. Gözəl yay gecəsi idi. Hava sakitdi. Ay çıxıb bütün aləmi müzəyyən bir ziya ilə münəvvər etmişdi. Bağda olan meynələr öz yarpaqları ilə yumşaq qumun üstünü örtmüşdü. Təbiət olduqca gözəl bir mənzərə almışdı. Gülzar ipək bir köynək geymiş, döşünü açmış və gecənin lətafətindən məftun olaraq, bağın içində zərif yarpaqlar arasında saçları bir quş misalı həzin bir halda gəzişirdi. Uzun, şəvə saçları gəlinlərə məxsus şux çiyinlərini qara bulud kimi bürümüş və əsən xəfif küləkdən arabir ləpələnirdi. Hava gözəl olduğundan Gülzarın yanaqları daha da xoşrəng olub duru-al bir rəng almışdı. Zərif ləbləri bir lalə kimi yanırdı. Fərhad da gecənin gözəlliyindən həzz alaraq bir meynənin altında, yumşaq qumun üstündə uzanmışdı. Gülzar bağın içində gəzişib Fərhadın yanına çatdı. Buradan daha keçməyib Fərhadın yanında oturdu və qulluqçuya dedi ki, bağın içinə onlar üçün çay gətirsin. O saat qulluqçu çay gətirdi.

Aydın, sakit yay gecəsi, yumşaq qumun üstü zərif, yaşıl yarpaqlara bürünmüş, hər yandan üzüm salxımları sallanmış, bir tərəfdə də çay – belə fövqəladə lətif bir mənzərə! (*C.C.*)

Gülzar hərdən iri gözlərini Fərhadın cavanlıq şəhdi ilə ləbaləb olan gözəl üzünə dikib baxırdı. Bir tərəfdən ərinin fikri, digər tərəfdən Fərhadın ürəyini bilmədiyi üçün onun qorxusu, o biri tərəfdən də şuxluq və həvəs. Onlar bir qədər bu halda söhbət elədilər. Ətrafda səs yoxdu. Ancaq arabir ilbizlər bir-birinə səs verib fit çalırdı. Xəfif bir külək arabir

dilaviz rayihəsilə insanın ürəyini oxşayırdı. Budur, meh vurub Gülzarın saçlarını titrədərək, Fərhadın üzünə səpdi. Fərhad yumşaq gəlin saçlarının üzünə toxunduğundan bilmərrə məst olub, saçların ətrindən mövcudiyyatı yadından çıxdı. Gülzar tez, vəhşi ahular kimi, başının hərəkəti ilə saçlarını çiyinlərinə atdı. Fərhad gözlərini qaldırıb Gülzarın qırmızı yanaqlarına dikdi. Gülzarın yanaqları, elə bil ki, yanırdı, zərif dodaqlarında bir müzəyyən təbəssüm, iri gözlərində bir nişaneyi-eşq və həvəs görünürdü. Fərhad özünü saxlaya bilməyib, ürəkdən bir ah çəkdi. Gülzar:

– Ox, Fərhad, – dedi, – belə gözəl bır mənzərəyə tamaşa edən insan da ah çəkərmi?

– Bəli, doğrudan da sizin isbati-vücudunuzla daha da gözəlləşən təbiət mütləq məni ah çəkməyə məcbur etdi.

– Mənim olmağımla təbiət əsla gözəlləşmir, xəta edirsiniz. Mən zənn edirəm ki, mənsiz təbiət daha gözəl olar, – deyə Gülzar naz ilə gülümsündü.

– Yox, təbiət nə qədər gözəlsə də, siz ondan daha gözəlsiniz.

Gülzar gözlərini süzüb dedi:

– Siz allah, Fərhad, mənə gülməyin. Mən nə qədər gözəl olsam da, sizdən gözəl ola bilmərəm ki, bir baxışla gözləriniz insanı məftun edir (*C.C.*).

**Hecaların növləri**

**§ 76.** Köçürün, sözləri hecalara bölün, açıq hecaların altından bir, qapalı hecaların altından iki xətt çəkin.

I

Ruhnəvaz hiddətindən soyumuş əlini ona uzatdı, ayrıldı. Qurbanlı sürətli və oynaq addımlarla ağ yaylıqlı zərif bir qıza yanaşarkən Ruhnəvaz xanımın gözlərində

qısqanclıq atəşi parladı. Kənarda durub, həsrətli baxışı ilə onları gözdən itənə qədər təqib etdi. Qurbanlı qızın əlini bərk-bərk sıxdı. Qızın üzünə qızartı yayıldı, gözləri işıqlandı, dadlı təbəssüm dodaqlarının kənarlarını eşq məbədinə döndərdi. Ruhnəvaz xanım, bu halları incədən-incəyə anladı: qıza qarşı ürəyində anlaşılmaz bir nifrət əmələ gəldi. Və evə dönərkən keçmişdə Qurbanlıya qarşı göstərdiyi laqeydliyi və etinasızlığı xatırlayıb odlandı.

Evlərinin nə qədər cansıxıcı olduğunu Ruhnəvaz xanım ilk dəfə olaraq bütün dəhşəti ilə anladı: orası onun üçün zindan kimi göründü. Şlyapasını bir tərəfə atıb, hönkürtü ilə yatağına yıxıldı. Ruhnəvazın yalnız gözləri deyil, bütün varlığı və taleyi ağlayırdı. Ruhunun dərinliyində acı yaşların anlaşılmaz və qaranlıq bir boşluğa töküldüyünü hiss edirdi (*Y.V.Ç.*).

II

Bu yerlərə Abdal-Gülablı deyirlər. Kəndə çatanda iri bir dərə görünür. Sağında Abdal, solunda Gülablı yerləşir. Kəndləri bir-birindən bir dərə ayırdığına baxmayaraq, əsla oxşarları yoxdur. Adamları da dərhal seçilir. Xasiyyətləri tutmur. Danışıqları bir-birinə bənzəmir.

Gülablının peyvənd zoğalı adladır. Lalıqlayanda yedikcə yemək istəyirsən. Evdarımız bizə həm mürəbbə bişirir, həm də axta qurudurdu. Qarabağın bəzi kəndlərində müxəşər adlanan zoğal axtası faydalı və gərəklidir. Tavat ev yiyəsindən – Sənəm xaladan xahiş etdi ki, axtanı çox qurut, anamgilə də göndərəcəyəm. Sənəm xala isə əlini sağ gözünün üstünə qoyub astadan güldü (*Ə.V.*).

III

Gülzarın sözlərində çırpınan məyusluq, göz yaşlarındakı səmimiyyət bir iynə kimi Mənsurun fikrinə, zehninə, ruhuna, bütün varlığına sancılırdı. Hətta: "Yazıq nə etsin? Bu,

Allahın qəziyyəsidir, onun ki, burada taqsırı yoxdur. Gücsüz, köməksiz bir qız nə edə bilərdi? Nə üçün bir nəfər onun adına bir söz demir?" – kimi bəzi doğrultmalar da fikrindən keçir və eyni zamanda çox dərin düşüncələrə dalmış dururdu.

Gülzar kiçicik əllərini irəli uzatmış, bir həyəcan içində nəticəni gözləyirdi. Ox, indi Mənsurun bir sözü onu nə qədər xoşbəxt edə bilər və ya əbədi bir yoxluğa yuvarlaya bilərdi! Gülzarın bu dəqiqə bütün taleyi, həyatı, səadəti ondan, onun bir kəlmə sözündən asılı idi (*C.C.*).

**§ 77.** Verilmiş qapalı hecalara saitlə başlanan şəkilçi qoşub, sözləri yenidən hecaya bölün, hecaların növünə görə dəyişməsinin (qapalıdan açığa) səbəbini izah edin.

I

| | | |
|---|---|---|
| mək-təb | söh-bət | fon-tan |
| qiy-mət | hör-mət | şah-mat |
| göz-lük | qar-daş | məx-sus |
| dəf-tər | ax-şam | gün-düz |
| sün-bül | gül-mək | san-caq |

II

| | | |
|---|---|---|
| ül-güc | öv-lad | qar-pız |
| qus-lar | yar-pız | gül-şən |
| şöh-rət | böh-ran | baş-lıq |
| bağ-dad | hey-ran | çox-luq |
| bal-dız | çir-kin | dad-sız |

III

| | | |
|---|---|---|
| süz-gəc | vur-ğun | əl-van |
| göv-hər | xən-dək | yum-şaq |
| kəs-kin | hey-van | sov-qat |

| | | |
|---|---|---|
| çay-dan | çar-paz | təz-yiq |
| zey-tun | yün-gül | qıs-qanc |

**§ 78.** Oxuyun, sözləri hecalara bölüb yazın. Örtülü hecaların altından bir, örtüsüz hecaların altından iki xətt çəkin.

I

Baharın axır ayının gözəl gecələrinin biri idi. Şərqdən əsən nəsim, güllərin, çiçəklərin və ağacların yarpaqlarının arasında aşiq və məşuqlar ürəklərini cuşə gətirən bir muğamat bərpa etmiş idi. Göyün ulduzları da guya bir-birilə məhəbbətdən dəm vururdular. Bədirlənmiş ay bunların arasında ahəstə-ahəstə məbhut gəzib dünyaya tamaşa edirdi. Bülbüllər yanıqlı nəğmələrilə ürək dərdlərini güllərə söyləyirdilər. Şəhər yatmışdı. Tək bir şəhər pasibanlığı edən xoruzlar bir-birinə oyaq olduqlarını xəbər verirdilər. Bu gecə iki nəfərin yuxusu gəlmirdi. Bunların biri başmaqçı Məşədi Məmmədvəlinin cavan qızı Gülsüm idi. O birisinin də kim olduğunu mən deməsəm də qarelər anlarlar. Gündüzdən Şəban ona xəbər göndərmişdi ki, gecə hazır olsun ki, gəlib onu aparacağam. Ona görə Gülsümün rəxtixabına guya od dolmuşdu. İlan vurmuş tək qıvrılır-açılırdı və vədə olunmuş fitə müntəzir idi (*Ə.B.H.*).

II

O, kepkasını və paltosunu çıxarıb asdı. Əllərini yuyub stola tərəf oturdu. Samovardan qalxan buxar pəncərə şüşələrinə toxunduqca suya çevrilirdi. Birgül Yadigarın qarşısına bir stəkan çay qoydu. Stəkana süzülmüş çay bənövşəyi qanovuz rəngində idi. Stolun üstündə kərə yağı, motal pendiri və çörək var idi. Yadigarın yarım saat qabaqkı bikefliyi daha da artmışdı. İştahasız olaraq bir neçə tikə çörək yeyib, bir stəkan da çay içdi. Çarpayının üstünə

sərilərək, iki gün qabaq yarımçıq qoyduğu "Səfillər" romanını oxumağa başladı. Uşaqların yeməyini verib qurtardıqdan sonra hər kəsi öz çarpayısında yatıran Birgül də çay içdi, çörək yedi, sonra stolun üstünü yığışdırdı və sabahkı dərs üçün hazırlaşmağa başladı.

III

Maarif müdirinin kabinetində müşavirə vardı. Kənd məktəblərində tədris işlərinin qoyuluşu və gedişi haqqındakı danışıqdan sonra Yadigar savadlı şagird buraxmaq məsələsi üzərində müfəssəl dayandı. Bu məqsəd üçün o, hər şeydən qabaq, məktəb müəllimlərinin tam savadlı və bilikli olmalarından bəhs edərək dedi:

– "On səkkiz kəlməli bir təliqədə on doqquz səhv buraxan bir müəllim əməkçi balalarına heç bir şey verə bilməz. Yerlərə gedən müfəttiş yoldaşların əsas işlərindən biri də bu cəhəti nəzərdə tutmaq, belələrini öyrətmək, nöqsanını yerində düzəltməkdən ibarət olmalıdır".

Müşavirədə maarif şöbəsi müfəttişinin nöqsanları haqqında danışıldı. Bir çox məsələlərin həllindən sonra müşavirə bağlandı (*Ə.V.*).

**Hecaların tipləri**

**§ 79.** Dəftərin qoşa vərəqini heca tiplərinin miqdarına görə sütunlara bölün və sözləri hecalara ayırıb hər tipi bir sütunda yazın.

I

1. Stulda əyləşib, qarşısına bir vərəq kağız qoyub qələm götürdü, dörd-beş dəfə qələmi mürəkkəbə batırdıqdan sonra durub otaqda bir-iki baş gəzindi (*Ə.H.*). 2. Bu münasibətlə Mirzə bir plov verdi (*Ə.H.*). 3. Sübhi sözə nə yerdən

başlayacağını düşünmüş, zehnində ona aid bir plan hazırlamış, masa başında səbirsizliklə Xosrovu gözləyirdi (*A.Ş.*). 4. Divarlardan asılmış xəritələr, müxtəlif mövzulu plakatlar, vaxtını itirmiş şüarlar olmasaydı, suvaqların töküldüyü, bişmiş kərpiclərin çılpaq qaldığı, bəzi yerlərdə güllələrin dəlib açdığı dərin yaralar zahirə çıxardı (*H.N.*). 5. Üz-gözlərini tük basmış və çiyinlərinə saldıqları brezent örtüklərin altında alt paltarları görünən bu adamlar, yəqin ki, balıqçılarda heç bir şübhə oyatmadıqları üçün rahatca nəfəs aldılar (*Q.M.*). 6. Bir də gördülər, bir dənə bülbül gəlib mənim qarşımda bitmiş ağacın budağında əyləşib başladı cəh-cəh vurmağa (*Ə.B.*).

7. Gözlədim yolunu həsrət içində,
Tükəndi taqətim, neçin gəlmədin?
Şəhdi-vüsalından üzüldü əlim,
Ey dilbər afətim, neçin gəlmədin? (*M.M.*)

8. Bu marallar isə skripka çalır, fortepiano dınqıldadır, dirijorluq edirlər (*Ş.F.*). 9. Günəşin vərəmli tellərinə qarşı zavallı Bəşir ac uşağının göz yaşlarına, boğulmuş qadınının üzünə dinməz-söyləməz baxırdı (*C.C.*). 10. Bir-birindən uzaq, alçaq kənd evlərinin çoxu yaşıl ağacların arasında gizləndiyindən güclə görünürdü (*S.Q.*). 11. Başının üstündən qopardığı uzun quru otu dişlərinə alıb çeynəməyə başladı (*S.Şami.*). 12. Ara-sıra Dilbər atasının yoxsulluğunu xatırlayır, oxuyub doktor olacağını, ağ paltar geyib, xəstələrə baxacağını, atasına kömək edəcəyini, qoca atasının başını ucaldacağını düşünür, düşünürdü (*C.C.*).

II

1. Yalnız o, yalnız o, bunları görmür, eşitmir, qadınların böyük bir gurultu qopartdığı darısqal və yarımqaranlıq daxmanın bir bucağında sıxılmış, bütün bu sevinclərə darı-

lır, bu şənliklərdən sıxılır və eşitdiyi bütün bu gülüşlərdə, bu gurultularda müdhiş bir fəlakət bayquşunun qorxunc sədasını hiss edirdi (*C.C.*). 2. Klubda adam əlindən tərpənmək olmurdu (*İ.Ş.*). 3. Yeri ölçüb akt bağlayarsan (*İ.Ş.*). 4. Qız çalıb qurtardıqdan sonra skripkasını döşünə sıxıb yalvarıcı nəzərlərlə zabitlərə baxmağa başladı (*M.A.*). 5. Əyninə boz qabardin palto geymiş, başına o rəngdə şlyapa qoymuşdu (*S.Q.*). 6. Hamı maraqla opera teatrında oynanılan lotereyanı izləyir, televizorlarının qabağına toplaşır, qəzetlərdə hissə-hissə dərc edilən cədvəlləri yoxlayırdı (*H.S.*).

7. Hava sakit... Dəniz şəffaf... Səhər dilbər...
Al günəşin şəfəqləri düşür suya
Asta-asta oynadıqca göy ləpələr,
İlham verir min arzuya, min duyğuya.
Qanad kimi, qayıqların ağ yelkəni,
Süzüb gedir, seyr edirəm onları mən,
Dastan kimi oxuyuram bu dənizdən
Dünya görmüş, zaman görmüş bir ölkəni! (*S.V.*)

8. O, heç bir şeydən xəbəri olmadan, meşədə külək yıxmış qoca bir palıd ağacı üstünə oturub oxuyurdu. (*Ə.M.*). 9. Gələcək üçün mənim bir sıra elmi planlarım var idi (*İ.Ə.*). 10. Göyün üzünə səpələnmiş seyrək ulduzlar sönük bir parıltı ilə titrəşirdi (*Q.M.*). 11. Səyyar mətbəxlərlə yollara çıxan starşinalar ön xəttə nahar aparırdılar (*İ.Ş.*). 12. Külək bəzən şiddətlə çırpınır, damların bacalarını taqqıldadır, bəzən heç yoxmuş kimi susurdu (*C.C.*).

III

1. Mən şişləri köhnə keçə ilə təmizlədiyim vaxt Gülqədəm plovu dəmə qoyurdu (*Ə.V.*). 2. Stansiyanın semaforlarında yaşıl və qırmızı işıqlar yandı (*S.Şami.*). 3. Qoca dil-

manlı kiçik şəhərə gedən şose yolundakı teleqraf ağacına söykənərək gedənlərin dalınca baxırdı (*S.Şami.*). 4. Uşaqların bağırtısı, qızların, gəlinlərin çalğısı, yastı balabanların ən kobud ürəkləri oxşayan həzin iniltisi bir-birinə qarışıb, ümumi bir ahəng yaratmış və hər kəs bu şən gurultunun sonsuz sevinclərinə dalıb getmişdi. (*C.C.*). 5. Alnındakı incə, nəcib xətlər, düz və həssas burnu, üst dodağının üzərindəki xəfif tüklər, uzun və şəffaf boğazının sol tərəfindəki qara xal onu ağ qızılgül ləçəyi tək zərif üzünün gözəlliyinə cazibədar bir ahəng verirdi (*İ.Ə.*). 6. Serjant masadan bir qədər kənarda əyləşib pərişan halda skripka çalan bir qız gördü (*M.A.*).

7. Gözlədim yolunu, hava qaraldı,
O qaranlıq hava ruhumu sardı.
Səndən qəmgin könül sevinc umardı.
Sən ey səadətim, neçin gəlmədin? (*M.M.*)

8. İnsan ömrünü ancaq insan köməyi, insan qayğısı uzada bilər (*S.Q.*). 9. O, ağacların yarpaqları arasından görünən göyə, orada, yüksəklərdə ağır-ağır dövrələr vuran qartallara baxıb oxuyurdu (*Ə.M.*). 10. Buludlar lap aşağı enmiş, adanın üzərində qalın pərdə kimi sallanıb durmuşdu (*Q.M.*). 11. İnsanın zehni əmək fəaliyyətinə ciddi mənfi təsir göstərən vasitələrdən biri də skleroz xəstəliyidir. 12. Lakin kimsə bu öksüz yavrucuğun ruhuna girə bilmir, oradakı cəhənnəm kimi çoşan müdhiş iztirabları, kiçik vücudunu sarsıdan, ürəyini, duyğularını, bir kəlmə, bütün varlığını çeynəyən dəhşət və fəryadları görə bilmirdi (*C.C.*).

**§ 80.** Sözləri hecalara ayırıb onların xarakteristikasını nümunədə göstərildiyi kimi yazın.

***Nümunə:*** *Qə-zet*. Bu sözdə iki heca vardır.

Birinci heca açıqdır, bir samit və bir saitdən (ms)[1], ikinci heca isə qapalıdır, bir samit, bir sait və yenə də bir samitdən (msm) ibarətdir.

I

Çox gəzib dolandım bu yerləri mən,
Burda hər ayna su, hər yaşıl çəmən,
Hər çinar kölgəsi doğma, mehriban...
Qoy olsun gəncliyim vətənə qurban!
Burada bağçalar, bağlar çiçəkdi,
Yer əlvan naxışlı, göy dərya rəngli.
Sanki bir şerdir hər şux mənzərə,
Hər yosunlu qaya, hər sərin dərə.
Hələ min gül açan o çayır, o çöl
Ürkək sonaların yatağı Göy göl,
Bir özgə büsatdır, bir özgə aləm,
Mən burda görmədim nə qüssə, nə qəm!
İndi azad olan bu yer, bu torpaq,
Böyük Nizaminin vətənidir, bax,
O burda, qəlbini, ruhunu üzən
Kədərdən, qüssədən darıxıb, bəzən
Çinar kölgəsində səccadə salmış,
Qürubu seyr edib xəyala dalmış (*Ə.C.*).

II

Zəngəzur qəzasında olan məşhur çaylardan birisi Həkəri çayı sayılır. Bizim mahalda "Çaylar" adlanan yerdə iki çay vardır. Birisinə Həkəri, digərinə Bərgüşad deyirlər. 1918-1921-ci illərdə biz əvvəlcə Həkəri çayının sol sahilindəki İşıqlı kəndində, sonralar sağ sahilindəki Qara Cəlillidə yaşadıq. Kəndin ikisi də çaydan xeyli aralıdır. Su

[1] Şərti olaraq hecalardakı sait səslər s, samitlər isə m hərfi ilə göstərilir.

götürmək üçün çaya gedən kənd arvadları mis, ya da ki, saxsı sənəkləri çiyninə alır, yaxud bellərinə götürüb çatıdan tırmac vurur, doldurub qayıdırdılar. Su dəyirmanı sağ sahildə, Qara Cəlilli kəndinin girəcəyində idi. Kəndin ikisində də igid oğlanlar, qayğıkeş kişilər, zirək qadınlar çox idi. Burada özümə sədaqətli dostlar tapmışdım (*Ə.V.*).

III

Həyat bir dastana bənzər əzəldən,
Oxunar aləmdə o varaq-varaq.
Daimi deyilik nə siz, nə də mən,
Bizdən bu dünyada hünər qalacaq, -
Oxunar aləmdə o varaq-varaq.

Gəlib dolmasa da min bahar, min qış,
Yaşamaq eşqilə çırpınır ürək!
Alqış bu müqəddəs diləyə alqış!
İnsan əməlilə dövran sürəcək,
Yaşamaq eşqilə çırpınır ürək!

Gəl, gəl, gözəl sabah! Gözəl günəş gəl!
Sağımda, solumda qoşa dayanın
Böyük bir aləmdir hər kiçik əməl...
Mənim bu eşqimlə qoşa dayanın
Sağımda, solumda qoşa dayanın!

Sən ey xumar gözlü, sevdalı səhər!
Səni də insanın eşqi yaşadır.
Ey bu gün dünyaya gələn körpələr,
Göz açın, yurdumuz nə tamaşadır,
Sizi də insanın eşqi yaşadır... (*S.V.*)

**§ 81.** Şeir parçalarını oxuyun, hər misrada neçə heca olduğunu müəyyənləşdirin.

I

Gələndə hər bahar Novruz bayramı,
Hərənin başında bir keçə papaq,
Düşüb qapılara gəzərdi hamı
Hər çıxan tüstüdən bir pay umaraq.

Yığıb çantalara yerdən-yemişdən,
Yolda gah yüyürüb, gah ötüşərdik.
Sonra yuvamıza dönüncə birdən
Çul kimi döşənib, yorğun düşərdik...

Bəzən təbiəti biz sevə-sevə,
Yemlik döşürərdik qara torpaqdan;
Camışlar belində dönərdik evə
Axşam qaranlığın düşdüyü zaman.
Sizə xoş gələrmi bu əyləncələr?
Könül duyduğunu xəyal seyr edər.

II

Gəlir xatirimə qərib bir axşam:
Yanıb əriyirdi evimizdə şam,
Durnalar başımın üstdən keçəndə,
Onlara quş kimi qoşulub mən də
Ən uzaq ellərə uçmaq istədim.
Evdən baş götürüb qaçmaq istədim.
İnsan qanadsızdır!.. Çatıb qaşımı.
İlk dəfə arzusu gözündə qaldım...
Anamın dizinə qoyub başımı,
Xəyallar içində yuxuya daldım...
Qurban bayramıydı, gülürdü dağlar,

Qonşumuz xınalı bir erkək kəsdi:
O bayram günündə anamı ağlar
Görəndə, üstümdən bir çovğun əsdi.

III

Atam oturmuşdu qapımızda tək,
Ömrünün ixtiyar və düşgün çağı,
Zoğal müştüyünü tüstülədərək;
Yenə tökülmüşdü qaşı-qabağı.
Nəydi düşündürən o yazıqları?
Evdə nə ocaq var, nə isti qazan...
Hamıya gülməzdi ömrün ruzgarı
Deyin yanılmasın tarixi yazan!

Bir tərəfdə bayram, bir tərəfdə yas!..
Böylə keçinmişdir dilsiz əsrlər,
Şairim, könülün duyduğunu yaz!
Odur bu dünyada ən böyük əsər (*S.V.*).

## MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ VURĞU

**§ 82.** Mətni vurğunun tələbinə uyğun oxuyun.

I

Varlıqda gördüyümüz şeylər cürbəcür və rəngarəngdir. Kainatda gördüyümüz şeylərdə hərc-mərclik vardır, hətta əşyanın cinsi də, şəkli də müxtəlifdir. Əşya o qədər hesabsız və o qədər əhatə edilməzdir ki, onu saymaq və əhatə etmək mümkün deyil, indiyə qədər onu heç bir kəs ölçə bilməmişdir. Zahirdə baxıldığı zaman əşya bir-birinə bənzəməyən bir çox ünsürlərdən ibarətdir. Biz bunların hamısına tək-tək ad-

lar verməyərək, bir kəlmə ilə ona təbiət deyirik. Sizin və mənim kimi adamlar ona baxanda orada bir ahəng və bənzəyiş görə bilmir. Lakin elm və təcrübəmiz artdıqca bir-birinə bənzəməyən bir yığın əşyanın arasında sıx bir münasibət olduğunu görə bilirik. Bir-birinə bənzəməyən müxtəlif rəng, müxtəlif şəkilli əşyaya bu münasibəti verən haman təbiət dediyimiz şeydir. Bədbinlərin "həyat heçlikdir" deyə meydana atdıqları fikir tamamilə yanlış bir fikirlərdən ibarətdir; çünki həyat dediyimiz şey tək bir şəxsiyyətin həyatı yox, qoynunda yaşadığımız təbiətin həyatı deməkdir. Dünyaya namütənahi deyənlər də yanılırlar. Nəhayətsiz heç bir şey yoxdur. Lakin biz yorulub axıra qədər gedə bilmədiyimiz yollara nəhayətsiz deməyə adət etmişik (*M.S.O.*).

II

Azərbaycan bizim məmləkətlərimizin içərisində ən mədəniyyətli və irəlidə gedən bir ölkədir. Siz alimsiniz, özünüz tarixi yaxşı bilirsiniz. Şərqə, xüsusən İran kimi böyük bir məmləkətə elm və mədəniyyəti verən islamdan qabaq bu yerlərdə yaşayan babalarımız olmuşdur. Şübhəsiz ki, tarixdə oxuduğunuz o yüksək mədəniyyət yaşadığınız məmləkətə xaricdən gətirilməmişdir. Bu mədəniyyət, bu elm yurdumuzda yaşamış alimlərin və filosofların fikrindən doğan qiymətli bir məhsuldur. Əbuləbbas ləqəbini daşıyan məşhur filosof Əhməd ibn Məhəmməd bu yurdun oğludur. Əbubəkr Tahiri kimi, Əbu Məhəmməd-Mürtəiş kimi alimlərə tərbiyə verən Bərdə alimidir. Azərbaycan xalqının təbiətindəki qəhrəmanlıq Azərbaycan filosofu Əhməd ibn Məhəmmədin yazdığı fəlsəfi əsərlərində də əks etdirilmişdir. Onun əlində olan əsərindən sizə bir neçə nümunə deyəcəyəm. O deyir ki, "Sən heç vaxt cəzalanmaq qorxusu üzündən susan adamlarla məsləhətləşmə". O deyir ki: "Görüşündən müsbət bir nəticə əldə edə bilmədiyin adamın

sözündən də müsbət bir nəticə ala bilməzsən". Lakin mən qocaman şair Əbülülanın gənc şairə, hətta öz damadı olan Xaqaniyə yazdıqları həcvləri Qızıl Arslanda gördüyüm zaman məyus oldum (*M.S.O.*).

III

Nizami uca bır daşın üstündə durmuşdu. O, üzünü minlərcə istiqbalçılara çevirib dedi:

– Azərbaycan xalqı! Zülm və haqsızlığın yıxa bilmədiyi bir şey varsa, o da şəxsin qəhrəmanlığıdır. Zülm və haqsızlıq bir çoxlarının milli əzəmətini sarsıdırsa da, eyni zamanda qəhrəmanların da mübarizə silahını itiləşdirir. Onun sinirlərini bərkidir və onun qəlbində düşmənə qarşı barışmaz bir fikir doğurur. Dünyada canlı və cansız hər şey ölümə məhkumdur. Lakin bır xalqın tarixi və milli əzəməti çürüməz və məhv edilməz bir cəvahirdir. Cəvahir heç bir zaman çürüməz. O, torpağın altında da, üstündə də olsa cəvahirdir. İstilaçıların bizi alçaltmaq istəməsi və bizi Şərqin xəritəsindən silmək təşəbbüslərinə çox da təəccüb etməməliyik... Ancaq bunlardan daha alçaq, öz xalqının yüksəkliyini inkar edənlər və onun böyüklüyünə etina etməyənlərdir. Bu fikirdə adamların düşmənliyi xarici düşmənlərdən daha qorxuludur. Azərbaycan başladığı üsyanlarda qalib gəldi, bəzən məğlub oldu. Lakin bunların heç birisi gələcək qalibiyyətdən ümidləri kəsməyə icazə vermir. Azərbaycanlılar hələ islamiyyətdən daha əvvəl azadlıq sevən bir xalq olmuş, öz azadlıq yollarında bitən maneələri məhv etməklə məşğul olmuşdular. Azərbaycan xalqı öz mədəni və milli tarixini heç bir kəsə və heç bir qüvvəyə təslim etməmiş, yenə də etməyəcəkdir (*M.S.O.*).

### l) Heca vurğusu

**§ 83.** Köçürün, üzərinə vurğu düşən hecaların altından xətt çəkin.

***Nümunə:*** təcrü**bə**, sə**nə**...

I

Təcrübə sənə göstərəcək. Hər işdə mətanətli, dəyanətli olmaq lazımdır: Kitabxanadan sənə bağalar haqqında üç-dörd kitab gətirəcəyəm. Oxu, onların xasiyyətini yaxşı öyrən. Bu xüsusda kitablar sənə çox kömək edər.

Qanbay bağalarını tərbiyə etməkdə idi. O, bağalarını ancaq müəyyən saatlarda yedirir, yedirmək istədiyi zaman onları eyvana buraxırdı. Tamaşa üçün toplanmış uşaqların səs-küyü bağaları qorxutmurdu. Qutudan çıxmaq ac bağalar üçün bayram idi. Qanbay bir dəstə bağayarpağını havadan asırdı. Bu yarpaqları elə asırdı ki, bağalar ayaq üstə durmadan və ya başlarını yuxarı qaldırmadan onu yeyə bilməzdi. Sonra kamançasını götürüb çalırdı. Kamança səsi ac bağalara bir müjdə idi; çünki yemək vaxtı gəldiyini bilirdilər. Başlarını uzadıb, o tərəf-bu tərəfə qaçıb, yemək axtarırdılar.

Sara onun köməkçisi idi. Yuxarıdan asılmış otu arabir onların kiçik qara dodaqlarına toxundururdu. Bağalara ayaq üstə yemək öyrətmək istəyirdi. İndi bağalar isə bunu istəmirdi. Qanbay çox çalışdı, mümkün olmadı. O, təcrübəsində davam etdi. Axırda bağalara ayaq üstə ot yeməyi də öyrətdi.

Hər gün yemək vaxtı onları eyvana buraxır, özü kamança çalır, Sara da ipə bağlanmış ot dəstəsini onların başı üzərində tuturdu. Bağalar ayaq üstə qalxıb otu yeyirdilər.

İki ayda Qanbay ancaq bunu öyrədə bilmişdi. Onun fikri başqa idi. O indi özünə bir müəllim kimi baxmağa başlamış və istəyirdi ki, kamançasını əlinə alıb, çaldığı zaman bağaları sirkdəki heyvanlar kimi durub oynasın (A.Ş.).

II

“Ya Allah!”, – deyib al əlinə
İrəli bax
Özünü aparmasa,
Ruhunu aparacaq bayraq
Ruhundu ağ göyərçin,
Göy üzü göm göy bayraq
And göyərsə dilində
Köməyə çatan çatacaq
Qaldır bayrağı köksündən
Allah pənahına,
Qan qardaşınca sev
Kim ki təkdi “Hu-hu” deyincə
Qapılar açılacaq.
Əynindəki laləli köynəkdi
Əlindəki bəxtəvər bayraq.
Çap atını hünərlə
Köksünlə axını yar,
Bayraq tutan ərlər
Yarasını yalayar.
Örtüləcək üzünə
Qapılar
Son kərə bax.
Taleyi hər kişiyə
Ya kəfəndi, ya bayraq (*A.Mirzə*).

III

Ovçuların yalan danışmaları hər bir yerdə məlumdur. “Ovçu yalanı” zərbi-məsəldir. Bununla belə vay o şəxsin halına ki, ovçunun hekayətlərinə inanmayıb başını bulaya və yainki çiyinlərini qısa, yaxud dodağı altında təbəssüm edə; ovçu o saat inciyib daha hekayələrin dalısını söyləməyəcək və deyəcək:

– Doğrudur, ovçu yalan danışan olar və mənim yoldaşlarımın arasında da qurama-qarışıq söyləyən çoxdur. Amma mən ömrümdə yalan söyləməmişəm.

– Xeyr, əfəndim, nə buyurursunuz. Biz heç vaxt sizin söhbətinizin doğruluğuna şəkk gətirmirik. Bizdə gördüyünüz halət ancaq heyrət əlamətidir, başqa bir şey deyil və ola da bilməz.

Ovçu üzrləri qəbul etməyib hekayətinin dalısını söyləməyəcəkdir. Bizim qonşumuz ovçu Qasım da bu qəbil ovçulardandır.

Qış gecələrində bikar adamlar onun başına cəm olub söylədərlər. O da uzun-uzadı öz ovçuluğundan, hünərindən dörd ayını bir gündə öldürdüyündən, gecə vaxtı darı zəmisində qırğı ilə bildirçin ovladığından, tüfəngsiz gedərkən yolda yüz tülkü gördüyündən və bu qəbil söhbətlərdən edib, vaxtın xoş keçməsinə səbəb olur.

Bunu da qeyd etməliyik ki, ovçu Qasımın uydurma söhbətləri fəqət ova dairdir Qasım, iş yalanı deməz.

Qış gecəsi idi. Qasım kənddə isti buxarının kənarında başıaçıq əyləşib bizim üçün söhbət edirdi. Buxarının içinə yığılmış palıd kötüyü çırthaçırt yanmaqda idi, samovar da bir tərəfdə segah oxuyurdu. Buxarının bir tərəfində bir böyük pişik dörd ayağını və quyruğunu uzatmış xorultu ilə yatmışdı. Qasımın istəkli tulası Gümüş də qapının ağzında şonqutma əyləşib sahibinin söhbətinə qulaq asırdı.

Bayırda şiddətli külək qarı səhra qumu tək havaya sovururdu, damın taxtalarının arasından keçdikdə fabrik borusu tək fit verirdi (*Ə.B.H.*).

**§ 84.** Oxuyun, vurğunu müəyyənləşdirin.

I

Ağacqurdu, ağacdələn, ağbirçək ağızotu, ağırgövdə, ağköynək, ağlagəlməz, ağrıkəsən, ağsaçlı, adamayovuşmaz, adamaldadan, azarkeş, aztorpaqlı, ayaqyalın, ala-qarğa, alicənab, alçaqdaban, babadanqalma, bağayarpağı, bayramqabağı, baramaqurdu, barmaqvarı, başabəla, başdansovma, birbarmaqlı, birnəfəsə, boynubükük, böyükyaşlı, vəzifəpərəst, qazölçən, ürəkparçalayan, qanunauyğunluq, hazırcavab, çoxqanadlı, şüşətəmizləyən.

II

Bayramsayağı, balıqyetişdirmə, barmaqarası, bacıoğlu, başabatan, başıörtülü, beşyarpaqlı, bərabərüzvlü, bəstəboy, birtipli, boyunbağı, böyrəküstü, vaqonqayıran, qaraqaş, qarğadili, qeyri-kafi, qəmərsurətli, qısaqollu, qorxubilməz, qohum-əqrəba, qoşayelkənli, qulaqkəsən, qurdyeməz, dağkeşnişi, damcısalan, dargöz, daşdoğrayan, dənizkənarı, dərsarası, dikburun, dovşanalması, iynəyarpaq, ikielementli, sənli-mənli, cərəyankəsici.

III

Başdansovdu, başıaşağı, başıdolu, belibükük, biryanlı, qaymaqotu, qalınqabıq, qanlıbıçaq, qanıqara, qaradaban, qeyri-məqbul, qənaətbəxş, qısaboylu, qoşasəsli, qurdaoxşar, dalğayabənzər, daşdələn, dənizqırağı, dərsdənkənar, dolusifətli, ikidilli, səmimiqəlbdən, oxşəkilli, ördəkburun, ölçüyəgəlməzlik, pambıqqurudan, saysız-hesabsız, sarıqundaq, stəkanaltı, toxumbasdırma, tüstüçəkən, uzaqvuran, xırdabuynuzlu, havasoyuducu, şəhərlərarası.

**§ 85.** Oxuyun, əsas və ikinci dərəcəli vurğuları müəyyən edin.

I

Aerobağlama, aerofotoqrafiya, akrobatçılıq, ampermetr, amfiteatr, antimilitarist, antimarksist, bakterioloji, betonqarışdıran, biomorfologiya, bonapartist, bürokratiya, qazobeton, daktiloskopik, dezinfeksiyaedən, kristillogeniya, sessiyalararası, maşınqayırma, mikrobiologiya, dəmirbeton.

II

İntellektualizm, konsertmeyster, pantomima, inkorporlaşan, maqnitostatik, nevropatoloq, orqanoqrafiya, paleozoologiya, radioelektronika, radiotelefonçu, seysmoqrafik, teleqrampaylayan, transkripsiya, fontanvuran, fonolaboratoriya, fotoalbom, ştatdankənar, Afrika, eşalon.

III

Epiqoncasına, izosillabizm, kristallizator, geomorfologiya, maqnitometrik, nevropatologiya, paleobiologiya, radioqəbuledici, sementqarışdıran, transformator, folklorşünaslıq, fotolövhə, altılampalı, dramnəvis, elektromontyor, irikalibrli, kalliqrafiya, mikrobioloq, sessiyaqabağı, sitatbazlıq.

**§ 86.** Qara hərflərlə verilmiş sözlərdə vurğunu göstərin və həmin sözlərin mənalarını aydınlaşdırın.

1) Ağacların altı, damların dalı, evlərin böyrü, otaqların qabağı, divarların dibi – hər yer üzünə-gözünə qara sürmə çəkmişdi (*Ə.V.*). Onlar Sürmə xalanın otağında, böyük stol arxasında səhər çayı içirdilər (*Sab.Rəh.*). Xahiş edirəm, maşını sürətlə sürmə.

2) Yanağı alma, gəlin
Almanı alma, gəlin,
Evlərdə çox söz olar
Ürəyinə salma, gəlin (*Bayatı*).

3) Buyurun, buyurun, içəri gəlin! Mirzə Mehdi, bu gəlin üç ildir xəstədir (*Ə.H.*).

4) Qazma borularını bir-bir quyuya salma əməliyyatı iki saatdan çox çəkdi (*M.H.*). Özgəyə quyu qazma, özün düşərsən;
Günəşin qazmaya düşdü şəfəqi,
İgidim hörmətlə bükdü vərəqi,
Qoydu əzizləyib isti qoynuna.
Eşqin ər məğaı – ad verək buna (*M.R.*).

5) Onun ayağında uzunboğaz rezin çəkmə, əynində göy mahud palto, başında yaşıl yelənli qara kəlağayı vardı (*İ.Ş.*). Uşaq qaçanda qolundan çəkmə, yıxıla bilər.

6) Mən bir əlimdə çamadan, digərində balaca bağlama olduğu halda irəliləyirdim (*İ.Ə.*). Qapını bağlama, səndən sonra gələn var.

7) Əli dərsə gəlməmişdən əvvəl asma qayıqlara rəng çəkməklə məşğul idi. Paltonu oradan asma, sol tərəfdə paltarasan var.

**§ 87.** Oxuyun, vurğu qəbul etməyən şəkilçili sözləri seçib yazın və səbəbini izah edin.

***Nümunə:***

1) İsim düzəldən **-gil** şəkilçisi: xalam-gil, əmim-gil...

2) Birgəlik bildirən **-la** şəkilçisi: yoldaşım-la, tələbələr-lə...

I

1. Bir neçə il bundan əvvəl yeni il qabağı Mərdangilə getmişdim (*Sab.Rəh.*). 2. O şeyda quşun indi haradansa səslənəcəyini, onların intizar könüllərini ovudacağını gözləyirdilər (*Ə.Ə.*). 3. Səbri yenə də alqış səslərini eşidir, utandığından bucağa çəkilir, nə isə demək istəyirdi (*H.M.*). 4. Yeni il qabağı bir-birimizi ziyarət etmək Mərdanla mənim köhnə adətimizdir (*Sab.Rəh.*). 5. Starşina bu sözləri deyərkən onun bütün düşüncələri olub keçmiş hadisələr ətrafında fırlanırdı (*M.A.*). 6. Yolun o biri tayındakı kəşfiyyatçıların arasıkəsilmədən atdıqları işıq verən güllələr havada parıldayıb sönürdü (*M.A.*). 7. Çoxdan əhəng çəkilməmiş divarların rəngi mətbəxdə yanan ocağın tüstüsündən saralmışdı (*S.Q.*). 8. Anası nə qədər çalışdısa Narınc bu dərdi unuda bilmədi (*Sab.Rəh.*).

9. Sellər, sular qudurmasın!
Qurğumuzu uçurmasın!
Qayaları sökün, sökün!
Sement verin! Beton tökün (*S.V.*).

10. O vaxt mənə deyirdin vaxtını əbəs yerə keçirmə, amma mən deyirdim ki, bir mənim yazmağımdan nə olacaqdır (*N.N.*). 11. Zənnimcə, Fərhad gələcəkdə alçaq təbiliyini zühura verməsəydi, ümumi qanundan çox da uzaqlaşmazdı və tamam gücümlə öz qəhrəmanımı müdafiə edib məzəmmət olunmasına yol verməzdim (*C.C.*). 12. Müsabiqəyə sən də sənədlərini verdinmi? 13. Biz respublikanın ən böyük ali məktəblərindən birində oxuyuruq. 14. Müzəffər hər axşam qoyunlarını sulamağa gətirərkən Ceyranı orada görmüş və sevmiş idi (*C.C.*). 15. O, dərslərini yaxşı öyrənməmiş istirahət etməzdi.

II

1. Səbrinin qalın dodaqlarına nisbətən çox yaraşıqlı görünən inci dişləri yenə parıldayırdı (*H.M.*). 2. Mən o zaman Mərdangilə gələndə müharibənin çox şiddətli vaxtı idi (*Sab. Rəh.*). 3. O, dikələrək maşına sarı getmək istərkən zərif bir qadın səsi onu saxladı (*M.A.*). 4. Onlar dayanmadan çaya sarı hərəkət edirdilər (*M.A.*). 5. Narınc da çoxdandır kişilərlə söhbət etməyi, onlarla durub-oturmağı unutmuşdu (*Sab. Rəh.*). 6. Əgər səhnə otaq göstərirsə, eyni divarlar müxtəlif şəkillərdə təkrar edilirdi (*Sab.Rəh.*). 7. İndi sən öz evimin qapısını mənim üzümə bağlamaq istəyirsən (*Sab.Rəh.*). 8. Bir gün uşaqlar məktəbdən gəlib Mirzəyə xəbər verdilər ki, daha bu ildən onları məktəb pulundan azad etməyəcək, pul verməsələr, hər ikisini məktəbdən xaric edəcəklər (*Ə.H.*).

9. Zamandır, qanlı Kür, qaçma meydandan.
Çıxar qılıncını: bu mən, bu da sən!
Qoy sənin arxanda dursun "yaradan",
Mənsə qüvvət alım ellər gücündən (*S.V.*).

10. Bu məhəbbətin aşkar olmağı atasının və anasının rahatsız olmağına səbəb olacaqdır (*N.N.*). 11. Gör bunun bir dırnağını bayaq söylədiyin qızlara dəyişərsənmi? (*N.N.*). 12. Zənnimcə, xilqətdən daha əvvəl ədalətsizlik və vicdansızlıq yaranmışdır (*C.C.*). 13. Mən nə bilim ki, bu biinsaf oğlu mənə başdan quyu qazırmış (*N.N.*). 14. O, məni görməmiş şəhərə yola düşməyəcəyini söyləmişdi. 15. Sizə lazım olan kitabları vaxtında alın, əgər belə etməsəniz sonra çox əziyyət çəkəcəksiniz.

III

1. İndi bir o yox, bütün batareya, Əhmədov belə, iki gündən bəri səsini eşitmədikləri bülbülü arzulayırdılar (*Ə.Ə.*).

2. Bu gün eşitdiyi əsəri xatırlayıb həyəcanlanır, ürəyinin dərinliklərində onu narahat edən bu yeni hadisəyə soyuqqanlı baxa bilmədiyini ixtiyarsız büruzə verirdi (*H.M.*). 3. Mən köhnə ənənəmiz üzrə yenə də Mərdangilə gedirəm (*Sab.Rəh.*). 4. Murad uzanmışdı, rəngi üzündən büsbütün götürülmüşdü. (*Y.V.Ç.*). 5. Lakin nə olursa-olsun şalı sahibinə vermək lazım idi və mən də o biri axşam şalı şoferlə göndərdim (*İ.Ə.*). 6.Pəncərədən baxarkən, onun hər gün seyr etdiyi mənzərə geniş bir tablo kimi yenidən gözləri qarşısında canlandı (*M.A.*). 7. Bəxtiyarlığı uzaqlarda arayanlar çox yanılır; onu hər kəs özü hər şeydən əvvəl ailə həyatının quruluşunda aramalı, tapmalıdır (*A.Ş.*). 8. Sona, ata-anasına artıq dərəcədə məhəbbət bağlamış bir qız, "bu uçurum dərələri" keçə biləcəkmi? (*N.N.*)

9. De, yayın istisi alov tökdükcə,
Neçin şimşək olub birdən çaxırsan?
Motorlar Bozdağı yarıb sökdükcə,
Toz-duman içindən hara baxırsan? (*S.V.*)

10. Sanki bu sözlərin doğruluğunu Gülzarın üzündə oxumaq istəyirmiş kimi, bıçaq kimi iti baxışlarını onun üzünə dikdi (*C.C.*). 11. Mənim fikrimcə, biz hərgiz onunla bilmərrə əlaqəmizi kəssək, özü sonra düşünüb xəyanət etməz (*N.N.*). 12. Artıq Sitarə gözünə sataşırsa, bir doğma bacı kimi ona baxıb, sanki bacısının ərə getməyinə şad olurdu (*C.C.*). 13. Buyurun, yerlərinizdə rahat əyləşin. 14. O, bütün gün ərzində gördüyü işləri gündəliyinə yazmamış yatmazdı. 15. Dərin tədqiqat aparmadan düzgün nəticələr söyləmək olmaz.

**§ 88.** Vurğunun tələbinə görə oxuyun, vurğusu əvvəldə olan sözlərin birinci, ortada olanı ikinci, sonda olanı isə üçüncü sütunda yazın.

| | | |
|---|---|---|
| Avtobus | avtoqraf | atom |
| amper | despot | diaqnoz |
| orqan | barometr | bioloq |
| diplomatiya | kater | pafos |
| fanatik | prinsip | pempo |
| kompas | komplekt | kataloq |
| dialoq | monoloq | nekroloq |
| parter | epiloq | dosent |
| paraqraf | kompleks | kauçuk |
| debet | kredit | dollar |

**2) Məntiqi vurğu**

**§ 89.** Məntiqi vurğunu dəyişməklə cümlələri oxuyun və mənanın necə dəyişdiyini yazın.

***Nümunə:***

*Aydan bizim tələbədir.*
(Başqası yox, məhz Aydan bizim tələbədir)

*Elçin bizim tələbədir.*
(Elçin başqa məktəbin deyil, məhz bizim institutun tələbəsidir).

I

1. Biz əlaçıqlıq uğrunda çalışırıq.
2. Bilik bütün sirlərin açarıdır.
3. Fuad dünən imtahan verdi.
4. Sən dərsə ciddi hazırlaşmalısan.
5. Biz Tümenə qatarla getdik.

II

1. Munis təzə qəzet aldı.
2. Dostum mənə kitab bağışladı.
3. Tələbələr sabah muzeyə gedəcəklər.
4. Rəşad məqaləni diqqətlə oxudu.
5. Yazıçıların qurultayı dünən açıldı.

III

1. Siz iclasda çıxış etməlisiniz.
2. Tələbələr birinci yeri tutdular.
3. Kitab insanın dostudur.
4. Əmək insanı ucaldır.
5. Səyahətə gedənlər keçən ay qayıtdılar.

**3) Həyəcanlı vurğu**

**§ 90.** Qara hərflərlə verilmiş sözləri köçürün. Onların qeyri-adi tərzdə tələffüz olunmasında neçə səsin gərgin uzadıldığını göstərin.

***Nümunə:*** susmaq – sussmaq
gəşəng – qəşşəng

Səndən soruşuram, hazırda qoşunun üsyanından sən, yaxud, Qətibə nə kimi bir qazanc əldə edəcəksiniz? (*M.S.O.)*

*Xuraman* – Deyirlər ki, səni...
*Vaqif* – Nə, təzə xəbər?..
*Xuraman* – Nə bilim, doğrusu...
*Vaqif* – Danış!
*Xuraman* – Deyirlər səni vəzirlikdən qovlayacaq xan (*S.V.*).

Bir neçə gündən sonra kommunal təsərrüfatı şöbəsindən zəng vurub Adiləyə dedilər ki, sənin üçün gözəl bir otaq düzəltmişik, gedin baxın, xoşunuza gəlsə köçərsiniz (*Ə.Q.*).

**§ 91.** Aşağıdakı nida cümlələrini ucadan oxuyun və onlarda həyəcanlı vurğunu ifadə edin.

I

1. Dayan! O şikəstəni mən çalıram. O barmaq mənim barmağımdır. Afərin, Cavad! Mərhaba sənə! Ölmə, yaşa, ölmə yaşa! (*Ə.B.H.*)
2. Qoca Zərdüşt! Qoca Zərdüşt! Üç min il qabaq sən də Muğan səhrasını gəzib dolandın! (*S.V.*)
3. Qadınlar bir-birinə qatışmış:
– Qəribədir! Təəccüblüdür! Bərəkallah qız! (*C.C.*)
4. Yaşasın qüdrətli, müzəffər Azərbaycan Ordusu!
5. Odur göydən mənim üçün məxmi-rəvan enir, daha mən bundan sonra yerlərə lazım olmayacağam! Gəlirəm! Gəlirəm! (*Ə.B.H.*)

II

1. Azərbaycanın səma qartallarına eşq olsun!
2. Marş irəli, marş irəli – Azərbaycan əsgəri!
3. Səni görüm min yaşayasan! (*Ə.Y.*)
4. Eşq olsun sənə, ey gənc vətənimin qəhrəman övladı!
5. Yaşasın azadlıq! Yaşasın məhəbbət!

III

1. Uşaqların tərbiyəçisi olan, istehsalatda və məişətdə yorulmadan çalışan qadınlara – analara eşq olsun!
2. Oxu, bülbülüm, oxu! (*Ə.Ə.*)
3. Bağışla məni... Oh, Züleyxa, günahkaram, bağışla! (*C.C.*)

4. Sitarə! Bivəfa olma! Əhdə vəfa et! Məni yandırma! Gəl! Gəl! (*C.C.*)

5. Yaşa, Bakı! Yaşa, Vətən! Yaşa, Ana! Yaşa, Zəhmət! Yaşa, Sevgi! Yaşa, hünər! (*S.V.*)

## YEKUNLAŞDIRICI FONETİK TƏHLİL

**§ 92.** Aşağıdakı sözləri fonetik təhlil edin.

I

1) Mükafatlandırdıqlarımı, 2) dilşünaslığa, 3) sənayeləşdirməyə, 4) ətrindən, 5) katibliyə.

II

1) Kollektivləşdirməyə, 2) ədəbiyyatşünaslığa, 3) qanuniləşmə, 4) sinfində, 5) şairliyə.

III

1) Demokratikləşdirməyə, 2) təsərrüfatçılığa, 3) kitabxanaçılığa, 4) şəklində, 5) partizanlığa.

**§ 93.** Mətni tam fonetik təhlil edin.

I

Onların hamısı çıxıb gedəndən sonra yalnız Güləlioğlu tərəddüd göstərdi. O, Mürsəl kişinin gözünə görünməmək üçün izdihamın arasında gizlənib nə edəcəyini bilmədi. Bir neçə dəqiqədən sonra gördüyü işdən çox peşman olub. Tərlanın yanına gəldi, səmimi bir tərzdə üzr istədi.

II

– Bilirsinizmi, yoldaş həkim, biz ölkəmizi həqiqi bir məhəbbətlə sevməliyik. Çünki vətən məhəbbəti insanı vəzifəyə daha möhkəm bağlayır. Azərbaycan balaca olsa da, böyük ədiblərin, dahi şairlərin vətənidir. Uzun əsrlər boyu xarici istilalara məruz qalmış xalqımız unudulmaz qəhrəmanlar yetişdirmişdir.

III

Bizim doğma şəhərimiz Bakı, dünya inqilabına böyük sərkərdələr, ölməz qəhrəmanlar vermişdir. Bizim qəlbimiz dərin bir iftixar hissi ilə döyünməlidir. Çünki burada, bizim doğma yurdumuzda böyük dahilər yetişmişdir. Azərbaycan bütün Şərqə nümunə göstərilən azad bir ölkədir (*M.H.*).

**SUALLAR:**

1. Fonetika nədir?
2. Fonetikanın əhəmiyyəti nədən ibarətdir?
3. Fonetikanın neçə növü vardır?
4. Fonetik tədqiqatda hansı metodlardan istifadə olunur?
5. Fonetik transkripsiyanın mahiyyəti nədən ibarətdir?
6. Danışıq səsi nəyə deyilir və onu digər səslərdən necə fərqləndirmək olur?
7. Danışıq səsləri necə yaranır?
8. Danışıq üzvləri nəyə deyilir və hansılardır?
9. Danışıq üzvləri vəzifələrinə görə neçə yerə bölünür?
10. Danışıq üzvləri səsin yaranmasındakı iştirakına görə neçə yerə bölünür və hansılardır?
11. Fonem nəyə deyilir?
12. Fonetik vasitələr hansılardır?
13. Fonetik vahid nəyə deyilir?
14. Azərbaycan dilində neçə fonem vardır?
15. Sait fonemlər hansılardır?

16. Sait fonemlər hansı prinsiplərə görə təsnif edilir?
17. Saitlər dilin vəziyyətinə görə necə təsnif edilir?
18. Saitlər dodaqların vəziyyətinə görə necə təsnif edilir?
19. Saitlər alt çənənin vəziyyətinə görə necə təsnif olunur?
20. Saitləri necə xarakterizə etmək olar?
21. Samit fonemlər hansılardır?
22. Samit fonemlər hansı prinsiplərə görə təsnif olunur?
23. Samitlər əmələgəlmə yerinə görə necə təsnif edilir?
24. Samitlər əmələgəlmə üsuluna görə necə təsnif olunur?
25. Samitlər səs tellərinə görə necə təsnif edilir?
26. Samitlər tərkibə görə necə təsnif olunur?
27. Niyə ç və c qovuşuq səs adlanır?
28. Sonor səs nəyə deyilir və hansılardır?
29. Samitlər necə xarakterizə olunur?
30. Fonetik hadisə və qanun nəyə deyilir?
31. Azərbaycan dilindəki fonetik hadisə və qanunlar hansılardır?
32. Assimilyasiya nəyə deyilir?
33. İrəli və geri, tam və natamam assimilyasiya nəyə deyilir?
34. Dissimilyasiya nəyə deyilir?
35. Səsartımı nəyə deyilir?
36. Səsdüşümii nəyə deyilir və hansı hallarda baş verir?
37. Yerdəyişmə nəyə deyilir?
38. Ahəng qanunu nəyə deyilir?
39. Ahəng qanununun neçə növü vardır?
40. Saitlərin ahəngi necə izah olunur?
41. Samitlərin ahəngi necə izah edilir?
42. Saitlərlə samitlərin ahəngi necə izah olunur?
43. Cingiltiləşmə qanunu nəyə deyilir?
44. Cingiltiləşmənin əksinə olan karlaşma da varmı?
45. Heca nəyə deyilir?
46. Hecanın neçə növü vardır?
47. Hecanın neçə tipi vardır?

48. Vurğu nəyə deyilir?
49. Heca vurğusu nədir?
50. Məntiqi vurğu nəyə deyilir?
51. Həyəcanlı vurğu nədir?

**ƏDƏBİYYAT:**

1. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 2003.
2. Əbdüləzəl Dəmirçizadə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). Bakı, 1972.
3. Əziz Əfəndizadə. Fonetik təhlil haqqında. "Azərbaycan məktəbi" jurnalı. Bakı, № 8, 1954.
4. Məmmədağa Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968.
5. Muxtar Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1988.

# II

# ORFOEPİYA

## ORFOEPİYA HAQQINDA

**§ 94.** Verilmiş bədii nəsr və nəzm parçalarını oxuyun, hansında orfoepik xüsusiyyətlərin özünü daha qabarıq göstərdiyini müəyyənləşdirin.

Qardaşlar, sizə quşların həyatından çox söyləmişəm. Nə etməli, ovçunun başqa söhbəti olamı bilər? Quşların, heyvanatın aləmi ovçunun da aləmidir. Onların həyatı bizim həyatımızdır. Xalq bizi quşlara, heyvanlara düşmən hesab edir və deyir:

– Ovçu ki, bir quşu, ya bir heyvanı gördü, güllə atmaya bilməz. Belə deyil: mən bir dəfə meşədə ov etdiyim zaman bir talaya yavuqlaşdım. Baxdım bir qırqovul xoruzu özünü mərdanə çəkib durmuş, yanında dişisi, ətrafını cücələr bürümüş otlayır.

İndi özünüz söyləyin, elə təşəxxüslə öz ailəsi içində durmuş qırqovula mən gülləmi ata bilərəm? Mənim qolum quruyar.

Quşlara yovuq olanlar onların həyatı ilə insanın həyatına təfavüt qoymaz. Onlarda bir-birlərinə dostluq, düşmənçilik, məhəbbət, rəqabət, qısqanclıq görmək mümkündür. Göyərçinlərin ər-arvad sədaqəti insanda ola bilməz: qəflətən göyərçinin birinə güllə dəyəndə, onun yoldaşının nə hala düşməsini hamınız bilirsiniz.

Yainki bizim bu dədə-baba sağsağanımız. Sağsağan ki, bir ziyankar quşdur; heyvanın belində bir balaca yara gördü, onu dimdiyi ilə açıb, böyük yaraya döndərib heyvanın ətini dartıb yeyəcək. Sağsağanda bir yaxşı xasiyyət də var. Baharın yağanlıq ya quraqlıq olacağını sağsağanlardan bilmək olar. Sağsağanlar yuva tikən vaxt diqqət edin, yuvanı ağacın başında tikərsə, yəqin, bahar quraqlıqla keçəcəkdir, yox ağacın qalın yerində tikərsə, bilin bahar yağışlı olacaqdır.

Mən sizə hacıleylək həyatından bir nağıl deyim:

Bərdənin yaxınlığında Tozanlı deyilən bir kənd var. O kəndin hər bir böyük ağacına baxsanız, neçə hacıleylək yuvası görərsiniz.

On və on iki yaşım olduğu vaxtlar mən orada yaşayırdım. Bizim həyətdə uca bir çinar vardı. Çinarın başında hacıleylək yuva tikmişdi. Bir dəfə ağacın başına dırmaşıb yuvanın içinə baxdım, yuvada bir neçə dənə yumurta var idi. Mən yumurtaların birini götürüb düşdüm yerə, sonra bir dənə çalağan yumurtası aparıb yuvaya qoydum. Neçə vaxt keçdi. Bir gün gördüm, ağacın başında qiyamətdir. Azından əlliyədək hacıleylək cəm olub yuvadakı çalağan balasına tamaşa edirlər. Bir azdan sonra leyləklər dişi leyləyin üstünə tökülüb – onun tamam tükünü yolub, özünü də yuvadan götürüb atdılar. Leylək hərçi istəyirdi yuvasına qayıtsın – vurub salırdılar. İki gündən sonra erkək leylək gedib özünə təzə bir yoldaş gətirdi. Təzə gələn dişi leylək, yuvadakı quşların hamısını öldürüb yuvadan yerə saldı və özü yumurtalamağa başladı.

Qovulmuş leylək, özündə heç bir günah bilməyərək, gecə-gündüz yuvasının ətrafında dolanmaqda idi.

Bir gün arvadlar qapıda təndir salıb çörək bişirirdilər. Dul leylək yenə həmişəki tək öz yuvasının ətrafında dolanırdı, hərdənbir istəyirdi yuvasına gəlsin, əri və təzə gəlmiş arvadı bunu vurub qaytarırdılar.

Zavallı hacıleyləyin dili olsa idi, yəqin ərini və onun sair qohum-əqrəbasını günahsızlığına inandırardı, nə etsin ki, dili yox idi.

Birdən zavallı quş bacardıqca ucaya qalxıb, göyün üzərində bir-iki dövran vurub, güllə tək enib özünü çırpdı təndirə. Arvadlar çalışıb onu çıxardınca heyvan yanıb tələf oldu.

Bu keyfiyyət mənim yadıma düşdükcə, özümə heyrət edib deyirəm: nə üçün mən bu bəd əməli tutub, yazıq quşun bu faciəsinə səbəb oldum? Günah uşaqlıqdadır; yoxsa mən heyvanatın düşməni deyiləm (*Ə.B.H.*).

Çox keçmişəm bu dağlardan,
Duma gözlü bulaqlardan;
Eşitmişəm uzaqlardan
Sakit axan arazları;
Sınamışam dostu, yarı...
El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!
Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana:
Hankı səmtə, hankı yana
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən!
Fəqət səndən gen düşəndə,
Ayrılıq məndən düşəndə,
Saçlarıma dən düşəndə
Boğar aylar, illər məni.
Qınamasın ellər məni.
Dağlarının başı qardır,

Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır;
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin (S.V.).

**§ 95.** Orfoepik normalara əməl edərək şeri ucadan oxuyun.

Seyr et, səyyah, bizim qoşa qapıları,
Görürsənmi, onlar yenə pürvüqardır!
Açıq qəlbi, səxavəti, hüsnü vardır;
Unutmamış o ilk andı, ilk ilqarı.
Seyr et səyyah, bizim qoşa qapıları,
Bir yaxşı bax, geniş köksü açılmışdır;
Buyur! – deyir dost ürəklə gələnlərə.
Sən baxma ki, bir çox yeri uçulmuşdur,
O da xoşdur vətən qədri bilənlərə.
Bu qapıdan neçə nəsil gəlib keçmiş.
Yada düşür ömrün uzaq zamanları –
Bizim qala qapılardan azmı keçmiş.
Zınqırovlu, yüklü dəvə karvanları?!
At çapdıran, ox süzdürən, nizə tutan.
Nə oğullar gəlib keçmiş bu yerlərdən.
Bir çoxunu unutmuşdur onun zaman...
Söylə səyyah! Bilirsənmi bunları sən?
Səyyah susur, çünki o da bu yerləri
Kitablardan oxumuşdur ala-seyrək,
Axşam kimi zənn edərək hər səhəri,
Həqiqətə boyaq vurmuş əfsanə tək...
Səyyah dalır bu cəlala bir diqqətlə,
Duyur sakit baxışımdan hörmətimi.
Mənsə könül mülkündəki bir riqqətlə,
Qonağıma başlayıram söhbətimi:

Səqfi çökmüş bu qalanın boz daşları
Boran görmüş, külək döymüş bir dənizdir.
Qalmasa da onun köhnə sirdaşları.
Sahibi var! – O da bizim ölkəmizdir!
Səyyah sorur: – Neçin sərtdir onun üzü?
Mən deyirəm: – Amansızdır qəsbkara!..
Bu qalalar çağırmışdır nəslimizi
Qurtuluşa, azadlığa, ilk bahara! (S.V.)

**§ 96.** Aşağıdakı şeir parçalarını oxuyun, qara hərflərlə verilmiş sözlərin müasir tələffüz formalarını yazın.

***Nümunə:*** *Tazə* – təzə

I

Şairəm, əsrimin ayinəsiyəm.
Məndə hər kəs görür öz qaş-gözünü;
Necə kim, dün "Birisi" baxdı mənə.
Gördü ayinədə ancaq özünü (*M.Ə.S.*).

Bu – Qafqaz, bu da – Qafqaz arifləri,
Bu da – əhli-nazə təarüfləri,
Bu millət yolunda məsarifləri,
Bu da şanlı-şanlı maarifləri (*M.Ə.S.*).

II

Sən düz adəmsən əgər səndə bu tədbir nədir?
Jurnala çəkdiyin ol qalmalı təsvir nədir? (*M.Ə.S.*)

Nədir, yoxsa zənnincə etdim xəta?
Sus! Etməm xəta! Söyləməm nabəca (*M.Ə.S.*).

III

Oxur, bundan hər kəs qanar həqqini,
Qanan mütləq ali sanar həqqini,
Axund isə xəlqin danar həqqini (*M.Ə.S.*).

Əgər məktəb əmrində bilintixab,
Mənə tapşırılsa ümumən hesab
Mən ol vəqt, edəm ictinab! (*M.Ə.S.*)

**§ 97.** Şeri orfoepik normalara müvafiq oxumadıqda nitqin hansı cəhətdən zəiflədiyini aydınlaşdırın.

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu məvadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?
Getdi mənə nə fələliyin badə, əkinçi?!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Aldı dolu əldən sərü samanını, neylim?
Yainki çəyirtkə yedi bostanını, neylim?
Verdin keçən il borcuna yorğanını, neylim?
Ol indi palaz satmağa amadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Söz açma mənə çox çalışıb, az yeməyindən,
Canın bəcəhənnəm ki, ölürsən, deməyindən!
Mən gözləmənəm, buğda çıxar, ver bəbəyindən!
Çəltik də gətir, arpa da, buğda da, əkinçi!
Yoxsa soyaram lap dərini, adə, əkinçi!

Sən hey de: yoxumdur, çıxarıb canını, allam!
Vallahi ovub dideyi-giryanını, allam!
Şallağə tutub peykəri-üryanını, allam!
Öz halını sal indi özün yadə, əkinçi!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Cütcü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,
Öyrənməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!

Lakin mənim insanlıq olub vəzi-mədarim,
Bəyzadəyəm, asayişədir cümlə qərarim,
Meysiz, məzəsiz bitməz olur şamü nəharim;
İştə belədir haləti-bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə, əkinçi! (*M.Ə.S.*).

## SAİTLƏRİN TƏLƏFFÜZÜ

**§ 98.** Qarşısında iki nöqtə qoyaraq < a > saitinin hansı sözlərdə uzun tələffüz edildiyini göstərin.

***Nümunə:*** Na: diri, a: hu, sa: hib, şa: hin.

I

1. Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm, dəxi qoymazlar kəndə (*M.P.V.*).

2. Mərdlər ilən gəz ki, vəfadar olur,
Nakəslərə yoldaş olan xar olur,
Namərd odur yaxşı gündə yar olur,
Yaman gündə baxmaz, ötər yan ilə (*M.V.V.*).

3. Mən Zakirəm budur sözüm, söhbətim,
Nadan ilə hərgiz-olmaz ülfətim (*Q.Z.*).

4. Səyahət etməyə gülzarə hər kəs etsə xüram,
İcazə verməyə şimşad eyləsin iqdam (*S.Ə.Ş.*).

5. Bir dəfə bir nəfər şəxs dəftərxanaya gəlib, katibdən öz kağızından dolayı məlumat istəyir, katib cavab verir ki, kağızın Mirzə Səfərdədir, üzünü ağardar, apararsan (*Ə.H.*).

II

1) Məhəllə qarət olunurdu. Evlər binasından sökülüb dağılırdı (*M.S.O.*).

2) Bu qayalıq, bu dağ döşü o natiqə tanışdır (*S.V.*).

3) Qanuni hökmüydü əsrin, dövranın,
Biz yol açmalıydıq məşəlimizlə (*Ə.C.*).

4) Gülşən anasını sonsuz bir məhəbbətlə sevməklə bərabər gedib ali təhsil almaq həvəsindən də əl çəkə bilmirdi (*Ə.V.*).

5) Taqəti qalmayır addım atmağa,
Can atır dəstəyə gəlib çatmağa (*Ə.C.*).

III

1) Olmasın fəhmin, əqlin, idrakın,
Var nə qəm, taki, vardır əmlakın;
Atəşi-xanə, suzi-millət ikən –
Hər kəsin səcdagahıdır xakın (*M.Ə.S.*).

2) Acam, donub ölürəm, yoxdur bir nəfər insan
Yemək verib mənə rəhm eyləsin bu gündə, aman!
Yazıq yetimi bu halətdə bir qarı görcək,
Alıb onu otağa, qızdırıb da verdi yemək (*A.Ş.*).

3) Ay da taleyinə uzaqdan baxdı,
Çaldığın havalar yandırıb yaxdı
Yaslı gəlinləri, yaslı qızları;
Ahından əridi dağların qarı (*S.V.*).

4) Mənim bu naləmin hər bir könüldə var əsəri,
Şikəstə ney kimi ruhun qəzasıyam, gözəlim!
Bəlalı aşiqinəm, baxma qeyrilər sözünə,
Məhəbbət aləminin binəvasıyam, gözəlim!

5) Əcnəbi sahilə yan alır gəmi.
Şiddətlə döyünür qəlbimiz nədən?
Özgə bir aləmi seyr edir kimi,
Baxırıq sahilə biz göyərtədən (*B.V.*).

**§ 99.** Fars dilindən keçən, əslinə müvafiq tələffüz olunması tələb edilən sözlərə dair on misal göstərin.

***Nümunə:*** Zalım – z [ a ] lım

**§ 100.** Sual məqsədi ilə işlədilən cümlələrin xəbərindəki son <a> səsinin uzun tələffüz edilməsinə dair beş misal yazın.

***Nümunə:*** Bu danışar – bu danış[a]r?

**§ 101.** Oxuyun, <a> səsinin nə üçün <ı> kimi tələffüz olunduğunu izah edin.

Arxıya (arxaya), anıya (anaya), arıya (araya), yarıya (yaraya), başlıyır (başlayır).

**§ 102.** Sözləri ucadan oxuyun, qara yığılmış "o" hərfini <a> kimi tələffüz edin.

Montaj, monolit, morfologiya, portfel, polkovnik, politexnik, portret, kosmetika, poliklinika, kompres, lotereya, kolorimetr...

**§ 103.** Verilmiş parçaları oxuyun, "o" hərfinin <a> kimi tələffüz olunduğu sözləri göstərin.

***Nümunə:*** Samovar – samavar

I

1. De yayın istisi alov tökdükcə
Neçin şimşək olub birdən çaxırsan?
Motorlar Boz dağı yarıb sökdükcə
Toz-duman içindən hara baxırsan? (*S.V.*)

2. Mənim romantikam! Sən də qanadlan!
Yan, yan bu gördüyün məşəllər kimi! (*S.V.*)

3. Yerin damarını sorurdu fontan,
Buruğun başına vururdu fontan.
Buruğun çevrəsi batmışdı neftə,
Yerdə neft axırdı su kimi müftə (*M.M.*).

4. [Yaşar]: Yox, dayı, yəqin proyekti
Toğrul özü aparmışdır (*C.C.*).

5. Komandirin şüuruna çatan böyük bir sevincin müjdəsi öz xariqəsini göstərirdi (*Ə.M.*).

6. Tədris hissə müdiri professor öz çıxışlarında bu cəhətləri inadla qeyd edir, gələcəyi ümidli olan gənclər içərisində Mehmanın adını xüsusi bir iftixar hissilə çəkirdi (S.Rəh.).

II

1. Maarif komissarlığı nümayəndəsinin ad-familiyasını göstərdim (*Ə.V.*).

2. Aqronomun demoqoqluğunu isbat eləmək istədi, lakin inamla yazılmış məlumat Əbilin ağlına batırdı (*Ə.V.*).

3. [Yaşar]: Mənə kağız yazıblar ki, bu gün kağızları çıxartmasam, sabah yazacaqlar prokurora (*C.C.*).

4. Səlimə başqa qızlar kimi əyninə göy kombinezon geyib ağ yaxasını səliqə ilə onun üstündən düymələyir və öz maşınını diqqətlə idarə edirdi (*H.S.*).

5. [Prokuror]: Müttəhim Yaşar Süleyman oğlu proyekti yandırmaqla və elektrostansiyanı partlatmaqla xalqın malına qəsd etmişdir (*C.C.*).

6. Professormu? – Salon sakit bir hal alır,
Söhbət gedir hərbi xəstəxanalardan;
İnsan ağlı doğrudan da heyran qalır -
Ölümlərdən xilas olmuş neçə insan! (*S.V.*)

III

1) Puan Qay onların pis xasiyyətlərini, məğrurluqlarını, çinlilərə edilən zülmü pontamim tərzi ilə gözəlcəsinə göstərib xalqı güldürürdü (*S.S.A.*).

2) Kənarda buzlu ruzigar şikayətini bir yaralı heyvan iniltisi ilə telefon tellərinə toxunur və uğuldayırdı (*H.N.*).

3) [Toğrul]: Həmən proyekt ilə Yaşar təcrübə tarlası salmışdı, pambıq bitmədi, laboratoriyadakı təcrübədə duz puç olurdu, açıq hava da olmadı (*C.C.*).

4) [Belokurov]. Yaşar, axır ki, tapdım zəhrimarı... Əkdim, getdim Rostova, dünən qayıtdım, gördüm göyərib (C.C.).

5) [Sədr]: Bununla bərabər, məhkəmə qeyd edir ki, yerli təşkilat rəhbərliyindən bəziləri bu işdə opportunizmə yol verib, sinif düşməninə göz yummuşlar, əlbəttə, lazımi idarələr bunu nəzərdən qaçırmışlar (*C.C.*).

6) Samovar pəsdən səslənir, ana ocağın qırağında qab-qaşığı yuyur, oğul durduğu yerdən tərpənməyib xəyalən İlanlı Dərədən aralana bilmirdi (*Ə.V.*).

**§ 104.** Tərkibində **<o>** səsi olub **<a>** kimi tələffüz edilən alınma sözlərə dair on beş misal yazın.

***Nümunə:***

| ***Yazılır:*** | ***Deyilir:*** |
|---|---|
| Motor | mator |

**§ 105.** Verilmiş sözləri düzgün tələffüzlə oxuyun, onlardakı eyni sait qoşalığının (**<aa>, <əə>, <ii>**) yazılışı ilə deyilişi arasındakı fərqi izah edin.

a) saat, maaş, camaat
b) mətbəə, təəccüb, təəssüf
c) təbii, bədii

**§ 106.** Düzgün tələffüzlə oxuyun, yazılışı ilə deyilişi arasındakı fərqi göstərin.

Şöbə, elan, məlumat, əlaçı

**§ 107.** Tərkibində **<ia>** müxtəlif sait qoşalığı olan iyirmi söz yazın və onların necə tələffüz edildiyini deyin.

***Nümunə:***

| *Yazılır:* | *Deyilir:* |
|---|---|
| ailə | ayilə |

**§ 108.** 107-ci çalışmada yazdığınız sözlərin hər birini cümlədə işlədin.

**§ 109.** Tərkibində **<ia>** müxtəlif sait qoşalığı olan on söz (sosializm – sosyalizm...) yazın və qoşalıq arasına **<y>** səsinin artırılması səbəbini izah edin. Hansı sözlərdə **<ia>** qoşalığına **<y>** artırılmadığını göstərin.

***Nümunə*:**

| *Yazılır:* | *Deyilir:* |
|---|---|
| diametr | diyametr |

**§ 110.** Tərkibində **<io>** müxtəlif sait qoşalığı olan on söz (pioner – piyoner...) yazın və düzgün tələffüz olunma qaydasını izah edin.

**§ 111.** Tərkibində **<iə>** müxtəlif sait qoşalığı olan on iki söz (müdafiə – müdafıyə...) yazın, hər sözün qarşısında necə tələffüz edildiyini göstərin.

**§ 112.** Tərkibində **<ea>** müxtəlif sait qoşalığı olan on söz (teatr – tiatr...) yazıb, tələffüz qaydasını göstərin.

**§ 113.** Tərkibində **<əa>** müxtəlif sait qoşalığı olan on beş söz (səadət...) yazın və necə tələffüz olunmasını izah edin.

**§ 114.** Tərkibində **<əi>** müxtəlif sait qoşalığı olan on söz (zəif – zəyif...) yazın və tələffüz qaydasını aydınlaşdırın.

**§ 115.** Cədvəli köçürün, yazılışı verilmiş sözlərin deyilişini göstərin.

| Müxtəlif sait qoşalığı | Yazılışı | Deyilişi |
|---|---|---|
| Aİ | faiz, xain | |
| İO | biologiya, radio | |
| İA | diaqram, diametr | |
| İƏ | faciə, vaqiə | |
| İU | radius, radium | |
| Eİ | kodein, ateist | |
| EA | teatr, reaksiya | |
| EO | feodal, teorem | |
| OE | poema, orfoepik | |
| AƏ | qənaət, itaət | |
| AU | faun, kauçuk | |
| ÜA | müalicə, müasir | |
| UA | sual, Fuad | |
| ÜƏ | müəllim, müəllif | |

## SAMİTLƏRİN TƏLƏFFÜZÜ

**§ 116.** Sonu **<k>** samiti ilə qurtaran çoxhecalı sözlərdən sonra samitlə başlanan şəkilçi, yaxud söz işləndikdə **<k>** səsi nəfəsli **<h>** kimi tələffüz olunur. Verilmiş şeir parçalarını oxuyub belə sözləri göstərin.

I

Günəş doğdu, yayıldı
Yatan ellər ayıldı,
Açdı çiçəkli güllər,
Dilə gəldi bülbüllər (*A.Ş.*).

* * *

Həyat dedikləri şübhəli bir şey,
Ölümsə şübhədən çıxmaq deməkdir.
Bu qəmgin təranə... bu kədərli ney
Varlığı heçlikdə boğub yeməkdir...

* * *

Ulduzlar qoynuna şəfəqlər saçar,
Səsindən ordular, karvanlar qaçar,
Sən gəzdiyin yerlər gül-çiçək açar,
Çünki uğurludur ayağın sənin (*S.V.*).

* * *

Sevda idi bu gələn
Gedər, bir də qayıtmaz
Gözlərimə əkdi qəm.
Kədər bir də qayıtmaz.

* * *

Sevdanın nubarıydı,
Qəlbimin qubarıydı
Öldürsə dərd yarıydı
Betər, bir də qayıtmaz.

* * *

Günüm, dövranım idi,
Sevda fərmanım idi.
Çünki dərmanın idi
O dərd bir də qayıtmaz (*A.M.*).

II

Həyat dedikləri hərəkətdədir.
Bu ölməyən qanun təbiətdədir.

* * *

Hanı ağ suların xoş təranəsi?
Burda nə ildırım, nə şimşək çaxar;
Yadıma düşdükcə Dilcan dərəsi
Başımdan tüstülər, dumanlar qalxar.

* * *

Bəzən də fikrimin qanadlarını
Küləklər qoparıb qaldırır göyə (*S.V.*).

* * *

Budur, sağ tərəfdə kiçik bir bina,
Hüseynin evində qəmgindir ana.
Qaldırıb göylərə titrək əlini,
Söyləyir: "Sən yetir kömək əlini".

* * *

Yenə də uzaq, yaxın
Ellərdən axın-axın
Gəlirdi baş igidlər,
Qəmə yoldaş igidlər (*M.M.*).

III

Yaşıllanır dağ, yamac,
Bəzək vurur hər ağac.
Dərə, təpə, çöl, çəmən
Çiçəklərdən qoyur tac (*A.Ş.*).

* * *

Köklü ağac kimi qopub yerimdən,
Uçuram bir dərin boşluğa sarı,
Titrədir canımı dağlar ruzgarı (*S.V.*).

* * *

Gördüyün ağacı, oğul, bir zaman
Burda özüm əkdim öz əllərimlə.
Qədim arx süzülüb keçir yanından,
Kiçik budağı da qopmayıb hələ.
Çöldə yenə küləkdir,
Qaranquş uçub gedib,
Bülbül də köçüb gedib
Sərçə həyətdə təkdir.
Bulaq qonaqsız qalıb.
Budaq yarpaqsız qalıb
Günün ömrü gödəkdir (*H.A.*).

* * *

İlk bahar çağıdır, uşaqlıq ömrün.
Şıltaqdır, oynaqdır kəpənək kimi.

Ömrün yay çağıdır gənclik büsbütün,
Coşqundur, dəlidir o, külək kimi (*S.V.*).

**§ 117.** Oxuyun **<k>** səsinin tələffüzünə xüsusi fikir verin.

Kabinet, klamet, komplekt, kalibr, klapan, konstruktor, kalkoqraf, klassik, konfrans, kalliqraf, klişe, kristal, kapitalizm, kolorit, krançı, karbon, komik, kultivasiya, karnaval, kompleks, kurort, kassa, kursiv, kurs, kubik.

**§ 118.** Aşağıdakı sözləri oxuyun, **"k"** hərfi ilə əks olunan səslərin tələffüzünə fikir verin, bunların fərqini izah edin.

kino – kupe
kiosk – katod
kilovat – kubmetr
kinoskop – kauçuk
kimoqraf – korrektor

**§ 119.** Cümlələrdə qara hərflərlə verilmiş sözlərin düzgün tələffüzünü göstərin.

I

Araz boyu vadilərin əkin-biçin sahələri görünür. Balaca yastıdlı kəndlər və bu kəndlərdən uzanan yollar, cığırlar o taylı dağların zümrüd bahar çəmənlərinə bürünmüş köksündən keçir; gədiklərdən, keçidlərdən aşıb gedir, bizim üçün doğma və sirli bir dünyaya – Qaradağ Təbriz dünyasına qovuşur (*S.R.*).

* * *

Torpağın azlığı insanı onun qədrini bilməyə, onu dönədönə əkib-becərməyə, qənaətçil, səbirli olmağa öyrədib (S.R.).

II

Tez qapıya yüyürdü, qaçdı sevincək: – Ana!
Həsən dayımdır gələn, Mina dostum və Sona.

* * *

Zinətim yox, nə gizləyim səndən,
Başqa güllər içində yoxdur adım,
Onlar ilə bərabər açsam mən,
Kimsə gəlməz mənə yaxın bir addım (*A.Ş.*).

III

Keçdi yarıdan gecə, sükut içində hər yan,
Şiddət ilə qar yağır, səs edir ancaq boran (*A.Ş.*).

* * *

Harda əsgər gördü ondan söz açdı,
Eşitdi gələn var, yanına qaçdı (*T.B.*).

**§ 120.** Oxuyun, qara hərflərlə verilmiş sözlərin necə tələffüs edildiyini aydınlaşdırın.

I

Hər gün yeni bir dərd, yeni bir ələm,
Qartal pəncələrdə qəhr olur aləm (*S.V.*).

* * *

Bir tərəfdə şam, palıd.
Bir tərəfdə şabalıd.
Ağ alma, sarı armud,
Gəlinlər nə gözəldir (*H.A.*).

II

Çökərkən axşamın qaranlıqları
Gözümdə bir qara bulud dolaşar.

* * *

Sularında gəmilər,
Neçə kənd, neçə şəhər...
Gəzişləməz zəmilər,
Dövlət-var nə gözəldir (*H.A.*).

III

Ordubad çox qədimdir. Eksponatlarına şöhrətli muzeylər də həsəd aparar: qədim şamdanlar, lampalar, saatlar, gözəl nəqqaşlıq nümunələri, son dərəcə nadir ələm və bir də qədim başdaşları (*S.R.*).

Mənim kainatım əzəldən bəri
Bu azad Vətəndir, a gözəl pəri! (*Ə.C.*)

**§ 121.** Sonu **"d"** samiti ilə bitən çoxhecalı on beş söz yazın.

**§ 122.** Sonu **<c>** samiti ilə bitən on çoxhecalı söz yazın və onları cümlədə işlədib düzgün tələffüz edin.

**§ 123.** Aşağıdakı sözləri düzgün tələffüzlə oxuyun. Onların yazılışı ilə deyilişi arasındakı fərqi izah edin.

a) toqqa, saqqal, baqqal, çaqqal;
b) nöqsan, nöqtə, məqsəd, təqsir;
c) kottec, attestat, assistent;
ç) mütəkkə, yeddi, səkkiz, əlbəttə.

**§ 124.** Verilmiş sözləri oxuyun, orfoepik normalara görə onların necə tələffüz olunduğunu göstərin.

Müşayiət, radioaktiv, hərb, teatr, avtobus, müvəffəqiyyət, nailiyyət, bələdiyyə, vicdan, macəra, kimyagər, kinossenari, kinematoqrafiya, sirk, kondensator, baroskop, barometr, dekameron, departament, deponent, destimetr, panoram, multiplikasiya, paraşüt, ossiloskop, broşüra, paroxod, parlament, taksomotor, şokolad, şlaqbaum, şifoner, şrift, ştanq, şüakeçirmə, standart, etnoqraf, stenoqram, stomatoloq, stereokino, stansiya, paralelizm, darmnəvis, etimologiya, şabalıd, Lomonosov.

## BƏZİ QRAMMATİK FORMALARIN TƏLƏFFÜZÜ

**§ 125.** Sonu **<n>** və **<m>** samitləri ilə bitən isimlərə qoşulmuş çıxışlıq hal şəkilçiləri -nan, -nən (qolum+dan – qolum+nan, dilim+dən – dilim+nən) kimi tələffüz olunur. Bu qaydaya aid otuz söz yazın.

**§ 126.** Felin şərt və arzu formalarının şəkilçilərinin şifahi nitqdə nə üçün dəyişdiyini izah edin.

| Yazılır: | Deyilir: |
|---|---|
| Alsa idi | alseydi |
| gəlsə idi | gəlseydi |
| | aleydi |

**§ 127.** Müəyyən gələcək zaman (bil+əcək) və I şəxs tək şəkilçisi (-əm) qəbul edən fellər necə tələffüz olunur? Bu qaydaya aid on beş söz yazın.

**§ 128.** Nəqli keçmiş zaman və II şəxs tək, yaxud cəm şəkilçiləri qəbul edən fellərdə **<ş>** samiti tələffüz olunmur: gəl+miş+sən – gəl+mi+sən. Bu qaydaya aid misallar seçin və onları cümlədə işlədin.

**§ 129.** Verilmiş nida cümlələrini intonasiyaya müvafiq oxuyun.

1. Məktəbdə olduğu kimi, burada da özünü pioner adına layiq aparıb intizamı pozmayın, bir-birinizlə yaxşı rəftar edin! Ağaclara, quşlara ziyan verməyin! (*A.Ş.*) 2. Bu yerdə məni bir fikir götürdü: zəmani ki, mən diriyəm, necə cəhənnəmə gedə bilərəm! (*Ə.H.*) 3. Aha, bu onun üçün hər gün sallana-sallana bostana gedirmiş! (*A.Ş.*) 4. Ah, xain qardaş, ah, can, anam! (*C.C.*). Bəsdir, götürün hamısını, yerində ayırd elərik! (*C.C.*). 5. Vay-vay işim yaman müşkülə düşdü! (*N.V.*) 6. Çox yaşa, dövlətli Səttarxan əfəndim, çox yaşa! (*M.Ə.S.*). 7. Müvəffəqiyyətini təbrik edirəm, Kamil! (*A.Ş.*). 8. Qulu, mən ölüm, Əhməd bəyin qapısından keçəndə onun darvazasını taqqıldat! (*Ə.H.*) 9. Ah, mən nə qədər xoşbəxtəm! (*A.Ş.*). 10. Afərin, Səfər, indi xalis şairsən! (*Ə.H.*)

**§ 130.** Müxtəlif məzmunlu on nida cümləsi qurun və onları düzgün tələffüzlə oxuyun.

**§ 131:** Oxuyun, sual bildirən sözü ucadan tələffüz edin.

Hər tərəfdən sorğular yağdırıldı: – Hə nə oldu? Nə üçün çıxdı? Nə istəyirsən? Bitdimi? Nə olmuşdur? (*C.C.*) 2. Deyirlər ağacdakı taxta yuvanı sən qayırmısan, elədirmi? (*A.Ş.*) 3. Milyonlarca belə zəkaları dörd divar içərisinə salaraq, hənuz açılmamış qönçə kimi saraldıb-soldurub qəbrə göndərən insanlara lənət və nifrət etməyə haqlı

deyilmiyəm? (*S.S.A.*) 4. İstəyirəm öyrənim görüm futbol sözü nə deməkdir, bu oyun ilk dəfə hansı ölkədə meydana çıxıb? (*Ə.Q.*) 5. Məhəbbətlə yanan gözlərini ona zilləmiş arvada həkim nə cavab verməli idi? (*M.H.*) 6. Soruşdu ki, bəs Mirzə sizə verdiyi dərmanın nədən və nə əczadan əmələ gəldiyini buyurmadı? (*Ə.H.*) 7. Məgər mən öz abrımdan keçib camaat malına xəyanət edərdim? (*M.H.*) 8. Öz evində oturub o gün tökdüyü acı göz yaşlarına ara vermədən sızlarsa, bundan əlinə nə gələcəkdir? (*M.H.*) 9. Gələndə meşənin axırındakı açıqlıqda əkdiyin şitilləri gördünüzmü? (*A.Ş.*) 10. Onun bu həyəcanına səbəb qorxu hissi deyildi, onu təşvişə salan o idi ki, şayəd məhkəmədə indiki yeni nəzərlərini, dərin düşüncələrini son sözündə camaata layiqincə yetirə biləcəkdirmi? (*S.S.A.*)

**§ 132.** Oxuduğunuz bədii ədəbiyyatdan on beş sual cümləsi seçib yazın.

**§ 133.** Dərsə hazırlaşmaq mövzusu ilə əlaqədar yeddi sual cümləsi qurun.

**§ 134.** Nəqli cümlələrdən ibarət olan aşağıdakı mətni ucadan oxuyun, hər cümlənin sonunda səsinizi alçaldın.

Onun yanaqlarında soyuq bir istehzanın izləri oxunurdu. Qarşısındakı dəstədən qorxduğu halda nədənsə olduqca sakit və etinasız görünürdü. Silahını belə tərpətmir, az qala bu dəqiqə əlini yuxarı qaldırıb, təslim olduqlarını bildirməyə hazırlaşırdı. Lakin zehnində özünün bir orduya belə üstün gələcəyini güman edir; həm Şirəliyə, həm Dəmirçi Musaya, həm də bütün başqa partizanlara, aciz və qorxaq bir dəstəyə baxılan kimi istehzalı bir nəzərlə baxırdı. Həmzə bu adamların çoxunu tanıyırdı. Hətta onların

bəzisi vaxtı ilə atası Yolçunun qapısında nökərçilik də eləmişdilər. Hələ Şirəli, Həmzənin nəzərində aciz, əlsiz-ayaqsız bir uşaqdan o qədər də fərqli deyildi. Əslinə baxsan, Həmzə bu cür açıqdan-açığa, qorxmadan, çəkinmədən dəstə qabağına çıxarkən öz vüqarı ilə hamını qorxudacağını zənn edirdi.

Şirəli gözünü ondan ayırmayıb düşündüyü zaman, yan tərəfdən bir güllə atıldı. Şirəli təəccüblə güllə atanın üzünə baxdı.

Güllə Həmzənin də, Şirəlinin də, Dəmirçi Musanın da ağlına gəlməyən bir adam tərəfindən atılmışdı. İndi kimsə ona aciz, əlsiz-ayaqsız, bacarıqsız deyə bilməzdi, çünki bu dəqiqə Yolçunun göy məhəccərli balkonundan gurultu ilə yerə yıxılan Həmzə, ona məharətlə güllə atan isə Mahirə idi (*M.H.*).

**§ 135.** Hekayəni (Ə.Qasımov *"Özgəsinin işığı"*) ifadəli oxuyun, müxtəlif cümlə növlərinin tələffüzü qaydalarına əməl edin.

O mənimlə üzbəüz binada yaşayır. Eyvanlarımız bir-birinə baxır. Pəncərələrimiz bir-birinə açılır. O da dördüncü mərtəbədə olur, mən də.

O, ucaboylu, sarışın bir qızdır. Mən onu həmişə tül pərdələr arxasından gördüyüm üçün yaşını deyə bilmərəm. Onu bilirəm ki, cavandır, hər axşam otağının çıl-çıraqlarını yandırıb piano arxasına keçir. Çalır, şövqlə çalır, mən isə hər axşam yatmazdan qabaq pəncərəmin qarşısında dayanıb tül örtüklər arxasından onu seyr edirəm. Bu, məndə az qala adət halına keçib.

Bir axşam onun işıqları yanmadı. Mən nigaran-nigaran onun pəncərəsinə baxdım. Çox baxdım. Gecədən xeyli keçənə qədər baxdım. Nə işıqlar yandı, nə də o qız göründü.

Ürəyim sıxıldı. Qəlbim narahatlıqla döyündü. Mənə nə olmuşdu? Adını-sanını bilmədiyim, bir dəfə də olsa qarşı-qarşıya dayanıb kəlmə kəsmədiyim naməlum bir qadının işığının yanıb-yanmamasının mənə nə isti-soyuğu?

Bu suallara cavab tapa bilmədim. Nigaran-nigaran qaranlıq pəncərəyə baxdım, baxdım...

Çiynimə mehriban bir əl toxundu. Qanrıldım, uşaqlarımın anası idi.

– Niyə yatmırsan?

Bilmədim nə cavab verəm.

– Doğrudan nə olub sənə?

– Heç nə.

– Bəs niyə dalğınsan?

– O pəncərəni görürsən? Qaranlıq pəncərəni.

– İşığı yanmır. Axşamdan yanmır.

– Nə olsun ki? Ondan bizə nə? Bizim ki, işıqlarımız yanır...

Dönüb baxdım. İşıqlarımızı ilk dəfədir görürmüşəm kimi baxdım. Doğrudan da, evimiz çox işıqlı idi. Oğlanlarım dərslərini hazırlayırdılar. Qızım gəlinciyini yatırırdı. Eynim bir qədər açıldı. Ancaq əvvəlki nigarançılığım məni tərk etmədi. Mən istəyirdim o otağın da işığı yansın. Heç zaman sönməsin. Naməlum qadın hər axşam tül pərdəli pəncərə arxasında pianonun şirmayı dillərini titrətsin... Mən isə...

Eh, başqasının işığından mənə nə? Görəsən bu doğrudanmı belədir. Nə isə, insan qəribə məxluqdur...

## YEKUNLAŞDIRICI ORFOEPİK TƏHLİL

**§ 136.** Köçürün, müxtəlif işarələrdən istifadə edərək sözlərin necə tələffüz olduğunu göstərin.

I

Mart ayının ortaları idi. Təbiət yavaş-yavaş oyanırdı. Günəşin qızmar şüaları gücü gəldikcə şaxıyır, torpağın canından qışın soyuq nəfəsini qovub çıxartmağa çalışırdı. Göz işlədikcə uzanan Mil düzündə, Haramıda ilk danaqıran gülləri torpağı dəlib çıxır, tək-tük qaranquşlar gözə dəyirdi. Lüt ağaclar puçurlayır, kol dibində bənövşələr görünür, onsuz da lilli olan Mil suları daha da bulanırdı. Bir sözlə, hər yerdə bir oyanma, bir tərpəniş hiss edilir, baharın ılıq, ətirli nəfəsi duyulurdu.

...Səhər tezdən idi. Üfüq qızılı rəngə boyanmışdı. Bir azdan günəş göründü. Odlu, lakin hərarətsiz, çox zəif şüalı iri bir tabaq üfüqdən boylandı. Bu tabaqdan süzülən zəif şüalar nə göz qamaşdırır, nə də öz varlığını hiss etdirə bilirdi.

Sevil həyətdə öz əli ilə əkdiyi güllərə su verirdi. Birdən darvazanın ağzında maşın siqnalı eşidildi. “Yəqin direktordur” – deyə o cəld bağçadan çıxıb darvazaya tərəf yeridi. Darvazanın balaca qapısını açıb baxdı:

– Sabahınız xeyir, bu saat gəlirəm, – deyib o andaca geri döndü.

Sevillə direktor briqada üçün ayrılmış sahəyə baxmağa getdilər. Sahə qəsəbənin lap yaxınlığında idi. Direktor 4 tərəfinə ağacdan çəpər çəkilmiş sahəyə tərəf əlini uzadaraq dedi:

– 70 hektar burada, 30 hektar da arxadan o tərəfdədir.

Sahə Sevilin mənzilindən o qədər də uzaqda deyildi. Dörd tərəfində söyüd, qovaq, akasiya ağacları ucalan bu sahə nəhəng kvadratı xatırladırdı. Direktor şövqlə deyirdi:

– Hələ qoy bir ağaclar yarpaqlasın, onda adama elə gələcək ki, sahəyə yaşıl çəpər çəkilib.Təsəvvür edirsinizmi, hər tərəf kölgəlik, işçilər harada istəyirlər dincəlsinlər.

Direktor daş tökülən yerə işarə edərək:

– Burada da ikigözlü tarla düşərgəsi tikərik. Otaqlardan biri olar qırmızı guşə. O birində də istirahət edərsiniz.

Sevil əlavə elədi:

– Bu iri qovaq ağacına da güclü bir reproduktor vurarıq. Səsi sahənin hər tərəfinə yayılar. Qızlar işləyə-işləyə radioya da qulaq asarlar (*Ə.Q.*).

II

Bir neçə ay idi ki, kollektiv bu günə səliqə ilə hazırlaşır, işdə kiçik də olsa kəm-kəsirə yol vermir, səpini tam hazırlıqla qarşılamağa səy edirdi. Budur, həmin gün gəlib çatmışdır. Təmirdən çıxmış toxumsəpən maşınlar hücum əmri gözləyirmişlər kimi cərgə ilə dayanmışlar. Aqreqatlar hazırdır. Çiyid dərmanlanmış və laboratoriyada müayinədən keçirilmişdir. Dürüst cərgələr, kvadratlar almaq üçün lazım olan məftillər qalaq-qalaq bir tərəfə yığılmışdır.

Bir sözlə, kollektiv səpinə hazırdır!

Səhər alatoranlıqdan sahəyə çıxan Sevil və onun briqada üzvləri gözlənilməz bir çətinliklə üz-üzə gəldilər. Elə bil onların üstünə su ələndi. Gülümsəyən baxışlar kölgələndi. Sevincdən doğan həyəcan öz yerini nigarançılığa verdi.

– Bu nədir? – deyə qızlar əllərini qoyunlarına qoydular.

Sevil Əli dayını və mexanizatorları götürüb şumun içərilərinə tərəf yeridi. Hər yerdə vəziyyət eyni idi. Hər yeri yonca, çayır bürümüşdü. Keçən il 70 hektarlıq bu sahədə yonca əkildiyindən son iki-üç gün davam edən yağışlardan sonra yonca, çayır birdən-birə kükrəyib bütün sahəni bürümüşdü. Hər yerdə narın torpağı iynə kimi dəlib çıxmış çayır cücərtiləri görünürdü.

Nə etməli? Belə vəziyyətdə səpinə başlamaq olmazdı. Alaq pambığı basıb məhv edər. Gələcək məhsulu indidən şübhə altına alardı.

Briqada üzvləri yığışıb məsləhətləşdilər. Heç kəs, hətta pambıq tarlalarında saç-saqqal ağartmış, özünün dediyi kimi, "Nikolay zamanından pambıq əkən" Əli dayı da

məsələni həll etməkdə aciz idi. O, çiynini atdı, sol gözünü döyə-döyə Sevilə baxdı.

– Nə deyim, vallah heç belə şey görməmişəm. Ya gərək sahə təzədən şumlana, ya da bu alağa bir əncam çəkilə, alağı kökündən kəsib atmaq üçün bir karastı tapıla.

– Necə? Kökündən kəsib atmaq üçün? – deyə Sevil həyəcanla soruşdu.

– Bəli, kökündən kəsib atmaq üçün. Əgər üzdən əksək, cücərtiləri qırıb tökməklə kifayətlənsək, sabah bunun dalında dura bilmərik. Çayır, yonca çox həyasız bitkidir, elə kükrəyib qalxar ki, qalarıq mat-məəttəl (*Ə.Q.*).

III

Qızlar Sevilin başına toplaşdılar, Əli dayı armudu stəkanı əlinə götürdü: "Hə, bax buna varam" – deyib mahnıya qulaq asmağa başladı. Müğənni mahnının nəqəratını oxuyanda Leylan ona səs verdi. O biri qızlar da özlərini saxlaya bilmədilər.

Ulduzlar ayı dövrəyə alan kimi, qızlar da Sevili dövrəyə aldılar. Musiqi dillənir, bu qəribə xorun sədaları bütün tarla boyu yayılırdı. Qızlar əllərini bir-birinin çiyninə qoyaraq mahnının ritminə uyğun şəkildə yırğalanır, getdikcə daha həvəslə, daha şövqlə oxuyurdular. Təkcə Sevil dinmirdi, o, qızların mehriban dövrəsində başını aşağı salıb susur, qəlbindən keçən həyəcanlı, ılıq hisslərin təsiri ilə xoşhal olurdu.

Mahnı susdu. Xor dayandı. Konsert qurtardı, qızlar özlərindən məmnun halda dağılışdılar. Hərə Sevilə minnətdarlığını, mehribanlığını, məhəbbətini bir cür izah etdi; biri gülümsər baxışla, digəri əlini sıxmaqla, üçüncü qucaqlamaqla...

Tarla düşərgəsində istirahət davam edirdi.

Leylan sevimli "Hophopnamə"sini götürüb söyüdün kölgəsinə çəkildi. Sabir onun ən çox sevdiyi şair idi. Leylan

"Hophopu" dəfələrlə oxumuş, hətta bir neçə şeirini əzbər öyrənmişdi. Hərdən Əli dayı ilə bir tərəfə çəkilib, saatlarla Sabiri oxumaqdan doymazdı.

Qızların ən böyüyü Havva tikmə ilə məşğul olmağa başladı. O, səliqə ilə toxuduğu yastıq üzünü bu gün qurtarmaq fikrində idi.

Qızların ən kiçiyi, 18 yaşına təzəcə girmiş arıq, qaraqaş, qaragöz Nəcibə isə qırmızı guşəyə çəkilib, jurnalları vərəqləyir, təzə qəzetlərə baxırdı.

Sarısaçlı, iri qonur gözlü Elmira radioqəbuledicinin yanında oturaraq, müxtəlif dalğaları gəzir, zövqünə uyğun bir musiqi axtarırdı.

Əli dayı nimdaş pencəyini büküb daşın üstünə qoymuş, özünə yastıq düzəldib, şirin-şirin yatmışdı. Bağman arxın qırağında uzunboğaz rezin çəkməsini təmizləyirdi. Traktorçular hələ sahədən çıxmamışdılar. Onların biri sahəni eninə, digəri isə uzununa becərirdi (Ə.Q.).

**§ 137.** M.Ə.Sabirin "Tək səbir" şeirini necə oxumalı? Şeirin qafiyələrinə xüsusi fikir verin.

Ta gəlirik biz də bir az anlayaq, –
Məhzəri-irfanda vurur tək səbir,
Ya deyirik işləri səhmanlayaq, –
Məclisi-əyanda vurur tək səbir.

İstəyirik bir iş açaq filməsəl,
Söyləşirik bir-iki il laəqəl,
Ta deyilir pul verin, aşsın əməl, –
Ölkədə, hər yanda vurur tək səbir.

Yalxı bizi eyləməyib mübtəla;
Səfheyi-Qafqazı tutub bu bəla;

Qaxda, Qazaxda, Şəkidə bərməla,
Şişədə, Şirvanda vurur tək səbir.

Lakin o yerlərdə gedir, durmayır,
Bir elə layiqli kələk qurmayır.
Gəncədə derlərsə vurur, vurmayır,
Öylə ki, Salyanda vurur tək səbir.

Andıra qalmış nə yaman səslənir!
Söz deməyə vermir aman, səslənir!
Ox atılır, sanki kaman səslənir!
Sahəti-meydanda vurur tək səbir.

Hərzə nə şura və nə məclis bilir,
Nə düşünür yaxşı, nə bir pis bilir,
Qorxmur, utanmır, nə də bir hiss bilir.
Hücrədə, dükkanda vurur tək səbir.

**§ 138.** Əliağa Vahidin aşağıdakı qəzəlini necə oxumalı? Qəzəlin formasına, başqa janrlardan fərqinə fikir verin.

Vardır indi, gözəlim, başqa məlahət Bakıda,
Görürük özgə səfa, özgə lətafət Bakıda.

Bu gözəl ölkə işıqlandırır hər bir tərəfi,
Gülür insan üzünə nuri-səadət Bakıda.

Gələcək nəslə bu tarixi-şərafətdir ki,
Görürük özgə səfa, özgə lətafət Bakıda.

Çıx tamaşaya, xüsusən. Xəzərin sahilinə,
Baği-cənnət daha tərifə nə hacət Bakıda?

Get-gedə qalmayacaq köhnə binalardan əsər,
Tikilir gör, yeni minlərcə imarət Bakıda.

Hansı bir sahə olursa vətən oğlanlarının
Borcudur, göstərə hər işdə məharət Bakıda.

Bu cəsarət, bu sədaqətlə bütün dünyaya,
Haqlıdır xalqımız eylərsə fəxarət Bakıda.

Sülhə doğru nə çətinlik, nə fəlakət var isə,
Onu dəf etməyə var bizdə cəsarət, Bakıda.

O gün olsun ki, bütün düşmənimiz xar olsun,
Eyləyək şadlıq ilə gündə ziyafət Bakıda.

Vahidəm, mən də bu yurdun, bu elin şairiyəm,
Artırır zövqümü artdıqca təravət Bakıda.

**§ 139.** Aşağıdakı şeri necə oxumalı?

Xəyal gah dağdadır, gah da aranda;
Gah göyə yüksəlir, gah enir insan.
Otaqda bir saat tək oturanda,
Yüz ilin dərdiylə yüklənir insan.

Elə bil divarlar gəlir üstünə.
Qulağın səslənir, qəlbin döyünür.
Alışıb yanırsan sən öz tüstünə,
Nidalar gözündə suala dönür.

İnsanı tez yorar düşüncələr də,
Nəfəsini verib dərd udar insan.
Özündən başqası olmayan yerdə
İnsan olduğunu unudar insan...

Bir günəş bəs edər, pərişan olma,
Sənin yüz Kür qədər göz yaşın olsa.
Min dərd hücum etsə, könül, sıxılma,
Bir nəfər dərd bilən sirdaşın olsa.

Yarpağı tez solar tək ağacın da;
Daldası yoxdursa necə solmasın;
Meşələr sultanı, meşələr şahı
Aslanın özü də yalqız olmasın.

Dünyaya gəlmədik biz əbəs yerə,
İnsanıq, insan da bizə gərəkdir.
Bağa tək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir!

Çay çaya qovuşmaz, sular daşmasa,
Ulduzun ulduzla ünsiyyəti var.
Göydə buludlar da qoşalaşmasa,
Nə ildırım çaxar, nə yağış yağar...

Yol tapa bilərmi – saz, ürəklərə,
Mizrab asta-asta telə dəyməsə?
Çıxarmı qönçədən tək bircə kərə -
Bülbülün nəfəsi gülə dəyməsə?

Öz el-obasını tərk etdiyindən
Tək-tənha dolanır bayquş bu gün də,
Kolların dibində tək bitdiyindən
Boynu bükük olur bənövşənin də.

Od vurmasa, qabda su daşa bilməz,
Quş da tək qanadla dağ aşa bilməz.
Kösöyün ikisi çöldə də yanar,
Biri ocaqda da alışa bilməz.

Qəlbimdə min sözüm, min söhbətim var,
Mən deyim, siz deyin, dil yorulmasın.
Yığılın, yığılın başıma, dostlar,
Mənim bir günüm də sizsiz olmasın!

Dostların qəlbidir yurdum, məskənim,
Ürəkdə bir nisgil gərək olmasın!
Sağlığım bir yana, a dostlar, mənim
Soyuq məzarım da heç tək olmasın! (*S.V.*)

**§ 140.** Orfoepik normalardan fərqli olaraq yaşadığınız yerin fonetik şivə xüsusiyyətlərini göstərin (bu məqsədlə professor M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" kitabına baxmaq lazımdır).

**SUALLAR:**

1. Orfoepiya nəyə deyilir?
2. Orfoepiya ilə orfoqrafiyanın fərqli və yaxın cəhətləri hansılardır?
3. Hansı səbəblərə görə nitqdə orfoepik normalar pozula bilir?
4. Sait səslərin tələffüzünə aid hansı qaydalar vardır?
5. Samit səslərin tələffüzünə dair hansı qaydalar mövcuddur?
6. Qrammatik formaların düzgün tələffüzündə hansı qaydalara riayət olunmalıdır?

**ƏDƏBİYYAT:**


1. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003.
2. Əbdüləzəl Dəmirçizadə. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, 1969.
3. Əziz Əfəndizadə. Azərbaycan ədəbi tələffüzü haqqın-

da. "Azərbaycan dili və ədəbiyyat tədrisi", IV buraxılışı; Bakı, 1954.

4. Əziz Əfəndizadə. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı, 1996.
5. Məmmədağa Şirəliyev. Azərbaycan dili dialektologiyasının əsasları. Bakı, 1969.
6. Nadir Abdullayev. Orfoepiya və orfoqrafıya təlimi məsələləri, Bakı, 1985.
7. Nadir Abdullayev, Zabit Məmmədov. Nitq mədəniyyəti məsələləri. Bakı, 1998.

# III

# ƏLİFBA

## MÜASİR AZƏRBAYCAN ƏLİFBASI

**§ 141.** Əlifbamızı əzbərləyin və hərflərin adlarını düzgün tələffüz etməyi öyrənin.

**§ 142.** Verilmiş hərflərin hər birinə əlifba sırası ilə üç hərf artırıb yazın.

***Nümunə:*** a, b, ç, c, ...
a, ğ, j, y, m, p, u, h.

**§ 143.** Müasir Azərbaycan əlifbasındakı hərfləri sıra ilə yazın.

**§ 144.** Şeri oxuyun, hər bir sözü yeni sətirdə yazın və qarşısında nümunədəki kimi, sıra ilə hərflərin adını göstərin.

***Nümunə:*** Qorxub – qe, o, er, xe, u, be

I

Qorxub çəkilmədik ölümdən, qandan,
Çıxdıq illər boyu çox imtahandan;
Bombalar yağsa da bizə hər yandan,
Dağlara səs salır hücum borusu,
Haydı, marş irəli, Vətən ordusu!

II

Pozmaz cərgəmizi nə dərə, nə düz,
Hazırdır döyüşə qızıl süngümüz.
Hər gün meşələrdə vurduq yüzə-yüz;
Dağlara səs salır hücum borusu,
Haydı, marş irəli, Vətən ordusu!

III

Bizik kəc yağının döşündə vuran,
Azadlıq yolunda keşikçi duran,
Bizik tarixləri yenidən quran.
Dağlara səs salır hücum borusu,
Haydı, marş irəli, Vətən ordusu! (*S.V.*)

**§ 145.** Müxtəlif hərflərlə başlanan sözlər yazın, bunları əlifba prinsipinə görə sıralayın, hansı hərfə aid söz olmağını müəyyənləşdirin və səbəbini izah edin.

**§ 146.** Aşağıdakı şəxs adlarını əlifba sırasına uyğun yazın.

I

Fuad, Tərxan, Munis, Şəmsi, Cavid, Heydər, Üzeyir, Səid, Çingiz, Tağı, Pənah, Murad, Xasay, Uluxan, Oqtay, Lətif, Sabir, Rəcəb, Nəsib, Gəray, Yusif, Zakir, Daşqın, İmran, Əkrəm, Vasif, Elman, Qabil, Arif, Bəhram.

II

Rəşad, İradə, Şəhla, Humay, Xatirə, Pakizə, Təranə, Səadət, Ülkər, Firuzə, Zöhrə, Nigar, Gülxar, Bikə, Dilbər, Qənirə, Afər, Çərkəz, Şamil, Nadir, Fərhad, Orxan, Mürsəl, Yaşar, Kamran, Elxan, Əkbər, Vaqif.

| HƏRFLƏRİN FORMALARI | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Hərflərin çap forması | | | | | | Hərflərin əlyazma forması | | | | | |
| Sıra №-si | Böyük hərflər | Kiçik hərflər | Sıra №-si | Böyük hərflər | Kiçik hərflər | Sıra №-si | Böyük hərflər | Kiçik hərflər | Sıra №-si | Böyük hərflər | Kiçik hərflər |
| 1 | A | a | 17 | Q | q | 1 | *A* | *a* | 17 | *Q* | *q* |
| 2 | B | b | 18 | L | l | 2 | *B* | *b* | 18 | *L* | *l* |
| 3 | C | c | 19 | M | m | 3 | *C* | *c* | 19 | *M* | *m* |
| 4 | Ç | ç | 20 | N | n | 4 | *Ç* | *ç* | 20 | *N* | *n* |
| 5 | D | d | 21 | O | o | 5 | *D* | *d* | 21 | *O* | *o* |
| 6 | E | e | 22 | Ö | ö | 6 | *E* | *e* | 22 | *Ö* | *ö* |
| 7 | Ə | ə | 23 | P | p | 7 | *Ə* | *ə* | 23 | *P* | *p* |
| 8 | F | f | 24 | R | r | 8 | *F* | *f* | 24 | *R* | *r* |
| 9 | G | g | 25 | S | s | 9 | *G* | *g* | 25 | *S* | *s* |
| 10 | Ğ | ğ | 26 | Ş | ş | 10 | *Ğ* | *ğ* | 26 | *Ş* | *ş* |
| 11 | H | h | 27 | T | t | 11 | *H* | *h* | 27 | *T* | *t* |
| 12 | X | x | 28 | U | u | 12 | *X* | *x* | 28 | *U* | *u* |
| 13 | I | ı | 29 | Ü | ü | 13 | *I* | *ı* | 29 | *Ü* | *ü* |
| 14 | İ | i | 30 | V | v | 14 | *İ* | *i* | 30 | *V* | *v* |
| 15 | J | j | 31 | Y | y | 15 | *J* | *j* | 31 | *Y* | *y* |
| 16 | K | k | 32 | Z | z | 16 | *K* | *k* | 32 | *Z* | *z* |

III

Nüsrət, Rəna, Əziz, Təhminə, İmran, Zahid, Qulam, Abuzər, Mədinə, Gülnar, Dilşad, Vəfa, Şirzad, Yusif, Leyla, Cabir, Fikrət, Uğur, Osman, Sahib, Kazım, Eyvaz, Behbud, Ülvi, Yasəmən, Mustafa, Gülşən.

**§ 147.** Verilmiş sözləri daxili əlifba sırası ilə alt-alta yazın.

I

Əlaqə, əl, əlvan, əkiz, əlac, ələk, əlavə, əkin, əlbəttə, əmi, əlifba, əməl, ərkan, əlcək, əmlak, ərizə, ərik, əntiqə, əmək, əmtəə, ənbər, ərk, əsir, ətir, əsr, əsər, əsas, əsna, əs-mək, əsəb, əruz, əsgi, ətək, əhali, əhəng, əşrəf, əhatə, əxz, əhsən, əcnəbi, əmlik, əfşan, əvəz, ətsiz, əlli, əhval, əcəl, əca-ib, əşya, əzik.

II

Getmək, göyərti, göz, gen, gah, gözəl, geri, gədə, gəmi, gənc, gerb, gəzmək, gənə, gərək, gec, gəlir, gimnastika, gövdə, giriş, geniş, gözlük, geyim, gilə, gedərək, gözəyarı, gecə, günlük, gözəmə, gözəmru, gündoğan, gümüş, güna-rası, güney, gülmək, güzəşt, gur, günorta, gülzar, güvən-mək, güclü, günah, güllük, guya, gurultu, görüş, göyərçin, göl, göynəmək, görünüş, gülşən.

III

İşçi, icra, ifadə, isti, irsən, iştirak, icad, itki, istismar, isbat, işgüzar, icmal, istehsal, isim, iri, iştaha, icazə, istiot, irsiyyət, ipək, işğal, ixtilaf, iqtisadi, izzət, inci, işarə, iydə, istisna, imtahan, inam, insan, işıq, istiarə, istək, ibarə, insaf, ipəkaçan, intiqam, istilah, intonasiya, instinktiv, inqilab, ikicildlik, inadcıl, illüstrasiya, ilxıçı, ikimənalı, iynə, ibti-dai, idman, ildırım.

**§ 148.** Verilmiş bədii parçalardakı sözləri əlifba sırasına uyğun yazın.

I

Baltik sahilində qürub çağında,
Göyləri seyr etmək necə gözəlmiş!
Dənizin üstündə, göyün tağında
Al-əlvan boyalar yarışa gəlmiş.

Hüsnünü bir yerə yığıb kainat
Elə bil göylərdən yerə enibdir.
Yanan buludlardan dənizə qat-qat
Payız yarpaqları səpələnibdir.

Yeddi rəng, yeddi səs tanıyırıq biz;
Bəs Hardan bu qədər boyalar, səslər?
Yeddi min səs ilə oxuyur dəniz,
Yeddi min rəng ilə bəzənib göy, yer.

Əlvan buludların şiş dağlarında,
Qızarır yenə də günəş nar kimi;
Yanır ağacların yarpaqlarında
Qızılı şəfəqlər bir fanar kimi.

II

Dəyişir dəmbədəm suyun rəngi də.
Qabarıb endikcə dalğalar bir-bir;
Ana təbiətin bu ahəngi də
Elə bil müqəyyəd qafiyələrdir.

Rənglər, mənzərələr dəyişib dönür
Qıvrılıb axdıqca yanar buludlar.
Qızılı şəfəqlər alışıb sönür,
Hər anın öz rəngi, öz ahəngi var.

Rənglərin ahəngi, hüsnü, cilvəsi
Ən gözəl nəğməni, şeri andırır.
Gözəllik ucaldır duyan hər kəsi,
Ürəyi, duyğunu cilalandırır.

Bu gözəl lövhələr, döndərib dağa,
Fərəhlə doldurur ürəyimizi.
Bu gözəl lövhələr həssas olmağa,
Duyub düşünməyə çağırır bizi.

III

Gözəllik insanı daim ucaldar;
Çiçəyə bənd olur quş da, arı da.
Onun min səsi var, min də rəngi var,
Gözəllik incəldər duyğuları da.

Gəlin gözəllikdən ilham alaq biz,
Yalnız bu eşq ilə baxaq hər şeyə.
Ucalaq, ucalaq, hey ucalaq biz,
Kiçilib enməyək eybəcərliyə.

Xırda duyğulara könül verməyək,
Gözəl duyğularda yaşasın ürək.
Yerdə də, göydə də, asimanda da
Gözəllik axtaraq, gözəllik görək!

Dünyada hər şeyin öz hüsnü vardır,
Onu duyan ürək, görən göz gərək.
Dünyamız doğrudan bir laləzardır,
Onu görmək üçün ürək düz gərək (*S.V.*).

**§ 149.** Verilmiş hər bir sözü yeni sətirdə yazın və hərflərin adını göstərin.

Ürək, əla, bayraq, cürət, sirif, elan, çörək, etibar, sürət, arata, şölə, şabalıd, quzu.

**SUALLAR:**

1. Əlifba nəyə deyilir?
2. Əlifba necə yaranır?
3. Müasir Azərbaycan əlifbasında neçə hərf vardır?
4. Müasir Azərbaycan əlifbası hansı xüsusiyyətlərə malikdir?
5. Əlifbamızda saitləri əks etdirən hərflər necə adlandırılır?
6. Samit səsləri bildirən hərflərin adlandırılmasında hansı prinsiplər vardır?
7. Ərəb əlifbasından yazımızda neçənci ilə kimi istifadə edilmişdir?
8. Nə üçün ərəb əlifbası Azərbaycan yazısına yaramırdı?
9. Hansı ildə latın əlifbası əsasında yeni əlifba düzəldilmiş və ondan neçə il istifadə edilmişdir?
10. Neçənci ildə rus əlifbası əsasında Azərbaycan əlifbası yaradılmışdır?
11. Rus əlifbası əsasında düzəldilmiş əlifbanın çatışmazlıqları hansılar idi?
12. Müasir əlifbamızın yaradılmasında hansı prinsiplərdən istifadə olunmuşdur?

**ƏDƏBİYYAT:**

1. Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı, 1983.
2. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili, I cild. Bakı, 2003.
3. Məmmədağa Şirəliyev. Əlifbamızın bəzi nöqsanları haqqında. “Kommunist” qəzeti, 22 iyun, 1947.

# IV

# QRAFİKA

## QRAFİKA HAQQINDA

**§ 150.** Müxtəlif Azərbaycan əlifbaları ilə yazılmış parçalara diqqətlə fikir verin.

Uyğun gələn hərfləri hansı səs və ya səsləri bildirdiyini göstərin.

*Nümunə:*

| **Latın qrafikası əsasında düzəldilmiş əlifbada** | **Rus qrafikası əsasında yaradılmış əlifbada** |
|---|---|
| 1. “Ə” hərfi <ə> səsini bildirir. | 1. “Ə” hərfi <ə> səsini bildirir. |
| 2. “P” hərfi <p> səsini bildirir. | 2. “P” hərfi <p> səsini bildirir. |

**Rus qrafikası əsasında yaradılmış əlifba ilə**

Әзизим јүз әтәклә,
Мәрҹаны дүз әтәклә,
Намәрддә инсаф олмаз,
Јүз јалвар, јүз әтәклә.

* * *

Әзизим дәрди мәндә,
Һиҹранын дәрди мәндә,
Јүз надан гурбан олсун,
Бир дәнә дәрдимәндә.

* * *

Әзизим ләнкәридир,
Гаш, көзүн ләнкәридир,
Чох билиб, аз данышмаг,
Икидин ләнкәридир.

Əzizim yüz ətəklə.
Mərcanı düz ətəklə,
Namərddə insaf olmaz,
Yüz yalvar, yüz ətəklə.

* * *

**Latın qrafikası əsasında düzəldilmiş əlifba ilə**

Əzizim dərdi məndə,
Hicranın dərdi məndə,
Yüz nadan qurban olsun,
Bir dənə dərdiməndə.

* * *

Əzizim ləngəridir,
Qaş, gözün ləngəridir,
Çox bilib, az danışmaq,
İgidin ləngəridir.

## SAİT SƏSLƏRİN ƏKS OLUNMASI

**§ 151.** Oxuyun, saitlərin necə əks olunduğunu göstərin. Dilimizdəki sait fonemlərlə onları əks etdirən hərflərin nisbətini izah edin.

Təzə il əzizdir, təzə il əziz,
Ümidlər, diləklər coşur könüldə.
Bahar ölkəsinin övladıyıq biz
Bahar nəfəslidir qış da bu eldə.

Büllur qədəhləri qaldırın, içək,
Günəşin nuruyla doldurun, içək.

İllər, sevinc dolu illər boy atsın,
Yenə çiçək açsın çöllər, çəmənlər.

Təzə ilimizdə arzuya çatsın,
Hamı sevilənlər, hamı sevənlər.

Büllur qədəhləri qaldırın, içək,
Günəşin nuruyla doldurun, içək.

Coşsun məhəbbətin çağlar dənizi.
Bizimlə sevinən el, oba olsun.
Subaylar toyuna, çağırsın bizi
Evlilər qoy ata, qoy baba olsan.

Büllur qədəhləri qaldırın, içək,
Günəşin nuruyla doldurun, içək (*N.X.*).

**§ 152.** Verilmiş parçalarda **<a>** foneminin uzun tələffüzünün yazıda necə əks olunduğunu göstərin.

I

Saatları kim yaratdı? Neçin yaratdı?
Bu ölçüylə kim dünyada murada çatdı?
Vuruldum o gün ki, şerə, sənətə,
Unutdum sevdiyim əyləncələri.
Aşiqəm insana və təbiətə
Əlim qələm tutub yazandan bəri (*S.V.*).

II

1) Səni gördüm, xəyalım o qədər yüksəldi ki,
Mənə öylə gəldi ki,
Bizə bu nazlı aləm görünərdi qaranlıq
Gözəl yarpışmasaydıq, gözəl yaşamasaydıq (*M.M.*).

2) Hörmət, ehtiramla həmən o dağda
Camaat dəfn edir bədbəxt loğmanı;

Ağlayır bu halda daş da, torpaq da,
Dolaşır bu xəbər bütün dünyanı (*B.V.*).

III

3) Mən tənha qu quşuyam,
Dərdlərimlə baş-başa.
Gah suya çırpılıram
Gah qayaya, gah daşa.

Baxıram göy dənizə.
Boylanıram səmaya
Bu günəşli gündüzə,
Gecəsə tənha aya.

Həyat öz axarında
Hərə öz harayında
Mən tənha qu quşuyam,
Kədər var ürəyimdə (*Şəfəq S.*).

**§ 153.** Oxuyun. Hansı sait səslərin uzun tələffüz edildiyini və necə əks olunduğunu göstərin.

I

Qaşların bir az nazik olsaydı qaşlarımızı qarışıq salardılar. Görürsənmi bir-birimizə necə oxşayırıq? Ənvər bu eyhamı başa düşürdü, ancaq nə cavab verəcəyini bilmirdi... Müşkünaz onun köməyinə çatdı, narahatlıqdan qurtardı. İndi dur, get fikirləş, sabah bu vədə mənə cavab verərsən (*Ə.V.*).

* * *

Taxta sahib olan zaman
Çox gənc idi bu hökmran;

Ağlı aydın, qəlbi təmiz,
Mən düşündüm ki, ölkəmiz
Belə şahdan xeyir görər.
Xalqıma faydası dəyər.
Onu adil bir şah görmək
Mənə oldu böyük dilək (*A.Ş.*).

* * *

Üzündə gördüyüm nə intizardır?
Qəlbində Vaqifin sirrimi vardır?
Gəl ondan söz açma, indi bahardır!
Bağrımı döndərmə qana, bənövşə (*S.V.*).

II

Başımı qaldırıram. Üzbəüzdə Əlincə qalası ucalır. Nənəmizin və babalarımızın ölməz ruhu kimi. Buradan qalaya qalxan yeganə cığır da görünür. Heyf ki, düşən axşam bu cığırı da görünməz edir.

* * *

Bu dağlar və bu dağlara bənzər adamlar haqqındakı düşüncələrlə də Diri dağa çatırıq. Elə bil bu dünyadan ayrılıb ayrı bir mühitə düşmüşük. Dağların rəngini saymağa cəsarət eləmirəm (S.R.).

* * *

Özün bilirsən ki, mən gözəlliyə
Əzəldən vurğunam. Gözəl həyatdır!
Azadlıq, qurtuluş bizdədir deyə,
Hər yeni istəyin bir kainatdır.
Sevdiyim gözəlin adı həyatdır!..

III

Gərək günəş dağları aşıb sönməyəydi!
Gərək mənim dönmüş taleyim dönməyəydi!
Gərək mənim istədiyim gidi fələk
Açılmadan qara torpağa gömməyəydi!

Göydəki aya deyim dərdimi, qoy yarə yetirsin,
Ürəyim dərdə düşüb, yar mənə bir çarə yetirsin (*C.C.*).

* * *

Alim şair kimi yeri vəsf edir,
Gecələr danışır səyyarələrlə.
Gündüzlər iqlimdən-iqlimə gedir
Özü yaratdığı təyyarələrlə (*S.V.*).

* * *

Bu sayaq söyləsəm hər gün, hər saat
Zindana çevrilməz onda bu həyat.
Belə etsəm nə qəm, nə həsrət olar,
Onda nəsibimiz səadət olar (*M.R.*).

Yaxşı ki, müşavirədə ona söz verildi. O necə hərarətlə danışır, öz işindən, yoldaşlarının əmək fəaliyyətindən necə də həvəslə söhbət açırdı (*Ə.Q.*).

**§ 154.** Müasir Azərbaycan yazılı ədəbi dilində hansı sait səslərin uzunluğunun apostrofla əks olduğunu söyləyin və beş misal göstərin.

## SAMİT SƏSLƏRİN ƏKS OLUNMASI

**§ 155.** Oxuyun, samitlərin necə əks edildiyini göstərin. Buradakı samit səslərlə onları əks etdirən hərflərin nisbətini aydınlaşdırın.

Hər yerdə insandır, insan hər zaman
Onun min qəmi var, min sevinci var.
İnsanı çıxartmır insanlığından
Dinlər, əqidələr, dillər və yollar.

Bizim dilimizi bilməsələr də,
Gülüşlə nurlanır onların üzü
Ürəyin dilidir gülüş hər yerdə,
Gülüşdür dünyanın ən gözəl sözü...

* * *

Xəstə dərman içib özünə gələr,
Dərman həm xeyirdir ona, həm zərər.
Arı öz balında boğulub ölər.
Qardaşdır xeyirlə şər, bu dünyada.

Sapı dərziyə ver, zəri zərgərə,
Qiymətdə su hara, simuzər hara!
Suya bənzəsə də, anlayanlara
Zərdən qiymətlidir tər, bu dünyada (S.V.).

**§ 156.** Verilmiş sözlərdə samit səslərlə hərflərin nisbətini müəyyənləşdirin.

Kinokadr, opera, kabinetdəki, mikroskopik, ştat, komik, kombinatdakı.

**§ 157.** Bir sözdə **"k"** hərfinin iki vəzifə daşımasına dair beş misal yazın.

**§ 158.** Oxuyun, **"k"** hərfinin hansı səsləri əks etdirdiyini müəyyənləşdirin.

I

Qaraqum çölündə, Kuban düzündə.
Baxıb üzü gülür gömgöy zəmilər;
Yeni dəryaçalar, çaylar üzündə
İqlimdən-iqlimə keçir gəmilər (*S.V.*).

Yenə o bağ olaydı, yenə yığışaraq siz
o bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
sizə qonşu olaydıq (*M.M.*).

II

[Yaşar]: Mən, professor, bütün tərkibi kislotada qarışdırıb, elektrik cərəyanından keçirmişəm (*C.C.*).

Yenə o bağ olaydı sevdalar ölkəsində,
o söyüd kölgəsində
İnci qumlar üstündə yenə verib baş-başa
yayı vuraydıq başa (*M.M.*).

III

Səhər çörək almaq üçün balkona qalxanda Musanın mənzilinin qapısını bağlı gördüm (Ə.V.).

Mürsəl Rəsulov komissiya üzvlərini gözdən qoymur, kimi danışdırdıqları ilə məşğul olurdusa da rahatlanmırdı. O fürsət tapıb Həmzəni kabinetinə çağırıb dedi: – Niyə gedib şikayət eləmirsən, düzünü demirsən? (*Ə.V.*)

Yenə o bağ olaydı, yenə sizə gələydik,
danışaydıq, güləydik.
Gizli söhbət açaydıq ruhun ehtiyacından,
qardaşından, bacından.
Çəkinərək çox zaman söhbəti dəyişərdin
mənimlə əyişəydin (*M.M.*).

**§ 159.** Oxuyun, **<g>** səsinin kar qarşılığı **<k>** səsi olan sözləri birinci sütunda, **<q>** samitinin kar qarşılığı kimi tələffüz edilən səs olan sözləri isə ikinci sütunda yazın.

I

Məktub, akt, komandir, marka, katib, bərk, aktyor, köynək, çəkic, komitə, kosmos, miskin.

II

Mikrob, kitab, sənətkar, kağız, park, kainat, kino, kirpik, kakao, mikroskop, qrammatika.

III

Şəkil, məktəb, anket, barkaz, kəsr, klub, klip, kilo, konsul, kabinet, fonetika, şkaf.

**SUALLAR:**

1. Qrafika nəyə deyilir?
2. Qrafikanın əlifba ilə əlaqəsi nədən ibarətdir?
3. Azərbaycan dilinin sait fonemləri ilə onların əks olunduğu hərflər arasında hansı nisbət mövcuddur?
4. Azərbaycan dilinin samit fonemləri ilə onların əks olunduğu hərflər arasında nisbət necədir?
5. Azərbaycan dili qrafikasının əsasını hansı prinsip təşkil edir?
6. Azərbaycan dili qrafikasının başqa qrafikalardan fərqli və üstünlüyü nədən ibarətdir?

**ƏDƏBİYYAT:**

1. Afad Qurbanov. Müasir Azərbaycan dilinin qrafika və orfoqrafiyası. Bakı, 1963.
2. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili, I cild. Bakı, 2003.
3. Əziz Əfəndizadə. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı, 1996.

# V

# ORFOQRAFİYA

## ORFOQRAFİYA HAQQINDA

**§ 160.** Oxuyun, tələffüzü ilə yazılışı arasında fərq olan sözləri seçib yazın.

I

Ulduz ailədə sonbeşik idi. O, atası Zeynal kişini dumanlı bir halda xatırlayır, qoca mexanikin gözlərindəki dəmir eynəyi, yorğun üzünü və hərdənbir balaca qızını dizi üstünə alıb nəvazişlə saçlarını oxşadığını indi bir yuxu kimi xəyalına gətirirdi.

Zeynal kişinin üç qızı vardı, oğlu yox idi. Qoca mexanik bu oğul həsrətini daima yüngül bir qüssə kimi ürəyində gəzdirmiş, böyük qızı Bikəni mühəndis görmək istəmişdi. Atasının ölümündən sonra Bikə onun arzusunu yerinə yetirərək, mədən mühəndisi olmuş, öz ixtisasına eşqlə yapışmış, müharibə ərəfəsində böyük bir mədənin müdiri vəzifəsinə qədər yüksəlmişdi.

Təbiətən mülayim və olduqca sakit xasiyyətə malik olan ortancıl bacı Asya orta məktəbi bitirdikdən sonra ərə getmiş, bir neçə uşaq anası olaraq ailə və ev-eşik qayğıları içərisində itib-batmış, özünü unudaraq bütün həyatını ərinin rahatlığına və uşaqlarının tərbiyəsinə həsr etmişdi.

Evin balaca qızı Ulduz isə anasının – uşaq həkimi olan Nərgiz xanımın təbirinə görə od-alov idi. O, anasının təkidi

ilə tibb institutuna daxil olmuşdusa da, hələlik dərslərinə xüsusi bir həvəs göstərmir, boş vaxtlarını daima öz kiçik otağında həvəskarı olduğu rəssamlığa sərf edir, müxtəlif etüdlər işləyir, yaxud gününü cürbəcür nadincliklərlə başa vururdu.

Ulduz öz uşaqlığından ayrıla bilməyən qızlardan idi. Hələ balaca ikən o, küçədə oğlan uşaqları ilə oynamağı daha çox sevir, çox vaxt bu oyunlarda zirəkliyi ilə dəstəyə başçılıq edərdi. Evdə isə cingiltili qəhqəhələri ilə sakit otaqların sükunətini pozan da o idi. Bəzən Asyanı ağladan, hərdənbir Bikə tərəfindən kötəklənən də o idi. Evdə sınan stəkanlar, fincanlar, vazalar, çaydanlar və sairə hamısı onun əlindən düşüb sınırdı (*Ə.M.*).

II

Səlim dönüb yenə də Yaşara yalvardı. Yaşar fikrindən dönmədi və hıçqırıb ağladı. Səlim Yaşarın qolundan yapışıb maşına qaldırdı. Sonra da özü oturdu. Maşın yola düşdü, külək Yaşarın papağını başından götürüb apardı. Səlim öz hərbi papağını götürüb Yaşarın başına qoydu. Onlar vağzala çatdı. Bilet alıb qatara oturdular. Qatar götürüldü, yolları kəsdi. Gecə gündüzü, gündüz gecəni qovladı. Onlar yavaş-yavaş böyük çayın üzərindəki körpüdən keçdilər. Bir qədərdən qatar duracağa çatdı. Səlim Yaşarın qolundan yapışdı, onlar sahil boyu addımladılar. Səlim dinmir, ağacına dayana-dayana addımlayırdı. Balaca Yaşar da onun yanı ilə yeriyirdi. Bu çay sahili yalayır, durğun-durğun, burula-burula gedirdi. Bu, suyun lal axını azlığından deyil, çoxluğundan, qüvvətindəndi. Çay axır, göz işlədikcə yayılır, asta-asta ləpələnir və gedirdi. Buralarda hələ lap gözlərini təzəcə açmış yaz torpaqdan baş qaldırırdı. Çiçəklər burunlarını göstərir, ağaclar düymələnir, seyrək meşəliyin quşları civildəşirdi. Burada təbiətdə bir sakitlik, bir dərinlik duyulurdu. Səlim ağacına söykənib, addımlayır, çayın mehi onun qara, qıvrım saçlarını eşirdi.

Qıraqları buz bağlamış çayın üstündə salınan körpülər, xırda qayıqlar, kinli hayqırtılar, gurlayan insan səsləri, yerləri lərzəyə salan silah səsləri indiki bu dərin və mənalı sakitliklə əvəz edilmişdi. Çayı döşləyib yaran dəmir insan axını indi yox idi. Çayı yolundan döndərən, cilovlayıb minən minicilər indi çoxdan çıxıb getmişdilər. Çay sakit, çox durğun və əmin bir hərəkətlə axırdı. Şilküt olmuş ağaclar yaralarını sağaldır, şivləyirdi. Sahil boyu seyrək meşəlik və əngin bir boşluq idi. Müharibənin zəbanə çəkən alovları, buraları yalayıb yaxan maşınların nərələri indi yox idi. Su sakit və lal axırdı. Təbiət öz dərin yaralarına öz əli ilə təbiblik edir, məlhəm qoyurdu (*S.R.*).

III

Üçüncü ay idi ki, Ulduz bütün boş vaxtlarında "Azadın qayıtması" tablosu üzərində işləyirdi. Daima rəssamlığa həvəs göstərən Ulduzun bu, birinci ciddi və böyük işi idi. Əlində fırça o, saatlarla çəkdiyi tablo qarşısında dayanıb fikrə gedirdi.

Lakin son həftələr Ulduzun gözlərinə böyük bir nigarançılıq kölgə salmışdı. O, daimi bir təlaş və intizar içərisində idi. İki ay idi Azaddan məktub gəlmirdi. Axırıncı məktub oktyabrda gəlmişdi. İndi isə artıq dekabr ayı idi. Ulduz qara fikirləri başından qovmaq üçün daha artıq qızğınlıqla işləyir, daxili gərginlik tələb edən yaradıcılıq zəhmətinin ağırlığını hər gün bir az daha artıq hiss edirdi...

Nəhayət, iki ay da işlədikdən sonra, ona elə gəldi ki, artıq əsərini tamamlamışdır. Bir gün anasının qolundan tutub öz otağına gətirdi, nazik ağ örtüyü tablonun üstündən qaldırıb kənara atdı... Əlbəttə, bu həqiqi və kamil bir əsər deyildi, lakin sadə və təsiredici rəmzlərlə dolu bir tablo idi. Nərgiz xanımın gözləri tabloya dikilib qaldı. Tablo Azadın qayıtmasını təsvir edirdi; qapı açılmış. Azad həyəcanlı bir təbəssümlə hərbi paltarda qapı arasında dayanmışdı. Gö-

rünür o, xəbərsiz gəlmişdi, içəridə pəncərə yanında oturmuş Nərgiz xanımın əlindən oxuduğu kitab yerə düşmüşdü. Bikə ilə Asya ayağa sıçramışdılar. Arxada isə bütün sevinci gözlərində Ulduz dayanmışdı...

Ulduz şəklin nə cür təsir buraxdığını yoxlamaq üçün dönüb anasının üzünə baxdı və birdən diksindi. Nərgiz xanımın rəngi qaçmışdı, gözləri yaşla dolmuşdu. Ulduz onun gözlərinə baxarkən, ana artıq özünü saxlaya bilməyərək, qızını qucaqladı. Ulduz bir anda hər şeyi anladı: Azad qayıtmayacaqdı. Azad yox idi...

Ulduz heç bir söz demədi, ağlamadı, yalnız titrəyən barmaqları ilə anasının saçlarını oxşamağa başladı (*Ə.M.*).

## AZƏRBAYCAN ORFOQRAFİYASININ PRİNSİPLƏRİ

**§ 161.** Aşağıdakı sözləri diqqətlə oxuyun, onların yazılışında hansı prinsiplərdən istifadə edildiyini göstərin.

I

Təlatüm, rövnəq, üfüq, heykəl, qalereya, buruq, səngər, tüfəng, rübai, geniş, ansambl, Daşkənd, Edisson, əxlaq, qərb, qənaət, ağıl, güzəşt.

II

Ləngər, güman, aslanlar, büllur, sovqat, səfeh, velosiped, bürokrat, bilərzik, bəlğəm, aludə, bəyanat, bünövrə, vətəgə, gümüş, zümrüd.

III

Pulemyot, işgüzar, xəcalət, sadəlövh, qohum-əqrəba, valyuta, bəxşiş, bəxtəvər, bitkin, broşüra, vücud, bürünc, vurnuxmaq, baykot, səlahiyyətli, səadət, haqq-hesab, kompüter, seçki, eqoist

**§ 162.** Oxuyun, sözlərin hansı prinsiplər əsasında yazıldığını müəyyənləşdirin və aşağıdakı sxem üzrə yazın.

| Sıra № | Fonetik prinsip | Morfoloji prinsip | Ənənəvi prinsip |
|---|---|---|---|
| | | | |

I

Hacı Canıyev Tamaşanın yadına düşən birinci namizəd oldu. Təkcə buna görə yox ki, o, Sərdarın yaşadığı evdə, qonşu blokda olurdu. Hər yerdə, hər şəraitdə özünü büruzə verən şiddətli yetikliyinin sövqi ilə qarı bu qoca professorun tərcümeyi-halını öyrənmişdi. Bilirdi ki, o, Kiyevdə universitet qurtarıb, orda bir ukraynalı qız alıb, işləyib. Azərbaycanda Sovet hökuməti qurulandan sonra Bakıya gəlib. Necə olubsa, əvvəl işə düzələ bilməyib. İlk rastına düşən adamın pisliyinə görəmi, Azərbaycan dili bilmədiyindənmi, yoxsa partiyada olmadığına görəmi, ya da qılıqsızlığındanmı, nədənsə, xeylaq boş-boş gəzib, sonralar işləməyə başlamışdı. Sərdarla qonşu olduğu, neçə dəfələrlə gedib gəldiyi üçün Tamaşa bunu da öyrənmişdi ki, o, lap çoxdan ali məktəbdə işləyir, dərs deyir, professordur. Yaşı yetmişi adlayan bu adamın heç medalı da yoxdur. Bunu da öyrənmişdi ki, bir para cihazlar icad edən professor, konserv qabı açan elə bir şey düzəldib ki, hər yerdə işləyir, ondan biri də lap Sərdarın evində vardır. Bundan başqa o, maşınla dovğa bulayan bir çömçə də düzəldibdir. Amma bu adamın heç yanda nə üçünsə adı-sanı çəkilmir, pisliyinə də, yaxşılığına da qəzetdə yazılmır. Tamaşanın fikrinə görə o, əsil karına gələn adam idi. Keçən dəfə Bakıya gələndə Sərdarın arvadı xüsusi qurğu ilə bişən dovğadan yeməyi qarıya öyrətmişdi. Tamaşa əvvəl güclə, iyrənə-iy-

rənə dovğanı dilinə vurmuşdu; lakin qaşıq-qaşıq içdikcə, qol yora-yora hazırlanan dovğadan bunun fərqi olmadığını yəqin edəndən sonra gedib, professoru lap evindəcə tərifləmişdi. Belə adamın əlbəttə, elmi iş yazmaqda Sərdara köməyi dəyə biləcəkdir (Ə.Ə.).

II

Özümdən böyüyə cavab qaytarmağı sevmirəm. Arvad danışıb-danışıb yoruldu. Elə həmin axşam qonşuda yaşayan qocalar bir-bir qapımızı döydülər. Otaq qocalarla doldu. Elə bil hamısının azarı birdən güclənməyə başlamışdı. Biri gözünün pis görməsindən, o biri iştahasından, digəri qulağının eşitməməsindən, yuxusuzluğundan şikayət elədi. Bilmədim hansına cavab verim. Onu deyə bildim ki, müalicə həkimi deyiləm. Rayonumuzun poliklinikasında müxtəlif orqanlar üzrə mütəxəssis həkimlər var. Onlara müraciət eləyin.

Bu əhvalatdan bir neçə gün sonra küçədə həmin qocalardan birinə rast gəldim. O dedi: "Oğul, Kazım, incimə, o gun anan bizi yığıb xahiş etdi ki, yanına gələk. Özümüzü sənə göstərək. Biz anandan nə üçün qocaları dəstə-dəstə yığıb sənin yanına göndərməyinin səbəbini soruşduq. Dedi ki, bunu onu utandırmaq, əsl həkim olmağı üçün eləyirəm. Üz-üzdən utanar. Biz də arvadın sözündən keçə bilmədik". Eh, Mənsur müəllim, hansını deyim? Virusologiya ilə məşğul olmaqdan ötrü bu cür tənələrə çox dözmüşəm...

Mənsur işə çıxan günü müsabiqə komissiyasının çıxardığı qərardan xəbər tutunca qanı qaraldı. Qafar Cənnətzadə rədd edilmiş, Əhəd Salamov seçilmişdi. Mənsur müsabiqə komissiyasının sədrinə zəng çaldı ki, soruşsun, hansı üstünlüyünə görə Cənnətzadəni yox, Salamovu instituta götürməyi qərara alıblar. Sədr yerində deyildi, harasa getmişdi. Şöbədə onun nə zaman gələcəyini də bilən

yox idi. Mənsur direktor müasirinin katibəsinə zəng eləyib Həmid Sərvərovun kabinetində olduğunu öyrəndi. Aşağı endi. Professor telefonla arxayın-arxayın danışırdı (*H.A.*).

III

Dilbər qalxdı, qapını açdı, bayıra baxdı. Bulaşıq bir gecə idi. Külək bəzən şiddətlə çırpınır, daxmaların bacalarını taqqıldadırdı, bəzən heç yoxmuş kimi susurdu. Göydə ay buludlarla toqquşurmuş kimi, örtülür və yer üzünü qaranlıqlarda boğur, gah da yavaş-yavaş buluddan çıxıb, bir neçə saniyə üçün yer üzünə xəstə, sarı, ölgün işıq atırdı.

Dilbər bayıra çıxdı. Yavaşca həyətdən keçdi, küçə qapısını açdı, baxdı. Kimsə yox idi. Bir qədər düşünüb də qayıdıb, açıq qalmış ev qapısına baxdı. Qaranlıq içərisində, pəncərə ilə qapı lampanın sarı işığında vərəmli iki göz kimi baxırdı. Dilbərin ürəyi sıxıldı və birdən başı açıq küçəyə, atılıb, dustaqdan qaçırmış kimi, bir həyəcan içində qaçmağa başladı.

Hara?

Özü də bilmirdi...

O ancaq qaçmaq, bu dirilər məzarından uzaqlaşmaq istəyirdi. Bir aralıq Dilbər döndü, baxdı. Qapıya bir qaraltı yanaşırdı... Bu şübhəsiz, Mirzə Kərim idi. Dilbər bir qırpım dayandı. Qorxudan bədəni titrəyirdi. Külək uğuldayır, sanki bir səs ona: "Qayıt, qayıt", – deyirdi. Lakin Dilbər küləyi dinləyəcək bir halda deyildi. Yaylığının uclarını yaxalamış, əsəbi addımlarla irəli atılmış, qaçır, mütəmadi qaçırdı. Artıq ev çoxdan uzaqda qalmışdı. Külək qarşıdan Dilbərin üzünə çırpır, qulaqlarında uğuldayır, yerişini yavaşıdırdı. Paltarları fırıldayır və ayaqlarına dolaşaraq, yerimәsinə mane olurdu. Dilbər bir neçə dəfə, daşa ilişmiş, yıxılmış, əlləri, dizləri əzilmişdi. Lakin Dilbər bunların fərqinə varmadan qalxır, yenidən yüyürürdü. Harada ol-

duğunu bilmir və bəlkə də düşünmürdü. Ancaq acıqlı dalğaların yalçın qayalara çarpıb bir gurultu qoparması sahildə olduğunu xatırladırdı. Ay bulud altına keçmiş, bütün kainat qaranlığa bürünmüşdü. Ətrafda kimsə yox idi. Hər tərəfdən vəhşi bir təbiət, qatı bir qaranlıq Dilbəri bürümüşdü. Gecənin qaranlığı içərisində yalnız küləyin qorxunc gurultusu Dilbərin qulaqlarında uğuldayır, qarşıda Kaspinin yırtıcı dalğaları hiddətlə qayalara çarpır, döyüşür, bağırır, yalçın qayaları, sərt daşları qoparmaq, yıxmaq, öz ağuşuna alıb udmaq istəyirdi. Dilbər isə heç bir şey görmədən, düşünmədən bu kimsəsiz təbiətin ortasında yürüyür, getdikcə evdən uzaqlaşır və qatı bir qaranlığa dalırdı.

Haraya? Nə üçün? Burasını Dilbər özü də bilmirdi.

Artıq sahildə gecənin qaranlığından başqa bir şey görünmür, küləyin uğultusundan və dalğaların acıqlı bağırtısından başqa bir şey eşidilmirdi. Dilbər qaranlığa qatışmış... gecə Dilbəri udmuşdu *(C.C.)*.

**§ 163.** Azərbaycan dilində kök və budaq morfemlərin hamısı fonetik prinsipə əsasən yazılsa, aşağıdakı vahidlər necə yazılmalı olar və belə bir hal yazımıza hansı cəhətdən təsir göstərə bilər? Buna əsasən misalları nəzərdən keçirin.

Deyil, aviokonstruktor, uşaq, avtoportret, əlbəttə, amortizator, papaq, səndən, avtoblokirovka, kolxozlar, avtotransformator, hətta.

## SAİTLƏRİN YAZILIŞI

**§ 164.** Köçürün, nöqtələrin yerinə müvafiq sait artırın və həmin sözlərdə saitlərin yazılış qaydalarını şifahi izah edin.

1. Qızıl süvarilər yürüş əmri alanda, bulud içindən şığıyan ...İldırım kimi, çapıb getdilər (*M.C.*). 2. Səadət şərbətini tapıb ...çərkən, qədəhi salıb qırmaq, xoşbəxtlik yolunu tapıb, tam məqsədə çatırkən bir fəlakətə uğrayıb, məhv olmaq nə qədər acı olsa da, adi bir şey deyilmidir? (*C.C.*) 3. Özünü ay ...işığında ala-bula görünən meşə kölgələrinə oxşatdı (*M.C.*). 4. Müəllimə mülayim bir baxışla Bəşirin üzünə baxdı; bu qırışıq üzdə, cəsarət üçün üzr istəyən bir günahkar gülüşü çırpınır, gözlərində mərhəmət uman bir təqsirkar iczi..nləyirdi. (*C.C.*). 5. Günlərin bir günündə bir zalım ...lan, bir qurbağa tutmuşdu gölün yanından (*Ə.Əl.*). 6. Səlim ilğım kolunun dibini balaca bel ilə eşməyə başladı (*S.Pəh.*). 7. Qarşıdakı ilxıda üç yüzə yaxın müxtəlif rəngli at var idi.

**§ 165.** Köçürün, nöqtələrin yerinə uyğun gələn hərfi yazın və həmin sözlərdə saitlərin yazılış qaydalarını izah edin.

1. Müdhiş və ...ybəcər bir səslə vıyıldayaraq gələn minalar yalnız əsgərləri deyil, yeri-göyü də sarsıdırdı (*M.H.*). 2. Qatı toz dumanı kimi göyə qalxan qara torpaq, havadan təkrar yerə ...nib əsgərlərin başına tökülürdü (*M.H.*). 3. Bir anda elə bil onun halı xarablaşdı (*Ə.Ə.*). 4. ...rtəsi günü Kamil yenə də üç kilo ...rkək əti ilə gəldi (*M.Ə.*). 5. Xüsusən müharibə dövründə gecəli-gündüzlü mədənlərdən ayrılmayan adamlar onun həmişə dolğun və gülümsər sifətini görəndə, qara, qıvrım saçlarına, getdikcə daha da enlənib ətə dolan cüssəsinə, zəhmli, möhkəm addımlarına baxanda onun gümrah və gülərüzlü olduğunu düşünürdülər (*M.H.*). 6. Bu ...vın pəncərələri xırda və rəngarəng şüşələrdən ibarət idi (*S.S.A.*). 7. Qəsəbənin ortasından sıyrılmış bir qılınc kimi şütüyüb keçən arxın alt yanındakı tək ...vdən zəif bir işıq gəlirdi (*M.H.*). 8. Gövhər xala müharibə başlanmazdan bir neçə ay əvvəl böyük oğlunu ...vləndirmək

üçün ciddi hazırlıq görməyə başlamışdı (*Y.Ə.*). 9. Bu zaman o, Azadın səsini ...eşitdi (*Ə.M.*). 10. Atalar demişkən, ...yibsiz gözəl olmaz.

**§ 166.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Cəbhə həyatında belə ağappaq sükutu hələm- hələm görüb hiss eləmək mümkün olan şey d..yildi (*B.B.*). 2. Piri kişi də süfrəni salıb p..ndir, çörək və yağ qoydu (*S.S.A.*). 3. Ağalıq evi təzə qayda ilə tikilmiş iki mərtəbə g..n-bol bir imarət idi (*C.C.A.*). 4. Canıyev qarının g..rçəklədiyini sezib, ayağa qalxdı, o biri otağa keçdi (*Ə.Ə.*). 5. Sərnişinlər yavaş-yavaş y..rlərini tutdular *(H.A.*). 6. Toz-torpağa bulanmış yırtıq p..ncəyini çıxarıb yerə sərdi, arabanın kölgəsində uzandı (*M.H.*). 7. Mən anamın sonb..şiyi idim (*H.A.*). 8. Gövhər, sənin üçün iki qiymətli yadigar qoyub g..dirəm (*Y.Ə.*). 9. Döyüşçü sağ əlini qaşı üstünə qaldırıb ç..vik bir hərəkətlə g..ri döndü (*Ə.M.*). 10. Günəşin son vərəmli tellərinin duydurduğu iyrənc bir sükut içində ana ağlayır, zavallı qızcığaz da, bu fəlakətə səbəb olmuş kimi, qorxudan qımıldanmayıb, yavaşdan için-için ağlayırdı (*C.C.*).

**§ 167.** Nöqtələrin yerinə uyğun gələn hərfi əlavə edib köçürün. Hər sözə aid cümlə qurub yazın.

B..zmək, b..yin, z..hin, n..hrə, y..kun, p..şə, y..tkin, n..ft, y..tim, h..yvan, g..ri, b..tər, k..çəl, k..fcıl, ç..virmək, b..ləcə, p..şkeş, p..şman, b..cənnək.

**§ 168.** Köçürün. Nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Atlı, y..hərin qaşından tutub bütün vücudu ilə səs gələn səmtə döndü (*M.H.*). 2. Bu gün haradan olmuş olsa,

sənin üçün həkim tapıb g..tirəcəyəm (*S.S.A.*). 3. Aqil y..qin etdi ki, bir də onu belə aşkar, hazır bir yerdə yaxalamaq mümkün olmayacaqdır (*M.C.*). 4. Onlar hər ikisi qatarda p..ncərə qabağında dayanıb gözlərini heykələ dikmişdi (*S.Rəh.*). 5. Onlar artıq adi v..hşi bağalar deyil, hər biri tərbiyə görmüş bir heyvan idi (*A.Ş.*). 6. Hüsniyyə zavallı yetimin üzünə baxdıqda sualsız da anlayırdı ki, o biçarə, Yusifdən nə qədər zülm və əziyyətlər çəkir (*S.S.A.*). 7. Uzaqlarda yaşıl ç..mənlər, dənizi andıran zəmilər iri xalılar kimi yerə sərilmişdi (*M.H.*). 8. Ayağındakı yöndəmsiz və ağır uzunboğaz ç..kmələr, əynindəki kobud əsgər paltarı, çiyinləri yastılanmış şinel onun gözəlliyinə əsla xələl gətirmirdi (*H.A.*). 9. Yol yenə bizi Ş..rur düzü ilə Ağrıdağına doğru aparır. 10. Bir azdan Naxçıvanın indiki s..rhədləri bitəcək, lakin Azərbaycan bitm..yəcək (*S.Rüstəmxanlı*).

**§ 169.** Nöqtələrin yerinə uyğun gələn hərfi artırın və həmin sözlərdə saitlərin yazılışı qaydasını izah edin.

I

1. Son illərdə musiqinin müxtəlif n..vləri üzrə tez-tez müsabiqə və yarışlar keçirilir, yeni-yeni istedadlar aşkara çıxarılır (*"Ə. və İ."*). 2. Qızlar yavaş-yavaş çarpayının d..vrəsini halqaya aldılar (*M.H.*). 3. İri g..vdəsi olan bu adamı Murad ilk dəfə görürdü (*Sab. Rəh.*). 4. Mənim təyinatımın üstündə mübahisə bir xeyli uzandı, atamın vəzifəsi – m..vqeyi elə idi ki, necə lazım olsa, o cür də həll edə biləcəkdi (*B.B.*). 5. Tarix sahəsində, ələlxüsus mənim istədiyim d..vr üzrə aspiranturaya qəbul olmadığına görə atam mənə "azad təyinat" aldı (*B.B.*). 6. Səməndərlə sözə gələrkən, həmişə bu n..qtədə məğlub olduğumu xatırlardı (*M.H.*). 7. O gedəndən sonra ailədə başlanan söhbətin m..vzusu çox müxtəlif idi. (*M.H.*) 8. Fəridə düşünür, düşündükcə də Fərhadın ona

olan münasibətində daha çox n..qsan tapır, onun görüşünə getməmək üçün bəhanə axtarır, çalışırdı ki, buna bəraət qazandırsın (*O.Sal.*). 9. Səməndər arasıkəsilmədən çəpik və musiqi təranələrindən ş..vqə gələrək, daha bir çılğınlıqla ortalıqda süzməyə başladı (*M.H.*). 10. Səltənət ağlayıb ürəyini boşaldandan sonra ev-eşiyə əl gəzdirdi, gecədən xeyli keçincəyə qədər paltar yamadı, t..vləyə girib mal-heyvana ot tökdü (*B.B.*).

II

1. Bir azdan pillələrlə enən üç qız və bir oğlan uşağı qocanı d..vrəyə alırlar (*Q.İ.*). 2. Əmrahın daxmasına od vuruldu, samanlığı uçuruldu, t..vləsi də alt-üst edildi (*M.H.*). 3. Ağac g..vdəsinə dəyib elə partladı ki, deyəsən yer yerindən oynadı (*M.C.*). 4. Şirəli daha ciddi bir t..vrlə onun gözlərinin içinə baxdı (*M.H.*). 5. Qızım xatırladı: "Zavallı, ayaqyalın, k..hnə, çirkli bir k..ynəklə gəzir" (*C.C.*). 6. Onların dayandıqları n..qtədən bütün Bakı aydın görünürdü (*M.H.*). 7. Başqaları həyatını mübarizədə keçirir, ağıllı şeylərə sərf edir, tikir, qurur, yaratdığından z..vq alır (*O.Sal.*). 8. Qüdrətə elə gəlirdi ki, bu yüksək m..vqeyi itirmək yalnız onun şəxsi şöhrət duyğularını deyil, bir də, çoxdan bəri vərdiş halına gəlmiş iş üsullarını təhqir edir (*M.H.*). 9. Gülarə isə bu gün xəstəxanada n..vbətçi qaldığından saat doqquzdan gec gəlməyəcəkdi (*O.Sal.*). 10. Əgər o ixtiranın kiçik bir n..qsanını da göstərsəniz, böyük köməkdir (*M.H.*).

III

1. Cəmilin sir-sifəti ciddi bir ifadə aldı, qaşlarının arası düyünləndi və o, dostunun könlünə toxunacağından ehtiyat edib söhbətin m..vzusunu dəyişdi (*M.H.*). 2. Onların bilmədikləri və ya az bildikləri məsələləri aydınlaşdırdıqdan sonra, dərs proqramlarındakı n..qsanları düzəldib, is-

tehsalatda baş verən ayrı-ayrı hadisələrdən də cavanları xəbərdar etməyi müəllimlərə tapşırmışdılar (*M.H.*). 3. Ev sahibinin h..rmət və qayğısından qocanın da həyəcanlandığı hiss olunurdu (*M.H.*). 4. Eh, oğlum, siz xoşbəxt zəmanənin ..vladısınız (*M.H.*). 5. O, gəncliyini məhrumiyyətlər içərisində yaşamış olsa da, hər n..v çətinliyə dözüb oğlanlarını boya-başa çatdırmışdı (*M.H.*). 6. D..vlət imtahanlarını verib qurtaran kimi anamdan gələn məktubu Tahirəyə oxudum (*O.Sal.*). 7. Salonun tavanından asılmış böyük çilçırağın işığında rəng verib, rəng alan müxtəlif sifətlər və ən çox da onların z..vq ilə tikilmiş zəngin, rəngarəng libasları Tahirin heyrətini min qat artırırdı (*M.H.*). 8. O g..vdəsindən qurusa da, dağ kimi bir əzəməti olur (*O.Sal.*). 9. Uzaqdan bir n..qtə kimi görünən bu qaraltı bizə yaxınlaşdı (*B.B.*). 10. Nə olar ki? Adam böyüyər də, kiçilər də, məni h..kumət hara göndərsə, orada işləyəcəyəm (*M.H.*).

**§ 170.** Verilmiş sözlərin hərəsinə aid üç cümlə qurub yazın.

I. Gövhər, hökumət, dövr, övlad, kürk, öpüş.
II. Gövdə, növbətçi, mövzu, tövlə, göyərtə.
III. Nöqtə, mövqe, nöqsan, zövq, gön, göstəbək.

**§ 171.** Söz ortasında <ö> saiti olan on beş misal yazın.

**§ 172.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

I

1. Adətən, nənələri maraqlı n..ğıl dediyinə görə xoşlayırlar (*C.Ə.*). 2. Z..vallı qızcığaz son dəfə b..şını qaldırıb, ətrafına baxdı: bütün əvvəlki nəvazişk..r, sevimli çöhrələrdə bir əsrəb gülüşü oynayır, hamısında gizli bir nifrət çır-

pınırdı (*C.C.*). 3. Otaqda paralel qoyulmuş iki t..xtdan və bucaqdakı uzun qovaq t..xtalarının üstündə səliqə ilə yığılmış köhnə yorğan-döşəkdən başqa gözə dəyən bir şey yox idi (*M.H.*). 4. Hamı gülür, əl çalır, bağalar isə oynamaqda d..vam edirdi (*A.Ş.*). 5. Əvvəllər tar və k..mança telləri Moskvada istehsal olunurdu (*"Ə. və İ."*). Ağazal ona baxmadan s..lam verdi (*Ə.Ə.*). 7. Məktəb binası yarıuçuq bir halda idi, yalnız bir neçə sinfi salam..at qalmışdı (*Ə.M.*). 8. Hacı K..myabın Gövhərt..c adında bir gözəl qızı var idi (*Ə.B.H.*). 9. Mahirə üç ildən bəri sevdiyi bu ad..mla öz arasında baş verən bütün hadisələri sürətlə gözü önündən keçirir, düşünürdü (*M.H.*). 10. O f..ğır adamdır, belə işlər onun əlindən gəlməz (*M.H.*).

II

1. O, stula oturub k..mançasını çalmağa başlarkən, bağalar səhnəyə girib ayaq üstündə qarşı-qarşıya oynamağa başladılar (*A.Ş.*). 2. Salon yenidən canlandı, t..maşaçılarda gülməkdən can qalmadı (*A.Ş.*). 3. Gənc döyüşçü sözünü t..mamlayaraq susdu, sonra birdən əyilib, Ulduzun əlindən tutdu (*Ə.M.*). 4. Q..rı qorxusundan sıçrayıb yuxusundan ayıldı və gördüklərinin yuxu olduğunu duyduqda gülə-gülə y..zmağa başladı (*Y.V.Ç.*). Yolçu, xəstələnib ölümünün yaxınlaşdığını duyduğu z..man oğluna bir neçə vəsiyyət etmişdi (*M.H.*). 6. X..lq onların qulaqlarına qızıl sırğa asıb, əllərinə qızıl halqalar keçirərdi (*A.Ş.*). 7. Mirzənin atasının evində saat birdə n..har edilirdi (*Ə.H.*). 8. Bu v..xt oğlan ondan ayrılıb paltar saxlayan xidmətçinin yanına getdi (*S.S.A.*). 9. Şirəli ilə olan birinci görüşündə onun hərbi savadsızlığını dərhal anlamış, ona hər dəqiqə kömək edəcəyini söyləmişdi (*M.H.*). 10. Nağıl qurtarmışdı, uş..qlardan biri balaca əllərini sinəsinə qoyub, nənəsinin dizi üstə yuxulamışdı. (*Y.V.Ç.*).

III

1. O indi özünə bir müəllim kimi baxmağa başlamış və istəyirdi ki, k..mançasını əlinə alıb çaldığı z..man bağaları sirkdəki heyvanlar kimi durub oynasın (*A.Ş.*). 2. Ulduz başını aşağı saldı, baxışlarında kövrək bir ümid titrəyən ana gözlərinin lal fəryadına d..vam gətirə bilmədi (*Ə.M.*). 3. Otaqda bir taxt, bir stol və iki stuldan başqa heç bir şey yox idi (*Ə.M.*). 4. Onun evindən çıxdığı z..man bir dəstə yoluq-yoxsul kəndlinin qubernator dəftərxanasına basqın etdiyini gördü. (*M.H.*). 5. Qardaşı olduqca sadəlövh, heç bir şeydən başı çıxmayan f..ğırın birisi idi (*Ə.V.*). 6. Məktəbin iyirmi-otuz addımlığındakı ikimərtəbəli daş evin xırm..nında bir atlı dayandı. (*M.H.*). 7. Şərifzadə qocanın z..rafatını başa düşmədi (*M.H.*). 8. B..yaqdan bəri keçirdiyi ağır nigarançılıq yükü üzərindən yox oldu (*M.C.*). 9. Belələri indi də çoxdur, dünya x..rabaya çevrilsin, ancaq onların qapısını döyüb köməyə çağıran, yuxusunu pozan olmasın (*Cə.M.*). 10 Mən ancaq qızı x..tadan qurtarmaq istəyirdim (*Cə.M.*).

**§ 173.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Şərifzadə düşünə-düşünə birdən bütün t..qsirləri özündə gördü (*M.H.*). 2. Qorxma, təv..qq.. eləməyəcəyəm, – deyə Eyvaz dodaqaltı gülümsədi, altdan-altdan qonağını süzdü (*Ə.V.*). 3. Eyvaz kişi evə girərkən qapı ağzında xörəyin kəfini yığan arvadı ilə əlində q..zetə baxan Qərənfili gördü (*Ç.V.*). 4. Onun bu gün yenə küçədə uşaqlara sülhə çağıran vər..qələr payladığını, göyərçin uçurtduğunu, yoldaşlarından birinin polisə müqavimət göstərdiyinə görə tutulduğunu nağıl etdi (*Cə.M.*). 5. B..xt..v..r olsun ölvad sarıdan yarıyan anaların başı (*Ə.Ə.*). 6. Azərbaycan ş..hərlərinin anası!.. Yadellilərin vurduğu odlardan, amansız z..lzələlərdən yüzilliklər böyu dönə-dönə yerlə-yeksan olsa da, təzədən tikilib ucalan

nəsil-nəsil alim, şair, filosof, r..ssam, sənətkar, s..rkərdə yetirən, xalçası və miniatürləri, memarlıq və zərgərlik inciləri, ipəyi və qab-qacağı, silahı və yeməkləri ilə bütün Ş..rqdə şöhrət tapan qocaman T..briz! 7. Bütün bu abid..ləri öyrənən tarixçilər Kür-Araz mədəniyy..tini Dəclə-Fərat mədəniyyətindən daha yaşlı hesab edirlər (S.Rüstəmxanlı). 8. Dükan qapılarına diqqətlə baxdı, bir d..nə də açıq dükan yox idi (*M.C.*). 9. Elə bil onun bədəni dəmirdir, səninki x..m..r (*C.C.*). 10. B..xt məni bu yerə qonaq göndərdi. Gedirəm, yamandır ayrılıq dərdi (*S.V.*).

**§ 174.** Nöqtələrin yerinə uyğun gələn hərfi əlavə edib köçürün.

I

1. Bir..rə arvad, nə qədər səs-küy saldısa, haraya bir kəs gəlmədi. (*Y.V.Ç.*). 2. Zəman.. çox adamın burnunu ovub, çox adamlara öz məqamlarını göstərib (*Ə.H.*). 3. Hələ rayon mərkəzində işlədiyi zaman, Şərifzadənin başına bir çox belə m..cəra gəlmişdi (*M.H.*). 4. Azad istirah...t günü və bəzən də başqa günlər axşamdan Nərgiz xanımgilə gələrdi (*Ə.M.*). 5. Fərhad, Aslan və Züleyxanın ata-anası kiçik bir kənddən olub, güzər..nın ağırlığından köçüb şəhərə gəlmişdilər (*C.C.*). 6. Partlayan bombanın dalğasından içi ərz..qla dolu araba böyrü üstə aşmış, cavan arabaçının qulaqları tutulmuşdu (*H.A.*). 7. İndi düşmən onun gözündə murdar bir həşər..t kimi canlanır, düşmən haqqında fikirləşəndə daima onu tapdamaq ehtiyacı duyurdu (*Ə.M.*). 8. Lakin ölümlə həyat arasındakı bir sərhəddə, ifadəsi mümkün olmayan dəhşətlər içərisində, zaman artıq öz adi ölçüsündən k..nara çıxır, dəqiqələr bir əbədiyyəti əhatə edir (*Ə.M.*). 9. Qurtuluş ümidi, tufanlı gecələrdə hərdənbir qara buludlar arasından göz qırpan tənh.. bir ulduz kimi nə qədər uzaq və əlçatmaz görünsə də, yenə də Ulduz ondan üz döndərə bilmirdi (*Ə.M.*). 10. Dəfn mər...simi saat on ikidə başlandı (*M.H.*).

II

1. Uzun sıx kirpiklərlə əh..tə olunan gözləri həmişə xeyirxahlıqla gülürdü (*H.A.*). 2. Topçular meşənin girəcəyində q..mətli şam ağaclarının altında qəbir qazdılar (*H.A.*). 3. Bir zamanlar təkcə gecələrin qaranlığından v..himələnən Ulduz, indi zülmət gecələrdə canavar kimi ağzını açıb od püskürən topların üstünə bir sayğısızlıq və həq..rətlə getməkdə idi (*Ə.M.*). 4. O, son əs..rət gecəsi dizləri üstə can verən rus qızını xatırladı (*Ə.M.*). 5. Bu məktub anaya xit..bən yazılmışdı (*Ə.M.*). 6. Mən orada uşaqlara, bizim kənd məktəbini son nəfəsinə kimi müdafiə etmiş bir qəhrəmanın hek..yəsini danışacağam (*Ə.M.*). 7. Ələsgərin əlində əl..c olsa idi, çap olunmuş qəzetin hamısını yığdırıb yandırar, külünü göyə sovurardı (*Ə.V.*). 8. Sevil maşını sahənin k..narında saxlayıb düşdü (*Ə.Q.*). 9. Cibindən dəsm..lını çıxarıb, alnını sildi, təkrar qazmağa başladı (*Ə.V.*). 10. Alıpaşa ağa bu sözl..ri dedikcə səsində acı bır m..ğlubiyyət və küd..rətli bir sızıltı eşidilirdi (*Y.V.Ç.*).

III

1. Lakin, s..katlik olanda arabir kefsizlədiyini bəh..nə gətirib, alayın arxasına, səhiyyə hissəsində xidmət eləyən sevgilisi poltavalı feldşer qızın görüşünə gedirdi (*H.A.*). 2. Yazıq qız təs..düf üzündən həl..k oldu (*H.A.*). 3. Lakin indi onda düşmənə qarşı nifrət hissi ilə bər..bər bir rəq..bət hissi də var idi (*Ə.M.*). 4. Bir neçə gün sonra Ulduza müalicə və istir..hət üçün arxaya getməsi təklif edildikdə, o imtin.. elədi, yalnız on günlüyə Rostov vilayətindəki bir kəndə getmək üçün icazə aldı (*Ə.M.*). 5. Ayın işığı onun sinəsinə düşdükdə öz rəngindən utanıb çəkilmək, buludlar arxasında xəc..lətindən gizlənmək istəyirdi (*Ə.V.*). 6. Onun gözü qəzetdə "Qatilə cəz.. verildi" adlı böyük hərflərlə yazılmış sərlövhəyə təsadüf etdi (*Ə.V.*). 7. Çörəkdən sonra üçüncü mərtəbədən həyətə açılan

pəncərənin dalında durub uşaqlara, onların oyununa, bir-biri ilə rəft..rına göz qoyurdu (*M.İ.*). 8. Qarı dadlı-dallı xəy..llar edə-edə həyətə enmişdi, bir də pilləkənin altından iri gövdəli bir it sıçrayıb qarını basmarladı (*Y.V.Ç.*). 9. Düşməni qovub çıxardıqları zaman Bahadır pər..kəndə halda qaçan alman əsgərlərinin arxasınca tankı iti sürətlə sürürdü (*Sab.Rəh.*). 10. Məclisi dərin bir sükut q..plamışdı (*Y.V.Ç.*).

**§ 175.** Verilmiş sözlərin hərəsinə aid iki cümlə qurub yazın.

I. Xatirə, xatirat, xatircəm.
II. Xatırlamaq, xatırlanmaq, xatırlatmaq.
III. Xətir, xətirli, xətir-hörmət.

**§ 176.** Buraxılmış hərfləri nöqtələrin yerinə əlavə edib yazın. Saitlərin yazılış qaydasını izah edin.

Bəy..z, d..vamiyyət, bab..tlaşmaq, q..dağa, kamança, n..ğdı, x..takar, x..ta-bala, b..xtəvərlik, t...qsirli, kəhrəb.., m..cəra, nəqər..t, həy.., güzər..n.

**§ 177.** Mətni diktə ilə yazın və yazınızı orijinalla yoxlayın.

Sizə bir hekayə söyləyəcəyəm, deyəcəksiniz ki, yenə ovçu Qasım uydurmalarını başladı. Sizi inandırıram ki, bu uydurma deyil, öz gözlərimlə gördüyüm keyfiyyətdir.

Mənim rəhmətlik atam həmişə deyərdi: "Oğul, bir doğru ki, yalana oxşadı, onu demə". Mənim bu hekayətim yalana oxşayır, amma, sizin canınız üçün, sırf həqiqətdir.

Neçə sənə bundan əqdam Tərnəvidə getmişdim: orada Molla Abbasla işim vardı. Hamınız bilirsiniz ki, Tərnəvidin xalqı arıçılıqla məşğul olurlar. Molla Abbasın özünün də neçə səbət arısı vardı.

Baharın gözəl günlərinin biri idi. Molla Abbasla dəhlizin qabağında əyləşib söhbət edirdik. Mollanın arvadı da dəyirmanlıq üçün buğda yuyub günə sərmişdi. Molla Abbas həm mənimlə söhbət edirdi, həm əlindəki bir uzun çubuqla buğdanın üstünə gələn toyuqları və quşları qovurdu. Birdən bir arı gəlib, bir buğda apardı. Hər ikimiz təəccüb etdik, buğda arının nəyinə lazımdır? Hərçi fikir etdik, bir şey duya bilmədik.

Bir azdan sonra arı gəlib bir buğda da apardı. Molla Abbas dedi:

– Arı gəlib bir də buğda aparsa, bu qocalığıma baxmayaraq, onun dalınca gedəcəyəm.

Mən cavabında dedim, mənim ayaqlarım bərkdir, mən gedərəm və xəbər gətirərəm.

Həqiqətən arı gəlib bir buğda da götürüb uçdu. Mən qalxıb onun dalınca yüyürdüm. Arı getdi – mən getdim, arı getdi – mən getdim. Endik bir dərəyə. Arını gözdən qoymadım. Baxıb nə gördüm? Sizin canınız üçün, bir zərrə sözümdə yalan yoxdur.

Gördüm kolun altında bir kor sərçə oturub, arının dızıltısını eşitcək ağzını ayırdı və arı buğdanı onun ağzına buraxıb getdi.

Mən tamam heyrətdə qayıdıb gördüyümü Molla Abbasa nağıl etdim. Molla Abbas bir qədər fikrə getdi, sonra bir salavat çevirib dedi:

– Böyük möcüzədir.

Qulaq asanlar bu nağılı Qasımın uydurmalarından hesab edib əhəmiyyət vermədilər. Belə nağıllardan ovçu Qasımın dilindən çox eşitmişdilər (*Ə.B.H.*).

**§ 178.** Aşağıdakı sözlərin hərəsinə aid üç cümlə yazın.

I. Zəmanə, güzəran, iştaha, həya.
II. Bədbəxt, nəqərat, kəlağayı, kəhrəba.
III. Xatalı, macəra, salamat, qadağan.

**§ 179.** Köçürün, nöqtələrin yerinə uyğun gələn hərfi yazın.

1. Aqil təkliyini və əhatə edilə biləcəyini düşünərək gülləyə q..naət etmək və düşmənə yerini bildirməmək üçün daha güllə atmadı (*M.C.*). 2. N..hayət, bütün qurultayı anlaşılmaz bir heyrət sarımışdı (*C.C.*). 3. Zərifə işə başlamışdı ki, dayısı Sərdarı ayağının səsindən tanıyıb, tələsik m..tbəxdən dəhlizə çıxdı (*Ə.Ə.*). 4. Gəl, hara istəyirsən gedək, istəsən lap dünya s..yahətinə çıxa bilərik (*Ə.Ə.*). 5. Bu ciddiliyin özündə belə Tahirə nə isə xoş gələn bir cəhət vardı (*O.Sal.*). 6. Bir pəhl..van gücü də var onun canlı biləyində (*S.K.*). 7. Arvad Zeynalı bu axşam kefsiz gördü, lakin bu kefsizliyə ayrıca m..na vermədi (*Y.V.Ç.*).

8. Yox, yox, x..yanət etməz,
Dəniz ona heç zaman,
Xəzər sahillərində
Boy atmışdır bu oğlan (*M.D.*).
9. Mən gedirəm, yadda saxla
Yanındakı yarı, canım
Əman..t ol, salamat qal,
Canda canım, yarı canım (*Bayatı*).

10. Bütün binalar, yaşayış məhəllələri s..liqə ilə yonulmuş sal daşlardan tikilib (*S.R.*).

**§ 180.** Köçürün, nöqtələrin yerinə uyğun gələn hərfi yazın.

1. S..yasət aləmindən, mənim başım çıxmazdı (*Cə.M.*). 2. Mənsur bir nesə gün evdə qalıb, həkimin tapşırıqlarına r..ayət etdiyinə görə halı yaxşılaşmışdı (*Ə.Ə.*). 3. Onu c..na-

yətlərinə görə cəzalandırmaq lazım idi. 4. Vahidin idd..ası müəyyən faktik həqiqətlərə əsaslanırdı. 5. Mən ondan bu məsələ barəsində dəfələrcə r..ca etmişəm. 6. Qədir güman etdi ki, kişi m..siqinin havasına oynayır (*M.C.*).

**§ 181.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

I

1. Zeynal bunları düşünərək hiddətlənir, coşur, bir də "dağılmış" z..manəyə d..lalət edərək rəhmə gəlir və zəhmətli fikrindən daşınmaq istəyirdi (*Y.V.Ç.*). 2. Burada f..rsəti əldən vermək cinayətdir (*M.C.*). 3. Burada s..kut, dərin bir s..kut içində iki ürək döyünürdü (M.H.). 4. Yeddinci əsrdən sonra Azərbaycana gələn ərəb coğrafiyaşünas və səyyahları Aranın paytaxtını Şərqin ən böyük şəhərlərindən biri hesab edirdilər (S.Rüstəmxanlı). 5. Həm də bacarıqlı, n..füzlu bır təşkilatçı kimi özünü tanıtdığı üçün onu daim rəhbər işə çəkib, məsul vəzifəyə qoymuşdular (*Ə.Ə.*). 6. Onunla ..midsiz ağır xəstə kimi rəftar edirdilər (*Ə.Ə.*). 7. Hər tərəfdə yerdən boy atıb qalxan qara torpaq s..tunları bir anda şaxlı-budaqlı bir palıd ağacına dönür və yenə bir anda qasırğaya tutulmuş kimi sınaraq, dağılaraq yerə sərilirdi (*Ə.M.*). 8. Hava barıt, tüstü, r..tubət iyi ilə doldu (*M.C.*). 9. Bir tərəfdə çeşmələr şaqqıldaşır; bir tərəfdə gözəl çiçəklər qoxuyur; mərmər hov..zlarda qızıl balıqlar oynaşırdı; ağaclarda partlamış narların hər dənəsi ya..qut-əhmər kimi qızarıb şəfəq verirdi (*Y.V.Ç.*). 10. Bayram münasibəti ilə yazılmış ş..arlar diqqəti daha çox cəlb edirdi. 11. Nə h..quq dərdi var, nə çörək qəmi (*S.V.*).

II

1. Qarşıdan xəfif-xəfif külək əsir, balaca kəndin havasını meşənin r..tubətli ətri ilə doldururdu (*M.H.*). 2. Onlar

komandanlıqdan x..susi tapşırıq almışdılar (*M.H.*). 3. O, uçuq divarlar arasındakı bu ölüm s..kutunu pozmaq üçün birdən rəfiqəsinə üz tutdu (*M.H.*). 4. Bizimkilər təyin olunmuş vaxtda h..cuma başladılar (*M.H.*). 5. Düşmən çayın o tayında bərkiyib qüvvə toplayır, f..rsət gözləyirdi (*M.C.*). 6. Hələ gün təzə əyiləndə düşmən tüstü ilə örtünməyə, üf..qləri axşam kimi qaranlıqlatmağa başlamışdı (*M.C*). 7. Elə bil b..llur üstündə yeriyirdim (*B.B.*). 8. Heykəli, yaxud b..stü də heç yerdə qoyulmayıb (*C.Ə.*). 9. Vəzifəsindən asılı olmayaraq, hamının q..surunu üzünə deyərdi (*C.Ə.*). 10. Qış gecəsi idi, k..lək evin bacasına düşüb vıyıldayırdı (*Y.V.Ç.*). 11. Bu zərbələrdən onun gözləri də gen-gen açılıb, qaşı yuxarı dartılaraq, alnında da, bu tezkən m..vazi qırışlar düşüb dərinləşirdi (*Ə.Ə.*).

III

1. Ancaq qaranlıqda bunların heç biri s..variləri hədəfə ala bilmirdi (*M.C.*). 2. Nədənsə belə təkliflərlə ümidsizlik, özündən narahatlıq kimi bir məna çaları sezilirdi (*B.B.*). 3. Bu işg..zar, bacarıqlı, deyib-gülən, öz şirin lətifələri, atmacaları ilə hamını ruhlandıran qadını xatırlayarkən yadıma nədənsə bir heykəl düşür (*C.Ə.*). 4. Mən həmin heykəli Avropada, Belçikanın paytaxtı Br..sseldə görmüşəm (*C.Ə.*). 5. Bizim söhbətimiz burda qurtardı. Günəş ş..aları dumanı yardı (*M.D.*). 6 Qar altda qalmasa v..qarlı dağlar, Haradan su içər tarlalar, bağlar? (*M.D.*) 7. Qüdrətə elə gəlirdi ki, bu yüksək mövqeyi itirmək yalnız onun şəxsi şöhrət duyğularını deyil, bir də çoxdan bəri vərdiş halına gəlmiş iş ..sullarını təhqir edir (*M.H.*). 8. Bu vaxta qədər sükut daha mənalı, daha gözəl idi (*Ə.M.*). 9. Pul üçün, ad üçün yox, xalqı nəzərdə tutub, elə işləyirlər ki, çoxları üçün n..munə ola bilərlər (*Ə.Ə.*). 10. Mən nə bəd əməldə olmuşdum ki, məni bu qədər zülmə d..çar elədin (*C.C.*). 11. Bir dəqiqə

keçmədən günün ş..ası dağın arxasından qalxıb aləmi işıqlandırdı; g..l qönçələrinə düşmüş şehlərin hərəsi min rəngə çaldı (*Y.V.Ç.*).

**§ 182.** Verilmiş sözlərin hər birinə dair iki cümlə yazın və həmin sözlərdə saitlərin yazılışı qaydalarını izah edin.

I. Pəhləvan, əmtəə, iddia, büllur.
II. Rəyasət, cəhət, riayət, fürsət.
III. Səyahət, mənfəət, siyasət, hücum.

**§ 183.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın və sözlərin bu cür yazılış qaydasını aydınlaşdırın.

1. İndi o, as..də gəzib dolanmaq yox, bu evin tüstüsünü çıxartmaq, gündüzləri balaca Səlimi qonşuya tapşırmaq, gecələri onu saxlayıb ovundurmaq, dil töküb yatırtmaqla məşğul olmalı idi (*S.Rəh.*). 2. İki dəqiqə keçmədi ki, gurultu ilə göyə qalxdı (*M.C.*). 3. Düşmənin topu da, p..lemyotu da, avtomatı da dillənmişdi (*M.C.*). 4. Mənsur yatağın və çayın pulunu bələdçiyə verib, k..peyə girdi (*H.A.*). 5. Özüm də nə az, nə çox, on yeddi qəzet və jurnala ab..nə yazılmışam (*H.A.*). 6. Burada xəlvət bir g..şə tapıb gecədən xeyli keçənə kimi oturmuşdu (*H.A.*). 7. Uşaqlıqdan çox möhv..matçı böyümüşdü (*M.H.*). 8. Bütün günü tənha dayanıb ev işi ilə məşğul olmaq, yalnız öz səsini eşitmək, öz nəfəsini d..ymaq old..qca darıxdırıcı idi (*Ə.V.*). 9. Dağ yollarında keçən tənha uşaqlıq illərində hardansa ucalan şikəstəyə, bir zəng..ləyə elə bu yolların və dünyanın özü ilə yaşıd olan əbədi möcüzə kimi baxıram (S.Rüstəmxanlı). 10. Sağa və sola x..susi qapısı olan iri otağın dəhlizə açılan qapısının üzünə m..şənbə çəkilmişdi (*Ə.V.*).

**§ 184.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın və sözlərin bu cür yazılışı qaydasını izah edin.

I

1. Elə bu vaxt rotanın k..manda məntəqəsinə bir yaralı gətirildi (*Ə.Ə.*). 2. İş qurtardıqdan sonra r..yalın yanında uzun zaman dinməz oturdular (*Sab.Rəh.*). 3. Xanım arvad qaynanmış sam..varı silir, qonağa yemək hazırlayırdı (*Ə.V.*). 4. Burada pr..fessor mətləbi uzadıb, qarını başa salmağa çalışdı (*Ə.Ə.*). 5. Azərbaycanın ictimai tarixinə, ədəbiyyat tarixinə laqeyd, soyuq münasibəti M..skvada buraxılmış bir sıra iri, sanballı, çoxcildlik m..noqrafiyalarda da görürük (*S.Rüstəmxanlı*). 6. Başı açıq yay k..styumu geyinmiş, gülərüz bır kişinin qurşaqdan yuxarı şəklini göstərdi (*M.C.*). 7. Əbil bl..knotunu çıxarıb bugünkü söhbətlərin təsiri altında aşağıdakı sözləri yazdı (*Ə.V.*). 8. Bütün fəaliyyəti boyu anasının və laboratoriyaların, auditoriyaların hissini yaşayan pr..fessor Rəhimin ayağı dostunun evindən kəsildi (*B.B.*). 9. Hücum edənlər iki yük avtomobilində gəlmişdilər (*Y.V.Ç.*). 10. Ey, Ay, ey Günəş! Olun çöllərdə pr..jektor, işığınız altında yerisin min traktor (*S.R.*). 11. Daban-dabana bizim hissələri izləyirdi, bəzi yerlərdə onun m..tosikletçiləri geri çəkilən bölmələrimizin arasına soxula bilmişdi (*M.M.*).

II

Məşriqi yaxşı tanıyandan sonra şəhər, icraiyyə komitəsi sədrinin yanına göndərdilər (*M.C.*). 2. Bakı mily..nerlərindən ricada bulunmaq qüruruna toxunurdu, evlərindən də ki, heç bir şey gözləyə bilməzdi (*Y.Ç.V.*). 3. Stansiyaya fateh kimi təngnəfəs daxil olan par..vozun qışqırığı Nabat xanımı səksəndirdi (*B.B.*). 4. P..dpolkovnik də, mayor da, bu kiçik zabitlər də hər dəqiqə nəsə gözləyir, nədənsə eh-

tiyat edirdilər (*Əf.*). 5. Nemətin sabah istirahətini qulluqçu pozdu: qapını taqqıldadıb, sam..varla içəri girdi, qulluqçu çayı dəmlədi (*Y.V.Ç.*). 6. Öz fikirlərini mənim beynimə mıxlayır və elə bir sürətlə söyləyir ki, mən bir sten..qraf kimi yazmaq üçün belə vaxt tapmıram (*C.C.*). 7. K..nserv qutusunun içi papiros külü ilə dolu idi (*X.C.*). 8. Qurbağanın qanını mikr..skopdan keçirtdim (*C.C.*). 9. M..torun uğultusu çöllərə düşmüşdü (*X.H.*). 10. Qəbuldan sonra Firuzə kabinetini nizama salırdı və lab..ratoriyada qan analizi üzərində çalışırdı (*C.C.*). 11. ..rkestrin gurultusundan adamın qulağı partlayırdı (*C.Q.*).

III

1. Vert..lyot getdikcə aşağı enirdi (*B.V.*). 2. Yaşar bizə dedi ki, pr..yekti yandırmışdır (*C.C.*). 3. Teatrda paltarasan arvadın ərizəsi, yerli k..mitənin qərarı p..rtfelindədir (*B.B.*). 4. Bir kranı və ya vinti burmaqla kompressorların və ya m..torların işini nizama salırlar (*C.C.*). 5. Madam ki, k..missiyada bu əsərlər birinciliyi qazanmışdır, onda bu əsərlər geniş kütlələr arasında müzakirəyə qoyulmalıdır (*C.C.*). 6. Bu gün Aslan konservatoriyada çıxış edəcək (*C.C.*). 7. Onlar küçəyə çıxanda müəllim iki fars sərbazlarının qabağında qolubağlı aparılan tanış dem..kratları gördü (*İ.Ə.*). 8. Mən m..ntajın gecikdirilməsini, spiral boruların olmadığını bəhanə gətirdim (*İ.Q.*). 9. Oğlan ona cavab verməyərək, sabah k..nservatoriyada dərsi olub-olmadığını soruşdu (*İ.Ə.*). 10. ..perator otağına qayıtdı, yeşiyin üstündə qoyduğu m..nometri səliqə ilə dəmir divara quraşdırdı, işini qurtardıqdan sonra evə yollandı (*İ.Q.*). 11. Əvvəllər tələbəlik illəri, fizika lab..ratoriyalarında apardığı bitmək-tükənmək bilməyən təcrübələr, sonra Moskva, Leninqrad kimi böyük şəhərlərə olan elmi ezamiyyətlər (*İ.Ə.*).

**§ 185.** Aşağıdakı sözlərin hər birinə dair bir cümlə yazın.

I. Avtomat, velosiped laborant, poeziya, problem, solist.

II. Biologiya, ensiklopediya, kombinat, poema, protokol, proqram.

III. Obyekt, poçtalyon, samovar, Lomonosov, konsert, konfrans.

**§ 186.** Ədəbi tələffüzdə <a> kimi deyilib, "o" ilə yazılan 15 söz yazın.

**§ 187.** Aşağıdakı sözlərin hər birinə aid üç cümlə yazın.

Alüminium, bülleten, büro, jüri, uvertüra.

**§ 188**. Verilmiş xüsusi adları işlətməklə cümlələr qurun.

Jül Vern, Viktor Hüqo, Anri Barbüs, Lüksemburq

**§ 189.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın, həmin sözlərdə saitlərin yazılış qaydalarını şifahi izah edin.

I

1. Ulduz başının hərəkəti ilə onun su..lını təsdiq elədi (*Ə.M.*). 2. O, ma..zerini dizinin üstə çəkib, dirsəyini masaya dayamışdı (*M.H.*).

3. Nə ölüm xofudur qəlbində yatan,
Nə şəhvət qurdudur səni oyadan!
Mənim qəhrəmanım seçilsin gərək
Həm Kle..patradan, həm Ofeliyadan! (*M.M.*)

4. Əzra..l kimi hansının sinəsinə çökdü, canını o saat aldı (*Ə.Ə.*). 5. Partizanlar qarşıdakı dərəyə çatmamış eskadron rə..si onların üstünü aldı (*M.H.*). 6. Bu halda yuxarı başda oturan iri gövdəli bir adam onu içəri dəvət etdi və sərxoşlara məxsus bir la..balılıklə əlini Nemətin çiyninə qoyub, onu dinlədi (*Y.V.Ç.*). 7. Bir neçə dəfə hissə komandirinə müraciət etmişdi ki, cəbhəyə getməyə icazə alsın (*Ə.Ə.*). 8. Şa..r oğlan Santelə lirik bir rub..i həsr etmişdi (*M.H.*). 9. Hər vaxt, hər cür şəra..tdə Yusifdən yalnız gümrahlıq, həyat eşqi, qorxusuzluq duyğusu alırdıq (B.B.) 10. Təbiidir ki, zəhmətimizə müqabil mü..yyən faiz alacaqsınız (*Y.V.Ç.*).

II

1. Gündüzün şiddətli top atışmasından sonra elə bil bütün təbi..tdəki canlılar yorğun düşüb yatırdı (*M.H.*). 2. Onlar düşmənin gülləsi altında da..mi dost olacaqları haqqında əhd etmişdilər (*Ə.Ə.*) 3. Hər il mayın 30-da böyük Azərbaycan satiriki Mirzə Ələkbər Sabirin anadan olduğu gündə ş..irin xatirəsinə həsr olunmuş po..ziya günü keçiriləcəkdir (*"Ə. və İ."*). 4. Birdən Yusif qulağımızda həmişəlik qalan gur səsi ilə hamımıza müraci..t elədi (*B.B.*). 5. Əzəmətli, yaraşıqlı, hərtərəfli şü..r və şəkillə bəzənmiş böyük salonda kimlər yox idi! (*M.C.*) 6. Xalqlara sülh və sə..dət gərəkdir (*Cə.M.*). 7. Sakitcə evdə rolunu öyrənməkdə ona heç bir man..çilik yox idi (*Ə.Ə.*). 8. Bir mü..llimin müdai..ə etməsinə baxmayaraq, institutdan onun çıxarılmaq söhbəti var idi (*Ə.Ə.*). 9. Mü..sir elm insanın beyin qabığının quruluş və vəzifəsini tədqiq edərək onun çox mürəkkəb mexanizmə malik olmasını sübut etmişdir (*"E. və H."*). 10. [Mirzə Camal]: Bizim t..atrımızın bir yolu var, yoldaş Gülsabah, o yolnan da gedir (*C.C.*).

III

1. Həyatda da..ma şa..ranəlik axtaran bir gənc onun cavabını verdi (*M.H.*). 2. Mən mü..sir zamanda səsləşən adlar fikirləşirdim (*B.B.*). 3. Bu sözlər sanki Qasımın ürəyindəki bütün su..llara aydın bir cavab idi (*M.C.*). 4. O, qoltuq cibindən səliqə ilə şəffaf, qırmızı sellül..zə bükülmüş bir şey çıxartdı, stolun üstünə qoyub sol əli ilə ehmalca örtdü (*Cə.M.*). 5. Bu kitabın mü..llifi, bu məktəbin m..əllimi uşaq olmuşdur (*Cə.M.*). 6. Beş başlıq a..lədə yalnız üçüncü sinifdə oxuyan on yaşlı qız, özü demişkən havayı yeyən idi (*Ə.Ə.*). 7. Te..trda çıxışı, ya da başqa bir işi olmayanda, evdə oturub, dayısı uşaqları ilə şirin vaxt keçirirdi (*Ə.Ə.*). 8. Aşiqəm insana və təbi..tə, Əlim qələm tutub yazandan bəri (*S.V.*). 9. Üzü sakit idi, gözlərində mühaf bir hüzn var idi, birdən xəfif bir təbəssüm, üzünə yayıldı: – Deyirlər, siz şa..rsiniz, eləmi? – dedi (*Y.V.Ç.*). 10. Məşədi Məmmədvəli də qızının naxoşluğunu səhv bilib ona əlindən gələn mü..licəni edirdi (*Ə.H.*).

**§ 190.** Sözlərin yazılışına xüsusi fikir verin, bunları sait qoşalığına görə qruplaşdırıb yazın.

***Nümunə:***

<Aİ> sait qoşalığı olan sözləri; məsələn: sait, nail..

Aid, ailə, aul, bais, bəraət, biar, vaqiə, vəliəhd, vəsait, qaib, qail, qaim, qənaət, qiraət, daim, daimi, daima, dair, dairə, əzrail, əcaib, zaid, zail, zəif, ianət, iaşə, ibtidai, iddia, istiarə, ictimai, itaət, kainat, mail, mais, məişət, məlaikə, məcmuə, müavin, müayinə, müalicə, müasir, müdafiə, müddəa, laübalı, maneə, müəllim, müəmma, müəssisə, müdafiə, müraciət, mütaliə, müəllif, rəis, rəiyyət, riayət,

sair, sait, sairə, sual, səadət, taun, təbiət, təqaüd, caiz, şair, şərait, şəriət, şiə, şüar, şüur, şüa, şücaət, faiz, fəal, fəaliyyət, fədai, xain, həmail, faciə, rübai.

**§ 191.** 189 çalışmadan ədəbi tələffüzdə <j> səsinin artırıldığı sözləri seçib yazın.

***Nümunə:***

| *Yazılır:* | *Deyilir:* |
| --- | --- |
| təbiət | təbiyət |
| bais | bayis... |

**§ 192.** Cümlələri diktə ilə yazın və yazılışı orijinalla yoxlayın.

1. O, bədbəxt atanı səadət kimi bürüməyə gəlir (*M.C.*). 2. Qoz ağaclarındakı cırcıramaları səsindən camaat təngə gəldiyi halda mən bu qeyri-ahəngdar sədalara saatlarla qulaq asır, ürək döyüntümü də bunlara uyğunlaşdırıb işləyir, gəzir, mütaliə eləyirdim (*Ə.V.*). 3. Belə bir sualı ömrümdə mənə heç kəs verməmişdi və heç vaxt cavab düşünməmişdim (*B.B.*). 4. Fikrində ləbbeyk, ürəyində dərd, dilində dua, gözlərində yaş olan qoca elə xəyala qapılmışdı ki, kənardan baxan onun vurulduğunu, həyatını itirdiyini yəqin edirdi (*M.C.*). 5. Pillələri enib, dairəvi vestibüldə geyinirdi ki, yuxarıdan yaşlı bir qadının sürətlə aşağı endiyini gördü (*Q.İ.*). 6. Uzaqda qalmış bu ailəni kütləyə və hazırkı həyata yaxınlaşdırmaq istədi. (*Y.V.Ç.*). 7. Həyat sadəliyi tələb edir, vaxt yoxdur, təyyarə və radio dövrü hissi də məhdud dairəyə salmaq istəyir (*Y.V.Ç.*). 8. Kiçik pəncərələrdən içəriyə batan payız günəşinin şüaları yayılmışdı (*Q.İ.*). 9. Xanımların qonşu otaqda geyinmələrindən istifadə edərək,

Qurbanlı toz basmış pianonun üzərində qoyulmuş köhnə çərçivələrə nəzər yetirdi – zədagənə məxsus əcdadın rəsmləri idi (*Y.V.Ç.*). 10. Balaca respublikanın adamlarına fərdi yanaşmasan, xəstənin psixolojisini, orqanizmini və bir sıra həyat-məişət xüsusiyyətlərini hesaba almasan, müalicə çətin başa gələr (*B.B.*). 11. Ruhnəvaz gözəl deyil idi, nəşəli təbiətdən məhrumdu və özünə məxsus bir inadı var idi ki, gəncləri qorxudurdu. (*Y.V.Ç.*). 12. Əgər zərbələri zəif vursanız, sizə şiddətli cəza veriləcəkdir (*B.B.*). 13. Bir ildən bəri onu görməyi Qurbanlıya Ruhnəvaz gülünc və bəlkə bir az da laübalı göründü (*Y.V.Ç.*). 14. Əvvəlcə camaatın uğultusu onun nitqini batırdı, rəis əllərini qaldırıb dalğanı sakitləşdirdi (*B.B.*). 15. "Nədən?" – deyə öz-özünə sual verdi: "Nədən vaxtilə bu qədər yaxın gələn bir səadəti əldən qaçırdım?" – deyə düşünürdü və ağır hisslər onu bürüdü. (*Y.V.Ç.*). 16. Müayinə üçün çırmaladığı qollarını yanlarına endirdi (*B.B.*). 17. Xəyalı küsdürür bu kainatdan, bu aydın gecədən, yerdən, həyatdan (*S.V.*). 18. Şair mən deyiləm, xalqımdır, onun kamala dolmamış katibiyəm mən (*B.V.*). 19. Siz də mənimlə bahəm bu üç il qanlı toqquşma, vuruşma içində min dürlü əziyyəti, məşəqqəti çəkdinizsə də, axırda məramınıza nail oldunuz (*S.S.A.*). 20. Gənc müəllif çox yaxşı dərk etmişdi ki, yeni şəraitdə "dədə baba yolu" əhvali-ruhiyyəsi, yeniliyə hər nə qədər inadkar müqavimət, göstərsə də, son nəticədə gülünc şəklə düşür (*M.C.*).

**§ 193.** Aşağıdakı sözlərin yazılışına fikir verin və hər birinə aid iki cümlə yazın.

Layiq, müqayisə, beyin, biyar, nümayiş, mülayim, asayiş, sitayiş, şayiə, şayəstə, təzyiq, subyekt, obyekt, ideya, meyit, abituriyent.

**§ 194.** Sözlərin yazılışına fikir verin, onları sait qoşalığına görə qruplaşdırıb yazın.

***Nümunə:***

**<İA>** sait qoşalığı: *abreviatur, aviator, artezian...*

Aerovağzal, aeroklub, aeropoçt, aviapoçt, akvarium, aksiom, aktual, alüminium, aorist, artezian, ateizm, arxaik, ateist, benuar, burjua, valerian, variant, diabet, diaqnoz, dioqnost, diaqonal, diaqram, diakritik, entuziazm, dialekt, dialektika, dialoq, diametr, diapazon, diafraqma, duel, duet, embrion, ideal, ideoqram, diafraqma, eqoizm, ideoloq, idiom, idiomatik, illüzionizm, imperial, imperialist, ionizasiya, ixtiol, kakao, kalsium, karaim, kardioqram, kiosk, kodein, konsilium, genealogiya, geodeziya, geoloq, laureat, linoleum, maqnezium, maestro, mozaik, material, mauzer, medium, memuar, miniatür, miozit, okean, attraksion, pansion, patriarxal, meridian, pediatr, pioner, poeziya, poema, poetika, psixiatr, radiator, radio, radioaktiv, radioelement, radium, rasional, raund, real, realizm, rezervuar, sosialist, teorem, fauna, feodal, çempion, xristian, neologizm, ideal, semasioloq, biblioqraf, filial, biologiya, proletariat, professional, triod, reaktiv, diametr, union, fizioloq, repertuar, reaksiya, kauçuk, aleut, diafilm, paleoqraf, konqruent, xareoqraf, diapozitiv, spartakiada.

**§ 195.** 194-cü çalışmadakı sözləri diqqətlə oxuyun, tələffüzündə <y> səsi işlənənləri aşağıdakı kimi seçib yazın.

| *Yazılır:* | *Deyilir:* |
|---|---|
| Dialekt | diyalekt |
| Radio | radiyo. |

**§ 196.** Cümlələri diktə ilə yazın və yazınızı orijinalla yoxlayın.

1. Bu dövr elmdə matriarxat adlanır (*"Azərb. tarixi"*). 2. Paleoliti yeni daş dövrü – neolit əvəz etdi (*"Azərb. tarixi"*). 3. Mis məmulatının meydana çıxdığı dövr elmdə mis-daş dövrü – eneolit və ya mis dövrü adı ilə məlumdur (*"Azərb. tarixi"*). 4. Geniş bir auditoriya. Rəyasət heyətində Belokurov, Qianya, Toğrul, başqa bir neçə injener və professor, Nüsrət və başqa bir neçə nəfər oturmuşdur (*C.C.*). 5. [Gülsabah]: Yarışın şərti: repertuarı və oyunları, keyfiyyətcə yaxşılaşdırmaqdır (*C.C.*). 6. İndi elmi-texniki tərəqqi reaktiv sürətlə gedir (*B.B.*). 7. Fikri-xəyalı gah otaqdakı adamın yanına uçur, gah da, böyük teatra qayıdır, ömrünün dünənki unudulmaz dəqiqələrini yadına salır, gördüklərini yenidən gözləri önündə canlandırırdı. (*M.M.*). 8. Bizi qorxudan, hədələyən az olmayıb, indi də okeanın o tayından, qərbdən hədələmək istəyirlər (*B.B.*). 9. Bir yanda kağıza mən söz yazıram. Bir yanda sevgilim piano çalır (*S.V.*). 10. [Xosməmməd]: Bilirsən, dialektika hərəkətdir, hərəkət də bir hələ belə yerimək, bir də atdanmaq, məsələn, inqilab (*C.C.*).

**§ 197.** Aşağıdakı sözlərin yazılışına fikir verin və bunların hər birinə aid bir cümlə yazın.

I

Əliaçıq, enliağız, ikiadlı, altıaylıq, ürəyiaçıq, ikiotaqlı, istiot, idarəolunan, qanüsti, dayıuşağı, yoluuzaq, ağızbaağız, qabırğaarası, biabır, əyriağız, əmioğlu, sualtı, qurdaoxşar, yeddiillik.

II

Əyriayaq, ikiağızlı, yeddiaylıq, gecəotu, piyəoxşar, çiləotu, ucuiti, könlüaçıq, üzüağ, üzüaşağı, meşəaltı, mərtəbəarası, başıaçıq, qanıacı, yarıaralı, aybaay, minaatan, suatan, talaotu, yarıoyuq.

III

Əliağır, zehniaçıq, ikiadamlıq, yeddiayaqlı, ikioxlu, sərçəotu, şüşəyəoxşar, yarıuçuq, gözüaçıq, üstüaçıq, mədəaltı, təpəarası, ağzıaçıq, yarıaçıq, ağzıəyri, alhaal, ikiəlli, suaxan, dalğayaoxşar, bərpaedici.

**§ 198.** Sözlərin yazılışına fikir verin, hərəsinə aid üç cümlə qurub yazın.

Ömür, səbir, izin, eyib, qisim, şirin, qəbir, qədir, sətir, sinif, fikir, cisim, şəkil, isim, ətir, zehin, əsil, misir, nəsil, ölüm, ağıl, abır.

**§ 199.** 198-ci çalışmadakı sözlərə saitlə başlanan şəkilçilər əlavə edib yazın.

**§ 200.** Nöqtələrin yerinə uyğun gələn hərfi yazın, sözü kök və şəkilçiyə ayırın.

***Nümunə:*** *B..kar* *bi-kar*

N..insaf, n..rahat, b..huş, n..haq, b..həya, b..mürüvvət.

**§ 201.** Sözlərin yazılışına fikir verin və onları əlifba sırası ilə yazın.

I

Sülh, bəhs, cəlb, ştrix, feyz, zövq, irq, gerb, bronx, vəzn, qulp, əmr, vəsf, kadr, məhz, ləğv, sarp, ritm, fel, qeyb, nəql, rels, qram, zebr, kəsb, heyf, şərf, qəhr, nəsr, spazm, hərf, şifr,

qəlb, qövs, zond, səmt, film, hüzn, cəzb, qəsr, dubl, eyş, əsr, jmıx, metr, plyaj, sübh, tort, xlor, nəşr, sərt.

II

Bərk, boks, bəxş, cild, ştamp, fəzl, zülm, irz, gips, blank, vaxt, qırx, əzm, vəhm, kvas, mədh, metr, seyf, rəhm, fəth, qövm, nəzm, reyd, qrim, zəbt, kəsr, hicr, şarj, qəbz, nəbz, sehr, həcm, şpris, qəsb, zərb, sərv, filtr, hüzr, cəbr, qətl, dəfn, elm, əxz, zalp, knyaz, rəmz, sxem, trest, turş, həcv, üzr.

III

Bətn, bəxt, cins, şrift, fəxr, zülf, kəşf, reys, vals, vəsf, qeyd, ərz, vzvod, klub, meyl, ləfz, seyr, rəsm, fakt, verst, nağd, rəqs, qrip, zəhm, keks, həzm, şeir, qeyz, nəfs, serb, hökm, şeyx, qərb, qəsd, zikr, sədr, fəhm, himn, şans, qütb, dərz, qəhr, dövr, janr, peyk, səhv, tembr, xətm, sırf, zərf, hüsn.

**§ 202.** Köçürün, fikir verin, lazım gələn yerdə müvafiq hərfi yazın, həmin sözlərdə saitlərin yazılış qaydalarını şərh edin.

Qis..m, bət..n, cin..s, ey..b, mey..l, hök..m, iz..n, fəh..m, seh..r, öm..r, hey..f, səm..t, səb..r, zül..m, əz..m, fəs..l, həc..m, hüz..r, cis..m, dəf..m, həc..v, ab..r, üz..r, ləğ..v, ş..rım, qüt..b, qey..z, zeh..n, qey..d, qəh..r.

**§ 203.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

Şrift, ansambl, verst, janr, kadr, şifr, film, metr, gips, şarj, şpris, blank, listr, spirt, şəxs

**§ 204.** Oxuyun, hər bir sözə aid iki cümlə yazın.

I. Kəsr, kəsir, əsr, əsir.
II. Həsr, həsir, nəfs, nəfis
III. Hərf, hərif, qəlb, qəlib.

**§ 205.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

1) səhih, təshih
2) tənbeh, təsbeh, səfeh, təşbeh

**§ 206.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın, həmin sözlərdə saitlərin yazılış qaydasını göstərin.

1. Adətən ağır müzakirələrdən sonra tənəffüsə çıxanda hamı özünü rahat, sərbəst duyar (*M.C.*). 2. Mən bir anda onu sakitləşdirə bildim ki, heç kəs məni mühaz..rəçiliyə təhrik etməmişdir, özüm istəmişəm (*B.B.)*. 3. Payız yağanlıqla girmişdi; güney – quzeylərdə, dərə və təpələrdə təzə ot köhnəyə qarışmışdı *(Ə.V.*). 4. Geniş həyətin qaranlıq zirzəm..lərində qarınca kimi əlləşib çırpınan adamları gözdən keçirib, çəkməçinin son sözlərini xatırladı (*Y.V.Ç.*). 5. Həmzə bəy sədatindən çaşmışdı; danışmaq istəyirdisə də, ürək döyünməsindən ar..m tapa bilmirdi. 6. Həyətdə böyük tut ağacları baş-başa vermişdi, kənarda ləbədə, keşniş, kəv..r və tərxun ləkləri gözə çarpırdı (*Y.V.Ç.*). 7. Rayona getmək münas..bəti ilə bir neçə qəzet onun şəklini çap elədi (*Ə.Ə.*). 8. Muzdurun Qumru ilə hələ arası çox soyuq idi, o, Qumrunu müdaf..ə etmədiyindən çox peşman idi (*Ə.Ə.*). 9. Pəncərələrin rəngarəng şüşələrindən içəri düşən işıq gözəl xalılara, ipək, püştə və müt..kkələrə xar..qələr bəxş etmişdi, lumu ağacları və çiçəklər bu mənzərəni bir qat daha süsləmişdi (*Y.V.Ç.*). 10. Bu yaxınlarda dairədə bir neçə nəfər beləläri məsuliyyətə alınmış, təxirsiz mühak..mə edilmişdir (*Ə.Ə.*).

**§ 207.** Köçürün, lazım gələn yerdə **"a"** hərfini əlavə edin.

Poeziy.., fabrik.., sitat.., sistem.., respublik.., sintaqm.., vitrin.., dram.., kayut.., idiom.., molekul.., kontor.., norm.., lent.., atmosfer.., anket.., aptek.., qəzet.., form.., plenat.., armatur.., fonem.., aksiom.., manevr..

**§ 208.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

I. Qrammatika, norma, taktika.
II. Poetika, palata, forma.
III. Fonetika, respublika, botanika.

**§ 209.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın.

1. Geniş, səliqəli otaqda üstü qırmızı mah..dla örtülü uzun bir stol qoyulmuş və hər iki tərəfinə yumşaq kreslolar düzülmüşdü (*Q.İ.*). 2. Surxay özünə doğru zillənmiş gözlərin ağır təzyiqinə dözə bilməyib, körpüdən xeyli aralı olan alma-arm..d bağına tərəf getdi (*M.H.*). 3. Məns..r portfelini açıb sab..nunu, diş pastasını ora qoydu (*H.A.*). 4. Otuz-qırx verst yol gəlmiş yoxsul kəndlilər min əziyyətlə topladıqları məhsulu gətirib, ac qurddan fərqli olmayan şəhər baqqallarına satacaq, əvəzində baha qiymətə qənd, çay, ayaqqabı, alabəzək arşın malı, baş yaylığı, köhnə soldat şineli, astarı üzünə çevrilmiş yun pencək, araba təkərini yağlamaq üçün maz..t alıb, yenə də yorğun-arğın kəndə qayıdacaqdılar (*M.H.*). 5. Yüksələn inqilab dalğalarını qabaqlamaq üçün salınan bu hündür, tikanlı sədləri uçuraraq, sarsılmaz, mətin bir qüvvə ilə irəliyə, insanları gözəl və parlaq bir gələcəyə aparıb çıxaran bir qalibiyyətə doğru dəmir addımlarla yüyürmək – Sərxanın dərin ümid,

coşqun bir sevinclə arz..ladığı, bütün qəlbi, bütün varlığı ilə can atdığı bir şey idi (*M.H.*). 6. Bəzən yağm..r məhsulun çürüməsinə səbəb ola bilir.

**§ 210.** Nöqtələrin yerinə müvafiq hərfi artırıb köçürün, həmin sözlərdə saitlərin yazılış qaydalarını izah edin.

1. Onlar Qumrunun toxuduğu x..lçanı da özləri ilə bərabər götürmüş, onu hər gün bir az daha yuxarı qaldırmış, nəhayət, x..lçanı gətirib dağlardakı yaylaqlarına çıxarmışdılar (*Ə.M.*). 2. Gülarə d..rvazanın qabağından keçərkən evi hey süzdü, gəncliyində keçirdiyi bütün günlər Musa ilə palaz yuduğu anlar birər dağ silsiləsi kimi gözünün qarşısından gəlib keçdi (*Ə.V.*). 3. Bu gün Elxan birinci dəfə idi ki, t..zə işə çıxmışdı. 4. O göz yaşı axıtmasından belə bir nəticə çıxarırdı ki, hələ məhəbbət qəzəbdən güclüdür, hələ ..mid yeri var (*O.Sal.*). 5. Rüstəm, bağışla, sən dünya görmüş adamsan, amma mən ..vamam, bir-iki dəfə kafeşantan sözü dedin, o nə deməkdir (*Ə.H.*). 6. Sən mənə ağ..l öyrətmə. 7. Belə bir qayd.. qoymaq istədi ki, qohumlarım bizə gəlməsin. 8. Burada hər şey vardı: yumşaq kürsülər, divan, gözəl Azərbaycan xal..ları (*O.Sal.*).

**§ 211.** Köçürün, eynicinsli qoşa saitli sözlərin altından xətt çəkin. Qoşa saitin nə məqsədlə işləndiyini izah edin.

l. Necə edək ki, bunu bu saat səhiyyə məntəqəsinə göndərək (*Ə.Ə.*). 2. Özünün, həm də müəllim yoldaşının maaşı, ali məktəbin aşağı kurslarında oxuyan oğlunun və qızının təqaüdləri də üst-üstə gələndə, elə məbləğ eləyirdi ki, bununla ailə dolanır, hələ necə deyərlər, dala da bir az saxlaya bilirdilər (*Ə.V.*). İradə mətbəə əməkçisi idi, təshihə baxar və arabir şeir də yazardı. (*Y.V.Ç.*). 4. O, diribaş, müd-

rik, həmişə şad qız indi qeyri-təbii bir halda ciddiləşmişdi, vaxtsız qocalmışdı. (*Y.V.Ç.*). 5. Kəndin camaatı hamısı maldarlıqla güzəran edir, heç kəs cürət edib kənara süd sata bilməzdi (*Ə.H.*). 6. Məlum bir həqiqətdir ki, bədii əsərdə insan mənəviyyatı, hiss və ehtirasları, düşüncəsi, fəlsəfəsi, bir sözlə, insan varlığı və onun ictimai mahiyyəti diqqət mərkəzində olmalıdır (*M.C.*).

**§ 212.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə yazın.

*I. Əmtəə, maarif.*
*II. Mətbəə, maaş.*
*III. Təbii, saat.*

**§ 213.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın.

1) B..həddin, Bəhr..m, Zeynal..bdin, İsr..fil, Məz..hir, Əfr..siyab, Süc..əddin, H..şım, Dilar.., Gülar.., S..yalı, S..fürə, Süd..bə, Suğr.., C..vahir, Türk..n, Əlikr..m, X..lid.

2) Al..şan, Mirvar.., Əbdülqas..m, Ş..xəli, Cəbray..l, Mikay..l, İsmay..l, Xal..q.

3) Ab..zər, Bəhr..z, Ərəst..n, Əflat..n, Mövl..d, M..rtuz, N..şirəvan, Sim..zər, X..rşid, Bəd..rə, Diləfr..z, Dilg..şə, Nil..fər, N..bar, N..ridə, Sən..bər, Dav..d

4) Qəhr..man, V..fadar, Veys..l, Əl..şrəf, Əhs..n, İsf..ndiyar, X..vər, Mehpar.., Nat..van, Mahit..ban, S..adət, S..birə, S..mayə, S..latın, Aliy.., Heyd..r, S..hhət.

5) Məhi..qa, Bilqey..s, Əl..yar, Əl..rza, Üzey..r, Fir..dun, F..ruzə, Bahad..r, Z..beydə, Ra..fə, Na..lə, Sə..d, Nə..b, Həmay..l, Teyy..bə, V..dadi.

6) F..vzi, M..hsün, C..vdət, Əl..vsət, Məs..mə

7) M..mtaz, M..qbil, M..seyib, N..hbala, S..bhan, Dilr..ba, Z..leyxa, R..babə, Hök..mə, Ş..kufə, S..rəyya, S..riyyə, M..nəvər.

8) T..yyub, Hüs..yn, N..vrəstə, K..bra, Yem..n, Məry..m, R..qiyyə.

**§ 214.** Nöqtələrin yerinə müvafiq hərfi yazıb köçürün.

1. Z..leyxa böyüdükcə gözəlləşirdi; yanaqlarında olan qızartı, səhər vaxtı gün çıxmamış şərqdə göy üzünü bürüyən zərif qızartıdan daha gözəl, daha xoş idi (*C.C.*). 2. Bu fikirlər sıra ilə B..şirin başından bulanlıq bir kölgə kimi keçirdi (*C.C.*). 3. Dilar.. atasının üzünü öpüb böyük bir sevinclə oynayırdı (*C.C.*). 4. S..rxanın ölümündən sonra, Şirəli özünün köməksiz və yalqız qaldığını çox tez hiss etdi (*M.H.*). 5. Bakıya yolu düşəndə İkr..m da, Gülşad da əmisinin evinə gəlir, bir-iki gün qalıb gedərdilər (*Ə.Ə.*). 6. Kim bilir, bu piano nə məclislər görmüş, nə z..yafət və dəbdəbələrin şahidi olmuş; dilləri üzərində nə incə, nə həssas barmaqlar oynamış. (*Y.V.Ç.*). 7. Qatar Biləcəridə dayananda Bahad..r tələsik platformaya düşdü (*Sab.Rəh.*). 8. Gülar.. yarımcan halda ayağa qalxdı, bir çox acı düşüncələrdən sonra zəif addımlarla evə gəlib əhvalatı bibisi Zeynəbə xəbər verdi (*Ə.V.*). 9. Diləfr..z, güzgünün qabağında dayanaraq Eyvazın monoloqunu əzbərləyir (*Ə.Q.*). 10. Ancaq T..rlan bir dəqiqədən sonra, ən çox inandığı, ən çox sevdiyi bir insan haqqında bu tezliklə pis fikrə gəlməsindən utandı (*M.H.*). 11. Bir-iki addım getdikdən sonra Sə..din qarşısında tamamilə başqa bir lövhə açıldı (*A.Ş.*). 12. Gənc Na..lin rəngi qaçmış, əl-ayağı titrəyirdi (*A.Ş.*). 13. O, sədrin yanında, iclasda M..rtuzun xəyanətini sübut edə bilmir (*M.C.*). 14. Mən Şəhl.. müəllimin qayğıkeşliyini dəfələrlə müşahidə etmişəm (*Ə.Q.*). 15. Əkbər R..stəmi neçə il idi, görməmişdi, ona görə gözünü onun üzündən çəkməyib danışığına qulaq asırdı (*Ə.H.*). 16. Mahir.. axşamüstü iməcilikdən evə qayıdanda anası onu çox gülərüzlə qarşıladı

(*M.H.*). 17. Bir tərəfinə odun, köhnə səbət və sandıqlar yığılmış pilləkəndən çıxdı, sol tərəfdəki açıq qapıdan böyük bir sal..na girdi. (*Y.V.Ç.*). 18. S..rxay adlı çoban hamıdan dilli və hamıdan çox şuluq salmaq istəyən partizanlardan biri idi (*M.H.*). 19. Məncə Mahm..d bəy sənə və bu dövlətə layiq oğlandır (*N.V.*). 20. Y..səmən, gör sənə nə kök qırqovul ovlamışam (*S.S.A.*).

**§ 215.** Aşağıdakı şəxs adlarının hər birinə aid iki cümlə yazın.

I. Alışan, Əflatun, Mövlud, Firidun, Gülarə, Sayalı, Safurə, Salatın, Səmayə, Nailə.
II. Bəhram, Vəfadar, Mümtaz, Fövzi, Firdovsi, Diləfruz, Sənubər, Firuzə, Natəvan, Surxay.
III. Heydər, Əliyar, Səid, Üzeyir, Züleyxa, Ümid, Zibeydə, Raifə, Barat, Hüseyn.

**§ 216.** Oxuyun, qara yığılmış hərflərə fikir verin, hər sözə aid bir cümlə yazın.

Lənkəran, Mərdəkan, Salyan, Mingəçevir, Naxçıvan, Pirşağı, Fatmayı, Nardaran, Nabran, Hacıkənd, Hövsan, Şüvəlan, Keşlə, Balakən, Asiya, Bankə, Fərqanə, Xarəzm, Suraxanı, İsfahan, Zuğulba, Maştağa, Alpout, Göyəzən, Xırdalan, Zaqatala, Culfa.

**§ 217.** Oxuyun, qara yazılmış hərflərə fikir verin, hər sözə aid iki cümlə yazın.

Xeyir, cərəyan, cərimə, şırım, aşırım, buraxılış, şayiə, zəyərək, məəttəl, ərkəsöyün, iştahagətirən, ağızabaxan, bimürüvət, muğayat.

**§ 218.** Aşağıdakı sözlərin hərəsinə aid bir cümlə yazın.

Təngnəfəs, tərk-silah, hərbçi, peşman, ağızdolusu, valideyn, əməkgün, əmsal, zəhmli, irqçi, qəsbkar hökmdar, litrlik, iybilmə, hümayün, öhdəlik, iməcilik, mehr-məhəbbət, həndbol, dəsgah, şairnüma, cənub-qərb, cənub-şərq, peyda, rüşeym, saturn, seysmik, segah, səlis, tacdar, üzrxahlıq, sintaqm, filtr, ultrabənövşəyi, ümumbakı, şəkk-şübhə, hüsn-camal, hüsnxət, funt-sterlinq.

**§ 219.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Aqil düşmənin piyad.. hissələri ilə qabaqlaşan ilk atlılardan idi (*M.C.*). 2. Lakin g..ri baxmaq, düşünmək vaxtı d..yildi (*M.C.*). 3. O, divlərdən, əjd..halardan, əcinnələrdən danışır, bütün hekayələrini ağlın, qorxmazlığın təntənəsi ilə qurtarırdı (*B.B.*). 4. Yusifin anası mənə qiyabi ana olmuşdu, o kağız da, s..vqat da göndərəndə ikimizi bir nəzərdə tuturdu (*B.B.*). 5. Gözlə görünməyən hansı bir tel isə adsız qəhr..manlara qoyulan heykəl və abidələri bir-birinə bağlayır (*C.Ə.*). 6. Evdə ona h..yan olacaq kimsə yox idi (*C.Ə.*). 7. Payız günəşinin işığından artıq pəncərə ş..şələrində zəif bir parıltı qalmışdı (*Ə.M.*). 8. Bir saatdan bəri s..kut içərisində oturmuş Ulduz söhbətə qarışdı (*Ə.M.*). 9. Atam x..dpəsənd bir məmur idi. (*Cə.M.*). 10. Bir dəfə mən qər..rgahda n..vbətçi ikən partizanlardan birini tutub gətirdilər (*Cə.M.*). 11. İndikilərdə insaf-mür..vət deyilən şey yoxdur. (*Ə.Ə.*). 12. Dar küçələrdən dikələn uca, sıx günbəzli daş binalar kişiyə bir q..la kimi gəldi (*M.C.*). 13. Məni müşay..ət eləyən qadın dərhal öz ..yağındakı qaloşları çıxarıb qarşımda cütlədi (*B.B.*). 14. Mən də söhbətimin bu hissəsini du..yla başlamaq istəyirəm: qoy mənim xalqımın könül musiqisi heç vaxt susmasın! 15. Bu səsdə

min illər boyu bu torpaq uğrunda qurban getmiş igidlərin ürək atəşini, elin böyük arzularını, bitib-tükənməyən bir s..adət, xoş gün axtarışını və qısa ömrün çarəsiz aqibətini duyuram! (*S.R.*). 16. Bu ucqarlara, dəmiryolundan, maşın yolundan çox k..narlara, meşələrin qoynuna ..şıq çəkənlər böyük rəhbərin x..tirini daha çox istəyirlər (*B.B.*). 17. Küçəyə çıxarkən d..nyada ondan xoşbəxt bir adam olmadığını hiss etdi (*Y.V.Ç.*). 18. Ulduz hər axşam müxtəlif təşb..hlər əsasında onun məzəli şəkillərini çəkərdi (*Ə.M.*). 19. Hələ yatmayıb uşaqların dəftərlərini təsh..hlə məşğul olan Sədəf, m..dhiş bir səs eşidib yerindən dik atıldı (*M.H.*). 20. Bir müddət də lal kimi bir-birimizin üzünə baxdıq, sonra Şəfiqə sıçrayıb, balkona çıxdı (*Y.V.Ç.*). 21. Şü..lar adamın bəbəyinə yeriyirdi, səs zə..fləyəndə ..şıqlar azalıb saralırdı.

**§ 220.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın.

1. Min cür şübhə ilə dolu olan bu s..kutun özünə görə m..dhiş və cürbəcür səsləri vardı (*Ə.Ə.*). 2. Onlar dünyaya bu sükutu yaraşdıra bilmir, hökmən burada bir iş var, deyə həy..canla düşünürdülər (*Ə.Ə.*). 3. Vıyhavıy gələn güllənin qabağında dayanaraq avtomatı üzünə alan bu v..himəli adamın hərəkəti və səsi təsirsiz qalmadı (*Ə.Ə.*) 4. Cəmil işə gedərkən, Tahirə yataqxan..da növbətçi olduğunu xat..rlatdı (*M.H.*). 5. Hər dəfə Bakıdan, anamdan məktub alanda sanki mənə d..v qüvvəsi verirdilər (*H.A.*). 6. Ulduz evə sarı y..nəlib, pillək..ndə oturdu (*Ə.M.*). 7. Qərənfil p..ncərənin şüşəsinə baxıb kəl..ğayısını düzəltdi və Səmayənin əvəzinə sönməyə başlayan sam..varı üfürməyə başladı (*Sab.Rəh.*). 8. O, başına gələnləri təmkinlə, sakit, bəzən lap pıçıltı ilə n..ql etdi (*Cə.M.*). 9. Mətbəxdə Tamaşa al..dəliklə Zərifəni dinləyərək, təkrar-təkrar ona eyni su..lı verib, eyni cavabı almağa başı elə qarışdı ki, oğlunun nə v..xt ..vdən çıxıb

g..tdiyini də bilmədi (Ə.Ə.). 10. Anasından pay ummaqla canlanan uzaq bir x..tirəni elə-belə n..ql etmək üçün yox, d..vaya gəldiyi bəlli olan hirsli qarını yumşaltmaq üçün o, bu söhbətinə d..vam etməyə məcbur idi (Ə.Ə.). 11. Sanki bu, qocanın müsibətlərindən xəbər tutub qəzəblənən, həm də him..yə qanadı açan bir pənahdır (*M.C.*). 12. Məni univers..tetdə, x..susən fak..ltəmizdə yaxşı natiqlərdən hesab edirdilər (*B.B.*). 13. Yavaş-yavaş xaraba Gilanın mövz..leylər məhəlləsinə yaxınlaşırıq. (*S.R.).* 14. Yüyəni əlimdən buraxılmış at özbaşına, Namazalının atının havasına yeriyirdi, həm də bu cığırlara bələd olduğuna görə rah..tca keçib gedirdi (*B.B.*). 15. Küləklər anb..an güclənir, qışın h..niri hər gün daha sürətlə yaxınlaşırdı (*B.B.*). 16. Əmrah, öz t..rlan atının yalından ik..əlli yapışaraq irəli çapır, dəstədən g..ri qalmırdı (*M.H.*). 17. Qoca min bir həvəslə yoluna ..şıq salan bir həqiqətə, ürəyinə daman bir n..cata doğru gedirdi (*M.C.*). 18. T..cir Azad tez-tez arvadı Mehrini götürüb, qayınatasıgilə oturmağa gedirdi (*Y.V.Ç.*). 19. Vert..lyot dənizin üzəri ilə uçurdu (*Q.İ.*). 20. Günorta idi, mü..zzin uca səslə əzan verirdi; Kərbəlayi Qurban Nənəxanım ilə süfrənin kənarında üzü qibləyə əyləşmişdilər (*Y.V.Ç.*).

**§ 221.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın.

1. Demə kənarda onlardan biri qısılıb leytenantı qar..vula götürübmüş (Ə.Ə.). 2. Dəstənin döyüşçüləri səhər tezdən, bizimkilər h..cuma başlayanda, gözlənilmədən almanlar üzərinə atılmalı, meşədən keçib düşm..nin at..ş n..qtələrini susdurmalı idilər (*M.H.*). 3. Sarı saçları burum-burum olub, x..lətin altından görünən tər..vətli, çəhray.. boyun-boğazına tökülmüşdü (Ə.Ə.). 4. Bu təbəssüm onun dodaqlarından başlayıb, qaşlarının d..vrəsi, gözləri, alnı dolusu, yayılırdı (*B.B.*). 5. Necə əmr etmişdi, elə də

k..mendant vzvodunu k..manda məntəqəsi yanında yerləşdirmişəm, sərəncamınızı gözləyirəm (*Ə.Ə.*). 6. Tanışlığımızın ilk günündən mən belə qən..ət hasil eləmişdim ki, b..şər ..vladının yenilməz düşməni olan ölümün özü də Yusifdən qorxur (*B.B.*). 7. Öl..m yağdıran atəş düşm..nin qabağını kəsmiş, onu irəli gəlməyə buraxmırdı (*Ə.Ə.*). 8. Kərim durub çırağı yandırır, qabqacağı dınqıldadır, onu bir n..v kiridirdi (*S.Rəh.*) 9. N..hayət, Qumr.. əyilib nənəsinin qolundan tutdu, ..sulluca onu ayağa qaldırdıqda, bu dəfə onlar artıq ..şıqlanmış cığırlarla təzədən yola düzəldilər (*Ə.M.*). 10. Şərqin ötgün xəyal.. ilə tarixi çərçivədən ayrılmış İskəndər də dirilik suyuna ums..naraq Şirvana gəlir və əlinə bir öl..balıq alaraq Gülüstani-İrəm bulaqlarını dolaşır (*Y.V.Ç.*). 11. İnsan məsk..nləri və qədim qəb..r..stanlıq yerlərində arx..-oloqlar keçi, qoyun və iribuynuzlu heyvanların sümüklərini tapmışlar (*"Azərb. tarixi"*). 12. Doğrusunu deyim ki, qeyri bir çar.. düşünə bilsəydim başımı aşağı salıb dinməzcə enərdim və özümü b..ruzə vermədən uzaqlaşardım (*B.B.*). 13. Qızlar Azadı çox istərdilər və hərəsi onun bir tərəfində oturub g..ləş üzlərini ondan çəkməzdilər (*Y.V.Ç.*). 14. Günlərimiz qanadı yolunmuş q..şa oxşayırdı; uçmaq istəyir, bacarmır, səkir gözü orada-burada qalırdı (*Ə.V.*). 15. İsti yay g..nlərindən biri idi, evin bürküsü məni boğduğundan durub küçəyə çıxdım (*Ə.B.H.*). 16. Sanki Gülzarın üzərində q..caman bir dağ varmış kimi, bir sözlə birdən uçulub, onu yüngülləşdirdi (*C.C.*). 17. Əsirlik, zülm və təcavüzlərin acısından odlu bir şik..yət aparırdı (*M.C.*). 18. Göy üzündə ala-seyrək buludların ətəkləri g..müşü rəngə çalırdı. (*Ə.V.*). 19. İnst..tutda onu saxlamaqla, özünüzü n..haq əziyyətə salmısınız (*Ə.Ə.*). 20. Üm..d və n..cat aləmindən buraya, kəs..lət və kəs..vətə düşdüyündən heyifsiləndi (*M.C.*).

**§ 222.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın.

Avant..ra, ady..tant, b..rokrat, man..faktura, val..ta, f..nikulyor, karb..rator, qarv..raçı, vel..r, vestib..l, j..ri, ill..-miniyor, manik..r, paraş..t, pedik..r, s..jet, uvert..ra, f..rer.

**§ 223.** Oxuyun, qara yığılmış hərflərə fikir verərək sözlərin hərəsinə aid bir cümlə yazın.

Abituriyent, abonement, abreviatura, aludə, azuqə, akkardeon, altıaylıq, asudə, anonim, antoqonist, apostrof, atmosfer, akrobat, aqronom, amortizasiya, avantürizm, al-əlvan, alimanə, acgöz

**§ 224.** Oxuyun, qara yığılmış hərflərə fikir verin, sözlərin hərəsinə aid bir cümlə qurub yazın.

Bədbəxt, bədxah, bədtər, bəxtəvər, bəxşiş, baməzə, bərəkallah, bəyanat, bəlğəm, bikar, binəva, boykot, broşüra, bacıoğlu, brezent, bünövrə, banderol, beşgüşə, başdansovdu, başdansovma.

**§ 225.** Aşağıdakı sözlərin hərəsinə aid bir cümlə qurub yazın. Qara yığılmış hərflərə fikir verin.

Vəliəhd, viran, variant, vücud, qanov, qarovul, qətran, qeybət, qeyrət, qəmküsar, qonorar, quzey, qumral, qırqovul, dibir, dünyəvi, düstur, ehsan, ədəbaz, əjdaha.

**§ 226.** Oxuyun, sözləri cümlədə işlədib qara yığılmış hərflərə xüsusi fikir verin.

Əyan, əkiz, əlvan, əmanət, əndazə, əcəba, Əfruz, zadəgan, ziyil, zəfəran, yadigar, yeşik, kirəkeş, kəhrəba, küdurət, linoleum, lovğa, məğmun, mərhəba.

**§ 227.** Qara yığılmış hərflərə xüsusi fikir verərək sözlərin hər birinə aid cümlə qurub yazın.

Mürəbbe, nehrə, nəbatat, naəlac, piyada, rüsvay, siyirmə, siyahı, siçovul, süst, tədavül, təcavüz, təfavüt, üləma, üfunət, füqəra, halqa, hökumət, fakültə.

**§ 228.** Mətni diktə ilə yazın, sonra yazınızı orijinalla yoxlayın.

Böyük sənətkarların yaradıcılığı, böyük sənət əsərləri daima insanların diqqətini cəlb edir, daima canlı fikirlər oyadır, əlbəttə, bu diqqət, bu maraq həmişə eyni səviyyədə olmur – bəzən soyuyub yavaşıyır, bəzən də şiddətlənir, qızışıb alovlanır. Bu da hər zamanın, hər dövrün ictimai mübarizələrinin xüsusiyyətlərindən, məndərəcəsindən, ideallarından asılıdır. Hər nəsil öz məqsədləri, ictimai meyilləri üçün keçmiş irsdə bir əsas, bir dayanacaq axtarır, bu irsin köməyi ilə daha iti, daha sürətli addımlarla irəliləməyə, arzu və istəklərinə çatmağa çalışır. Ancaq bir həqiqət də var ki, cari siyasi tələblər böyük sənət əsərlərində özünə, həmçinin bir şey tapmadıqda belə, onlara qarşı ümumi marağı heç bir zaman söndürə bilmir. Belə əsərlər insan ruhunun, insan psixologiyasının qatlarını qaldırdığı və daha dərin qatlarına təsir etdiyi üçün cari siyasi tələblərin hökmünə tabe deyildir. Üzeyir Hacıbəyovu biz məhz bu cür əsərlərin müəllifi kimi tanıyırıq: "Arşın mal alan", "Məşədi İbad", "Koroğlu" və başqa gözəl musiqi əsərləri zamanın daima axan, daima dəyişən cərəyanlarından asılı olmayaraq xalqın həmişə sevdiyi, ləzzət aldığı əsərlərdir. Onlar solmaz çiçək dəstələrini andırır.

Bəli, Üzeyiri geniş oxucu və tamaşaçılar belə tanıyır. Lakin oxuculara təqdim olunan bu əsər böyük bəstəkarı

onlara tamamilə başqa cəhətdən tanıdacaqdır. Oxucular Üzeyirin çox qüdrətli, çox gözəl və kamil bir publisist olduğunu, bir zaman günün ən cari siyasi tələblərinə cavab verən əsərlər yazdığını, eyni zamanda bu əsərlərdə nə isə əbədi, ölməz bir şeyin əks etdiyini görəcəklər.

Bəli, Üzeyir Hacıbəyov o cür xoşbəxt sənətkarlardan və ictimai xadimlərdəndir ki, zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyməkdədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və məndərəcə genişliyi, dərin mənası ilə bizi heyran buraxır. Bu zəngin mədəni irsin əhəmiyyətli bir hissəsini publisistika təşkil edir.

Məlumdur ki, publisistika bədii ədəbiyyatın ən aktual, ən canlı janrıdır. Zamanın, əsrin, xalq həyatının bugünkü, bu saatkı vəziyyətini əks etmək və irəli sürdüyü vacib suallara cavab vermək publisistikanın əsas vəzifəsidir.

Həm də o publisistik əsərlər əhəmiyyətli, qiymətli sayılır ki, onlar gündəlik mübarizələrin irəli sürdüyü məsələləri və həyatın canlı qaynaqlarında doğan böyük problemləri əks edir, çox vacib suallara cavab verir.

## SAMİTLƏRİN YAZILIŞI

**§ 229.** Köçürün, sözlərdəki nöqtələrin yerinə uyğun gələn hərfləri yazın.

1. Lakin elə bu zaman gözləmədiyi dəhşətli bir hadisə baş verdi: yaralansa da, ölməmiş üçüncü faşist soldatı əlində böyük bir ..ıçaq Aslangilə tərəf süründü. 2. Buğda ..içilir, dərz daşınır, xırman döyülürdü (C.Ə.). 3. Bu fikirlə də o, düşmənin nəzərini cəlb edərək ..ütün atəşi özünə sarı çevirsin deyə ayaq üstə qalxdı (Ə.Ə.). 4. Neçə gündən bəri ya-

ğan bahar yağışından doyunca içən yaş torpaq partlayışın güclü dalğasından ətrafa səpələnib, meşə ilə talanın sərhədində olan hündür şam ağaclarının gövdə və ..udaqlarına suvaşmışdı (*H.A.*). 5. Mansurun ..işirdiyi qutab Adilə çox ləzzətli gəlirdi (*S.Q.*). 6. Təkcə bu izahat Məmmədsadığa elə bir ..ütöv xəzinə bağışladı (B.B.). 7. Mənsur danışmağa ..öz tapmır, eyni zamanda Gülzar bir söz deməyincə sözünü kəsmək istəmirdi (*C.C.*). 8. Həmzənin ona ev xərcliyi üçün verdiyi puldan yüz manat ..üküb ayırdı ki, elə günü bu gün aparıb anaya göndərsin (*Ə.Q.*). 9. Kosaoğlu əlini belinə qoyub, həyətdə yanaşı ..itmiş iri meyvə ağaclarına, talvarın altındakı yük maşınına qürurla baxırdı (*İ.Ş.*). 10. O, ..ütpərəstliyin tarixi ilə çoxdan maraqlanırdı.

**§ 230.** Aşağıdakı sözlərin hərəsinə aid iki cümlə qurub yazın.

Bikə, Buta, biçin, bükmək, bıçaq, bütün, bütöv, bitmək, budaq, Bəhlul.

**§ 231.** Oxuyun, hər sözə aid üç cümlə yazın.

Pişik, pusqu, piti, piston, püstə, püxtə.

**§ 232.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Yol gəldikcə Ayaz ..ütün diqqətini cəmləyərək qarşıda ya quzu mələməsini eşitməyə, ya da at kişnəməsini eşitməyə çalışır (*S.Rəh.*). 2. Mən ollam bənövşə, boynu ..ükülü, Mənə boynu ..ükük yetim gətirmə (*M.H.*). 3. Bayram axşamı qapı ..usmaq, iünəlik saləb bəxt sınamaq qızların adəti idi (*İ.Ş.*). 4. Anam da onlara çörək-xörək ..işirən təyin edildi (*B.B.*). 5. Aslan ömründə heç ..işik görməmiş-

di, ona görə ..işiyi özünə oxşadıb, boyunun balacalığına təəccüb elədi (*A.S.*). 6. Dağ seliyəm ..udaq-..udaq qollarım var (*B.V.*). 7. Kişi qayıdıb ..şinə başladı (*İ.Ş.*). 8. O, yanağı lalə, dodağı ..üstə, Olsun gözü yolda, qulağı səsdə (*T.B.*). 9. Zəhməti hər şeydən o tutub uca, Cərrah ..ıçağını tutandan bəri (*B.V.*). 10. Keçən il əkdiyimiz ağacların ..itib boy atdığını gördükdə hamımız hədsiz dərəcədə sevindik.

**§ 233**. Oxuyun, hər sözə aid üç cümlə qurub yazın. Həmin sözlərdə **<d>** samitinin yazılış qaydasını aydınlaşdırın.

Dükan, diksinmək, diş, dik, dişəmək, dişi, dişləmək, düşbərə, düşük, düşünmək, düşürmək.

**§ 234.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Dodaqları çox incədir, ..işləri var mərcan kimi (*S.V.*). 2. Cəsarətli, mərd tərpənmək, ..üşmənin üzünə ..ik baxmaq, onun çoxdankı vərdişi idi. 3. Yenə ..ükanda alverlə məşğul olduğum vaxt sövdəgər gəlib gülə-gülə salam verdi (*Ə.V.*). 4. Səlimin gözləri qıyılıb sahil boyunda görünən yarğanın başında əsən tək ilğım koluna tərəf ..ikildi (*S.Rəh.*). 5. Dünən zavodda baş verən qiyam, sahibkar ..ükanının darmadağın edilməsi, müdirin artırmasındakı ..onqal onun gözləri qarşısında canlandı. 6. Dar küçələrdən ..ikələn uca, sıx günbəzli daş binalar kişiyə bir qala kimi gəldi (*M.C.*). 7. Şayiə yayanların içində Vəligilin ..utulduğunu deyənlər də vardı. 8. Qarın üstü ilə sürünən ağ ləkələr ..ikanlı məftilin yanında dayandı (*İ.Ş.*). 9. Bəs məktəb? Tayımdan, ..uşumdan gerimi qalım? (*S.V.*). 10. ..içik qızı Dilarə üçün yemişdən-zaddan almaq istəyirdi; paltarı da yox idi, amma hələ pulu çatmırdı (*C.C.*).

**§ 235.** Köçürün, nöqtələrin yerinə lazım gələn hərfi yazın.

1. Hərdən qubernator dönüb, qələbəyindən və ya qeyri-polis məmurlarından bir şey sual etdikdə Zeynal bəy dilənçi və ya ha..ballara bir əmr vermək bəhanəsilə məmurlardan aralanıb ayaq saxlayırdı (*Y.V.Ç.*). 2. Kişinin səsinə adamlar ayağa qalxdılar, mi..bərdə əyləşən bir əmmaməlinin işarəsi ilə xidmətçilər Məşriqi hop götürüb küçəyə atdılar (*M.C.*). 3. Qəlyanını çıxarıb tə..bəki kisəsindən doldurmağa başladı (*M.H.*). 4. Günorta yeməyinin ikincisi dolma olacağı xəbərini alan Gülara səhər saat onda əlində zə..bil tənək yarpağı yığmaq üçün bağa yönəldi (*Ə.V.*). 5. Ətir qoxusu verən taxıl sü..bülləri, göyün dərin boşluğundan qurğuşun kimi əriyib tökülən bahar yağışının ağır, iri damlaları altında enib qalxırdı (*M.H.*). 6. Dar küçələrdən dikələn uca, sıx gü..bəzli daş binalar kişiyə bir qala kimi gəldi (*M.C.*). 7. Eləmədim tə..bəllik, yumruğu saldım baş soğanın başına (*B.B.*). 8. Mən gül-çiçək toxumu istəyirəm dayı! Nərgiz, bənövşə, za..baq, ətirşah.. (*B.B.*). 9. Arxeoloji tapıntıları gəlir mə..bəyinə, möhtəkirlik yolu ilə qazanc əldə etmək vasitələrinə çevirirlər (*B.B.*). 10. Ancaq bir dəfə Məmməd, şə..bə günü Şahnazı əlində zə..bil iki qızla piyada getdiyini gördü (*İ.Ş.*).

**§ 236.** Köçürün, nöqtələrin yerinə buraxılmış hərfi yazın.

1. Çox bəlalar çəkmiş ulu bir dağam.
Heç zaman başım..an çən əs..ik olmur.
Bir dünyam var, həm günəşli, həm aylı
Bürünüb zülmətə tək, əs..ik olmur (*U.Sönməz*).

2. Aqil tüfəngini yavaşca budaqdan asdı, bir əli ilə ağacdan yapışdı, o biri əlindəki qu..baranı faşist topasına

tulladı (*M.C.*). 3. Əliş yaş pa..bıqla onun üz-gözündən qurumuş qanı silib təmizləyirdi (*Ə.Ə.*). 4. Allaha, peyğə..bərə inananlar deyirdilər ki, dövlətlilik də, kasıbçılıq da Allahdandır (*Ə.Ə.*). 5. Onlar tra..vayın dayanacağına çatanda, növbə gözləyən adamların sayı birdən-birə artdı (*M.H.*). 6. Döyüşçülər qəbrin torpağını örtmək üçün meşənin içərisindən cu..buz kəsib gətirməyə getdilər (*H.A.*). 7. Məktubu yazıb qurtarandan sonra la..panı söndürdüm (*Ə.Q.*). 8. Spartakiadanın proqramına ilk dəfə olaraq sa..bo güləşi daxil edilmişdir. 9. Ko..bayn iki dəfə zəmini axıradək gedib-qayıtdı (*X.H.*). 10. Ko..binezon geymiş qızlarla dolu olan bir yük maşını arabanı da, traktoru da ötürdü (*İ.Q.*).

**§ 237.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

O, əlindəki kartof, soğan, pomidor, badımcan dolu zə..bili yerə qoyub şəhadət barmağının işərasi ilə məni çağırdı (*S.Q.*). 2. Siz ko..pliment deməkdə həddindən artıq səxavətlisiniz (*İ.Ə.*). 3. Bəndalı qalın qaşlarını çatıb, uzun saplı qəlyanını göy sətin kisədəki tə..bəki ilə doldurdu (*B.B.*). 4. O vaxt mənim alnım lap açıq olar ki, həmin qozalardan çıxan pa..bığı aparıb atam icma varının üstünə (*B.B.*). 5. Qu..baranı atmaq istəyəndə sanki, dünya onun başına dolandı (*Ə.Ə.*). 6. Həmin xalxal örtüklü stolun üstünə bir qab ət xörəyi, az-az gördüyüm gö..bə çörək, dolu çaydan, stəkan, evimizdə bütün ailəyə çatası qənd qoydu (*B.B.*). 7. Mənim mənzilimi bu şəhərdə ministrdən tutmuş ha..balacan hamı tanıyır (*M.C.*). 8. Yarpızlar, yemliklər, za..baqlar, nərgizlər, zümrüd gözlərini açıb bahar fəslini salamlayırlar (*M.C.*). 9. Bax, bu Xəzərdəki neft mə..bələri gərək yaxın bir zamanda ölkəmizin xidmətinə verilsin (*M.H.*). 10. Çisələmə yağışdan sonra bütün ağaclar, çöllər, sü..bül zəmiləri par-par parıldayırdı (*İ.Ş.*). 11. Tra..vayların

ardı kəsilmirdi, zəng səsləri küçəni doldurmuşdu (*C.C.*). 12. İmran ko..bayncıların qaladığı ocağın qırağında oturub, onlarla çörək yeyir, gecə yarıya qədər söhbət etdikdən sonra, palaz üstündə şirin yuxuya gedirdi (*İ.Ş.*).

**§ 238.** Verilmiş sözləri **<mb>** və **<nb>** samit qoşalığına görə qruplaşdırıb yazın.

Anbar, hambal, pambıq, domba, omba, cumbuz, kömbə, zanbaq, zənbil, zənbur, sanbal, minbər, gombul, dumbul, dümbək, sünbül, sünbə, tənbəl, tənbəki, günbəz, qumbara, müşəmbə, peyğəmbər, ənbər, mənbə, şənbə, tənbeh, Sumbat, Qənbər, Qambay, İstanbul, Cambul, qənbər.

**§ 239.** Aşağıdakı sözlərdə samit qoşalığına fikir verin, hər sözə dair cümlə qurub yazın.

**<mb>**

1. Kombinat, kombinezon, membran, bomba, plomblu, rombvarı, sambo, embrion, tembr, emblem, plombir, ambulatoriya, ansambl, kombayn, Tambov.

**<mp>**

2. Şampun, şimpanze, ştamp, kompliment, imperial, imperator, temperatur, temp, tramplin, kompas, komplekst, amplituda, ampula, lampa.

**<mv>**

3. Tramvay, simvol.

**<mf>**

4. Simfoniya, amfibiya, amfiteatr, pamflet, emfatik, Zemfira.

**§ 240.** Aşağıdakı sözlərin hər birinə aid üç cümlə qurub yazın.

Aqronom, aqrotexnik, əqrəb, monqol, manqal, orqan, pedaqoq, pedaqoji, təşviqat.

**§ 241.** Verilmiş sözlərin hər birinə aid üç cümlə qurub yazın. **<ğ>** samitinin yazılış qaydasını aydınlaşdırın.

Vağzal, mağaza, işğal, məşğul, məşğələ, rəğbət, təbliğat.

**§ 242.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

Av..ust, qada..an, a..ibət, i..tişaş, ma..nit, mi..dar, ta..ət, maz..al, le..al, uy..un, do..matik, mə..rur, va..on, kala..ayı, a..nostik, so..an.

**§ 243.** Nöqtələrin yerinə müvafiq hərfləri yazıb köçürün.

1. Bilirəm onu yoxsullu.. vadar edib, o, məni səmimi olaraq ürəkdən sevirdi (*C.C.*). 2. O, dönüb getmək istədi, ancaq bir az da dayanıb, məş..ul olan müsahibinin başının ayılmasını gözlədi (*Q.İ.*). 3. Sənaye malının yaxşısı, keyfiyyətlisi, əslində təbli..atçı, reklamçı gözləmədən özü tez yayılır, tez şöhrət tapır *(M.C.*). 4. Həsrətin arvadı Hicranın analıq qay..ısı necə də tezliklə özünü göstərmişdi (*B.B.*). 5. Tapdıq maralın içini təmizlədikdən sonra ba..ırsaqları bir neçə yerə bölüb itlərin qabağına atdı (*İ.Ş.*). 6. O, ürəyində Tahirin bu mə..rurluğunu bəyənir, onunla öz gəncliyi arasında qəribə bir uy..unluq görürdü (*M.H.*). 7. Gördüm ki, yox, qılçamı sürüyüb aparmağa ta..ətim qalmayıb (*M.H.*). 8. Av..ust ayında şəhər kənarına, Ermənistana gedən yolun üstündəki Qarabulaq tərəfə ayaq açdı (*İ.Ş.*). 9. Qüdrət, gündüz ma..azadan aldığı tufliləri pianonun üstünə qoyub Laləyə cavab vermədən anası yatan otağa keçdi (*M.H.*). 10. Onlar va..zala qədər piyada getmişdilər *(İ.Ş.*). 11. Onlar teatrdan çıxanda saatın ə..rəbləri on birin yarısını göstərirdi (*M.H.*). 12. Ümumiyyətlə, Nəsib dayı təbliğat və təşvi..atın

gücünə inanırdı (*İ.Ş.*). 13. Mu..am dünyasından həvəskar kimi danışmaq olmaz (S.Rüstəmxanli). 14. Kazım işləri pis düzəltməmişdi: qabaq cərgələrdə oturanlar ona rə...bət bəsləyənlər idi (*İ.Ş.*). 15. Xeyr, burada papiros çəkmək qada..an edilibdir (*M.H.*).

**§ 244.** Verilmiş sözlərin hər birinə aid iki cümlə qurub yazın.

I. layihə, çarpaz, külfət, irəli.
II. Torpaq, çılpaq, kirpik, əskik.
III. Məşhur, öskürmək, yanlış, dırmıq.

**§ 245.** Oxuyun, yazılışına fikir verib, hərəsinə aid iki cümlə qurub yazın.

Babal, bibər, bibi, qabar, qabırğa, qibləgah, daban, dibir, yaba, yabanı, yelbə, gəbə, sabırğa, xəlbir, şabaş.

**§ 246.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

A..tobus, as..alt, bəxtə..ər, Kəş.., a..tomobil, məx..i, a..toreferat, şi..ahi, a..toportret, şə..qət, a..tomatika, təh..il, təş..iş.

**§ 247.** Aşağıdakı sözlərin hər birinə dair cümlə qurub yazın.

Cild, cəhd, bənd, bund, and, ard, nərd, qeyd, qənd, qəsd, dörd, zond, lord, tünd, mərd, nağd, reyd, stend, fənd, fond, şad, bud, bəd, qurd, dərd, zad, yad, yod, yurd, kənd, kod, kükürd, muzd, pud, süd, fərd, cəld, cod, ord.

**§ 248.** Aşağıdakı sözləri əlifba sırası ilə köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın. Samitlərin yazılışına aid bu qaydanı izah edin.

I

Fəsa.., həpən.., şahi.., xudavən.., söyü.., rekor.., rafına.., milyar.., comər.., avan.., marmela.., krossvor.., igi.., bülən.., qasi.., ira.., mədə.., isna.., axun.., bida.., irşa.., armu.., sapan..

II

Fərya.., həsə.., hibri.., şüyü.., sulfı.., seyi.., peyvən.., oksi.., mücərrə.., müri.., avanqar.., aza.., cəsə.., maskara.., yezi.., zahi.., əbcə.., vücu.., bilyar.., ano.., vahi.., bida..

III

Fərzən.., hüdu.., xudpəsən.., saya.., Mürşi.., müstəza.., çiyi.., ləvən.., kasa.., qana.., arva.., cədi.., məhdu.., yaxu.., kato.., ədə.., zümrü.., vəliəh.., bərba.., buterbro.., Bünya.., Behbu..

**§ 249.** Verilmiş sözlərin hər birinə dair üç cümlə qurub yazın.

I. Beyt, bayat, barat, bidət, bint, vəhşət, vint, zəbt, lent, mandat, məst, mühit, spirt, fövrist, xamıt.

II. Mehtər, cəftə, butulka, dəftər, karton, futbol.

**§ 250.** Buraxılmış hərfləri yazıb, köçürün.

Aba.., baba.., ayır.., barı.., ina.., imarə.., bəsi.., əcda.., ica.., keçi.., çaşi.., səadə.., zabi.., behiş.., vəhdə.., nər.., pola.., övla.., kobu.., kili..

**§ 251.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın. Samitlərin yazılışına aid bu qaydanı izah edin.

I

1. Qızlar cəl.., ayağa qalxıb çantalarını çiyinlərindən asdılar. 2. Gözəl may isə onu evdən çölə-bağa, dəniz kənarına çəkib, çıxarmağa cəh.. edirdi (*Ə.Ə.*). 3. Hissə komandanı vuruşmada həlak olmuş dəstənin səngərini gəzdiyi zaman qəribə bir mənzərənin şahi..i oldu (*M.H.*). 4. Dədəli kən..ində arva..lar arasında hamıdan çox Qönçə nənənin uşaq dostları vardı (*C.Ə.*). 5. Hərdənbir mərmilər və minalar elə yaxında partlayırdı ki, məntəqənin sıx pola.. relslər döşənmiş möhkəm tavanı da silkələnirdi (*Ə.Ə.*). 6. Tez çıxarıb ona bir parça çörək, bır neçə yumru qən.. verdi (*Ə.Ə.*). 7. Əliş indi bu şeyləri ayır.. edə biləcək halda deyildi (*Ə.Ə.*). 8. Mən əvvəllər dər.. müsibət nə olduğunu bilməzdim (*Ə.M.*). 9. Bu il on beş milyon pu.. alma dərmişik (*M.C.*). 10. Gülşad üçün çənə döyən Zərifə, öz sirrini nənəsinə açmaqda hələ tərəddü.. edirdi (*Ə.Ə.*).

II

1. Usta Səmə.. öz kiçik qızı və qoca arvadı ilə bizim küçəyə keçdi (*C.C.*). 2. Nadir düşmənlərə qarşı döyüşlərdə vuruşub igi.. bir komandir olanda, Nailə də inqilabi mahnıları çalıb-çağıran bir müğənni kimi böyüdü, şöhrət tapdı (M.C.). 3. İçəri qırılmış qabların cingiltisinə üzü örtülü bir arva.. girdi və qabları parça-parça otağa səpilmiş gördükdə əvvəl bir az mırıldandı, sonra onları yığışdırıb, naxoşun başına fırladı və "azar-bezerını aparsın" deyə eşiyə atdı (*Y.V.Ç.*). 4. Baxın, birisi adını müctəhi.. qoyub namaza duranda onun dalında o qədər adam iqtida bağlayır ki, məscid camaatı tutmur (*Ə.B.C.*). 5. Çobanlar yaylağını aşıb kiçik bir təpəyə qalxarkən, Qumrunun üzünə tün.. bir qoxu vurdu (*Ə.M.*). 6. Bir axşam qızıl sərhə.. qarovulçuları qocanı maşına əyləşdirib zastavaya gətirdilər (*M.C.*). 7. Xüsusən, qardaşını çox görmək istəyirdi, kölgəsində böyüdü-

yü və özündən çox sevdiyi qardaşını xatırlayınca, Həmi.. bir quş kimi qanadlı olmasını arzu edirdi (*C.C.*). 8. Yoxsa arva.. bircə gecənin içində bu qədər qocalıb, yumaq kimi büzülməzdi (*İ.Ş.*).

9. Bir qara bulu..am uca göylərdə,
Bu qara bax..ımla bizim ellərdə,
Sən neçin ağlarsan mən duran yerdə,
Nərgi.. gözlərinin yaşına qurban (*M.M.*).

10. Bunun halına təfavüt eləməz, istəyir top atılsın, lap Aşqaba.., Daşkən.., zəlzələsi olsun, arxayın sözünü deyəcək (*M.C.*).

III

1. Namazlı bu məqamda tün.. qızardı, əlini atıb yarlıqdan yapışdı, hirslə qırıb atdı (*B.B.*).

2. Konsertdən sonra Mura.. bir neçə kən..lisi ilə yanımıza gələrək mənə təşəkkür etdi (*İ.Ə.*).

3. Doğan günəş sən kiminsən?
Mən..ən işıq alanın.
Sonsuz fəza, sən kiminsən?
Məndə qana.. çalanın (*C.C.*).

4. Ancaq necə olsa, nə qədər unutmağa çalışsa da, vaxtaşırı eli-obası, qohum-qardaşı, balaları, arva..ı yadına düşürdü (*B.B.*). 5. Sahildən aralı rey..ə durmuş hərbi gəmilərin şəhərə tərəf yönəldilmiş topları, boz duman içərisindən uzanmış nəhəng insan qollarını xatırladırdı (*Q.İ.*). 6. Sən mənimlə döyüşə bilməzsən, qız! Sənin səngərin cəsə..dir. (*C.C.*). 7. Bəzən yuxusunda işıqlı naxışlarının o qara çər-

çivə içərisində sönüb qaraldığını görərkən ..iksinib gözlərini açırdı (*Ə.M.*). 8. Həmin saatlarda müəlliflər yamacda, yaşıllıqlar üzərində, kabab süfrəsi ətrafında əyləşib mavi gölün göz yaşı kimi duru suyunu, zərif ləpələrini, mavi səmanı, haraya isə axan ala bulu., karvanının suda inikasını seyr edirdilər (*M.C.*). 9. O, çox igi.. bir adam idi (*M.H.*). 10. Sü.. kimi aydınlıq bir gecə idi (*Ə.V.*).

**§ 252.** Verilmiş sözlərə saitlə başlanan şəkilçi qoşun və müşahidə etdiyinizi söyləyin.

I. Sərhəd, bulud, milad, rişxənd, labüd, həyat.
II. Şagird, yaşıl, bələd, təcrid, noxud, söhbət.
III. Palıd, təqlid, şabalıd, hərçənd, ustad, nabat.

**§ 253.** Verilmiş sözlərin hər birinə dair üç cümlə qurub yazın.

I

Bünyad, Zahid, Mədəd, Məmməd, Məcid, Əsəd, Əhməd, Mahmud, Midhəd, Seyid, Cümşüd, Zümrüd.

II

Vahid, Cavad, Fuad, Rəşad, Murad, Azad, Elşad, Mövlud, Səyyad, Fərid, Şirzad, Xurşid, Polad, Səməd.

III

Behbud, Davud, Bünyad, Qubad, İbad, Zahid, Fərhad, Həmid, Cavid, Cəmşid, Dilşad, Xalid, Cavad.

**§ 254.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə yazın və qara yığılmış samitlərin yazılış qaydasını izah edin.

Palaz, Solmaz, Araz, Xaçmaz, Tovuz.

**§ 255.** Aşağıdakı şəxs və yer adlarının hər birinə aid üç cümlə qurub yazın.

Almaz, Solmaz, Araz, Xaçmaz, Tovuz.

**§ 256.** Verilmiş sözlərin hər birinə aid üç cümlə yazın.

Kəpənək, böyük, eynək, gödək, nazik, özək, xörək, üzüm, dilək, şərik, bilik, ilik, yeşik, lələk, əmlik, çiçək, külək, pətək, fələk, ürək, dirilik.

**§ 257.** Köçürün, saitlə başlanan şəkilçi qoşub, hər sözün sonundakı **<k>** səsinin mövqe və vəziyyətini izah edin.

Hörümçək, birçək, milçək, çörək, ipək, hörük, sönük, köynək, bəzək, bölük, böcək, döşək, düdük, əlcək, ilgək, ilmək, itik, yemlik, kəsək, köpək, kötək, ləçək, pencək, pəltək, təlxək, xəndək, xərək, çörək, şimşək.

**§ 258.** Köçürün, sözlərə saitlə başlanan şəkilçi qoşub, sonundakı **<q>** səsinin vəziyyətini aydınlaşdırın.

1. Arxaik, bezik, əmlak, anatomik, elektrik, tipik.
2. Ək, ərk, lək, mülk, peyk, tək, tök, tərk, tük, yük, çək, kök

**§ 259.** Oxuyun, qara hərflərlə verilmiş sözləri şəkilçisiz yazın.

1. Bir də görərdi ki, it öz çörəyini yeyib qurtardı, yavaş-yavaş ağzını pişiyin qismətinə uzadır (*A.Ş.*). 2. Dərin bir intizar içində gözlədikləri dəqiqənin çox gec gəldiyini düşündükcə, hamının ürəyi darıxır, səbri tükənirdi (*M.H.*). 3. Yeni il qarşısında kabinetdə təmizlik eləyən xidmətçi

ömrünü yaşamış, gərəksizləşmiş köhnə təqvimi alıb yeşiyə atır (*B.B.*). 4. Bir gənc, irəliyə şığıyaraq, qızıl üzüyü parıldayan sağ əli ilə qadının qolundan yapışdı (*M.H.*). 5. Səlim hər kiçik şeyə danışır, evdə bişirilən xörəyi bəyənmirdi (*M.İ.*). 6. Zeynəb ehmalca sırıqlı pencəyi İmranın başının altına qoydu (*İ.Ş.*). 7. Ərmağan xanımın başında oynayan şimşək sanki Savalan dağının zirvəsində oynayan şimşəyə qarışırdı (*S.Rəh.*). 8. Hidayət ləçəyi ucaya qaldırıb anasına qaytardı (*B.B.*). 9. O, adyalı sinəsinin üstündən aşağı sürüşdürüb köynəyinin yaxasını açdı (*H.A.*). 10. Külək göydən gələn qarı yerə çırpır, şaxta adamın iliyinə keçirdi (*O.Sal.*). 11. Xəzərdən əsən səhər küləyi onun qıvrım saçlarını alnına dağıdır, paltosunun ətəyini yelləndirirdi (*O.Sal.*). 12. Boynunu azacıq yana əyib dirəyə söykənmiş bu qızın kəlağayısı sürüşüb çiyninə düşmüşdü (*İ.Ş.*). 13. Quyuya düşmüş balta şaroşkalarını çıxarmaq üçün maqnit hörümçəyi buraxacağıq (*M.Sü.*). 14. Kazım bir dəqiqədə əmliyin ayaqlarını bağlayıb maşına qoymuşdu (*İ.Ş.*). 15. O, pörtüb qızardı, axşamüstü titrətmə tutub yorğan-döşəyə düşdü (*S.Rəh.*).

**§ 260.** Köçürün, sözlərdə nöqtələrin yerinə müvafiq hərfi yazın.

Bula.., yarpa.., oca.., uşa.., çubu.., qona.., doda.., mara.., yama.., ota.., dama.., işı.., qayı.., aşı.., balı.., qula.., qarma.., saça.., soyu.., uza.., dara.., qaşı.., artı.., ilı.., yazı.., yapı.., yalta.., yayla.., sandı.., qaça.., yara.., qatı.., qayma.., bala.., bayra.., axsa.., arı.., buru.., boya.., moru.., suva.., yolu.., sarsa.., başa.., palçı.., barma..

**§ 261.** Verilmiş sözlərə saitlə başlanan şəkilçi qoşub yazın. Hər sözün sonundakı **<q>** səsinin vəziyyətini izah edin.

Ayaq, alaq, alçaq, bıçaq, qabıq, qalaq, qalıq, qoçaq, dayaq, dırnaq, zanbaq, yalaq, muncuq, sancaq, topuq, çıraq, calaq, caynaq.

**§ 262**. Verilmiş sözlərə saitlə başlanan şəkilçi qoşub yazın. Söz sonundakı **<q>** səsinin vəziyyətini aydınlaşdırın.

Əxlaq, layiq, məntiq, pedaqoq, rinq, hüquq, vərəq, xalq, mitinq.

**§ 263.** Yuxarıdakı sözlərin hər birinə aid üç cümlə qurub yazın.

**§ 264.** Oxuyun, qara hərflərlə verilmiş sözləri şəkilçisiz yazın.

I

1.Tıq-tıq xanım ayağa qalxdı (*A.Ş.*). 2. Səfərin ona acığı tutmuşdu, bilmirdi ki, nə ilə hayıf alsın (*A.Ş.*). 3. Onlardan biri işsizlikdən darıxırmış kimi əlindəki yaylığı sığallayır, tez-tez rəfiqəsinin üzünə baxırdı (*M.H.*). 4. Onlar neytral qurşağı keçdikdən sonra bir az dayandılar (*İ.Ş.*). 5. Hisli çırağın zəif işığında ala-yarımçıq görünən qaramtıl saçları, uzun hörükləri vardı (*M.H*). 6. İndi minalar və güllələr torpağa qarışıb səngər üzərinə yağırdı (*M.H*). 7. Haradansa düşən ay işığının zolağı ətrafdakı qaranlığı ikiyə bölmüşdü (*Ə.M.*). 8. Şirin və dadlı röyalar onu payız yarpağı kimi yerdən-yerə ayırdı (*M.C.*). 9. Mənzilin suvağı, rənglənməyi, avadanlığı hələ lazımi qaydada deyildi, sən deyən qədər isti olmasa da, işığı gur idi (*B.B.*). 10. Muzdur Vəli dama dırmaşıb qırmızı bayrağa yer hazırlayırdı. 11. Mahmud pulemyotun çaxmağını çıxarıb cibinə qoydu (*İ.Ş.*).

II

l. Yolu hoppanandan sonra dükan qabağındakı səki ilə getmək asan idi (*M.C.*). 2. Bax, bu sənin nişan üzüyün, keçirt barmağına (*İ.Ş.*). 3. Bir qədər sükut edərək başını buladı və bıçağını qatlayıb cibinə qoydu (*M.H.*). 4. Mirzə baba gələnləri görcək əl atıb yanına qoyduğu papağı başına keçirdi (*O.Sal.*). 5. Yusifin gəlişi ilə söhbət hərlənib icrakomda deyilən namizəddən düşəndə əyləşənlərdən kimisi başını buladı, kimisi damağını marçıldatdı (*B.B.*). 6. O, bulağın üstündən qayıdanda belə, özü ilə bir xəbər gətirərdi (*B.B.*) 7. Əliqulu isə üst-başından palçığı təmizləyə-təmizləyə hiddətlə qışqırdı (*M.Sü.*). 8. Gətirdiyi kağız qovluğundan dördqat bükülmüş bir xəritə çıxarıb açdı (*M.Sü.*). 9. Çənəsinin sağ tərəfində, buxağında balaca bir xalı da vardı (*İ.Ş.*). 10. Qafar dayı çubuğu ağzından götürüb tüstüsünü havaya buraxdı (*M.Sül.*).

III

1. Səhərlər yorğan-döşəyi sərmək adı ilə çardağın üstünə çıxıb hərlənir, Cahandar ağagilin həyətinə baxmaqdan yorulmurdu (*İ.Ş.*). 2. Baharlı boz kabardin şalvarının bir balağını corabın içinə salmışdı (*O.Sa.*). 3. Balıq çırpınıb suyun üzünə çıxır, quyruğunu şappıldadıb dartınırdı (*İ.Ş.*). 4. Elə bu vaxt sudakı qarmağın zərblə dartıldığını gördülər (*İ.Ş.*). 5. O, içəri girəndə dodağı gömgöy olmuş, rəngi də kül kimi bozarmışdı (*M.H.*). 6. Fəridə işlədiyi təşkilatda öz bacarığı ilə hamının hörmətini qazanmışdı (*O.Sa.*). 7. Nənə az qalıb səksəni vura yerə, xala deyəndə acığı tutur (*B.B.*). 8. Usta, zəhmət olmasa, bir bura baxın, mən buruğu burada qurdurmaq istəyirəm (*M.Sül.*). 9. O, yerindən qalxıb özünü üzüqoylu çarpayının üstünə saldı, hıçqırığı hönkürtüyə keçəndə çarpayı onu atıb-tutmağa başladı (B.B.). 10. Quşlar da

sərinlikdən xoşhallanıb, sevinirmiş kimi nəşə ilə civildəşir, budaqdan-budağa qonurdular (*M.Sül.*).

**§ 265.** Aşağıdakı sözlərin hər birinə dair dörd cümlə yazın.

Darıx(maq), vurnux(maq), almanax, Yevlax, Qazax, Samux.

**§ 266.** Aşağıdakı sözləri əlifba sırası ilə köçürün, nöqtələrin yerinə uyğun gələn hərfi yazın. Samitlərin yazılışına dair bu qaydanı izah edin.

Çəki.., arxa.., bive.., möhta.., ovu.., sayğa.., tura.., xər.., yalava.., ifli.., qun.., döyə.., ehtiya.., kə.., kirə.., ge.., qola.., bürün.., qılın.., gə.., gən.., qorxun.., qısqan.., bür.., burma.., qaxa.., lahı.., mər.., oru.., lə.., gi.., kərpi..,

**§ 267.** 265-ci çalışmadakı sözlərin hərəsinə aid bir cümlə qurub yazın.

**§ 268.** Hər sözə aid bir cümlə qurub yazın.

I. Ağac, dinc, anac, ixrac, umac, qıyğac.
II. Süzgəc, güc, iyrənc, simic, ülgüc, məxrəc.
III. Arğac, qulanc, əlac, səmic, xaric, tunc.

**§ 269.** Verilmiş sözlərə, saitlə başlanan şəkilçi qoşub yazın. Söz sonundakı **<c>** səsinə dair müşahidənizi izah edin.

Gülünc, çəkic, surquc, yamac, qazanc, borc, ayrıc, dərc.

**§ 270.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfi yazın.

I

1. Əzablar görən həyatı sanki bir müddət qəlbinin, ürəyinə din.. bir gün..ünə çəkilmişdi (*M.C.*). 2. Müxtəlif tərəflərə gedən döyüşçülər astadan pıçıldaşır, ovu..larının içində gizlətdikləri papirosu ehtiyatla sümürürdülər (*İ.Ş.*). 3. Dünyanın bütün sevin..i qəlbimi qaynadır (*M.C.*). 4. Mənalı baxışı ilə göylə gələn Münəvvər qonaqlarının sükutla yama..lari tərk etmələrinə heyrət və sevin..lə baxırdı (*M.C.*). 5. Çocüğün bu halı gən.. ata ruhunun ən dərinliklərinə əks etdi (*Y.V.Ç.*). 6. Ehtiya.., tənhalıq sıxıntı ilə iki bala böyüdən Səltənət heç vaxt, heç kəsdən balaları haqqında bu şirin sözləri eşitməmişdi (*M.C.*). 7. Qayınana bu səadətə qarşı qısqan.. və zidd bir vəziyyət almışdı (*Y.V.Ç.*). 8. Sərni..lər köpüklənib dolduqca ətrafa ahəngdar bir qıjıltı yayılırdı (*İ.Ş.*). 9. Şapkanın qabaq tərəfində bir-birinə çarpazlanmış iki balaca parıldayan bürün.. çəki.. nişanı vurulmuşdu (*M.Sü.*). 10. Ətrafı çulğamış sükut ona qorxun.. və heybətli görünürdü (*M.H.*).

II

1. O bilirdi ki, vətənində zəhmətkeş xalq, onun biliyinə, iki ildə aldığı təcrübələrə, onun qüvvətinə və çalışqanlığına möhta..dır (*C.C.*). 2. Məktəb həyətinə çoxlu kərpi.. yığılmış, taxta və şalbanlar bir-biri üzərinə qalaqlanmışdı (*Ə.M.*). 3. Zəki söhbətə başladı, o nəinki tək Səlimi, hətta özünü da zarafatla gülün.. bir vəziyyətdə təsvir edib qızı güldürdü (*M.Sü.*). 4. Lakin məhkəmədən özünü pul ilə xilas edən Fərhad, vi..dan və həya məhkəməsindən də özünü xilas edə bilərdimi? (*C.C.*). 5. Fermaya gedib toyuqlara dən səpmişəm, təzə çıxan cücələrə uma. ovmuşam (*B.B.*). 6. Atası öləndən sonra gən.. Qafar bir parça çörək üçün doğma kəndindən ayrılıb, qazan.. dalınca Bakıya gəlməli olmuşdu (*M.Sü.*). 7. Hündür qaya üstündə, bür..ə bənzəyən yüksək

binada mayakın qırmızı işığı müntəzəm surətdə yanıb-sönürdü (*M.Sü.*). 8. Onda gəl mər..ləşək, görək kim yaxşı güllə atır (*İ.Ş.*). 9. Nə qədər gən.. oğlanlar, kamala yetmiş, kişilər kağız və dillə ürəyini açıb ona söyləmişdi (*M.Sü.*). 10. O, istəyirdi ki, oğlunun əlləri cod, baldırları möhkəm, kürəyi enli, sinəsi və qolları tun.. kimi olsun (*İ.Ş.*).

III

1. Gün batanda dağlar tərəfdə şimşək qılın.. oynatmağa başladı (*İ.Ş.*). 2. Uzun hörüklərini darayıb ta.. kimi yığdı (*M.Sü.*). 3. Tura..dan bir xəbər çıxmamış, haradansa dörd hinduşka ütülüb hazır edildi (*M.C.*). 4. İndi Zəki də ağır-ağır nəfəs alır, qolunu gü..lə atırdı (*M.Sü.*). 5. Bahar indi özünü din.., sərbəst hiss etdi, oynamaq istədi (*M.C.*). 6. Kəndin arxa tərəfindəki təpədə iki əncir ağa..ı vardı (*M.Sü.*). 7. Qoca kişi yuxusunu dağıtmaq üçün üzünə bir-iki ovu.. su vurdu (*İ.Ş.*). 8. Elələri var ki, öz bor..unu yerinə yetirmir, siz isə insanlıq bor..undan danışırsınız (*M.Sü.*). 9. Milyonlar xər..lənən yerdə ehtiyat lazımdır (*M.Sü.*). 10. Əgər bir balaca əl tərpətsə, sıçrayıb üstünə cummaqdan başqa əla..ım yoxdur (*İ.Ş.*).

**§ 271.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə qurub yazın.

Qıç, köç, seç, heç, biç.

**§ 272.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə qurub yazın.

I. Qəşəng, pələng, əhəng, külüng, ting, fişəng, cəng.
II. Tüfəng, səhəng, zəng, ling, rəng, xərçəng, cəfəng.
III. Ahəng, dəng, əng, ləng, çələng, firəng, nəhəng.

**§ 273.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə qurub yazın.

Proses, metal, konqres, ekspres, kilovat.

**§ 274.** Aşağıdakı sözlərin hər birinə aid üç cümlə qurub yazın.

Mühüm, müstəqil, rəsmxət, hüsnxət, sərhəd.

**§ 275.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

I. Düyü, iynə, göyərçin, çiy.
II. Düymə, dəyirman, göyərçin, göyərti, əyləncə.
III. İydə, iyirmi, ciyər, göy.

**§ 276.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

İgid, məgər, digər, əgər, nigaran.

**§ 277.** Tərkibində **<ms>** olan alınma ümumi isimlərin yazılış qaydasını aydınlaşdırın və on misal yazın.

**§ 278.** Mənşəcə başqa dilə məxsus və tərkibində **<ms>** olan xüsusi isimlərin yazılış qaydasını izah edin, beş misal yazın.

**§ 279.** Əvvəlində və sonunda **<ş>** səsi olan mənşəcə qeyri-Azərbaycan sözlərinin yazılış qaydasını izah edin və üç misal yazın.

**§ 280.** Ortasında **<ş>** olan qeyri-Azərbaycan sözlərinin yazılış qaydasını aydınlaşdırın, bir neçə misal yazın.

**§ 281.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə qurub yazın.

I. Heyne, Hegel, Bethoven.
II. Hektar, hegemon, humanizm.
III. Himn, hidrogen, hibrid.

**§ 282.** Köçürün, buraxılmış hərfləri nöqtələrin yerinə yazın.

Leksikolo..iya, dialektolo..iya, biolo..iya, ..imnaziya, ..i..iyena, ..enetik, analo..iya, antropolo..iya, bakteriolo..iya, qrafolo..iya, dermotolo..iya, dramatur..iya, embriolo..iya, ener..etizm, ener..etika, etimolo..iya, etnolo..ya, zoolo..iya, ideolo..iya, hidro..en, kolle..iya, konat..es, kurortolo..iya, ..enealo..iya, ..epezis, ..eneral, ..enerator, ..eoloq, ..itara, larin..it, ma..istr, metallur..iya, metodolo..iya, ..ins, mikrobiolo..iya, mineralo..iya, mifolo..ya, morfolo..iya, nevrolo..iya, onkolo..iya, ontolo..ya, patolo..iya, pedaqo..ika, psixolo..iya, rennt..en, refleksolo..iya, semasiolo..iya, sosiolo..iya, strate..iya, stomatolo..iya, tan..ens, texnolo..iya, toksikolo..iya, topolo..ya, trilo..iya, urolo..iya, fıziolo..iya, fonolo..iya, frazeolo..ya, he..emon.

**§ 283.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə qurub yazın.

I. Semasiologiya, frazeologiya, morfologiya.
II. Fonologiya, leksikologiya, psixologiya.
III. Dialektologiya, etimologiya, fiziologiya.

**§ 284.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə yazın.

Kösöv, bülöv, bütöv.

**§ 285.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə qurub yazın və bu qaydanı izah edin.

I. Buzovna, ovçu, buxov.
II. Alov, qovun, ovuc.
III. Oxlov, dovşan, ovuq.

**§ 286.** Oxuyun, qoşa samitli sözləri köçürün.

I

1. Əvvəl mən dayandım və getmək istəmədim; amma artist rəfiqim başladı əlimdən çəkməyə (*C.M.*). 2. Cəbhənin bu hissəsində yenə vəziyyət gərginləşirdi (*Ə.Ə.*). 3. Keçən döyüşlərdə yaralandıqda da yarasını özü sarımış, onu səngərdən güclə çıxardıb səhiyyə məntəqəsinə göndərmişdilər (*Ə.Ə.*). 4. Qoca, titrək əlləri ilə bu gözəl musiqi alətinə vurulan yaranı düzəltdikcə Fərhadda elə bir təsəvvür yarandı ki, onun evində ağır bir xəstə var və məşhur, mahir bir cərrah xəstəni yarıb müalicə edir (*Sab.Rəh.*). 5. Lakin Müzəffərin aylarla davam edən təqibi, Ceyranı daha artıq şübhəyə saldığından, bulağa gec-gec və mümkün qədər başqa qızlarla bərabər getməyə və Müzəffəri görüncə yaşınmağa məcbur etmiş idi (*C.C.*). 6. Sizi bura gətirən qüvvə bükülmüş belinizi də düzəldəcəkdir (*M.C.*). 7. O, dərdli-fəryadlı torpağın sinəsindən, alovların şölələri içərisindən müəzzəm və ecazkar bir varlıq kimi yüksəldi (*Q.İ.*). 8. Qarı yarı-qaranlıqda öz-özünə gülümsəyərək bir müddət hərəkətsiz qaldı (*Ə.M.*). 9. İnqilab insandan son dərəcə ehtiyatlılıq və həssaslıq tələb edir (*Q.İ.*). 10. Çobanlar bir-bir dönüb Qumrunun əlini sıxır, o qışdan ürəklərində qalmış təşəkkürlərini bir sevinc içərisində qıza bildirirdilər (*Ə.M.*).

II

1. Burada hər ağacın kölgəsi, hər bir kol, bir eşq yuvası, bir məhəbbət aşiyanıdır (*C.C.*). 2. Hər tərəfdə top mərmilərinin göyə qaldırdıqları qara torpaq fəvvarələri döyüş meydanını tufana tutulmuş fantastik bir meşəyə döndərmişdi (*Ə.M.*). 3. O, bu sözləri deyir və məmnuniyyətlə öz vecsizliyində özünü yox, böyüklərini təqsirləndirirdi (*Ə.Ə.*). 4. Məni özlərinə həmdərd qərar verib, heç bir sirri və heç bir təzə xəbəri məndən gizlətmirdilər (*C.M.*). 5. Döyüşdən gələn yaralı komandir üçün bu, əlbəttə, təəccüblü şey deyildi (*Ə.Ə.*). 6. Sinən büllur kimi, altında daş var, Bilməzsən könlündə nə iğtişaş var. (*M.Müşfiq*). 7. Bizim həssas, qədirbilən bir xalqımız var (*M.C.*). 8. İzzət qarı obaya yaxınlaşıb dincini almaq istədisə də, lakin üfüqdə qızartı işarəsi görüb fikrini dəyişdi (*Ə.M.*). 9. Sanki damarlarını silkələyib, gənclik günlərini xatırlayır, ürəyindən qüvvət istəyirdi (*M.C.*). 10. Göy üzündəki ulduzlar daha da şəffaflaşmış və şaxta şiddətlənmişdi.

III

1. Ancaq diqqətlə baxan olsaydı, dodaqlarının göyərdiyini və bəzən də titrədiyini sezə bilərdi (*M.H.*). 2. Qızların üzərindəki təbəssüm hələ də silinməmişdi (*M.H.*). 3. Tüstü içərisində hələ yanmamış, əriməmiş minlərlə maddələr partlayırdı (*M.C.*). 4. Tanklar, təyyarə motorları səs-səsə vermişdi (*M.C.*). 5. Mən cəbhə, vuruşma, alov saçan silahlar haqqında eşitmişdim (*B.B.*). 6. Qönçə nənənin ortancıl oğlu Şəmili əsgərliyə yola salandan sonra bir müddət nənənin gözündən uzaq qaçmağa başladıq (*C.Ə.*). 7. Bir dəfə günorta çörəyinə çıxanda Qönçə nənəni kəhrizin üstündə qüssəli nəğmələr oxuyan gördüm (*C.Ə.*). 8. Dedi ki, Şəmil kəşfiyyata gedir, ona görə məktub yaza bilmir (*C.Ə.*). 9. Ulduz çoxdan düşündüyü niyyətini həyata keçirmək

üçün bu gün iş zamanı yerə yıxılmışdı (*Ə.M.*). 10. Heç bir zərrə qədər fikir eləməyin, siz öləsiniz, saxlaya bilməyəcəklər, hamısını qaytaracaqlar (*C.M.*).

**§ 287.** Köçürün, nöqtələrin yerinə buraxılmış hərfləri yazın.

I

Mi..ət, bə..a, bü..ur, qə..ar, qü..ə, qə..ab, qu..ab, qü..ə, qü..ət, qü..əli, də..ələmək, də..al, di..ət, do..az, do..uz, ə..əl, əzi..ət, ə..am, ə..aş, müxə..ət, mücə..əd, na..al, na..aş, sə..iz, ü..an, sə..af, cə..ət, tə..arə, təşə..ür.

II

Ə..amə, əci..ə, zə..um, zə..ə, zi..ət, i..ət, i..ab, i..ifaq, kəmi..ət, ya..aş, ye..i, gü..ə, lə..ət, ma..ə, ma..i, mahi..ət, məzi..ət, mə..ani, mi..i, mi..ət, cü..ə, ça..al, şa..a, xa..ə, hə..as, hə..a, tərə..i, təsə..ür, to..uz, təşə..üs.

III

Müqə..sir, mü..əa, mü..ət, mü..ən, müyü..ər, münə..ər, münə..im, mürə..ə, mürə..e, mürə..əb, mürə..ib, mütəə..ir, mütə..ə, mütərə..i, mütəfə..ir, mütəhə..ik, mü..əfıq, müfə..əl, müfə..iş, sə..ət, sü..i, təbə..üm, təvə..ül, təvə..e, şi..ət, şi..ə, ci..i, ho..a, şə..af.

**§ 288**. Köçürün, nöqtələrin yerinə buraxılmış hərfləri yazın.

Fərzi..ə, tərbi..ə, səhi..ə, səvi..ə, mədəni..ət, məzuni..ət, müə..ən, mütəmadi..ən, ni..ət, haşi..ə, Şəhrf.ar, səci..ə.

**§ 289.** Nöqtələrin yerinə uyğun hərfləri yazıb, köçürün.

l. Mən onlara təşə..ür elədim, tərifin hə..ini aşacağından ehtiyatlanıb söhbəti düşüncələrimin üzərinə qaytardım (*B.B.*). 2. Əcnəbi mütəxə..islər isə, bizdə işləmək üçün böyük tələblər irəli sürürlər (*Q.İ.*). 3. Mənsiz süfrəyə gəlməzdi, mənsiz mənzil ona dar olardı, məndən ayrı düşməməyin dərdindən uzaq, əhəmi..ətli səfərlərin hamısından imtina edərdi (*B.B.*). 4. Mahmud kəşfi..ata getmək istədiyini bildirib ondan əl çəkməmişdi (*Ş.Ş.*). 5. Təkrar çocuğu süzdü, körpənin dodaqlarından təbə..üm izləri hələ də silinməmişdi (*Y.V.Ç.*). 6. O, hi..əyə gəldiyi on beş gün ərzində heç kəsin di..ətini özünə cəlb etməyən bu sakit oğlanı özü ilə götürməyə cəsarət etmirdi (*İ.Ş.*). 7. Gəlin ilə artıq danışmayır, içindəki intiqam hi..i aşıb-daşır, meydan arayırdı (*Y.V.Ç.*). 8. O, yaralanıb xəstəxanada yatdığı iki ay mü..ətində vərdiş etdiyi bu izdihamlı gecələri çox arzulamışdı (*İ.Ş.*). 9.Uzun mü..ətli həbslər, ölüm-dirim vuruşmaları, öz ha..ını, istəyən kütlələrin önündə yüyürüb gü..ələrə köks gərmək, sıxıntılı, dözülməz aylar, hər biri ildən uzun olan ağır, əzi..ətli günlər Sarxanın təsə..üründə canlanırdı (*M.H.*). 10. Lakin kimsə bu öksüz yavrucuğun ruhuna girə bilmir, oradakı cəhə..əm kimi coşan müdhiş iztirabları, kiçik vücudunu sarsıdan, ürəyini, duyğularını, bir kəlmə, bütün varlığını çeynəyən dəhşət və fəryadları görə bilmirdi (*C.C.*). 11. Uşaqlıqda adamın ya..aşı iti, zehni açıq, marağı çox olur (*M.C.*). 12. Altı-ye..i ay bundan əvvəl deyər, gülər, çalar, oynar şux bir afət idi (*C.C.*). 13. Kənardan görən deyərdi, bu kişi qarşındakına şi..ə vurmağa hazırlaşır (*M.C.*). 14. Bir il ə..əl Mərdanın tutduğu hərəkət Hürzad xalanın həyatını alt-üst etdi (*Y.V.Ç.*). 15. İndiki yaz səhəri deyəsən bütün nisgil, həsrət iztirablardan silkinib təmizlənmiş, münə..ər günəşli bir səhər idi (*M.C.*). 16. Alovun qarşısını ala bilsəydilər, onu quyudan xeyli uzaqda söndürüb, fə..arəni od tutmağa qoymasaydılar, bu özü çox

böyük iş idi (*M.H.*). 17. Mən hər səhər radioda, hava ha.. ında verilən məlumata böyük bir maraqla qulaq asırdım (*İ.Ə.*). 18. Mən bunları ona görə deyirəm ki, siz bir hərbçi kimi vəzi..əti daha dərindən başa düşə bilərsiniz (*Q.İ.*). 19. Sasani hökmdarları cənub mədəni..ətini bu vəhşi axından qurtarmaq üçün Dərbənddə böyük bir sə.. yapmışdılar (*Y.V.Ç.*). 20. Bir evdə yas oldumu, oraya gedir, bacardığı qədər çalışır və o qədər səmimi..ət göstərirdi ki, hər kəs onu həmin evin adamı bilirdi (*C.C.*).

**§ 290.** Oxuyun, sonu qoşa samitlə bitən sözləri seçib yazın.

1. Ölümdən zərrə qədər də qorxmayan bu adam, öz şəxsi qüvvəsi qarşısında ölümün çox adi və gücsüz bir şey olduğunu zənn etdiyi halda, indi nədənsə atın üstündə büzüşür, sağdan-soldan uçuşan güllələrin bir yerindən dəyəcəyini düşünürdü (*M.H.*). 2. Əliş böyük bir sirr açırmış kimi pıçıltıyla dedi (*Ə.Ə.*). 3. Sarıtelin saçları öz adına tamam zidd idi (*M.H.*). 4. Aqil, düşmən minasının törətdiyi bu mənzərəni görmədisə də, eşitdi, hiss etdi (*M.C.*). 5. Bəzən elə əhvalatlar olurdu ki, gözlərimiz yaşarınca qəşş edib gülürdük (*S.Q.*). 6. İndi ağrı sanki bir sədd kimi onun yolunu kəsmiş, onu dar bir qəfəsdə əsir edib, əl-qolunu bağlamışdı (*Ə.M.*). 7. Siz tibb elmləri doktoru, professor Mənsur Cavadlının "Qızılca xəstəliyi və onunla mübarizə" mövzusunda söhbətini dinlədiniz (*H.A.*). 8. Timsah yuxarı çənəsini qaldırmış, sərçə boyda bir quş onun ağzının içinə qonaraq, dişlərinin dibini dimdikləyir, timsah da bundan həzz alır kimi, sakit dururdu (*A.Ş.*). 9. Lakin hava getdikcə qaralır, yağış getdikcə şiddət edirdi (*C.C.*). 10. Daha xoşbəxt edəcəksən məni sən, Özün öz taleyini həll etsən (*S.V.*). 11. Qaranlıqda qurdlara, çaqqallara rast gəlməsin deyə, qorxudan bir ağacın dibinə sığındı (*C.C.*).

**§ 291.** Oxuyun, sonu qoşa samitli sözləri seçib yazın və onların yazılış qaydasını aydınlaşdırın.

1. Gecə hər tərəf qaranlıq ikən, cəbhə xətləri arasında yerləşmiş balaca kəndin uçuq evlərində səngər tutub pusquda durmuşdular (*M.H.*). 2. Zülmət qaranlıqda ayrı düşdüyümüz vaxtlar olurdu, Yusifin gur səsini eşidən kimi məndə zirəklik, qürur hissi əmələ gəlirdi (*B.B.*). 3. Mən tələbəlikdən birbaş ön cəbhə xəttinə yollanmışdım (*B.B.*). 4. Bu xəbər yarımdairəvi müdafiə xəttinin başı üstündə dolaşdıqca, atış gücdən düşməyə, düşmən qabağına çəkilən ölüm səddi aradan qalxmağa başladı (*Ə.Ə.*). 5. Bir şey tapmayınca, dağınıq saçları ilə döşlərini örtdü, amma zavallı bununla daha gözəl və daha cazibədar bir görkəm aldığını heç düşünmürdü (*C.C.*) 6. İzzət qarının da uzun və çətin bir ömürdən bükülməmiş qəddi, bu xəbərin ağırlığı altında büküldü (*Ə.M.*). 7. Bizim mürşidimiz, cəddinə qurban olduğum Seyid Nigarinindir (*İ.Ş.*).

**§ 292.** Aşağıdakı sözlərin hərəsinə aid iki cümlə qurub yazın.

I. Fənn, xətt, haqq, həll, sədd, dürr.
II. Zənn, rədd, tibb, hiss, həkk, şəkk.
III. Zidd, sirr, hədd, həzz, qədd, cədd.

**§ 293.** 292-ci çalışmadakı sözləri köçürün, hər birinə ayrılıqda həm saitlə, həm də samitlə başlanan şəkilçi əlavə edin, düşən səsi mötərizədə göstərin.
***Nümunə:*** fənn + in, fən(n) + lər

**§ 294.** Köçürün, nöqtələrin yerinə buraxılmış hərfləri yazın.

A..imilyasiya, ante..a, a..istent, a..arat, ba..ada, ba..on, ma..aj, kla..ik, para..el, pa..aj, libere..o, opere..a, tu..el, reji..or, şo..e, se..iya.

**§ 295.** Köçürün, tərkibində eynicinsli qoşa samit olan sözlərin altından xətt çəkin.

l. Bir kranı və ya vinti burmaqla kompressorların və ya motorların işini nizama salırlar (*C.C.*). 2. İyirmi illik aktyorun heç olmasa otuz illik rejissoru olmalıdır (*C.C.*). 3. Perrondakı xırdaca gölməçələr yay günəşinin işığında göz-göz parıldayırdı (*Q.İ.*). 4. [Əmirulla]: Moskvadan alınan teleqrama görə pyes yarış komissiyasında birincilik qazanmışdır (*C.C.*). 5. O, bilirdi ki, Şirin həmişə gəliri çox həvəslə qəbul edir, yazır, kassaya, anbara təhvil verir (*B.B.*). 6. Ona kömək etdi, rayon hərbi komissarlığına zəng edib Səlimi dinləyib yola salmağı tapşırdı (*S.Rəh.*). 7. Xalq yaradıcılığı çeşmələrindən bəhrələnərək, bir sıra alleqorik hekayə, təmsil, nağıl, əfsanə yazmışam (*S.Rəhim*). 8. Hüseyn qüvvətli bir faciə aktyoru və rejissoru kimi böyük ad qazandı (*S.Rəh.*). 9. "Sitarə" adlı "operasının" librettosunu Cabbarlı xalq nağılı əsasında yazmışdı (*M.Ar.*).

10. Arzu da beləcə sərhədsiz olur,
Ümman da beləcə, göy də beləcə.
Ruhumuz sərhədsiz olduğu üçün
Payımız gəlibdir göydən beləcə! (*S.R.*)

§ **296.** Verilmiş sözləri qoşa samit tipinə görə qruplaşdırıb yazın.

***Nümunə:***
**<ll>** – kolleksiya, kollektiv..

Akkord, novella, attraksion, ellips, kommutator, rejissor, akkardion, affiks, elliptik, korrektor, sellofan, akkreditiv, affrikat, illüstrasiya, krossvord, sellüloid, akkumulyasiya, barrikada, immunitet, libretto, sellüloz, akkumulyator, bülleten, kalliqraf, operetto, tennis, alleqoriya, vanna, kassa, opponent, terror, alleqorik, qamma, klassik, opportunist, truppa, alüvial, qrammatika, kolleksiya, attestasiya, annotasiya, qrammofon, kollektiv, attestat, appendisit, dissertasiya, kollektiv, perron, pessimizm, kollegiya, komissar, kommuna, kommunikativ, ballada, diffuz, distillə, dissimilyasiya, sessiya, akkompanement.

**§ 297.** 296-cı çalışmadakı sözlərin hərəsinə aid bir cümlə yazın.

**§ 298.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə qurub yazın.

I. Paralel, aparat, pasaj.
II. Antena, şose, tunel.
III. Masaj, balon, defekt.

**§ 299.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə yazın.

I. Təəccüb, məəttəl, təəllüq.
II. Təəssüf, təəhhüd, təəllüm.
III. Təəssürat, mütəəssir, təəşşüq.

**§ 300.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1) İlya.., Alxa.., İdri.., Qiya..
2) Alma.., Qorxma.., Dönmə.., Eyva.., Əbülfə.., Niya.., Hafı.., Çimna.., Bəhm.., Ara.., Aya.., Tovu.., Çingi.., Çərkə..

3) Sira.., Oru.., Fərə.., Zərinta.., Tura..,

4) O..tay, Nami.., Fai.., Sadı..

5) Ni..ar, Ələs..ər, Yadi..ar, Cahan..ir, İs..əndər

6) Mika..ıl, İsma..ıl, Hüse..n, Pe..kər, Ma..is, Üze..ir, Zin..ət, Xəta..i, Ce..hun, Məle..kə

7) A..as, Ca..ar, Hü..ət, Bürhanə..in, Bəhyə..in, Bahə..in, Müzə..ər, Mütə..ib, Mütə..im, Ruhu..a,

8) Sə..ar, Sədu..a, Tmacə..in, Fə..ux, Fə..ah, Xeyru..la, Həbibu..a, Şəmsə..in, Münə..ər, İ..ət.

**§ 301**. Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Hüm..ət nə qədər düşündüsə, bu cür iş tapmağa çətinlik çəkdi (*Ə.V.*). 2. Zərin..ar, xanım bunların heç birinə fikir vermədi, kəlağayını düzəldib eyvandan endi (*İ.Ş.*). 3. Molla Sadı.. halını pozmadan yanında dayananlara baxdı (*İ.Ş.*). 4. Eyvana yetişincə Qa..bay yenə kamança çaldı (*A.Ş.*). 5. Əhmə. nə qədər çalışsa da, müsəlmanlığını sübut edə bilmədi (*İ.Ş.*). 6. Mura.. kişi çiynindən sürüşüb düşən əbasını düzəldib qışqırdı (*İ.Ş.*). 7. Fərha.. söhbətinin dalısını söyləyirdi ki, həyət qapısı döyüldü (*Ə.V.*). 8. Mahmu.. konserv qutularını götürüb sürünməyə başladı (*İ.Ş.*). 9. [Hacı Əhməd]: Mənə, bacıqızı, Hacı Əhmə.. deyərlər; mən bir adamam ki, iş düşmənçilik məqamına gələndə, yamanlığa gələndə, gözümə patron sıxsalar, ayaq geri basmaram (*C.C.*). 10. Əsə.. babanın vəziyyəti bu gün daha ağırlaşmışdı (*B.B.*). 11. Səmə.. gedəndən sonra Tükəzban doqqazda dayanıb ərinin dalınca baxdı (*İ.Ş.*). 12. O, getməyə hazırlaşırdı kı, uzun və gen donunun ətəyi yerlə sürünən, başını çalmalamış Göv..ər qarı böyürdən çıxdı (*İ.Ş.*). 13. İs..əndər uzanıb Cavidin kələ-kötür pambıq balışını başının altına çəkdi. 14. Xali.. neçə gün idi ki, Nailə müəllimdən əl çəkmir, Elxanın yanına getmək üçün icazə istəyirdi (*O.Sal.*).

15. Qayınatası Çərkə..in hərəkətlərini izləyirdi. 16. [Hacı Əhməd]: Baloğlan, mən neçə kərəm də demişəm: aşiqəm Alma.. xanımın danışığına (*C.C.*). 17. Kənddə Mər..an qarının xasiyyətini bilənlər ondan aralı gəzərdi (*B.B.*). 18. Duman çəkilmiş, dan yeri yenicə sökülürdü; şər., bulu..lari altun kimi parıldayır; ay və ulduzlar sonü.. bir halda gözdən itirdi; sü..hün həzin yeli yaşıl yarpa..ları titrədir; bula..ların daşdan-daşa tökülüb şırıldaması bağları canlandırır; çiçəklər baş-başa gələrək bülbülün yanı..lı nəğməsinə səbəb olurdu (*Y.V.Ç.*). 19. Kürün sahilində Mələ..ə rast gələndə o heç nə fikirləşmirdi (*İ.Ş.*). 20. Hörmətsiz edildiyini görən Süsə..bərin əli dodağında qaldı (*B.B.*).

**§ 302.** Aşağıdakı şəxs adlarının hər birinə aid iki cümlə yazın.

I. Aliyə, Mərziyə, Raziyə, Zəkəriyyə, Əhmədiyyə, Müseyyib, Əyyub, Teyyub, Təyyar, Bəhriyyə, Bəhiyyə.

II. Səyyad, Ülviyyə, Sürəyya, Süriyyə, Xeyriyyə, Hədiyyə, Zülfiyyə, Zəkiyyə, Ələviyyə, Lütfiyyə, Şəmsiyyə.

III. Rəmziyyə, Şərqiyyə, Səbiyyə, Hüriyyə, Nuriyyə, Hüsniyyə, Ruqiyyə, Səyyarə, Səmiyyə, Səriyyə, Səfiyyə.

**§ 303.** Qrupunuzdakı tələbə yoldaşlarının adlarını yazın.

**§ 304.** Yaxın qonşudan başlayıb uzaq qonşuya qədər tanıdığınız şəxslərin adlarını yazın.

**§ 305.** Dost və tanışlarınızın adlarını yazın.

**§ 306.** Sizə dərs demiş və dərs deyən müəllimlərin ad və familiyasını yazın.

**§ 307.** Əsərlərini oxuduğunuz yazıçıların ad və familiyasını yazın.

**§ 308.** Qohum-əqrəbanızın adlarını aşağıdakı ardıcıllıqla yazın.

Baba, nənə, ata, ana, qardaş, bacı, qardaşoğlu, bacıoğlu, əmioğlu, əmiqızı, dayı, dayıoğlu, dayıqızı, xala, xalaoğlu, xalaqızı, bibi, bibioğlu, bibiqızı.

**§ 309**. Dilimizin ad sisteminə yad olan şəxs adlarını göstərin.

**§ 310.** Əsərlərilə tanıdığınız ədib və şairlərin təxəllüslərini yazın.

**§ 311.** Tanıdığınız adamların ləqəb və ayamalarını toplayıb yazın.

**§ 312.** Oxuyun, qara yığılmış hərflərə fikir verin, hər sözə aid bir cümlə qurub yazın.

Bilgəh, Novxanı, Xaçmaz, Şahbuz, Şiraz, Tovuz, Bağdad, Baxçasaray, Xudat, Bibiheybət, Sumqayıt, Zəngəzur, Zərdab, Kəlbəcər, Corat, Culfa, Çuxuryurd, Müqtədir, Aşqabad, Ağstafa, Abşeron, Naftalan, Neftçala, Carkənd, Astana, Dəlməmmədli, Qovlar, Zaqatala, Quba, Kuba, İsgəndər.

**§ 313.** Doğulduğunuz şəhər və ya kəndlə əlaqədar olan yerlərin adlarını yazın.

**§ 314.** Doğulduğunuz və yaşadığınız yerdəki nəsil, tirə, ailə adlarını toplayıb yazın.

**§ 315.** Nəzərinizi cəlb etmiş heyvan adlarını (xüsusi adları) göstərin.

**§ 316.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

l. Onun qılın..ı qarğaşalıq içində vumu..an düşmən soldatlarını ..içir, vəfalı Kəhəri isə külək kimi ötüb keçirdi (*M.C.*). 2. Sən sadəlö..hsən, bir qədər də səfe..sən, mənə də çox bel bağlama (*B.B.*). 3. Bakını aba..laşdıranlardan, uca binaların la..i..əsini çəkənlərdən biri idi (*B.B.*). 4. Qönçə nənə onlardan neçəsini qızlığa, oğulluğa götürdü, bir az təs..inlik tapdı (*C.Ə.*). 5. Aqilin qu..barası heç kəsə aman vermədi (*M.C.*). 6. Qarının yıpranmış ..öhrəsində Zərifənin dodaqdarının marça-marçı eşidildi (*Ə.Ə.*). 7. Son zamanlarda cəbhədə onların bo..bardmançı tə..arələrinə az-az təsadüf edilirdi (*H.A.*). 8. Qəbrin üstündə təzə çöl çiçəklərindən və göy otlardan hörülmüş iri çələn.. də vardı (*H.A.*). 9. Ulduz bir an duru..du, nə deyəcəyini, nə edəcəyini bilmədi (*Ə.M.*). 10. Birinci dəfə idi ki, o, fikrinin ağır və gər..in təz..iqini duymaqda idi (*Ə.M.*). 11. Kamal öz təş..işini, həyəcanını anasından gizlətməyə çalışırdısa da, bir şey çıxmırdı (*Y.Ə.*). 12. Kamalın üzünü kədər bulu..lari bürüdü, gözlərindəki sevin.. bir anda silinib getdi, qəhərlənmiş adam kimi tez-tez ud..unmağa başladı (*Y.Ə.*). 13. İncə kəndi ilə Qalalı kəndinin yol ayrıcında bir çayçı ..ükanı var (*Sab.Rəh.*). 14. Nəriman kimi müdrik bir cavanı özünə tərəf cəlb etmək onun gördüyü işlər üçün, apardığı təbli..at üçün lazım idi (*Ə.H.*). 15. Pələn..dən çəkinmə, keçsə yanından, Sən ona dinməsən o, dinən deyil (*H.A.*). 16. Biz hər il imkanlarımızı nəzərə alıb yeni öh..əliklər ..əbul edirik. 17. Bu dəfə dirsə..ini torpa..a yox, sol dizinə sö..kədi, sağ əlini bir ələm kimi havaya qaldırıb ilk sözünü təkrar etdi (*M.C.*). 18. Namazlı kən..ə çatanda, bir dalda dön..ədə cilo..u çəkdi (*B.B.*). 19. Cəfər əmi

birdən hamını təş..işə salan bir fərzi..ə ortalığa atdı (*M.S.*). 20. İki damla göz yaşı mun..uq kimi girdələnib yana..ına süzüldü.

**§ 317.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. O, indi sadəlö..hlüklə bir şeyin fikrini çəkirdi (*Ə.Ə.*). 2. Uşaq zehnini bakir, kö..rək, hə..as, saki.. və gü..lü bir aləmi, kimsə ilə hesablaşmayan, kimsə ilə məsləhətləşməyən, çox şeyləri ölçüb-bi..məyən, leysan selindən doğub-..oşan, sahilləri ağzına alan təbii tələbləri var (*M.C.*). 3. Arva..ların qışqırtısı bir-birinə qarışdı..ından o..dan qayıdan Cahandar ağanın həyətdə dayandı..ını hər kəs görmədi (*İ.Ş.*). 4. Kənd təsərrüfatı maşınlarını boşaltmaq, təh..il almaq, yola salmaq ən azı do..uz, on saat vaxt alacaqdır (*O.Sal.*). 5. Gən..lərin bu qay..ısızlığı, təbiətcə cid..i və təm..inli olan Tahirə bir cür görünürdü (*M.H.*). 6. Toz-torpa..ı yuyulmuş as..alt səkilər və kü..ələr atla.. təki bərq vururdu (*M.Sül.*). 7. Bir-birindən üç-dörd addım aralı ..itmiş ağa..ların arası ilə var-gəl edən keşikçi, boynundan asdığı a..tomatın qunda..ından tutub, qaba..a-meşənin sıxlığına doğru uzanan dar və əyri cığıra baxırdı (*H.A.*). 8. Qara damın qaba..ındakı çarda..ın dirə..ini özünə dalda edən Çər..əz qaraltının kim olduğunu bilənə qədər əlini tüfəngin təti..indən çəkmədi (*İ.Ş.*).

9. Al-..aşıl geyinmiş uca dağların
Qartallı qoynundan uzaqlaşmışam;
Könül b..landıran, xəyal küsdürən
Tozlu bir diyarla qucaqlaşmışam (*S.V.*).

10. Gecələr ay gülməz, bulu..lar qara,
Boğulur varlığım hər bir a..dımda.

Mən çox dırmaşmışam qar..ı dağlara,
O ellər dünyası yaşar yadımda (*S.V.*).

11. Adətən, camaat iclasdan çıxanda, ya da ..lubdakı tamaşadan dağılanda ge..ə yarıda kən.. birdən-birə canlanırdı (*İ.Ş.*). 12. Qapının zən..i, məş..in arasını kəsmək üçün bəhanə axtaran Zərifə üçün lap tapılmış kimi oldu (*Ə.Ə.*). 13. Xıdır peyğəmbər dirilik suyundan içib yox olmuş və paxıl bir şərqli kimi, əbədi..ət si..ini kimsəyə bildirmir (*Y.V.Ç.*). 14. Ə..ər Səadət mənə qarşı düşmənçilik aparmasaydı, hər iş öz qaydası ilə gedirdi və mən yalnız öz dər..imlə ne..ə mübarizə aparmaq ha..ında düşünərdim (*İ.Ə.*). 15. Şirmayı, adəti üzrə, divanda ba..daş quran nənəsinin yanına yü..ürər, başını onun dizinin üstünə qoyub, söylədi..i mara..lı nağılları dinlərdi (*M.H.*). 16. Əlisəfa məsələnin başqa şəkil alaca..ını görüb söhbətin mövzu..unu dəyişdirmək fikri ilə Pakizənin sözünü kəsdi (*A.Ş.*). 17. Tapdıq, Əşrəfin şap..asına, bala..ı düz şalvarına baxdı və ..ilovu çəkib atı saxladı (*İ.Ş.*) 18. Çıra..m sol..un işı..ında aydın görünməsə də Əşrəf atasının birdən-birə ..utuldu..unu hiss etdi (*İ.Ş.*). 19. Reji..or Aydın rolunu ifa edən artisti çağırtdırıb bizimlə i..irmi-i..irmi beş dəqiqəlik məş.. keçdi (*İ.Ə.*).

20. Sənsiz könl..m ağlar mənim,
Göz yaşlarım cağlar mənim,
Məcnun olsam çöllər mənim
Fərha.. olsam dağ mənimdi (*M.M.*).

**§ 318.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

l. Eşi.. ağası dəhşətdən gözlərini yumub xanın yanına qaçdı və ağlaya-ağlaya: Allah yaratdığına o zülmü etmir ki, sən edirsən – deyib, göz yaşları ilə xanın aya..larını is-

latdı (*Y.V.Ç.*). 2. Məşriq kişi həyətini giro.. qoyub pul tapdı, ərizə yazan mirzələrdən birini şəhər polisinə vasitəçi saldı (*M.C.*). 3. Camaatın yarısı us..a tikən ..ünbəzə yaxşı deyir (*S.Rəh.*). 4. Bağdagül bacı özünə yun ce..per və yastıdaban tufli, Şahlar isə bənövşə rəngli bir kost..um, üç ağ köynək və qalstu.. aldı (*İ.Ə.*). 5. İstəyirsən döşə.. saldırım, elə gə..ənin üstündə əyləşək (*İ.Ş.*). 6. Qayı..ı külə..in istiqamətinə buraxıb yarğanın di..i ilə gedən yoldaşlarının arxasınca baxdı (*İ.Ş.*). 7. Müxtəlif markalı traktorlar, başqa kən.. təsə..rüfat mexanizmləri, taxıllı düzlərimizin bəzəkli gəlini olan ko..baynlar, təzə rəng iyi verən yük maşınları aşağı endirilib stansiyanın böyük həyətinə daşınırdı (*O.Sal.*). 8. Ceyran adamların hər bir hərəkətindən və qula..ıma dəyən ən xəfif bir şa..ıltıdan belə sə..sənir, qumral və iri gözlərini daha da geniş açıb dartınırdı (*M.H.*). 9. Fatma xala ərinin gəldi..ini gördükdə, əlində toxuduğu yun köynə..i yana qoyub, cəl.. mətbəxə yüyürdü (*M.Sül.*). 10. Əsgər Züleyxaya verdiyi bütün bu əzi..ətlərdən kifayətlənməyərək, hət..a onu doğma qardaşı Aslangilə getməyə də qada..an etmişdi (*C.C.*). 11. Məktəbin qaba..ındakı bağda baş-başa verən çinar ağa..ları, salxım söyü..lər elə bil mür..üləyirdi (*İ.Ş.*). 12. O, kitabı qat..ayıb əlinə aldı (*İ.Ş.*). 13. Dəstədə on nəfər əla nişançısı, iki də şə..qət ba..sı vardı (*M.H.*) 14. Tükəzban xala saki..-cə, gözlərini qıyıb gələn adama baxdı və birdən qollarını açıb oğlunun qaba..ına yüyürdı (*İ.Ş.*). 15. O, pus..uda duran ov..u kimi, dərin bir həyə..an içində Alma..ın yolunu gözləyirdi (*A.Ş.*). 16. Lalə bu qaba cümləni sərt bir hərəkətlə yarıda kəsib, xudahafizləşmədən rəfiqəsini tər.. edib getmişdi (*M.H.*). 17. Mən, Qərənfil ba..ının belə tanınmış adam oldu..unu indiyə qədər bilmədiyim üçün xə..alə.. çəkirdim (*İ.Ə.*). 18. Tapdı..ın atdan yıxdı..ı kaza.. bir xeyli kəməndlə bərabər süründükdən sonra aya..a qalxdı (*İ.Ş.*). 19. Leyla xala üzünə tökülmüş ağ saçlarını sağ əli ilə örpə..i-

nin altına saldı, sonra buzo..u tumarladı və kö..üklü sü..lə dolu sərni..i götürüb xırda addımlarla evə getdi (*M.Sül.*). 20. Keçən günlərdə məni ..ütün toplanışlarda, söhbətlərdə inandırdılar ki, doğrudan da əsil i..idlik nümunəsi göstərmişəm (*B.B.*).

**§ 319.** Oxuyun, qara yığılmış hərflərə fikir verin və hər sözə dair iki cümlə qurub yazın.

Felyeton, futbol, günbəz, kəfgir, gübrə, gövhər, girov, məxfi, nagah, nikah, nisgil, ovqat, ovuq, ögey, rüşeym, ruzigar, qabırğa, çidar, çovğun, düşgün.

**§ 320.** Oxuyun, qara yığılmış hərflərə fikir verərək aşağıdakı sözlərin hər birinə dair üç cümlə qurub yazın.

Vətəgə, şahmat, qanqal, qərargah, qıyğacı, qırtlaq, qovluq, qovut, qutab, qonaqcıl, dustaq, dükcə, dibçək, dəsgah, itik, yaba, yalquzaq, yeknəsəq, yarğan, kövrək.

**§ 321.** Oxuyun, qara yığılmış hərflərə fikir verin, hər sözə dair iki cümlə yazın.

Aşpaz, adətkərdə, assistent, affrikat, abgərdən, appendisit, buterbrod, baldırğan, biabır, bazirgan, balış, bürünc, bəkməz, bitki, bilərzik, bağırsaq, boğanaq, basketbol, bahaçıl.

**§ 322.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Rota isə f..vqəladə qəhr..manlıq göstərib onu geri oturtdu (Ə.Ə.). 2. O, hər iki tərəfin bir-biri üstünə tökdüyü minlərlə mərminin, bo..banın yerin təkindən dartıb çıxart-

dığı toz s..tunlarını çəkib yuxarı qaldırıb, onları parçalayıb, orada, bir d..vaq kimi üzünə çəkərək yerə baxmamaq, elə bil xeyirlə şər çarpışmasının bu çıl..ın cəhənnəm tamaşasını görməməyə çalışırdı (*Ə.Ə.*). 3. Di..ətlə baxılsaydı, mü..yinə edilsəydi, onun üz-gözündə və bütün v..cudunda göyərib qaralmayan, qançırlanmayan bir n..qtə belə olmadığı görünərdi (*Ə.Ə.*). 4. Zavallı bunları düşünür, bağrı ad..tən çat..ayır otura bilmir, hövlnak qalxır, sanki bir çarə tapacaqmış kimi, mənasızcasına ətrafına baxmır, nəhayət yenə daxmanın bir b..cağına yıxılıb, ağlamağa başlayırdı (*C.C.*). 5. Evlənmək istəyən bir qədər p..şkeş özü ilə götürüb, b..-yin qulluğuna gedib, ondan izn almaq məcburi..ətində idi (*Ə.H.*). 6. İsrafil kişinin mə..şəti təmin olunduqdan sonra kiçik oğlu Qəhr..man da bir p..şə dalısına düşməyə məcbur oldu (*Ə.H.*). 7. Müharibənin ağır illəri, qəhr..manlıqla şəhi.. olanlar, kökündən kəsilmiş ağaclar kimi torpağa sərilənlər, rütubət və qan qoxuyan sən..ərlər, barı.., yan..ın qoxusu elə bil onu hər tərəfdən bürüdü, qulağına, qızğın döyüş çağırışları, iniltilər gəldi (*Q.İ.*). 8. Gülzar özün.. bilmirdi; bəyin qardaşı gəlinin belini bağlayır, arva..lar, kimi çalır, kimi oxuyur, o yan-bu yana qaçır, "Allah-Allah", – deyir xəlfə dua oxuyurdu (*C.C.*). 9. Axşamk.. g..r yağışdan sonra elə xoş, elə parlaq bir gün çıxmışdı ki, p..ncərədən bağ, nizamla əkilmiş gül-çiçək ləkləri məsud bir nazla gülümsünür, yarpaqların üstündəki su zə..ələri günəşin ş..aları altında in..i kimi parlayırdı (*S.Rəh.*). 10. Artıq Gülzar daha ağır işlər görə bilir, mal-qara saxlaya bilir, xalça, pala.. toxuya bilirdi (*C.C.*). 11. O, ananın bu payız axşamı kimi saki.. bir hüz..lə ürəyi yarpaq kimi titrədən səsini eşitdi (*Ə.M.*). 12. Beləliklə, uzun qış ge..ələri o müdhiş gecənin fəl..kətlərini, dəhşətlərini düşünərək, bir i..tirab içində altı ay gözləyib durmuşdu (*C.C.*). 13. Orta mənfə..tin sahibkar gəlirinə və fa..zə bölünməsi pr..porsiyası kapitalın tələb və təklifi nisbətində,

pul kapitalları bazarının vəzi..ətindən asılıdır (*"S.İ."*). 14. Lakin bir saniyə keçmədən yeni bir şey xatırlayırdı: O mənim an..larıma inanma..sa? – deyə yenidən pozulur, müdhiş bir iztirab onu bürüyür, yenidən Quranı bağrına basıb, köhnə qabığını göz yaşları ilə isladırdı (*C.C.*). 15. Leytenant bir-bir silahları, qu..baraları və ..ıçaqları yoxladı (*İ.Ş.*). 16. Hürzad xala kö..sünü ötürüb gözlərini pəncərəyə ..ikərək, dərin fikirlərə daldı (*Y.V.Ç.*). 17. Düşmən həmin yerin qa..çı ilə kəsildi..ini zən.. edib atəşə başladı (*İ.Ş.*). 18. Səni mühaz..rəçi ediblər ki, mənim ürə..mi də əlimdən alsınlar? (*B.B.*). 19. Nadir bir şey kəş.. etmiş kimi sevindi və dəf..əri götürüb, güllə kimi pillək..lə.. üzüaşağı yüyürdü (*Ə.M.*). 20. Bütün xal.. bir dağdan qalxan ordu kimi, al..ış deyib əlimi sıxır, ka..nat mənə qızılgül bağı kimi görünür (*M.C.*).

**§ 323.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

l. Gənc ifaçıların müsa..i..əsi böyük müvə..əqiyyətlə keçdi, r..yal, kaman, arfa, klarnet, tar, k..mança, adi çoban tütəyi çalan gənclər səhnədə bir-birini əvəz etdikcə, dünyanın ən böyük bəstəkarlarının əsərləri müxtəlif m..siqi alətlərində səsləndikcə elə bil dinləyici bir neçə sa..tin ərzində ötüb keçmiş əs..lərin, d..vrlərin, fəsillərin içərisində yenidən yaşamağa başlayır (*Sa.Rəh.*). 2. Aqil səb..rli o..çu kimi şikarını lap yaxına buraxdı, sonra silahını dilə gətirdi (*M.C.*) 3. Həkim qızardı, bulanıq gözlərini yerə ..ikib ud..undu (*M.H.*). 4. Hamı ilə xudahafizləşmək istəyirdi (*Ə.M.*). 5. Dör..üncü sinfi qurtarıb şəhərdəki yeddiillik məktəbə getmək mə..amı çatanda, mü..llimimizlə bər..bər, Q..nç.. nənədən də ayrılmaq bizə ağır gəlirdi (*C.Ə.*). 6. O, mənim şik..yətimi dinləyib çox təm..inlə ancaq bunu dedi: – Siz n..haq əsəbiləşirsiniz, möhtərəm valide..n, sizin qızınız çox böyük və nəcib bir iş görür (*Cə.M.*). 7. Yenicə qurulmuş

cümhuriyyətin çətinlikləri, əz..b və məhrumi..ətləri, x..susilə son aylarda ayrı-ayrı q..zalarda baş vermiş əksinqilabi üsyanlarla m..barizənin ağırlığından doğan mənəvi sarsıntı və həy..canlar sədrin simasında elə dərin izlər buraxmışdı ki, bunları duymamaq mümkün deyildi (*Q.İ.*). 8. Fərha.. filarmoniyada da gən.. ifaçıların müsa..i..əsində münsiflər k..misyonunun üzvü idi, yekun baxışında iştirak etməli idi (*Sa.Rəh.*). 9. Onun da tale..inin həl.. olunacağı bu yerdə, doğulub böyüdüyü torpaqları bir daha görə bilmək üm..di, görəsən onun qəlbini isidə biləcəkdimi? 10. Zavallı qız..ığaz, həy..can və i..tirabdan ürəyi partlayır, bihuş olmaq dərəcəsinə gəlirdi, qula..larında anlaşılmaz bir şey guruldayır, bütün gördüyü şeylər gözünün qarşısında oynayır, hərəkət edirdi (*C.C.*). 11. Vəlinin sözlərindən artıq səsindəki titrəyişdən, cəld və tələsik hərəkətindən Pəri xala anladı ki, o, ağır, qorxulu, həm də xey..rli səfərə çıxır (*İ.Q.*). 12. Nizami Gəncəvinin əsərlərində bərbət kimi adı çəkilən üçtel..i saz yəqin ki, ikitel..i qopuzun təkmil var..antıdır. (*A.Mirzə*). 13. Bu mü..dət ərzində o, layların açıq olduğu yerləri dolaşmış, dərələrdə, yama..larda, təbə..ələrin xari..ə çıxan hissəsində onların qalınlığını, yatım şər..itini, meyl bucaqlarını, dikliklərini, yastılıqlarını və başqa xüsusiyyətlərini müə..ən edib dəf..ərinə yazmış və bəzi mühüm şeyləri xəritəyə qeyd etmişdi (*M.Sü.*). 14. Biz Hök..mət evinin yanından k..çib yenicə basdırılmış ağa..ların arası ilə s..hilə endik (*İ.Ş.*). 15. Gülşən anasının xörə..ini verdi, ona dərm..an içirtdi (*M.Sü.*). 16. Küçələr bayramsaya..ı al-əlvan paltar geymiş şad-xü..əm adamlarla dolu idi (*M.Sü.*). 17. Kürü üzüb o üzə keçməkdə birincilik qazanan, at çapıb xəncər oynatmaqda heç kəsə aman verməyən, yaba, yumru.. davasında dəfələrlə qalib gələn Şamxal buradan uza..laşmağı qərara aldı (*İ.Ş.*). 18. Eyvanın baş tərəfindəki buxarıda sac asan Tük..zban xala, axırıncı çörə..i qıra..layıb aya..a durdu

(*İ.Ş.*). 19. O, ş..hadət barma..ı ilə vatman vərə..inə yapışdırılmış şəkilləri göstərdi (*M.Sül.*). 20. Mühar..bə d..vründə işçi qü..əsi çatmadığından, çox vaxt bu işlər səfərbərlik şəklində həyata keçirilirdi (*İ.Ş.*).

**§ 324.** Köçürün, nöqtələrin yerinə müvafiq hərfləri yazın.

1. Rəngarəng fişən..lər hər tərəfi çıra..bana döndərmişdi (*M.H.*). 2. Dəstənin nə zaman və nə üçün g..ldiyindən xəbər tutan ya..ı düşmən uçun ..vləri hər tərəfdən mühas..rəyə almışdı (*M.H.*.). 3. Hicranın yanı..lı ça..ırışı onu sarsıtdı (*M.H.*). 4. Enli taxta körpü, d..yəsən zavod atlarının dırnaq səsi və qaçışından va..himəyə düşmüşdü (*M.C.*). 5. Hərbi eşalonda Yusif bizim müşa..iətçimiz olmuşdu, onun g..r səsi, qırğı baxışlı gözləri, hərəkətlərindəki dəqiqlik və kəs..inlik hər kəsə təlqin edirdi ki, Yusif kimi komandirə topun, tankın da gücü çatmaz (*B.B.*). 6. Ayın sol..un işığı pəncərədən içəri düşüb uşaqların tut..un üzünü daha da kədərləndirirdi (*C.C.*). 7.Tö..şüyə-tö..şüyə evə doğru qaçdı, birnəfəsə pilləkənləri yuxarı qalxdı (*Ə.M.*). 8. Belindən aşağı sallanan qaynama bula.. kimi şabalı.. rən..li g..r saçları, eyni rəngdə çatma qaşı, uzun boyu onu qədim Şərq miniat..rlərində təsvir olunan və qəzəllərdə təriflənən gözəllərə bənzədir (*Sab.Rəh.*). 9. Yay günəşinin son ş..uları sahildəki uca palı.., şam ağa..larının yaşıl yarpaqları arasından süzülərək üz-gözünü oxşayır, mənə dadlı bir mür..ü gətirirdi (*Ə.Q.*). 10. Qoca iri, motal papağının qulağına toxunan yerini iki-üç dəfə qaşıdı, qara patavasına keçirdiyi uzun çubuqlu q..lyanını çıxarıb tənbəki kisəsindən doldurmağa başladı (*M.H.*) 11. O sə..də qıldığın çinar kölgəsi, mənim də şerimin qibləg..hadır (*S.V.*). 12. Faşist zabi..inin Fərha..la sorğu-sualı əvvəlcə çox müla..m, get-gedə çoş..un və təlatümlü dəniz şəklində getdi (*Ə.V.*). 13. Duzlu sözləri ilə hamını güldürən bu aş..az qız, iki həf..ə ərzində bir dəfə

də olsun onu danışdıra bilməmişdi (*İ.Ş.*). 14. Gən.. ata və ana evdə olduqda ço..uğu qarşılarına qoyub dindirir, əllərini və başını oxşayaraq, mi..bir həz.. duyurdular (*Y.V.Ç.*). 15. Cavanlar at..arı qoşalaşdırır, xəndə..lərdən at..anaraq, tel-tel olmuş zəmilərin arası ilə çapıb gözdən itirdilər (*İ.Ş.*). 16. Kən.. ailə as..də nəfəs alaraq xoşb..xt yaşayışına yenidən d..vam etməyə başladı (*Y.V.Ç.*). 17. Mil..onlarla p..ncərə şüşəsi günəş tellərindən bəzək taxıb şöləndi, mavi su səhrası zümrü.. təki bərq vururdu (*M.Sül.*). 18. Hiss olunurdu ki, o məş..ul oldu..u işdən xəyal..i hələ də ayrılmamışdır (*Q.İ.*). 19. Usta, günün axırında buru..u qazmaçılara tapşırıb evə yollandı, çıra..lar yananda gəlib evə çatdı, şam etdi, yasdı..a sö..kənib çubu..u tüstülətdi, yanğısını söndürmək üçün dalbadal bir neçə stək..n çay içdi, eynə..ini çıxartdı və qəzeti büküb yana qoydu (*M.Sü.*). 20. Çoxdan bəri hər tərəfi iş..al etmiş şah Qacar indi də gözəl Qarabağa h..cum etmək, oranı da qan dəryasında üzdürmək fikrində idi (*Y.V.Ç.*). 21. Qafar dayı xörə..ini yeyən kimi sətin p..ncəyini geyib həy..t.. düşdü (*M.Sül.*).

**§ 325.** Mətni diktə ilə yazın, sonra yazınızı orijinalla yoxlayın.

I. Şirvanın ağ üzümü,
Yeməyə bağ üzümü
O qədər ölməyərdim
Görəydim sağ üzünü.

Şirvan Azərbaycanın ən qədim mahallarından biridir, mədəniyyətimiz tarixində mühüm rol oynamışdır. Yalnız Azərbaycanda deyil, bütün Şərqdə şöhrət qazanmış Xaqani, Fələki, Kəmaləddin Məsud, Mövlana Nəsirəddin, Mövlana Rüknərdin, Məhəmməd Əmin Sədrəddin, Seyid Yəhya Cəlaləddin, Yusif Ziyaəddin Məkdum, Əbubəkr ibn Rüstəm, Əhməd Həmdi, Xalis Məhəmməd, Sədrəddin

Məhəmməd Sadiq, Əbdürrəhim, Fəthulla, Yusif ibn İbrahim, Bahar, Nakam, Nişat, Nitqi, Məsih, Seyid Əzim, Sabir, Abbas Səhhət, Hadi, Soltan Məcid Qənizadə və başqa şair, ədib və alimlər bu torpaqda yetişmişlər.

Şirvan ötədən bəri möcüzələr və əfsanələr mərkəzi kimi tanınmışdır. Şərq müəlliflərinə görə, abi-heyvan və səxreyi – Musa burada imiş. Dirilik suyu və bəni-İsrayıl nəbilərinin tapındığı qaya varmışmı? Xalq bunun varlığına inanmış və bu sahədə bir sıra əfsanələr yaratmışdır. Xıdır peyğəmbər əbədiyyət sirrini kimsəyə bildirmir.

Şərqin ötgün xəyalı ilə tarixi çərçivədən ayrılmış İskəndər də dirilik suyuna umsunaraq Şirvana gəlir və əlinə bir ölü balıq alaraq Gülüstani-İrəm bulaqlarını dolaşır. Heyhat! Balıq da Xıdırnəbi kimi, əbədi həyat bulub qaçır və sirri Makedoniya cahangirinə bildirmir. Taleyin qəribə cilvələri var: dünyanı qəhrəmanlığı ilə titrədən, günəş kimi qəvi və atəşin bir gözəllik, bac alaraq yaxasından altun gərdənbəndini qoparan İskəndər bir balıq qədər məsud ola bilməmişdir.

Şirvan belə Şirvandır.

Ulduzlu əfsanələr donuna bürünmüş bu ölkənin həqiqi tarixi isə olduqca qanlıdır: ölkə bütün tarix boyu cahangirlər əlində oyuncaq olmuş, dəfələrlə dağılmış, əhalisi qırılmışdır. Zatən bütün Azərbaycan şəhər və kəndləri tarixi axınların qurbanı olmamışmı? Hələ miladdan əvvəl Dərbənddən keçib, cənuba yayılan iskitlər, alanlar, sərirlər, sabirlər ölkəni xarabazara çevirdilər, Sasani hökmdarları cənub mədəniyyətini bu vəhşi axından qurtarmaq üçün Dərbənddə böyük bir sədd yapmışdılar. "Dərbəndnamə"nin rəvayətinə görə, bu sahədə ilk addımı Qubad atmışdır: axının önünü almaq üçün şimala hakim olan xaqanın qızına elçi göndərir, Xaqan razı olub, qızı verir. Qubad qohumluqdan istifadə edərək İskəndər səddini ehya edir. Dərbəndi bərkidir, oranın müdafiəsi üçün bir çox xalqlar

köçürülüb orada yerləşdirilir və "xaqanın qızından cocuq olarsa İrana fəsad düşər" deyə qızı geri göndərir (*Y.V.Ç.*).

II. Gəmi sahilə yaxınlaşarkən dan yeri təzəcə sökülürdü. Tarixi abidələri ilə məşhur olan Fransa şəhəri hələ yuxudan oyanmamışdı. Buna baxmayaraq, sahilə xeyli adam toplaşmışdı. Onların içində birisi mənim diqqətimi xüsusilə cəlb etdi, qalın qaşları, iri qara gözləri, bir qədər qabarıq dodaqları olan, başına qırmızı beret qoymuş qırx-qırx beş yaşlı bu kişinin enli çiyinlərinə ağ göyərçinlər qonmuşdu. Yəqin ki, səhər-səhər liman üzərində, havada qanad çalan göyərçinlər də onun idi. Lakin hər şeydən maraqlı və qəribə onun bizə zillənmiş həyəcanlı baxışları idi. Elə bil o, bizim sıralarımızda çoxdan bəri intizarını çəkdiyi əziz bir adamını axtarırdı. Bu kişinin siması nədənsə dərhal hafizəmdə nəqş olunub qaldı.

Biz bütün günü şəhərin muzeylərini, tarixi yerlərini gəzdik. Axşama yaxın nahar etməyə gedərkən yeməkxananın qabağındakı meydanda yenə də həmin kişini gördük. Göyərçinlər onun ətrafında vurnuxur, uçurdular. Mən qeyri-ixtiyari dayandım. Hələ yaxından tanımadığım bu adama, onun qarşısındakı uzunsov kiçik stola qoyulmuş əlvan kitablara, ətrafındakı quşlara baxmağa başladım. O, dərhal mənim nəzərlərimi duydu, səhərki həyəcanlı gözlərini üzümə zilləyib gülümsəmək istəyirmiş kimi dodaqlarını azacıq araladı. Lakin bu, təbəssüm deyildi. Onun gözlərində qəribə bir ifadə var idi (*Cə.M.*).

**§ 326.** Köçürün, sözlərdəki qara yığılmış hərflərə fikir verin.

I

1. Amandır, sazını sındırma aşıq!
Onu bir yar kimi bağrına bərk sıx!
O xalqın ruhudur, ona toxunma,
Ürək telləridir onun telləri (*M.M.*).

2. Eşqinlə bir atəş yaxılarsa
Pərvanəsi məndən.
Aşiqlərə zülfün teli zəncirə dönərsə,
Divanəsi məndən.
Dünya kədəri eşqə kitab olmalı olsa
Əfsanəsi məndən (*C.C.*).

3. Ay tərlanım, nahaq üzmə özünü,
Nalə də, haray da bil düşüb bizə
Xəzan dəyib gül bağçamız saralıb
Kökündən quruyan gül düşüb bizə.

Bağçamız saralıb gülü quruyub
Tanrı bəxt yazanda əli quruyub
Axmır çaylarımız, seli quruyub
Möhnətdən, zillətdən sel düşüb bizə.

Ulduzam, görürsən gülər üzümü,
Öz alovum hey qovurur özümü.
Hardan alım mən səbiri, dözümü?
Yaxşı ki, bir şirin dil düşüb bizə? (*U.Sönməz*)

4. O, tez-tez mədənə qayıtmağa məcbur olub, aylarla orada qalırdı (M.H.). 5. Əşrəf daha böyük bir maraqla Nazlını təqibə girişdi (Sab. Rəh.). 6. Timsahlar suda çox cəsur olduğundan heç kəs çaya girməyə cürət etmədi (*A.Ş.*).

II

1. Səngərdə oturanlar heç şeydən çəkinməyərək bir-biri ilə zarafatlaşır, gülür, bəzən də öz aralarında gülüşürdülər (*M.H.*). 2. Tədris prosesində bu rübün əhəmiyyəti, onun həlledici rolu məlumdur. 3. O, əvvəlcə mənasını özü də bilmədiyi farsca bir beyt oxudu (*S.Rəh.*). 4. Telefon-

la zəng edib bütün əlaqədar iş yoldaşlarıma və idarələrə məzuniyyətə getməyəcəyimi, layihəni qurtaracağımı xəbər verdim (*Ə.Y.*). 5. Hər anda mənzərəsini dəyişən təbiət onda başqa hiss və təsir buraxırdı (*S.S.A.*). 6. Muxtar kişi köhnə yoldaşının – xalq komissarının adı çəkilərkən iclas salonunda sürətli alqış səsini efir dalğalarında yaz daşqını kimi coşduğuna uzun müddət heyran-heyran qulaq asdı (*Ə.V.*). 7. Son illərdə bizim mədən bir növ təcrübə məktəbinə, yeniliklərin tətbiq olunduğu mərkəzə çevrilmişdir. 8. Mərdan anasının uzun-uzadı şikayətlərini dinləyib hərdənbir etiraz edir və eyni zamanda təsirinə də düşürdü (*Y.V.Ç.*). 9. [Şərif]: Əssəlam, ey adı Almaz, özü qönçədəhən, zülfü-sənəm, gözləri ahuyi-xətən, yenilik toxumu səpən!.. Xoş gördük, Almaz xanım, inci xanım, zümrüd xanım... (*C.C.*). 10. Məruzənin beynəlxalq simpoziumda rəğbətlə qarşılanması, elə bir mötəbər məclisdə təriflənməsi məni sevindirdi (*H.A.*).

III

1. Zərdüştə ilham verib insaniyyətə parlaq hürmuzd, məfkurəsi bağışlayan bu çeşmə məndə min bir tarixi xatirələr oyadır (*Y.V.Ç.*). 2. Sözlərim doğrudan da baş mühasibə təsir etdi (*Ə.Y.*). 3. Oğlum, dərslərinə səy et ki, imtahanlarını yaxşı verəsən (*S.S.A.*). 4. [Almaz]: Bu saat Barat, mən iki yol arasındayam: ya mən iki günahsız adamı ölümə verməliyəm, ya da özümü, öz adımı el içində həmişəlik ləkələməliyəm (*C.C.*). 5. O gündən etibarən Mərdan qulluqdan qayıdır, nahardan sonra yuyunub, geyinib gedir və saat on ikidə, birdə qayıdırdı (*Y.V.Ç.*). 6. Mirzə Nəsib Xəlilin anasının danışığını o biri otaqdan eşidirdi, qoca Mirzəyə övrətin sözləri o qədər təsir etdi ki, gözündən biixtiyar yaş cari oldu (*Ə.B.H.*). 7. Əvvəldən də mən sənin istedadına, gələcəyinə inanmışam (*H.A.*). 8. Ancaq

əmin ola bilərsən ki, mən instituta bir nəfər layiqli direktor təyin edilməsinə çalışacağam (*H.A.*). 9. Mən sənin hisslərinin təmizliyini, yalandan, riyadan, hiylədən uzaqlığını indi də etiraf edirəm (*Ə.Q.*). 10. Mənim qürbətdə qocalan əsgərimin hüznü, kədəri mənə aydın idi (*M.T.*)

## ŞƏKİLÇİLƏRİN YAZILIŞI

**§ 327.** Oxuyun, sözləri kök və şəkilçiyə ayırıb cədvəldə yazın.

| Sözlər | Söz kökləri | Şəkilçilər |
|---|---|---|
| | | |

I

Gecədən çox keçmişdi. Göyün üzünə səpələnmiş seyrək ulduzlar sönük bir parıltı ilə titrəşirdi. Bosman sözünü qurtarmayıb susdu. Dəmir sürahiyə dayanaraq gözlərini dənizdən çəkmədən, ağzındakı çubuqdan sıx-sıx tüstü buraxmağa başladı. Mən ortaya çökən sükutu pozmaq istəmədim. Gəminin böyrünə çırpan kiçik ləpələr onun düşüncələrini hara isə lap uzaqlara çəkib aparmışdı. Hamı yatırdı. Təkcə yuxarıda kapitan körpücüyündə durmuş növbətçinin fiqurası payız səmasında aydınca seçilirdi. Ay, uzunsov boz bulud parçalarının arasından çıxmağa başlayırdı. Quş lələkləri kimi səpələnən işıqda mən bosmanın sifətini yandan aydın gördüm, onun çal saçları, dodaqlarının ucunadək uzadılmış qalın bığları işıqlaşmışdı. Sağ tərəfdə, bircə dəqiqə qabaq onun mənə göstərdiyi adada isə işıqların sayı, elə bil, getdikcə daha da çoxalırdı. Mənə elə gəlirdi ki, bu işıqlar haradansa bir-bir baş vurub çıxır, ya da gözə görünmədən göydən tökülərək adaya doluşurdu.

– Bəli, – dedi, – mən bu adada, bax orada, o qayalıq sahillərdə, suların çırpındığı o daşlıqlarda böyümüşəm. O zaman indi gördüyün bu işıq dənizindən heç bir əsər yoxdu. Taxtadan qayrılmış bir neçə miskin və hisli balıqçı koması adanın yeganə tikintisi idi. Düzü, dünyadan, adamlardan uzaq düşmüşdük. Ancaq bizim üçün nə fərqi vardı? Balıqçı üçün dəniz hər şeyi əvəz edir. Onun fərəhi də, dərdi də elə dənizdədir. Adamlar bizi yad etmir, etməsinlər; axtarmır, qoy axtarmasınlar; bunun balıqçıya nə bir xeyri, nə də bir zərəri vardı. Ancaq bir dəfə... – deyə bosman yenə sözünü yarımçıq qoyub susdu. Gizlənmiş ay artıq buludların dalından çıxmışdı. Dənizin ehmalca qabaran sularına yüz minlərlə gümüşü işıqlar səpələnib adamın gözünü qamaşdırırdı. Göyərtədə güclə seçilən şeylər də daha aydınlaşıb öz şəklini almışdı, dor ağaclarından, alçaq tüstü bacalarından, asma qayıqlardan göyərtəyə uzunsov qatı kölgələr düşmüşdü. Dəniz aramla uğuldayırdı (*Q.İ.*).

II

Balıqçılar ovdan yenicə qayıdıb torlarını qayalara sərmişdilər. Taxta komalarımıza çəkilmişdik. Axşamdan azca keçmiş dənizdə fırtına qopdu. Ləpələr qayalıqlara boy-boy çırpmağa başladı. Demək beş-altı gün dənizə çıxmaq mümkün olmayacaq. Axı, biz Xəzərin şıltaqlığına yaxşı bələdik. O, qəzəbləndimi, həftələrlə sakit ola bilmir. Bizim adada Aləm adlı bir qoca balıqçı vardı. Yaşca o, hamıdan böyükdü, dünya görmüş balıqçı idi, ancaq iki gözündən kordu. Onun bir oğlu, bir də Qərib adlı bir iti vardı. Qərib adanın yeganə heyvanı idi. Elə buna görə də ona "Qərib" adını qoymuşdu. Aləm kənddən bura gələndə onu özü ilə gətirmişdi. Çox sayıq və mehriban heyvandı. Balıqçılar dənizə çıxdığı zaman, Aləm kişi evdə iti ilə tək qalırdı.

Həmin gecə yarısı it hürməyə başladı. Doğrusu, bu adadakılara çox təəccüblü gəldi. O çox az-az hürərdi. Hamı

yatağından qalxıb oturdu. Deməк, adaya yad adam qədəm qoymuşdu. İtin hürməsi ara vermirdi. Biz hamımız fanarları yandırıb bayıra çıxdıq. İt bizi görən kimi daha bərkdən hürməyə başladı. Biz heç bir şey görmürdük. Küləyin səsindən heç bir şey eşitmək mümkün deyildi. İt isə ağzını sağ tərəfə tutub hey hürür, gah qabağa qaçır, gah da, elə bil nədənsə qorxurmuş kimi geri çəkilirdi. Biz fanarları yuxarı tutaraq itin hürdüyü tərəfə irəlilədik. Qayıqlara çatmamış birdən qabağımızda qaranlıq içərisindən üç adam sifəti göründü, əyinlərindəki paltarlar islandığından ayna kimi işıldayırdı. Onlardan biri bizi görən kimi bərkdən çığırdı:

– Fanarları söndürün.

Biz dalğaların gurultusu içərisində onun səsini eşitdik, bu səs bizə təəccüblü görünsə də, dərhal fanarları söndürdük. Ancaq sonra özümüz peşiman olduq: "Bəlkə yaxşılıq üçün gəlməyiblər" – deyə fikirləşdik. Onlar yaxınlaşdılar. Üzlərini görmədiyimiz adamlardan kimsə hamımız eşidək deyə bərkdən çığırdı:

– Özgə deyilik, evə gedək.

Biz gələn qonaqları Aləm kişinin komasına apardıq. Qoca balıqçı yatağın içərisində oturub sakitcə gözləyirdi. Kiçik beşlik lampa onun komasını güclə işıqlandırmışdı. İçərisində balıq şorbası bişirdiyi hisli qazan axşamdan ocağın üstündə qalmışdı. Taxtaların arasından soxulan külək sönmüş ocağın külünü komanın içinə sovururdu. Qonaqlar komanın içərisində səssizcə oturmuş Aləm kişini, onun əllərində fanar olan ayaq üstə durmuş balıqçıları diqqətlə nəzərdən keçirirdilər. Üz-gözlərini tük basmış və çiyinlərinə saldıqları brezent örtüklərin altından alt paltarları görünən bu adamlar, yəqin ki, balıqçılarda heç bir şübhə oyatmadıqları üçün rahatca nəfəs aldılar. Balıqçılardan biri qonaqların sifətini aydın görmək üçün fanarı yandırmaq istədi. Lakin qonaqlar razı olmadılar, hətta komada pəncərə olub-olmadığını yoxlamaq üçün divarlara baxdılar.

– Yox, belə yaxşıdır. Bizi təqib edirlər.

Biz təəccüblə bir-birimizin üzünə baxdıq. Mən o zaman bu sözün mənasını yaxşı anlamadım. Ancaq başqa balıqçıların hərəkətindən başa düşdüm ki, burada nə isə qorxulu bir iş vardır. Aləm kişi gözlərini bir nöqtəyə zilləmiş halda soruşdu:

– Oğul, sizi kim təqib edir? Nə iş görmüsünüz ki, axtarırlar?

Gələn adamlar, görünür, bu suala dərhal cavab vermək istəmədilər. Onlar çox narahat və həyəcanlı idilər.

Bu zaman aralı qalmış qapının ağzından içəri güclü bir işıq düşdü.

Biz qapının ağzından bayıra baxdıq. Doğrudan da uzun bir işıq buludu göydə dolanır və sonra aşağı enərək adadakı hər şeyi qayalıqları, komaları, sahildəki qayıqları işıqlandırırdı. Buludlar da lap aşağı enmiş, adanın üzərində qalın pərdə kimi sallanıb durmuşdu. Dənizdən düşən işıq onu tutqun və bozumtul bir rəngə boyayırdı. Projektorun işığı birdən-birə buludlardan keçib adaya düşdüyü zaman, Qərib az qala canavar kimi ulamağa başladı (*Q.İ.*).

III

İstirahət günlərini demirəm, adi günlərdə belə imkanın olan kimi balıq ovuna qaçırdın. Balıq ovu sənə dünyanın ən ləzzətli əyləncələrindən də ləzzətli gəlirdi. Sən qarmağı atıb qarovulu gözləyən zaman hər şeyi unudurdun...

Tez-tez məni də özünlə balıq ovuna aparardın. Çox zaman Mahir də bizimlə olurdu, siz hərəniz öz səngərinizdə oturub saatlarla gözləyir, tilovun tərpənməsinin, barmaq boyda bir balığın çırpına-çırpına sudan çıxmasının həsrətini çəkirdiniz. Bu, sizi necə də sevindirir, əyləndirirdi. Mən isə kitab oxuyur, qəzetlərə baxır, açıq havada uzanıb istirahət edirdim.

Bəzən də bir qıraqda oturub sizin hərəkətlərinizi diqqətlə izləyir, qəribə azerkeşliyinizə ürəkdən gülürdüm. Bütün bunlarla belə sizinlə balıq ovuna getmək mənim üçün o qədər də maraqlı deyildi. Yorulurdum, əsəbiləşirdim, təklik, sükut məni zinhara gətirirdi. Ona görə təklik deyirəm ki, sizinlə olsaydım da, mən tək idim. Axı siz özünüz üçün, öz şəxsi zövqünüz üçün, tilovunuz və balığınız üçün yaşayırdınız.

Buna görə mən sizinlə getməyə o qədər həvəs göstərmirdim. Arzu qızımın yanına getmək, yaxud tək-tənha sahil gəzintisinə çıxmaq, heç olmasa maraqlı bir kinofilmə baxmaq sizinlə vaxt itirməkdən ləzzətli idi!

Düzdür, qayalar, dalğaların pıçıltısı, təmiz hava, meşə, yaşıl çəmənlikdə ləzzətlə yeyilən balıq kababı... bunlar da gözəl idi. Mən hər dəfə balıq ovundan qayıdandan sonra özümü gümrah hiss edirdim. Amma bir neçə dəfəlik təkrardan sonra bunlar da öz ləzzətini itirməyə başlayırdı.

İstəyirəm məni düzgün başa düşəsən, plov gözəl xörəkdir, elədirmi, əbəs yerə ona, xörəklərin padşahı demirlər. Bəs hər gün sənə plov versələr, necə? Əlbəttə, bezərsən, ürəyini vurar, könlün başqa şey istəyər!..

Məni də balıq ovu belə bezdirmişdi, həftədə iki gün istirahət olması sənin lap ürəyindən olmuşdu. Beşinci gün işdən sonra yır-yığış eləyib ova gedir, bir də birinci gün səhər tezdən qayıdırdın. Evdə balıq iyindən baş çatlayırdı (*Ə.Q.*).

## BİR CÜR YAZILAN ŞƏKİLÇİLƏR

**§ 328.** Oxuyun, bir cür yazılan şəkilçisi olan sözləri seçib yazın.

I

1. Buna döyüş demək düz deyil, çünki insan öz sıra yoldaşını, yaxın silahdaşını da görə bilmirdi (*M.C.*). 2. Bunların arasında bəlkə də üzvi bağlılıq yoxdur (*C.Ə.*). 3. Şəmilgilin evinin arxasında, köhnə xırman yerində voleybol oynayırdıq (*C.Ə.*). 4. Aqilin cismani həyatı böyük mənəvi bir heyatla əvəz olundu (*M.C.*). 5. Şirəli, böyük kütlələri ayağa qaldıran tarixi hərəkatların hər zaman öz qəhrəmanlarını yaratdığını da bilmirdi (*M.H.*). 6. Üzərinə gedəcəyim mövzunun əhəmiyyətinə dair sitatın daha uzununu yarıya gedəndə cavan bir adamın qocavarı öskürəyini eşitdim (*B.B.*). 7. Harada, hansı vəzifədə işləyir-işləsin, təşəbbüskar bir mühəndis kimi tanınırdı (*Ə.Ə.*). 8. Bu nədir, yoxsa biçarə qarı yavaş-yavaş ağlını itirməyə başlayır? (*Ə.Ə.*). 9. Bu zəhmətkeş insan həmişə çalışır, ama Fərhad onun əməyini puç edirdi (*C.C.*). 10. Ermənistana doğru uzanan şose yolu ilə müvazi şütüyüb gələn Alagöz çayı gürzə kimi parlayırdı (*M.H.*).

II

l. Bu xəbər yarımdairəvi müdafiə xəttinin başı üstündə dolaşdıqca, atəş gücdən düşməyə, düşmən qabağına çəkilən ölüm səddi aradan qalxmağa başladı (*Ə.Ə.*). 2. Çiçəklər aşiqi bir bülbül kimi. Gözüm bir bağbanın gülünə düşmüş (*M.M.*). 3. Burada da onu nənəsindən başqa narahat eləyən yox idi (*Ə.Ə.*). 4. Həmid indi gecələr əvvəlki kimi məktəb dərslərini deyil, bütün dünya siyasətini düşünür və bu siyasət arasında vətəndaşları üçün nicat yolu arayırdı (*C.C.*). 5. Həmin ilin yay fəslində Mahirəgil dağa köçə bilmədi (*M.H.*). 6. Zaqatala bölüyü Ermənistan sərhədinə göndərilərkən Sarxan həbsə alınmışdı (*M.H.*) 7. Bu tələbkarlardan yalnız biri öz dediyinin üstündə durub (*S.Rəh.*). 8. O vaxt Şirvanda Mahmudağa adında bir muğamşünas var idi. (*Ə.H.*). 9. Ona ad qoymaq üstündə

bikaraca giley-güzarımız olmuşdu (*Ə.V.*). 10. Azərbaycanda realizm ilə yanaşı, yeni keyfiyyətli, mütərəqqi romantizm ədəbi cərəyanı da olmuşdu (*M.C.*).

III

1. Qəlbim elə coşur, derəm nə ola: Dönüb divarında bir daş olaydım, Əbədi səninlə sirdaş olaydım (*M.M.*). 2. Gülzarın təbii olaraq naz ilə kəsmə-kəsmə danışması və danışdıqca gözəllərə məxsus olan bir tövrlə gözlərini süzüb özünü əzməsi, Fərhadı, səyinə baxmayaraq, az qalırdı bihuş etsin (*C.C.*). 3. Mən deyərəm ki, odların-alovların arasında insanlar bir-birinə daha həssas və daha qayğıkeş olurlar (*H.A.*). 4. Bir neçə dəfə hərbi komissarlığa ərizə verib könüllü olaraq ordu sıralarına getmək istədi (*V.Ə.*). 5. Bu hadisə kəndlərdən bir çoxunun narazılığına səbəb olmuşdu (*M.H.*). 6. Saçları da, saqqalı da qar kimi ağ. Bir qocanın piranə bir siması var, Mənalıdır altındakı qırışıqlar (*S.V.*). 7. Bununla belə, onun bircə nəfər həqiqi dostu var idi – saatsaz usta Zeynal (*Ə.H.*). 8. Cəfər Cabbarlının yaradıcılığı, bu yaradıcılığın tənqidi realizm və mütərəqqi romantizm ənənələrindən sosialist realizminə və onun ayrılmaz tərkib hissəsi olan inqilabi romantikaya doğru inkişafı buna yaxşı misal ola bilər (*M.C.*). 9. Müəllimin arvadı qazanın altının odunu azaldıb, Qaçaygilin qabağına getdi (*Ə.V.*). 10. Onun anası evdar qadın idi.

**§ 329.** Verilmiş sözlərə bir cür yazılan şəkilçilər qoşun.

Əmək, insat, gürcü, üzük, bağ, saat, sənət, vətən, xalam, tarix, partiya, rahat.

**§ 330.** Azərbaycan dilindəki **-i** və **-stan** şəkilçilərinin yazılışındakı fərqli cəhətləri izah edin, misallar göstərin.

**§ 331.** Aşağıdakı bir cür yazılan şəkilçilərin hər birinə üç misal yazın.

| | |
|---|---|
| **1) – anti** | **8) – i (vi)** |
| **2) – ba** | **9) – ist** |
| **3) – ban** | **10) – kar** |
| **4) – bi** | **11) – gil** |
| **5) – varı** | **12) – na** |
| **6) – dar** | **13) – saz** |
| **7) – daş** | **14) – stan** |

**§ 332.** Aşağıdakı sözlərin hərəsinə aid üç cümlə yazın.

Yüngülvarı, kütləvi, kimyəvi, həyati, Dağıstan, Hindistan.

## İKİ CÜR YAZILAN ŞƏKİLÇİLƏR

**§ 333.** Köçürün, iki cür yazılan şəkilçilərin altından xətt çəkin.

I

Onlar böyük bir kəndi düşməndən almışdılar. Faşistlər son dəqiqədə cəbhəni saxlaya bilmək ümidini itirdikdən sonra, öz kəndlərini yandıraraq çəkilmişdilər.

Hər yer alov içərisində idi. Murad bir dəstə döyüşçü ilə bərabər hərbi xəstəxanaya çevrilmiş böyük bir binanı alovun mehvedici nəfəsindən qurtarmağa çalışırdı. Xəstəxana boş idi. Yəqin onlar bütün yaralıları zorla götürüb aparmışdılar. Bunun çox müdhiş bir mənzərə olduğunu ondan anlamaq mümkün idi ki, rast gəldikləri hər şey – çarpayılar, paltarlar, yer qan içərisində idi. Bütün bunlar yanğının ağzında əriyib gedirdi.

Murad tüstü bürümüş uzun bir dalanın sonunda çığırtı gəldiyini eşitdikdə lap ağır yaralıların palataların birində qaldığını anladı. O, öz dəstəsi ilə tüstünü yararaq son otağa soxuldu və bu zaman kiminsə ondan qabaq bu zavallıların köməyinə çatdığını və onları pəncərədən həyətə daşıdığını gördü.

Bu adamın hisdən qaralmış saçları üz-gözünə tökülmüşdü. Yalnız yaralıları və yaxud iri şkafları, çarpayıları götürdükdə ağırlıqdan dərin nəfəs alır, bu zaman qara üzündə sağlam, ağ dişləri görünürdü. Bu adam bir nəhəng kimi hərəkət edirdi.

Nəhayət, otağı boşaltdılar. Döyüşçülərin köməyi ilə, xəstəxanadakı yanğın son nəfəsini verdi. Onlar bu böyük binadan sağ-salamat qalmış olan yalnız bircə otaqda bütün yaralıları topladılar (*S.Rəh.*).

II

Baharın orta ayı idi. Şəhərin kənarında olan böyük bir bağçada hər yerdə olan kimi, ağaclar göyərib yarpaq açmışdı. Bu bağ dövlətli adamın deyildisə də, lakin sahibi Aslan çox çalışqan olduğu üçün hər gün öz ruzusunu qazanıb külfəti ilə bahəm bəxtiyar yaşayırdı. Aslan bağçaya çox qulluq elədiyi üçün bağ şəhərin bütün başqa bağlarından gözəl idi. Hər tərəfdə ağaclar, sərvlər, çinarlar, alma, armud, gilas ağacları qayda və nizam ilə əkilib, aralarında alçaq göy ot bitmiş idi. Bağçanın ortasında bir hovuza dörd balıq buraxılmışdı ki, duruluğundan nur kimi parlayan suyun arasında cəld hərəkətləri ilə şad üzürdülər. Suyun zərif şəfəqləri hovuzu əhatə edən yaşıl ağacların üstünə düşüb keçəndə, ildırıma bənzədiyi üçün bu lətafətə tamaşa edəni qüvvəyi-bərqiyyə kimi mütəəssir edirdi. Ağaclarda cürbəcür güllər açılıb səhnefi-asimana baxıb gülürdü. Xəfif əsən hava ney kimi bülbülani-xoşəlhanın həzin nəvasına qatışıb, mahir bir musiqişünasın belə çala bilməyəcəyi lətif havalar çalırdı.

Hələ bu lətafətin üstünə hər səhər saf havada pərişan saçlarını kürəklərinə örtüb xuraman-xuraman seyr edərək, təbiətin bu gözəllik və lətafətinə tamaşa edən bir qızın bəxş etdiyi mənzəreyi-fərəhəfzani artıranda, bağça dünya üzündə yaranmış ikinci bir cənnət, qız isə dünya behiştini təzyin etməkdən ötrü səmadan enmiş bir mələk olduğu aşkar görünürdü (*C.C.*).

III

Vəli uzunboy, gülərüz, kiçik, sivri bığlarını yuxarıya qaldırmış, saçını yana daramış bir oğlan idi. Bu adamın çox böyük aktyorluq, rejissorluq, təşkilatçılıq istedadı vardı. Uzun illər Azərbaycan teatrının ağırlığını yalnız bu adam çiynində daşımışdı. Gecələri yuxusuz keçirib, yarıtox, yarıac bir həyat içində qapı-qapı gəzərək adam toplayır, onları öyrədir, paltar tapır, səhnəni düzəldir, aylarla qapılarda növbə gözləyərək tamaşa üçün icazə alır və tamaşa verirdi. O zamanlar bəzi alverçi müsəlmanlar belə zənn edirdilər ki, bu cavanlar ciblərinin qədrini yaxşı bilirlər, xeyir olmasa getməzlər, ancaq onu bilmirdilər ki, Vəli və bu kimi adamlar bu cür həyat, bu cür quruluş içində tamaşa verməklə yalnız qəhrəman adına layiqdirlər. Onların ailələri yalnız bu üzdən ac qalırdı. Yalnız teatr sevgisi onları dost-düşmən yanında xar eləyir, ata-ana yanında başıaşağı edirdi. Onlar yalnız bu üzdən məscidlərdə təkfir və minbərlərdə təlin edilirdilər.

Vəli bu qəhrəman adına layiq olanlardan biri idi. O, tükü-tükdən seçə bilirdi. Kimin nə cür və nə tövr istedada malik olduğunu yaxşı təyin edə bilirdi.

Onun Hüseyn ilə bugünkü söhbəti zarafata çox mail olmasından irəli gəlirdi. Onun Hüseynə "bütün sənə verilən rolları korladın" deməsi ciddi deyildi. Əgər Vəli ciddi olaraq Hüseynin bütün rolları korladığını və korlayacağını güman etsəydi, heç onunla addım belə atmazdı. Ancaq Vəli yaxşı bilirdi ki, Hüseyn böyük bir gələcəyə malikdir. Ona

görə də onu bütün teatrla əlaqədar olan yerlərə aparır, rəqslərdə, müsamirələrdə teatr həvəskarları ilə tanış eləyir və bu vasitə ilə onu teatr aləminə və səhnəyə alışdırırdı (*S.Rəh.*).

**§ 334.** Aşağıdakı sözlərə iki cür yazılan şəkilçi artırın.

I. Şəhər, il, kitab, şeir, sənət, müharibə, təlim, qala, döşək, əxlaq, təfəkkür, ömür, gəl(mək), durna, gör(mək), kağız, bax(maq), yazı, ağac.

II. Kənd, ay, dəftər, fel, sənəd, inqilab, tərbiyə, kaman, idrak, təxəyyül, həyat, turac, al(maq), qəzet, bil(mək), mürəkkəb, yaz(maq), bitki.

III. Küçə, gün, qələm, elan, şagird, üsyan, təhsil, ittifaq, iradə, tədbir, yaşayış, oxu(maq), bülbül, yeril(mək), jurnal, danış(maq), qələm, kəpənək.

**§ 335.** Verilmiş iki cür yazılan şəkilçilərin hər birinə iki söz qoşub sətir başından yazın.

***Nümunə:*** *adam + lar, iş + lər*

| | |
|---|---|
| **1) – a (-ə)** | **13) – la (-lə)** |
| **2) – aq (-ək)** | **14) – lar (-lər)** |
| **3) – ağan (-əyən)** | **15) – lan (-lən)** |
| **4) – la (-lə)** | **16) – laş (-ləş)** |
| **5) – an (-ən)** | **17) – ma (-mə)** |
| **6) – anda (-əndə)** | **18) – maq (-mək)** |
| **7) – ar (-ər)** | **19) – madan (-mədən)** |
| **8) – araq (-ərək)** | **20) – malı (-məli)** |
| **9) – ası (-əsi)** | **21) – sa (-sə)** |
| **10) – acaq (-əcək)** | **22) – san (-sən)** |
| **11) – da (-də)** | **23) – ca (-cə)** |
| **12) – dan (-dən)** | **24) – ça (-çə)** |

**§ 335.** Aşağıdakı sözlərin hər birinə dair üç cümlə qurub yazın.

Döyüşkən, sürüşkən, burulğan, deyingən.

## DÖRD CÜR YAZILAN ŞƏKİLÇİLƏR

**§ 337.** Köçürün, dörd cür yazılan şəkilçilərin altından xətt çəkin.

I

Günün yalnız gün batanda qalmış sarımtıl saçaqları getdikcə azalır, yerinə vərəmli bir sarılıq, daha doğrusu, yüngül bir qaranlıq qonurdu. Ara-sıra sərsəm bir yel əsir, harada isə uzaqlarda qapıları çırpıb taqqıldadır, hava qaraldıqca ətrafı anlaşılmaz bir kədər bürüyürdü. Sərsəm küləyin kobud vıyıltısı, yarpaqların yüngül xışıltısı, dəniz dalğalarının uzaqdan gələn tutqun gurultusu bir-birinə qarışıb bulanıq bir gurultu ilə aranı doldurdu. Hava elə tutqun və bulanıq idi ki, gizlin bir qüssə insanın ürəyini sıxırdı. Xüsusən, qapıların bir-birinə oxşar, fəqət nizamsız eşidilən səsi Həmidin sinirlərini didirdi. Dərin bir ahla qalxıb pəncərəni örtdü, yenə ölgün bir hərəkətlə çox da təzə olmayan səndəli üzərində oturunca, otaq həm qaranlıqlaşdı, həm də birdən-birə səs-səmir kəsildi. Ağır və tutqun bir qüssə, daha doğrusu, dumanlı bir xatirat Həmidin ürəyini əzirdi. Onsuz da arıq üzü ruhunu didən sıxıntılardan bir qədər də qırışmış olduğundan, uzaqdan baxınca, bütün sarımtıl zəif simasında dərin bir əzab gözə çarpırdı. Düyünlənmiş alnından çəkilmiş üç dərin cızıq burnunun sonundakı yumruluqla birləşib, dolaşıq yollarla aşağı-yuxarı, kələ-kötür qaşları içində dağılıb itirdi (*C.C.*).

II

Ey baba torpağı, ey köhnə Bərmək,
Çətindir şerimdə ruhunu görmək.
Düşmüş kitablara hansı mənzərən,
Bir sirr sandığıdır hər məchul dərən
Xilqətin füsunlu həyəcanları,
Sevda məhəlləri, görüş anları,
Can kimi sevməli, görməli qızlar,
Gözləri binadan sürməli qızlar
Gənclər ki, ruhları dağlar qarından,
Hissləri günəşin işıqlarından,
Həsrətli gündüzlər, sonsuz xülyalar,
İşıqlı gecələr, dadlı röyalar,
Göylərə sığmayan parlaq diləklər.
Ulduzdan ulduza uçan mələklər,
Bu ana torpaqdan uzaqlaşmalar,
Göylərdə ətirli qucaqlaşmalar,
Səhər yoldaşlara açılan yuxu
Dağlara, daşlara saçılan duyğu
Çoban bayatısı, Kərəm türküsü,
Bir öpüş üstündən bağlanan küsü,
Göz-gözə dəyəndə dəyişən hallar.
Yaxıcı hicranlar, sərin vüsallar,
Ələmdən, nəşədən axan göz yaşı,
Soyuq yanaqları yaxan göz yaşı,
İlk sevda cilvəsi, incə gülüşlər,
Uzaq ulduz kimi qönçə gülüşlər.
Yorğun maral kimi sakin baxışlar,
Bir öpüşdən daha kəskin baxışlar.
Dadlı əfsanələr, gerçək səhnələr,
Səndə nələr yoxdur, nələr, ah nələr?
Sən də açılmamış bir dəfinəsən,
Açarı qeyb olan bir xəzinəsən (*M.M.*).

III

Qəribə bir gecə idi. Axşamdan əsməyə başlayan külək sübhə yaxın birdən kəsdi. Elə bil naməlum ovçu gülləsi ilə ağac başından yerə sərilən bir quş, aşağıda otlar üstündə bir-iki dəfə qanad çalıb, sonra tamamilə susdu.

Dərhal hər tərəfi sükut çulğadı. Kəndin aşağısındakı meşə dərindən nəfəs alıb, təzədən yuxuya getdi, yenicə yarpaq açmış budaqlarda yellənən quşlar isə küləkli gecənin təlaş dolu mürgüsündən sonra indi bir an dincəlib sakit oldular.

Külək əsərkən ətrafa çökən bu dərin səssizlikdən yalnız İzzət qarı diksinib oyandı. O, qalxıb yerində oturdu, komanın alçaq pəncərəsindən çölə baxdı. Gecə süd kimi aydınlıq idi, ağaclar hərəkətsiz dayanmışdı. Titrəşən yalnız göydəki ulduzlardı.

Axşamüstü tamamilə yerin üzərinə enmiş göy qübbəsi indi yenidən nəhəng bir çətir kimi açılıb yüksəlmiş, ən uzaq ulduzları isə ta ərşə dirənmişdi.

İzzət qarı dönüb yanında yatmış nəvəsi Qumruya baxdı. Qızın üzünə ağ kəlağayı kimi bir yuxu qonmuşdu: bu, onun on səkkizinci baharının yuxusu idi. Qarı onu səsləmək istədisə də, lakin birdən susdu. O, bu yaz gecəsinin səssizliyində qızın ürəyinin qəribə, fərəhli bir mahnı oxuduğunu eşitdi. Qarı pəncərəyə söykənib köksünü ötürdü, ürəkdən gələn bu mahnı ona tanış idi (*Ə.M.*).

**§ 338.** Aşağıdakı sözlərə dörd cür yazılan şəkilçi artırın.

I. Bünövrə, sübut, qumral, bloknot, orijinal.
II. Sütun, büllur, süqut, xülya, saksofon.
III. Yeknəsəq, füsunkar, protokol, koloniya, orkestr.

**§ 339.** Verilmiş şəkilçilərin hər birini dörd sözə qoşub yazın.

***Nümunə:*** *al + dı, gəl + di, gül + dü, oxu + du*

1) **– dır** (-dir, -dur, -dür)
2) **– dıqda** (-dikdə, -duqda, -dükdə)
3) **– dıqca** (-dikcə, -duqca, -dükcə)
4) **– dığı** (-diyi, -duğu, -düyü)
5) **– ı** (-i, -u, -ü)
6) **– ıq** (-ik, -uq, -ük)
7) **– ıb** (-ib, -ub, -üb)
8) **– ıl** (-il, -ul, -ül)
9) **– ım** (-im, -um, -üm)
10) **– ımız** (-imiz, -umuz, -ümüz)
11) **– ın** (-in, -un, -ün)
12) **– ınız** (-iniz, -unuz, -ünüz)
13) **– ınca** (-incə, -unca, -üncə)
14) **– ınc** (-inc, -unc, -ünc)
15) **– ır** (-ir, -ur, -ür)
16) **– ıt** (-it, -ut,-üt)
17) **– ıntı** (-inti, -untu, -üntü)
18) **– ıcı** (-ici, -ucu, -ücü)
19) **– ış** (-iş, -uş, -üş)
20) **– kı** (-ki -ku, -kü)
21) **– lı** (-li, -lu, -lü)
22) **– lıq** (-lik, -luq, -lük)
23) **– mış** (-miş, -müş, -müş)

24) **– mı** (-mi, -mu, -mü)
25) **– sız** (-siz, -suz, -süz)
26) **– sın** (-sin, -sun, -sün)
27) **– sınız** (-siniz, -sunuz, -sünüz)
28) **– tı** (-ti, -tu, -tü)
29) **– çı** (-çi, -çu, -çü)

**§ 340.** Köçürün, bir cür yazılan şəkilçilərin altından bir, iki cür yazılanların altından iki, dörd cür yazılanların altından üç xətt çəkin.

I

1. Hava işıqlandıqca göy üzü ağ-çəhrayı rəngə boyanırdı (*M.H.*). 2. Bu axşamkı vuruşma Aqilin gördüyü ilk və son dəhşət idi (*M.C.*). 3. Qatı toz təbəqələrinin dalından çıxmış özünün bugünkü dövrünü beləcə toz-torpağa bulaşmış halda başa vermək üçün tələsənə oxşayırdı (*Ə.Ə.*). 4. Orada atışma bayaqkı şiddətində davam edirdi (*Ə.Ə.*). 5. O, vətəndaşlarının qəlbində fərəhlə, iftixarla yaşamağa başladı. (*M.C.*). 6. Göydə bir parça ağ bulud yürüdü, pərdəvarı ayın üzün bürüdü (*C.C.*). 7. Batalyon komandiri ucaboylu, iri gövdəli, qırx yaşında dolğun bır mayor idi (*Ə.M.*). 8. O, Kamalın üzündəki süni təbəssümü, gözlərindəki qeyri-təbii sevinci görür, danışarkən səsinin titrədiyini hiss edirdi (*Y.Ə.*). 9. Təzəcə naxoşluqdan qalxmış Qərənfil, atasının və anasının tək qızı olduğundan, onların gözlərindən kənara buraxılmırdı (*S.Rəh.*). 10. Romantizmin məlum ədəbi ənənələri, ifadə üsulları ilə bu ənənələrin sovet ədəbiyyatından inkişaf etmiş bugünkü şəklini, inqilabi romantikanı fərqləndirmək lazımdır (*M.C.*). 11. Dalğalar bir-biri ilə şillələşir, sonra qucaqlaşıb sahilə hücum edir, damla şəklində bulvara səpələnirdi (*Ə.V.*). 12. Nəğməkar quşların səsi birdən-birə kəsildi (*Ə.Q.*). 13. Bu gözəlliklər arasında Gülzar, ətrafına belə baxmadan, ölgün, solğun bir halda evə qayıdırdı (*C.C.*).

II

l. İlk vaxtlar mən hər dəfə onu görəndə, o axşamkı söhbəti xatırlayıb, xəcalət çəkirdim (*C.Ə.*). 2. Havadan gündüzkü çiçək ətri əvəzində rütubət iyi gəlir, ara-sıra düşən xırda yağış damlaları otları dilləndirirdi (*M.H.*). 3. Ulduz birdən onun ləngər vurduğunu, bir addım irəli atıldıqdan sonra sanki qüvvətli bir əl tərəfindən geri itələndiyini və mayorun yerə yıxıldığını gördü (*Ə.M.*). 4. On səkkiz yaşına yenicə girmiş Kamal ağıllı, yumşaq xasiyyətli, anasını sonsuz məhəbbətlə sevən bir oğlandı (*Y.Ə.*). 5. O, müharibə başlanarkən düzəlmiş rəsmi keçiddə milli qvardiya rəisinin söylədiyi nitqi xatırladı (*M.H.*). 6. Bir az arıq və namünasib bədənə sahib olan Cahangirin boz kostyumu dolu bədənli və uzunboy Bahadırın əyninə bir qədər dar kimi görünürdü (*S.Rəh.*). 7. Sənətkarın real və ya romantik-ideal qəhrəmanları ilə mütərəqqi şəxsi fikirlərini, görüşlərini verməyə tam hüququ vardır (*M.C.*). 8. Sənəmin dilavər, heç bir kəsdən qorxub-qamaşmayan kişi misallı bir arvad olduğunu nəzərə alıb, dairə partiya komitəsi onu milis rəisliyi vəzifəsinə irəli çəkmişdi (*Ə.V.*). 9. Onu tapan kimi Tağı haqqında danışacaq və lazımi məsləhət alacaqdır (*Ə.V.*). 10. Mən heç kəsin üzünə baxmadan başımı aşağı salıb məclisdən çıxdım (*Ə.Q.*). 11. Atasının cəbhədən qayıtması bütün ailəyə sevinc gətirmişdi (*Ə.Q.*). 12. Bu, on beş-on altı yaşlarından, ortaboylu, qaragözlü, uçqun yanaqlı, sarımtıl bənizli bir qızcığazdı (*C.C.*).

III

l. Bu iş Aslanın zəif əsəblərini elə titrətdi ki, bihuş olub yerə yıxıldı (*C.C.*) 2. O, artıq hər güllə səsindən, bomba partlayışından diksinən, bəzən gecə döyüşləri zamanı yarpaq kimi əsən kövrək bir qız deyildi (*Ə.M.*). 3. Gövhər xalanın səhərdən bəri, payız səması kimi tutqun çöhrəsi indi gülümsəyir, tez-tez nə isə pıçıldayan dodaqlarında şad bir təbəs-

süm gəzirdi (*Y.Ə.*). 4. Bahar fəslində bu yerlər cənnət qədər gözəl, böyük rəssamların tablolarından təsvir edilən təbiətdən belə cazibəli görünür (*M.H.*). 5. Cahangir beş il bundan qabaq orduya gedəndə Rəna on üç yaşlı, saçlarının ucu bantlı, boğazından qırmızı pioner qalstuku asılmış, son dərəcə zirək və ondan daha artıq nadinc bir qız idi. 6. O, oğlunun qabağında bir az təqsirkar kimi danışırdı (*S.Rəh.*). 7. Ən doğru yol budur ki, müasir yazıçı sənətdə, eyni zamanda, özünü, öz şəxsi görüşlərini müvəffəqiyyətlə əks etdirə bilmək üçün romantizmin köhnəlmiş ənənələrinə deyil, daha çox bu ənənələrin ən mütərəqqi cəhətlərini mənimsəmiş olan inqilabi romantikanın ənənələrinə müraciət etsin (*M.C.*). 8. Bir qədər böyüyüncə, yoxsul evlərinin bir o qədər də böyük olmayan zəhməti onun üçün asanlaşmışdı (*C.C.*). 9. Xüsusilə, əlində çomaq, dünya malını təşkil edən iki keçisini dağdan endirirkən, dağınıq saçları, oynaq və şux görkəmi ilə elə ilahi bir heyət təşkil edirdi ki, bu gözəlliyə qarşı kimsə dayanmaz, pərəstiş etməyə bilməzdi (*C.C.*). 10. Mən mümkün qədər məclislərdən qaçır, müxtəlif bəhanələrlə yaxamı kənara çəkirdim (*Ə.Q.*). 11. Armudu stəkana süzülən "Azərbaycan buketi"nin ətri ona ləzzət verirdi (*Ə.Q.*). 12. İnsanların əksəriyyəti ya çox qüssəli, ya da çox şad dəqiqələrində ağlayırlar. 13. Çaylağın aşağısı daş-torpaqla düzəlmiş, bir az yuxarıda dəmir-beton işləri başlanırdı (*Ə.V.*).

**§ 341.** Aşağıdakı sözlərin hər birinə aid iki cümlə düzəldib yazın.

Darçını, narıncı, qəşəngi, ceyranı, novruzu, gümüşü, çərkəzi, buğdayı, sürməyi.

**§ 342.** Aşağıdakı sözlərin hər birinə dair dörd cümlə yazın.

Axşamkı, səhərki, gündüzkü, bügünkü.

**§ 343.** Verilmiş sözlərin hər birinə dair dörd cümlə yazın.

I. Seçki, bitki, bitkin, kəskin, ötkün.
II. Tutqun, daşqın.
III. Qızğın, yorğun, əzgin, solğun, ölgün, süzgün.

**§ 344.** Aşağıdakı şəkilçiləri yazılışlarına görə növlərə bölün və izah edin.

| | |
|---|---|
| **1) -lıq...** | **5) -stan...** |
| **2) -dan...** | **6) -a...** |
| **3) -li...** | **7) -kən...** |
| **4) -mış...** | **8) -cı...** |

**§ 345.** Oxuyun, bir cür yazılan şəkilçiləri birinci, iki cür yazılanları ikinci, dörd cür yazılanları üçüncü sütunda yazın.

| Bir cür yazılan | İki cür yazılan | Dörd cür yazılan |
|---|---|---|

I

Mən sevirəm büsatını boranların,
Fırtınasız, təlatümsüz keçən ömür
Roya kimi, xəyal kimi boş görünür;
Yaz da, qış da nəsibidir insanların.
Mən düşmənəm sükunətə əzəl gündən.
Ara-sıra dalğalansın qoca dəniz!
Fırtınalar dünyasında qoy nəslimiz
Bərkidikcə, yaşa dolsun ana Vətən!
Eşidirsən? Bizdən bir az uzaqlarda
Dəniz kimi dalğalanır qəhrəmanlar...
Qana batmış o düzlərdə, o dağlarda

Yurdumuzun böyütdüyü mərd inşanlar,
Tufan kimi qopur üstə fəlakətin.
Hər ətalət ölümüdür səadətin.

* * *

Bakı! Bakı! On, on beş il bundan qabaq
Yadımdadır kiçik daşlı o torpaqlar.
Yadımdadır qum sovuran o tozanaq.
Xeyri varmı o səhnəni kamil yazaq?
O günlərdən nə bir əsər, nə nişan var
Bakı! Bakı! Qoy var olsun ilk baharın;
Qüdrətindir gözəlliyin o heykəli!
Dəyişmişdir hər səmtini min rüzgarın.
Vətən eşqi... Halal zəhmət... İnsan əli...
Alqış bizim zəfər taclı bu dövrana!
Bu dövranla çiçəkləndi qoca şəhər.

* * *

Ağ buludlar dayanmışdır qalaq-qalaq.
Fəza dərin, dəniz dərin, məna dərin!
Rəssam qardaş! Bu mənanın əksini çək!
Qanad versin ilhamına qadir xəyal –
Səma-çəmən, ulduzları çiçək-çiçək!
Zümrüd səma! Zümrüd səma! Bu hüsnündən
Qoca rəngsaz ziynət versin saraylara!
Yarandığın, yaşadığın əzəl gündən
Bir əbədi şəfəq saçsın ilk bahara!
Bu mənada duyduğumu bircə anda
Yüzillik bir ömür boyu yazsa qələm
Camalından ilham alar bütün aləm.

* * *

Hələ bizim Qız qalası! O vüqarla.
Əzəmətlə ucalmışdır mavi göyə!

Dik zirvəsi salamlaşır buludlarla
Bu şəhərin ilk övladı mənəm deyə
Sözün düzü, mən acizəm təsvir üçün.
Səkkiz yüz il ömür sürən bu sənəti –
O heykəlin surətini çəkdi bir gün
Cabbarlının məndən böyük söz qüdrəti.
Artıq sizi yormayıram, gözəl dostlar!
Çünki uzun sürəcəkdir bu ilk dastanədir
Nədir bizim şəhərdəki gözəl bahar,
Mavi dəniz... Zümrüd səma... Azad insan! (*S.V.*)

II

O, hər şeydən əvvəl, canlı həyatın, bu həyatı qurub-yaradan, tarixi yaradan insanların romantik, eləcə də bu həqiqəti sənətin böyük güzgüsündə əks etdirən sənətkarın romantikası, onun həyata aktiv münasibətidir. Buna görədir ki, romantik üslub da heç vəchlə mütləq, ehkamçı estetik normalara tabe ola bilmir. Həyat dəyişdikcə, cəmiyyət irəli getdikcə, ədəbi proses yeniləşdikcə, romantikanın, romantik üslubun da məzmunu, hətta bədii təsvir vasitələri belə dəyişir. Sənətkarın dünyagörüşü bədii forma kəsb edir, özünü müxtəlif bədii şəkillərdə, müxtəlif bədii təsvir vasitələrində və prinsiplərdə təzahür etdirir. Məhz buna görə də indiki şəraitdə Azərbaycan ədəbiyyatında romantikadan, romantik üslubdan danışanda onun xüsusiyyətlərini, vəzifələrini müəyyən etmək istədikdə, birinci növbədə, ədəbiyyatın canlı təcrübəsinə əsaslanmaq lazımdır.

Dünya ədəbiyyatının təcrübəsi aydın göstərmişdir ki, bir yaradıcılıq metodu kimi, realizm aktiv mübariz realizmə doğru inkişaf edir, get-gedə daha çox həyatı dəyişdirmək vəzifəsinə xidmət edən bir ədəbi üsluba çevrilir. Romantizm də eləcə, idealist, fərdiyyətçi, stixiyalı romantizmdən şüurlu, inqilabi romantizmə doğru yüksəlir.

Əvvəllər deyirdilər ki, realizm adi münasibətlərin təsviri yolu ilə fəlsəfi ümumiləşdirməyə gəlib çıxır, romantizm isə müəyyən fəlsəfi fikirlərin bədii ifadəsini vermək yolu ilə. Demək olar ki, indi realist sənət, xüsusən realizmin yeni yüksək forması olan sosialist realizmi sənətdə bu iki fəlsəfi ümumiləşdirməni, M.Qorkinin təsdiq etdiyi kimi, birləşdirməyə doğru inkişaf edir, hər iki bədii metodun ən qabaqcıl ənənələrini öz içərisinə daxil edir (*M.C.*).

III

İndi keçən əsrlərdə olduğu kimi, fəlsəfi axtarışlar, fəlsəfi tərəddüdlər dövrü deyildir. Müəyyən bir fəlsəfi sistemi nəzm ilə vermək ənənəsi də köhnəlmişdir. Sənətdə nəsihət, moizə dövrü də çoxdan ötüb keçmişdir. Demək, indiki şəraitdə sənətdə romantik üslubu müəyyən və məlum fəlsəfi fikirləri ritorik və ya didaktik şəkildə tərənnüm edən bir üslub kimi təsəvvür etmək düz deyildir. Yeni həyat qurub-yaradan canlı insanın zəngin romantikası bu dar, köhnəlmiş çərçivəyə sığa bilməz.

Məlumdur ki, sənətdə müəyyən fəlsəfi fikirlərin təbliği, bu və ya başqa bir fəlsəfi sistemə istinad etmək, realizmdə olduğu kimi, romantizmdə bədii xüsusiyyət və ya bədii ifadə üsulu deyil. Eyni bir fəlsəfi fikir ədəbiyyatda müxtəlif üslubda, müxtəlif bədii təsvir vasitələri ilə ifadə olunmuşdur və oluna bilər. Doğrudur ki, keçmişdə romantizmdə fəlsəfəçiliyə meyil çox qüvvətli idi. Lakin bu o demək deyildir ki, bu fəlsəfəçiliyi biz inqilabi romantikanın, sovet ədəbiyyatında olan romantik üslubun əsas xüsusiyyəti və vəzifəsi kimi qəbul etməli, qorumalıyıq. Bizə mütərəqqi romantizmin ədəbiyyatın müasir, həyatla, xalq ilə canlı əlaqəsini möhkəmləndirən ənənələri lazımdır. Klassik romantizmin mücərrəd fəlsəfi axtarışlar yolu köhnəlmişdir.

Romantik üslubun başlıca vəzifəsini yazıçının öz görüşlərini, öz hiss, həyəcan, ehtiraslarını, şəxsi arzularını əks etdirməkdən ibarət hesab edənlər də olmuşdur. Əlbəttə, bu da məsələyə birtərəfli yanaşmaqdır.

Şübhəsiz ki, əsrinin qabaqcıl adamı olan böyük sənətkarın öz xüsusi, zəngin mənəvi aləmi də sənət üçün gözəl material ola bilər və həmişə də olmuşdur. Xüsusilə, bu şəxsi mənəvi aləm Sabir, Nekrasov yaradıcılığında, gördüyümüz kimi xalq ruhunun ifadəsi olduğu zaman daha gözəl nəticələr vermiş və ədəbiyyatda böyük fikirlərin təbliği üçün əvəzsiz bir bədii ifadə üsulu olmuşdur. Sənətkar da cəmiyyətin bir üzvüdür, xalqın bir nəfəridir (*M.C.*).

**§ 346.** Verilmiş parçanı diqqətlə oxuyun, Azərbaycan ədəbi dilinə məxsus olmayan şəkilçili sözləri seçin və həmin şəkilçinin işlənmə səbəbini izah edin.

Gülüyor, hər addımda bir duraraq,
Gəliyor, çiyninə başın buraraq,
Gəliyor, san, nə isə dinliyərək,
Gəliyor, hər addımda inləyərək,
Gəliyor, o Qantemir pərişan hal.
Gəliyor, xəstələr kimi bihal.
Gəliyor, söyləsin öz eşqini ta,
Seviyor öz qızın zavallı ata...
Seviyor, həm deyil ki, bu ata tək,
Onu etmiş əsir o canlı çiçək,
Seviyor həm nasıl ki, gənc gənci;
Seviyor həm nasıl ki, bir sevici.
Yürüyor ixtiyarsız, ölgün;
Yürüyor kəndi-kəndinə küsgün.
Qorxuyor, el edər ona töhmət,
Üzdə qorxsa, gedər söyər xəlvət,

Qorxuyor o, zəhərli dillərdən,
Sanacaq xalq onu rəzillərdən;
Adına nəslinin ləkə sürüyor,
Ox, nə müdhiş bu!.. Bir qədər duruyor,
Qorxuyor tutduğu şəriətdən,
Qorxuyor, tanrıdan, qiyamətdən;
Ad, san, el, tanrıdan olur məhrum.
Görüyor, qarşısında bir uçurum.
Ölüyor, partlıyor, yenə seviyor.
Ürüyor, inliyor, yenə yürüyor,
İstəyir getməsin, ürək sürüyor;
İstəyir sevməsin, könül seviyor! (*C.C.*)

## SÖZLƏRİN BİTİŞİK, YARIMBİTİŞİK (DEFİSLƏ) VƏ AYRI YAZILMASI

**§ 347.** Oxuyun, mürəkkəb sözləri seçib yazın.

**I.** O, gözlərini açıb dörd yanına boylandı. Ətrafı qorxunc bir qaranlıq, tükürpərdən bir sükut qaplamışdı. Ara-sıra uzaqlarda raketlər kimi bir anda parıldayıb sönən şimşək çaxır, sonra da dağlanan bir heyvanın müdhiş böyürtüsünə bənzəyən göy gürültusu eşidilirdi.

O, gözlərini ovxaladı, yenə ətrafına baxındı. Heç nə görə bilmədi. Ağzıüstə yıxıldı, dirsəyini yerə dayadı. Düşüb qaldığı gölmədən sürünə-sürünə kənara çıxdı. Əlləri ilə yoxladı: “Elə oradaca qalmışam!” – deyə düşünüb, böyrü üstə uzandı. Birdən silahını xatırladı, sürünə-sürünə aramağa başladı. Tapa bilmədi.

– “Aparıblar, yoxdur” – deyə fikrindən keçirdi və dərindən köksünü ötürdü:

O, bərk yaralanmışdı.

Birdən yaxında qüvvətli bir alov parladı. Yaralı, o dəqiqə gözünü alov qalxan yerə zillədi, işıq kənddən gəlirdi: "Ev yandırırlar, yəqin od vurublar, soldatların işidir" – deyə tövşüyə-tövşüyə o tərəfə süründü. Düşüb qaldığı yerdən xeyli aralandı, əli yumşaq bir şeyə toxundu. Ora-burasını əlləşdirdi. Adam idi. Ona daha da yaxınlaşdı. Gözlərini zilləyib diqqətlə baxdı, tanıya bilmədi (*M.H.*).

**II.** Mən qardaşımdan küsmüşəm. Özü də çox bərk küsmüşəm. Amma bu saat heç özüm də bilmirəm buna səbəb nədir? Vaqonda oturub Bakıda — qardaşımın evində qaldığım yarımca ayda olub keçəni gözümün qabağına gətirirəm. Fikirləşirəm görüm, axı həmişə yadıma düşəndə ömrümü-günümü qurban dediyim, canım-ciyərim olan bircə qardaşımdan birdən-birə niyə incimişəm? Qardaşım pis qardaşdırmı? Bunu deməyə dilim gəlmir. İkimiz də yetimliklə böyümüşük. Mustafa mənə həm ata, həm də ana olub. Bir tikə vaxtından kotan məci tutub boğazımın çörəyi, əynimin paltarı olub. Əgər Bakıya oxumağa getməsəydi, dünya dağılsaydı da məni uşaq evinə verməzdi. Oxuyub qurtarıb Kənd Təsərrüfatı Nazirliyində işə girəndən sonra dəfələrlə kəndimizə, xalamın yanına gəlib "Xədicəsiz dözə bilmirəm, ver aparım, anamın iyini ondan alıram", demişdi. Xalam isə inad edərək bildirmişdi ki, "qızın kənddə nişanlısı var, onilliyi qurtarandan sonra ərə verəcəyəm, getsin ev-eşik, oğlu-uşaq yiyəsi olsun". O gün indiki kimi yadımdadır! Mustafa hirsindən qap-qara qaraldı. "Mən bacıma ali təhsil verəcəyəm, – dedi. Azmı əziyyət çəkib ki, hələ dünyaya açıq gözlə baxmamış, xeyir-şərini qanmamış ailə qayğısı çəksin?" Yadımdadır, sevincimdən yaş məni boğdu. Onun üstünə atıldım.

**III.** Təzə ağardılmış otaqda üç adam var idi. Birisi gödək və peysərək, çallaşmış, gümrah Zeynal kişi idi. Əynin-

də qat-qat büzmə tuman, başında qara yaylıq olan ortaboy qadın Zeynalın arvadı idi. Bığ yeri yenicə tərləyən, şivərək başında göy kepkasının qabağında qırmızı ulduz, əynində palıd rəngində paltar, sol tərəfindən cibinin üstündə iri nişan olan, dizinə kimi naxışlı corab çəkmiş və qaloş geymiş oğlan Lətif idi.

Zeynal kişi əlində maşa buxarının közünü qabağa çəkib, bir neçə odun qoydu, buxarı gurhagur yanmağa başladı. Lətifin anası həyətdə zümzümə vurmaqda olan qırmızı samovarı içəri gətirdi. Lətif samovarı silib təmizlədi. Anası süfrə saldı. Zeynal kişi maşanı üzüquylu çevirib, xəmrəli çörəyi onun üstündə bir-bir isitdi və süfrəyə qoydu. Ata-ana, oğul üzlü pendirlə isti xəmrəlidən yeyib, çay içdilər. Zeynal fikirli idi. Lətifin isə qaşqabağı çöldəki havanı xatırladırdı. Otaqdakı sakitliyə buxarıdakı gurultu ilə samovarın zümzüməsi mane olurdu. Ailə üzvləri bir-birindən küsmüş kimi danışmırdılar. Süfrə yığışdırılandan sonra anası Lətifə də, Zeynala da söykək hazırladı. Zeynal kişi bir papiros büküb müştüyə taxdı, iştaha ilə çəkib qurtardıqdan sonra çatılı qaşlarını yavaş-yavaş açıb, yuxarı qaldırdı. Lətifin qaşqabağı daha da sallandı (*Ə.V.*).

**§ 348.** Köçürün, hansı söz qruplarının bitişik yazıldığını izah edin.

Anadangəlmə, ağciyər, başdansovma, ucdantutma, babadanqalma, şəhəryanı, şəhərlərarası, cərgələrarası, həyətyanı, səpinqabağı, bayramqabağı, qitələrarası, sessiyaarası, əmiqızı, çoxillik, dənizkənarı, Xəzəryanı, seçkiqabağı, rayonlararası, imtahanqabağı, üçbucaq, ongünlük, ikitərəfli, üçhecalı, birmənalı, doqquzmərtəbəli, beşqatlı, ağbirçək, biraylıq, başağrısı, birsəsli, balacaboy, ağacqurdu, balışüzü, borudüzən.

**§ 349.** Tərkibində baş sözü olan on söz yazın.

***Nümunə:*** *dəqiqəbaşı, birbaşa...*

**350.** Oxuyun, fikir verin, nə zaman **"ha"** və nə zaman **"a, ə"** yazıldığını aydınlaşdırın.

| | |
|---|---|
| yazhayaz | basabas |
| gəzhagəz | köçaköç |
| vurhavur | qaçaqaç |
| çalhaçal | seçəseç |
| yerihayeri | kəsəkəs |
| yehaye | içəiç |
| dehade | tutatut |

**§ 351.** Tərkibində **"xana"** ünsürü olan beş söz tapın, hər birinə aid cümlə qurun.

**§ 352.** Tərkibində **"namə"** ünsürlü olan on söz tapın, hər birinə dair cümlə yazın.

**§ 353.** Tərkibində **"avto"** ünsürlü olan on beş söz yazın.

***Nümunə:*** *avtoqələm, avtoqaraj...*

**§ 354.** Tərkibində **"bəd"** ünsürlü olan iyirmi söz yazın.

***Nümunə:*** *bədbəxt, bədxasiyyət...*

**§ 355.** Tərkibində **"yarı"** ünsürlü olan otuz söz yazın.

***Nümunə:*** *yarıaralı, yarı-yarımçıq...*

**§ 356.** Tərkibində **"yarım"** ünsürlü olan otuz söz yazın.

***Nümunə:*** *yarımmüdafiəçi, yarımqrup...*

**§ 357.** Tərkibində **"həm"** ünsürlü olan iyirmi söz yazın.
***Nümunə:*** *həmfikir, həmrəy...*

**§ 358.** Tərkibində **"ümum"** ünsürlü olan iyirmi beş söz yazın.

***Nümunə:*** *ümumdünya, ümumbəşəri...*

**§ 359.** Tərkibində **"çox"** ünsürlü olan on beş söz yazın.

***Nümunə:*** *çoxmillətli, çoxhecalı...*

**§ 360.** Verilmiş sözlərin hər birinə aid iki cümlə yazın.

Bərabərhüquqlu, bərabəryanlı, qoşalülə, qoşabuynuz, eynicinsli, eyniqiymətli, azişlənən, çoxişlənən, çoxuşaqlı, çoxmənalı.

**§ 361.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

Sözdəyişdirici, sözdüzəldici, sülhsevər, südəmər, sualedici, dodaqdəyməz, əlçatmaz, ziyanverici, əvəzedilməz, həlledici, məğlubedilməz.

**§ 362.** Verilmiş misalların hər birinə aid iki cümlə yazın və "ikən" sözünün yazılışını şifahi izah edin.

| | |
|---|---|
| gənc ikən | almışkən |
| tətildə ikən | gələrkən |

| | |
|---|---|
| oyaq ikən | getmişkən |
| alası ikən | yazarkən |
| haqlı ikən | baxarkən |

**§ 363.** Köçürün, sözlərin hansı şərtlərə görə defislə yazıldığını aydınlaşdırın.

Az-maz, qara-qura, əzik-üzük, çör-çöp, hay-küy, dedi-qodu, qarma-qarışıq, əyri-üyrü, bitməz-tükənməz, qeyri-kafi, kağız-kuğuz, dinməz-söyləməz, sür-sümük, kasıb-kusub, qeyri-mümkün, pal-paltar, uşaq-muşaq, sir-sifət, geyim-kecim, şey-mey, nəm-nüm, kələ-kötür, qeyri-qanuni, ab-hava, abır-həya, ağız-burun, şirin-şirin, ata-ana, qol-budaq, söz-söhbət.

**§ 364.** Verilmiş sözlərin hər birinə dair cümlə yazın.

Vəsfi-hal, tərcümeyi-hal, əmin-amanlıq, ayrı-seçkilik, əməlli-başlı, pis-yaxşı, oturub-durmaq, ölçüb-biçmək, yazıb-yaratmaq.

**§ 365.** Tərkibində **"şan", "şanlı"** ünsürləri olan aşağıdakı sözlərin yazılışına fikir verin, hər birinə aid cümlə qurub yazın.

| | |
|---|---|
| şan-şərafət | şanlı-şərafətli |
| şan-şərəf | şanlı-şərəfli |
| şan-şövkət | şanlı-şövkətli |
| şan-şöhrət | şanlı-şöhrətli |

**§ 366.** Tərkibində **"qeyri"** ünsürü olan otuz söz yazın.

***Nümunə:*** *Qeyri-adi, qeyri-səmimi...*

**§ 367.** Tərkibində **"ala"** ünsürü olan (ala-yarımçıq, ala-bəzək) on söz tapıb cümlədə işlədin.

**§ 368.** Aşağıdakı sözlərin hər birinə dair cümlə qurub yazın.

| | |
|---|---|
| bayatı-qacar | bayatı-hicaz |
| bayatı-əcəm | bayatı-kürd |
| bayatı-şiraz | bayatı-sarənc |
| bayatı-şahnaz | bayatı-isfahan |

***§ 369.*** Verilmiş misalların yazılışına diqqət yetirin, hər birinə dair cümlə qurub yazın.

| | |
|---|---|
| Qərbi Avropa | qərb-şərq |
| Qərbi Afrika | qərb-cənub |
| Qərbi Sibir | şimal-şərq |

**§ 370.** Verilmiş misalların yazılışına fikir verin, hər birinə aid cümlə yazın.

| | |
|---|---|
| tərki-vətən | tərki-ədəb |
| tərki-dünya | tərki-ədəblik |
| tərki-adət | tərk-silah |

**§ 371.** Aşağıdakı sözlərin hər birinə aid cümlə qurub yazın.

| | |
|---|---|
| kinoaktyor | kinoaparat |
| kinoartist | kinodrama |
| kinomexanik | kinodramaturq |
| kinomontaj | kinodramaturgiya |
| kinooperator | kinolent |
| kinorejissor | kinooçerk |
| kinotexnika | kinopavilyon |
| kinofabrika | kinopovest |
| kinostudiya | kinoprokat |

kinojurnal
kinokadr
kinokomediya
kinokonsert
kinolaboratoriya
kinossenari
kinoteatr
kinofilm
kinoxronika

**§ 372.** Aşağıdakı sözlərin hər birini cümlə içərisində işlədib yazın.

fotoalbom
fotoaparat
fotoqəzet
fotoqravüra
fotoelektrik
fotoelement
fotokamera
fotokimya
fotolaboratoriya
fotolitoqrafiya
fotolövhə
fotomağaza
fotometr
fotomexanik
fotomontaj
fotoobyekt
fotoplastinka
fototeleqram
fototelefon
fototexnik
fotocərəyan
fotoşəkil
fotoetüd
fotomüxbir

**§ 373.** Köçürün, mötərizəni atın, lazım olan yerdə defis işarəsi yazın.

(Balıq)qulağı, (gözü)tox, (it)burnu, (qeyri)üzvi, (ad) san, (qohum)qardaş, (dədə)baba, (gediş)gəliş, (kino) dramaturq, (gül)çiçək, (ağca)qanad, (yük)daşıma, (aş)süzən, (günə)baxan, (səs)boğan, (uzaq)görənlik, (arvad)uşaq, (təhvil)təslim, (kilovat)saat, (vitse)admiral, (sosial)demokratiya, (gülər)üzlü, (yad)elli, (uzun)boylu, (ağla)batmaz, (daşlı)kəsəkli, (tarixi)ictimai, (ictimai)siyasi, (elmi) tədqiqat, (ayağı)yüngül, (uzun)uzadı, (ac)acına, (deyinə) deyinə, (qarış)qarış, (başdan)başa, (ildən)ilə, (açıq)aşkar,

(bəstə)boy, (gülər)üz, (orta)bab, (sarı)bəniz, (enli)kürək, (qara)saqqal, (ümum)bakı, (ümum)şəhər, (ağzı)bütöv, (əl) altı, (ala)çiy, (ağzı)boş, (dil)ucu, (yeni)yetmə.

**§ 374.** Köçürün. Mötərizəni atın, lazım olan yerdə defis işarəsi yazın.

I

1. Çəkdiyi dərdləri, müsibətləri, uzun həsrətləri, məşəqqətləri indi (yerli) dibli unutmuş Sərin. 2. Şəhərdə işmi var? Şəhər müztərib; Dolaşıb şəhəri sən (qərib) qərib, Qara qış qapını aldığı zaman (*M.Müşf.*). 3. Bu, (saçı) saqqalı qar kimi ağarmış, sifətinə yuxu kimi qaranlıq çökmüş yüz yaşlı bir qoca idi (*M.C.*). 4. Nabat yaxşı bilirdi ki, gözlədiyi adam burada deyil, bir saat sonra (qeyri) səmtdən (qeyri) marşrutla gələn qatarda olacaqdır (*B.B.*). 5. İki dünyanın (qarşı) qarşıya durduğu belə keşməkeşli günlərdə, gözlənilməz çox şey baş verə bilərdi (*Q.İ.*). 6. Qıza (birdən) birə elə gəldi ki, demək istədiklərini o heç bir sözə sığışdıra bilməyəcək (*Ə.Ə.*). 7. Ona elə gəlirdi ki, bu saat bu haqsızlıqdan dünya uçulacaq, ulduzlar töküləcək, bütün kainat (alt) üst olacaqdır (*C.C.*). 8. O zaman qız (qara) tikan kolunun himayəsinə sığınmış xırdaca çiçəkli boyaq gülünün kövrək zoğlarını gördü (*Ə.M.*). 9. Burada, (iri) gövdəli ağacların çətirləri altında yağışdan qorunmaq mümkündür (*Q.İ.*). 10. Səltənət çox (iş)güzar, (zəhmət) sevən, təcrübəli, ünsiyyətli qadın idi (*M.C.*).

II

1. Ruzigar (xəfif) xəfif əsir, ağaclar səslənir, bayaqkı çıraqban küçələri dərin və qorxunc bir qaranlığa bürümüşdü (*C.C.*). 2. Bəşir (tez) tez Dilaranın çəkmələrinə baxır, kiçik bir palçıq ləkəsi qanını qaraldırdı (*C.C.*). 3. (Əl) qolu-

nu ölçüb, barmaqlarını oynadaraq gah əyilib, gah düzəlib tapşırıqlarını verirdi (*M.C.*). 4. Hamı (dəstə) dəstə, (tək) tək aralanıb cığırları (qaralda) qaralda gedirdi (*B.B.*). 5. Lakin zəng qatarın yola düşdüyünü xəbər (verər) verməz qərib bir hiss bütün duyğularına təzədən hakim kəsildi (*Q.İ.*). 6. İyirmi gündən sonra zavallı Bəşiri evə gətirib, kirli (yorğan) döşəyə saldılar. 7. Günəşin vərəmli tellərinə qarşı zavallı Bəşir ac uşağının, göz yaşlarına boğulmuş qadınının üzünə (dinməz) söyləməz baxırdı (*C.C.*). 8. İnsanların ürəyində (xeyir) dua... Bir Allaha bağlayarmış niyyətini (*S.V.*). 9. Həsən kişi doğrudan da pulu o qədər əhəmiyyətli bilmirdi, ancaq bu dəfə özü (əl) ayağının sarılı olduğunu hiss edirdi (*C.C.*). 10. Mərdan bir söz deməyə artıq cəsarət etmədi, gəlinin halət və hərəkəti (qayın) ananın iftirasını təkzib edirdi (*Y.V.Ç.*).

III

1. (Paltar) palaz yumaq, (qab)qaşıq yumaq, xörək hazırlamaq və bu kimi işlər də ağır bir yük kimi Dilbərin üzərinə düşmüş, göz açmasına imkan vermirdi (*C.C.*). 2. Qasım rəhbərdən ayrılanda dünyaları fəth etmiş əfsanəvi qəhrəmanlar kimi sevincindən (yerə) göyə sığmırdı (*M.C.*). 3. Atam (yemək) içmək barəsində qayğı çəkmirdi, amma (geyim) dəyişək haqqında dediklərini (dönə) dönə təkrarlayırdı (*B.B.*) 4. Düz yolu qoyub (dağa) daşa düşməyindən, qaraltı görcək yayınıb kənar getməyindən adam şübhələnirdi (*M.C.*). 5. Mən yola düşəndə göyün üzü təmiz silindi, elə bil (birdən) birə bahar üzümə güldü (*B.B.*). 6. Qumru bunu (eşidər) eşitməz yerindən qopub (üzü) aşağı dərəyə doğru yüyürdü (*Ə.M.*). 7. (Ara) sıra quran oxurkən fikri dolaşır, düşünür, keçmişlərini, uşaqlığını, şən və oynaq gəncliyini, məktəb yoldaşlarını, bütün ümidlərini xatırlayır, bütün varlığı sarsılırdı. (*C.C.*). 8. Niyə məni tərk etdin,

niyə gəlmirsən, niyə (hisimi) tozumu almırsan, (bayram) qabağı (qapımı) divarımı təmizləyib ağartmırsan. (*M.T.*). 9. Gülər isə ancaq (indi) indi yeni həyat üçün ayaq açır, siz isə onun yürüş yollarını meyitlərlə doldurmaq istəyirsiniz (*C.C.*). 10. Ucaboy, (uzun) paltar bir kişi zəmilərin içi ilə, (başı) aşağı, (daş) kəsəyi, (kol) kosu (basa) basa yeyin yeriyirdi (*M.C.*).

**§ 375.** Köçürün, mötərizələri atın, lazım gələn yerdə defis işarəsi yazın.

I. Qışın oğlan vaxtı idi. Kəndin qabağındakı qaşqa dağlardan əsən şiddətli külək (ala) çalpov qarı axşam üstü atları suya aparanların gözlərinə çırpırdı. Atlar sudan qayıdana kimi Zeynal kişi oğlu Lətiflə həyətdə durub, (gəlib) gedənə baxır, (ara) bir şirin söhbət edirdi. (Alcaq) boylu, çopur, (pələ) qulaq, başının tükü geri daranmış, əynində qara mahuddan frenc və qalife şalvar, dizdən çəkmə, əlində qamçı olan Qabil, ondan arxada isə (enli) kürək, (iri) gövdə, (qırmızı) yanaq, (sünbül) bığ, (əyri) burun, nimdaş geyimli, (gülər) sifət atçılıq briqadiri Səməd atları sürürdülər (*Ə.V.*).

II. Qohum (əqraba) arasında, (qonum) qonşu yanında, (tanış) biliş içərisində bacanaqların (əməlli) başlı hörmətləri vardı. Şər demərəm, bir xeyir iş onlarsız keçməzdi.

Qohumlarda hansınınsa arvadının 40 yaşının tamam olması münasibəti ilə bir (dəm) dəsgah düzəlmişdi ki, gəl görəsən.

Bacanaqlar həmişəki kimi yuxarı başda, (yan) yana əyləşmişdilər. Onların ikisi də təxminən eyni yaşda, eyni boyda olardılar. Fərqləri bu idi ki, biri (qara) yanız idi, o biri (qırmızı) yanaq (*Ə.Q.*).

**§ 376.** Aşağıdakı sözlərin hər birini cümlədə işlədib yazın.

Alma-ata, Amu-Dərya, Port-Artur, Port-Səid, Tyan- Şan, Ulan-Bator, Ulan-Ude, Nyu-York, Mahaç-Qala, Rostov-Don.

**§ 377.** Tərkibində "aşağı", "yuxarı", "böyük", "kiçik" və "orta" sözləri olan yer adlarının hərəsinə aid bir misal yazın.

***Numunə:*** Böyük Dəhnə, Kiçik Qafqaz, Aşağı Bucaq, Yuxarı Qarabulaq, Orta Asiya, Bala Təklə.

**§ 378.** Köçürün, hansı qrup sözlərin ayrı yazıldığını şifahi aydınlaşdırın.

1) Qoldan qüvvətli, dildən iti, ağıldan kəm, gözdən iti.
2) On üç, doxsan beş, üç yüz, on iki, beş min səkkiz yüz otuz yeddi.
3) Bu il, bu gün, o saat, o gün, o adam, bu kağız.
4) Hər kəs, nə vaxt, heç biri, heç kim, hər biri.
5) Təşkil etmək, fikir vermək, gözdən salmaq, qəbul etmək, başa düşmək.
6) Nənə imiş, onlar imiş, bu idi, oğul idi, quzu idi.
7) Tələbə ikən, cavan ikən, oxuyası ikən, yazası ikən, bayırda ikən.
8) Birə beş, birə on, birə yüz, birə min
9) Belə ki, buna görə də, və yaxud, onun üçün, tutaq ki, həm də, gah da.
10) Ay aman, ay haray, ay vay.

**§ 379.** Aşağıdakı rəqəmləri sözlə yazın.

*14, 35, 44, 53, 67, 71, 83, 93, 101, 1033, 1234, 1564, 1781, 1968, 1970, 3517, 9699.*

**§ 380.** Aşağıdakı misalları sözlə yazın.

*150 illik, 11 illik, 250 illik, 15 qramlıq, 25-illik.*

**§ 381.** Verilmiş misalları sözlə yazın.

*3,5; 7,1; 9,4; 1/2, 1/5, 3/10*

**§ 382.** Mötərizələri atın, sözlərin yazılışını müəyyənləşdirin və aşağıdakı sxem üzrə qruplaşdırıb yazın.

| **Bitişik yazılan sözlər** | **Defislə yazılan sözlər** | **Ayrı yazılan sözlər** |
|---|---|---|
| yarımsərlövhə | gecə-gündüz | hər kim |

(Bağa) yarpağı, (beş) guşə, (ağ) daş, (boy) ölçən, (boyun) bağı, (ağza) baxan, (saat) qabı, (üç) ayaq, (qurda) oxşar, (nə) zaman, (dörddə) bir, (ağ) ciyər, (heç) kim, (qoldan) güclü, (qəlbi) qara, (pis) pis, nə (cür), (ağıldan) kasıb, (bom) boş, (baş) başa, (bu) gün, (itib) batmaq, (allı) güllü, (daban) dabana, (bu) ay, (heç) kəs, (bir) biri, (sətir) sətir, (sətirdən) sətrə, (dodaq) altı, (üst) üstə, (elə) belə, (və) ya, (halbu) ki, (demək) ki, (bəh) bəh, (nə) qədər, (kino) film, (dəm) dəsgah, (var) yox, (əl) yazması, (on) üç, (dünya) görüşü, (dünya) baxışı, (ayaq) qabı, (rütubət) ölçən, (təhqir) edici, (tay) göz, (ala) toran, (hərbi) dəniz.

**§ 383.** Mətni diktə ilə yazın, sonra yazınızı orijinalla yoxlayın.

Vətən dərdi, ellər dərdi,
Sinəmdədi, yara Təbriz.

Atam itkin, mən didərgin
İqbal gedər, hara Təbriz.

Üç tərəfin dağlar dağı,
Qucağında bağlar bağı
"Şah gölü"nün xoş sorağı
Keçir vardan vara, Təbriz.

Heydər baba. Şəhriyarın
Şairlərin sənət barın,
Qonaqpərvər övladların
Bələnibdi bara, Təbriz.

Havan təmiz, suyun sərin
Verdi mənə Göyçə yerin.
Məskənisən gözəllərin
Şeydan həsrət yara, Təbriz.

Zəki İslam dayanmaz lal,
Biz gedirik salamat qal.
Gələn olsa bir xəbər al
Özün axtar, ara, Təbriz (*Z.İslam*).

## SÖZLƏRİN İLK HƏRFLƏRİNİN BÖYÜK YAZILMASI

**§ 384.** Verilmiş misallarda cümlələrin, misraların əvvəlindəki sözlərin ilk hərflərinin yazılış qaydasını aydınlaşdırın.

I. Aydınlıq gecədə, gözəl bir çeşmənin kənarında cavanlar halə qurub əyləşib, növbə ilə oxuyub çalanlara qulaq verirdilər. Meşənin tamam bülbülləri tarların səsinə cəm ol-

muşdular. Tar çalındıqca onlar da ağız-ağıza verib oxuşurdular. Bülbüllərin nəğmələri, meşənin və çiçəklərin ətri, gecənin sərinliyi, buludsuz göydə səyahət edən ayın tamaşası çalanların və oxuyanların hamısına nəşə verirdi (*Ə.H.*).

II

Ürəyimdən çəkilib Təbrizə yol,
Dağları, daşları qandır bu yolun
Ellər hürriyyəti, etdikcə parol
Ey nəsillər, yürüşə hazır olun!
Yenə şerimlə göyərçintək uçub
Çəkirəm baş o döyüşkən şəhərə,
Yenə könlüm yeni bir mahnı qoşub
Gözü yollarda qalan dərdlilərə (*S.R.*).

III

Fikrimdə aylı, ulduzlu
asiman var, bu gecə!
Könlümdə körpə quzu tək
bir ümman var, bu gecə!
Həmdəmim – sıldırım dağlar,
buludlardır, bu gecə!
Qonağım qırmızı güllər,
göy otlardır, bu gecə!

* * *

Şimşəyə "çaxma" desəm mən,
inan çaxmaz, bu gecə
Araza "axma" desəm mən,
bil ki, axmaz bu gecə.
Bircə sən yoxsan, əzizim,
bilir aləm, bu gecə
Neçin olmadın, əzizim,
mənə həmdəm, bu gecə *(Z.X.)*.

**§ 385.** Misallara fikir verin, hərfin nə zaman böyük yazıldığını aydınlaşdırın.

Bu ölkəni indiyə qədər görmədiyimi, Azərbaycan yazıçısı üçün, qəbahət də olsa etiraf etməliyəm. Odur ki, avtobusa oturub, gözəl şoselərlə getməyə başlayandan etibarən özümdə gənclik fərəhləri duyuram. Mərəzə kəndinə qədər davam edən susuz çöllər və çılpaq təpələr belə mənə olduqca maraqlı və olduqca dadlı görünür. Çünki bunun da bir xatirəsi var: "Şirvan yolu dərbədər, içində meymun gəzər..." də çocuqluğumuzda əzbərlədiyimiz bədyələr belə bu gün məzmununu dəyişmişdir. Üç gün araba ilə keçilən o "dərbədər" yollar əvəzinə bu gün gözəl şose çəkilir. Bakıdan Şamaxıya üç saata gəlmək imkanı əldə edilmişdir.

Əsil Gülüstani-İrəmi andıran gözəllik Mərəzədən başlayır. Tarlalar ətrafı füruzəyə döndərmiş, təpələri bəzəyən yaşıl şırımlar arasında arabir şumlanan torpaqlar da gözə çarpır, traktorlar torpa..ları lay-lay çevirir. Ara-sıra köçərilərə rast gəlirik: hisli alaçıqlar ətrafında otlayan dəvələr və ulaqlar Bakıdan sonra bizə olduqca yabançı görünür. Bunlar qədim ərəb, yə ərəb uşaqlarıdır. Hələ babaları ərəbcə danışarmışlar, bu gün artıq azərbaycanlılaşmışlar.

Xəfif cizgili yaşıl təpələr arası ilə Şamaxıya yaxınlaşırıq. Acıdərədə neft gölməçəsinə rast gəlirik, sızıb ətrafa axır. Zərdüştə ilham verib insaniyyətə parlaq Hürmuzd məfkurəsi bağışlayan bu çeşmə məndə min bir tarixi xatirələr oyadır. İnsan hələ çağa ikən, ilk düşüncə sınaqlarını bu torpaqda başlamışdır. Muqlar tarix boyu bu atəş ocaqlarının keşiyini çəkmiş və uzaq gələcəkdə bu atəşin nuru ilə bütün dünyanın işıqlanacağına inama gəlmişlər.

Dünya nur saçacaq, soyuqdan və xəstəlikdən iz qalmayacaq, sağlam fikirli, sağlam sözlər, sağlam hərəkətli insanlar səadət sarayı quracaqlar.

Nə böyük xəyal!

Lakin Əhrimən daima bir füsunkar xəyalı pozmağa çalışmış, hər yerdə zülmət və şər saçmış, dəhşət ətrafı bürümüş.

Bütün bu tarixi mülahizələrlə özümü yoraraq Şamaxı mənzərəsinə tamaşa edirəm. Yanıb uçmuş evlərin təllənmiş daş yığınları çəlimsiz ağaclar arasına sığınaraq insana dəhşət verir. Daşla döşənmiş geniş küçələri ot basmışdır. Bumu Şirvan şahlarının paytaxtı? – deyə düşünürəm – Öməri, Çingizi, Teymuru, İran şahlarını, Osmanlı soltanlarını, böyük Petronu dəbdəbəsi ilə məftun edən şəhər bumu? Avropa hökmdarları və Roma papası səfarəti buradamı olmuş?

İştə, vaxtilə şərq və qərb, şimal və cənub ticarəti arasında rabitə təşkil edən böyük və şöhrətli Şamaxı! (*Y.V.Ç.*)

**§ 386.** Oxuyun, durğu işarələrindən sonra (nöqtə, sual, nida, çox nöqtə, iki nöqtə) böyük hərflərdən istifadə qaydasını izah edin.

1. Sərin, danış, Sərin! Ah, sənmi gəldin,
Ulduzdanmı düşdün, göydənmi gəldin?
Mehriban nişanlım, göyçək nişanlım,
Burdan qurtarmağa ürəyin varmı?
Sərinin əndamı əsdi yel kimi;
Dondu göyərçinə titrədi qəlbi (*M.M.*).

2. Bu necə ola bilərdi? Onu ana yurduna bağlayan yeganə bir evdəmi yox olmuşdu? Hər şeydən əziz tutduğu oğlu, öz ürəyinin bir parçası qədər sevdiyi həyat yoldaşı qara torpaqlara gömüləndən sonra bayquşlu xarabaya dönən daxmasıdamı uçurulmuşdu? Kimsənin minnətini çəkmədən öz qabarlı əlləri ilə, öz qüvvəsi ilə tikdiyi evinidəmi uçurmuşdular? (*M.H.*)

3. Başına döndüyüm gül üzlü sona!
Ömrümün ilk çağı yadıma düşdü;
Şairlər vətəni bizim tərəflər,
Tərlanlar ovlağı yadıma düşdü (*S.V.*).

4. Anladım... Demək, bu, sənin əlindən şikayət edəcəyin Rəhim xan imiş (*C.C.*). Onu mənə göstər... Səndən rica edirəm (*C.C.*). Odur, yazıq Gülzarım, odur, gəlir... Özüdür (*C.C.*). Mühitdən intiqam almaq və bacımı sevindirmək üçün varlı, həşəmətli bir adam olmaq... Daha sonra Çingiz xan və Napoleon kimi məşhur simaları öyrənincə bu arzu böyüdü... Mən istəyirdim butun dünya mənimlə hesablaşsın, küçələrdən keçərkən Aydın gəlir – deyə xalq məni barmağı ilə göstərsin (*C.C.*).

5. Sadıq əminin ürəyi köyrəldi: – Bilirəm, ovdan boş qayıtmaq ovçu üçün çox ağırdır (*A.Ş.*). Səid iri bir qab götürüb: – Oğul, bu timsah artıq bizim malımızdır, – dedi (*A.Ş.*).

**§ 387.** Oxuyun, böyük hərflərdən istifadə qaydalarını şərh edin.

1) Əbdürrəhimbəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Həsən bəy Zərdabi, Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı kimi yazıçı dostlarım həmişə verdiyim tamaşaların təşkilində hətta biletlərin satılmasında belə yaxından iştirak edib, bütün aktyorlarımıza, o cümlədən də mənə hər cəhətdən kömək göstərirdilər (*Sidqi Ruhulla*). 1905-1920-ci illərdə Azərbaycanda öz görüşlərində irəliləyərək romantizmdən realizmə keçən Abbas Səhhət, Abdulla Şaiq kimi mütərəqqi yazıçılar olmuşdur (*M.C.*). Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi (*C.C.*). Nizamilər, Füzulilər, Nəsimilər, Vaqiflər, Mirzə Fətəlilər – burada, bu balaca ölkədə yetişmişlər (*M.H.*).

2) Müşahidə edilmişdir ki, qalın çökmə suxur qatlarının Yer səthindən sipərlə ayrıldığı yerlərdə çoxlu neft və qaza təsadüf edilir. Belə bir fərziyyə var ki, Ay Yerin bir hissəsi olmuşdur, hazırda isə onun yerində Sakit okean yerləşir

(*"E. və H."*). Yerin yaranması Günəş sisteminin, hətta bizim qalaktikanın yaranması ilə sıx əlaqədardır (*"E. və H."*).

3) Keçək Kür çayını, Araz çayını, İçək Lənkəranın nüybər çayını (*S.V.*). Bunlar bizim kəndlilərin qoca Şərqi azad, onun milyonlarla adamını ağ gündə görmək arzularının ifadəsidir (*M.C.*). Ağsaqqalların məsləhəti, qonşu kəndlilərinin razılığı ilə Qara Keşişli, Minkənd, Kamallı ilə Çıraqlı arasındakı düzəngahlıqda cıdır təşkil etməyi qərarlaşdılar (*Ə.E.*).

4) Bilal, Mikayıl, Həmzə də məhəbbət tamarzısı, sevgi həsrəti çəkə-çəkə Zəngəzur qəzasının bərəkətli torpağı, soyuq suyu, təmiz havasıyla vidalaşıb qəzanın ikinci və üçüncü nahiyyəsinə köçdülər (*Ə.V.*).

5) Çox əski bir zamanda,
Bizim Azərbaycanda,
Abşeron civarında,
Quzğunun kənarında
Varmış qədim bir şəhər (*M.M.*).

6) Kim isə kamançada Çaykovskinin "İlin fəsilləri" pyesindən "Payız"ı çalırdı (*Sa.Rəh.*). Bunun sabahı günü rayon qəzetinin "Cəsur, nəcib təşəbbüs" başlığı altında çap etdiyi məqalə isə, Ağayar Qədimov üçün lap yerinə düşdü (*Ə.Ə.*). Şamil ilə Şəhri Özbəkistanda yaşayan qohumlarının yanına gedib səadətə qovuşdular (*Ə.E.*). Məgər "Mehparə" şeiriyyətcə "Mühəndis"dən, ya qeyrilərindən zəifdir? Yox, şeiriyyətcə zəif deyil. Poemanın "Oyanan duyğular", "Telefon söhbəti", "Dənizdə", "Lovğalıq və iftixar", "Ay ev yiyəsi", "Nigarançılıq", "Ana nifrəti" və "Ana təsəllisi" parçalarındakı şairlik bacarığı mənim bu etirafımı təsdiq edə bilər (*M.C.*).

7) Vəzirin oğlu Gülçin
Əlinə alacaqdır
Səbayeldə xanlığı.

Bütün hökmranlığı.
Hakim olub Arana,
Daha sonra İrana.
Hər yerdə qan tökəcək,
Çinə qədər gedəcək.
Böyük İskəndər kimi.
Xızır peyğəmbər kimi
Tapacaqdır zülməti (*M.M.*).

**§ 388.** Köçürün, lazım olan yerdə böyük hərf işlədin.

1. Şərt kəsənlər camaata elan elədilər ki, Mustafaya bundan sonra "Qaçaq Nəbinin dostu" adı qoyulsun (*Ə.V.*). 2. Alpovut bəyinin oğlu hirsindən dodaqlarını gəmirir, qarnını qara sancı qovururdu; altındakı qaşqa qulanı atası bildir Qarabağda göytənəli bir bəydən yüz manata almışdı (*Ə.V.*). 3. Bu anda onun beynində qəribə xatirələr canlanırdı: bəndər-abbas qəhvəxanası.. cənubi aran neft mədənləri... aran körfəzində inci ovu... Urmiyə yolları.. Nəhayət, Culfa çayxanasında rast gələn gənc... lakin onun adını xatırlaya bilmirdi. (*S.Şami.*). 4. Azərbaycan cənubda, xəzər sahilində, qafqaz sıra dağlarının o tayında gözəl bir ölkədir (*Ə.M.*). 5. Bax mənim yanımda oturan da mənim köhnə dostum və gəncə mülkədarı hacı sultandır ki, nikolay vaxtında nər-nər nərildəyirdi və qradonaçalnik martınova küçədə elə şapalağ vurdu ki, səsi düz Peterburqa getdi, çatdı (*C.M.*). 6. Bu gün isə mən onun böyük vətən müharibəsi cəbhələrinə göndərdiyi minlərlə oğullardan yalnız biri haqqında sizə danışacağam (*Ə.M.*). 7. Mərkəzi muzeyin Bakı filialında Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgi açılmışdır. ("*Ə.* və *İ.*"). 8. Üzeyir Hacıbəyovun musiqi yaradıcılığında "şəbu-hicran"dan "koroğlu"ya, "koroğlu"dan "qələbə himni"nə və "Azərbaycan respubli-

kasının dövlət himni"nə qədər keçdiyi yol, əslində xalqın mənəvi inkişaf yoludur (*M.C.*). 9. Azərbaycan İran əsarətindən xilas olandan sonra XVIII əsrin ortalarına yaxın qarabağ, şəki, şirvan, gəncə, bakı, naxçıvan, dərbənd, təbriz, urmiya, ərdəbil, maku, marağa, xoy və Qaradağda kiçik feodal dövlətlər – xanlıqlar meydana çıxdı (*"Azərb. tarixi"*). 10. Mirzə Camalın verdiyi məlumata görə, məhəmməd bəy ibrahim xanın qardaşı oğlu idi. Ağa Məhəmməd şahın yanında olarmış və şah öldürüldükdən sonra qarabağ hakimiyyətini əlinə keçirir. Sonra şəki hakimi mustafa xanın dəvətinə aldanıb şəkiyə gedir və orada öldürülür (*Y.V.Ç.*).

**§ 389.** Verilmiş mürəkkəb adların hər birinə dair cümlə yazın.

1. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu. 2. Azərbaycan Dövlət Pedoqoji Universiteti. 3. Azərbaycan Respublikası Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət arxivi. 4. Bakı şəhəri Baş Bələdiyyə İdarəsi. 5. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 6. Azərbaycan Su Təsərrüfatı Nazirliyi. 7. "Bənövşə" uşaq xoru. 8. Azərbaycan Yazıçılar Birliyi. 8. Gənc Tamaşaçılar Teatrı.

**§ 390.** Köçürün, nöqtələrin yerinə böyük, yaxud kiçik hərfləri yazın.

1. Azərbaycan Respublikası ..azirlər ..ovetinin ..övlət ..u ..əchizatı, ..u ..htiyatlarının ..ühafizəsi və ..şlədilməsi Komitəsi. 2. Azərbaycan ..əniz ..eft ..urğularını ..ayihələşdirmə İnstitutu. 3. Azərbaycan Respublikası Mədəniyyət ..azirinin birinci ..üavini. 4. ..eft ..ədənləri ..darəsi ..uyuları ..saslı ..əmir sexi. 5. Bakı ..unel ..ikirtisi ..darəsi 2 ..ömrəli

..darəsi. 6. Azərbaycan Respublika ..azirlər ..oveti ..uraşdırma və ..üsusi ..ikinti ..şləri idarəsi. 7. Azərbaycan Respublikası milli ..lmlər ..kademiyasının ..əbatət ..ağı. 8. Azərbaycan ..əniz ..eft ..əşfiyyatı ..resti iki ..ömrəli ..azma ..ontoru. 9. Azərbaycan Respublikası ..ənd ..əsərrüfatı ..azirliyinin ..lmi-..ədqiqat ..emçilik, və ..tlaqlar ..nstitutu. 10. Azərbaycan Respublikası ..lmi-..ədqiqat ..lmi-..exniki ..əlumat və ..məyin ..lmi ..şkili ..nstitutu ..osioloji ..ədqiqatlar ..öbəsi. 11. Azərbaycan Respublikası ..eşə və ..ğac ..malı ..ənayesi ..azirliyi. 12. Bakı ..əhər ..ikintisi ..resti. 13. Bakı bələdiyyə idarəsi ..rxitektura-..lanlaşdırma ..darəsi. 14. Bakı ..aş ..ikinti ..darəsi. 15. Azərbaycan Respublikası Milli ..lmlər ..kademiyasının ..izami ..dına ..dəbiyyat ..nstitutu. 16. Bakı ..övlət ..əhər ..ayihə ..nstitutu, 17. Azərbaycan ..ənaye-..lektrik ..vadanlığı ..uraşdırma ..epartamenti. 18. Azərbaycan Respublikası ..azirlər ..oveti ..övlət ..lan ..omitəsi ..anında ..lmi-..ədqiqat ..iqtisadiyyat ..nstitutu.

**§ 391.** Mətni diktə ilə yazın, sonra orijinalla yoxlayın.

I

İctimai ziddiyyətlərin kəskinləşdiyi və inqilabi mübarizələrin son dərəcə qızışdığı bu dövrdə Üzeyir Hacıbəyov özünün əsas publisistik əsərlərini yazmışdır. Onların böyük əksəriyyəti ideya-fikri istiqaməti etibarilə inqilabi-demokratik səciyyədə olmuşdur. Üzeyir Hacıbəyov "Molla Nəsrəddin", "İrşad", "Həyat", "Tərəqqi", "İqbal", "Həqiqət" və sair qəzet və jurnallarda çap etdirdiyi saysız-hesabsız publisistik yazılarda Azərbaycan xalqının həyatının, mübarizəsinin, təfəkkürünün ən müxtəlif sahələrini və problemlərini işıqlandırır, zəmanənin və xüsusən Rusiya ictimai-siyasi, iqtisadi və mədəni həyatının irəli sürdüyü müxtəlif canlı məsələlərə öz münasibətini bildirirdi (*D.V.*).

II

"Azərbaycan xalq musiqisinin əsasları" əsərində bəstəkar muğam sistemini nəzəri cəhətdən daha geniş izah edərək yazır ki, "Rast", "Şur", "Segah", "Şüştər", "Çahargah", "Bayatı-Şiraz" və "Hümayun" Azərbaycan musiqisinin yeddi əsas köküdür. Bədii, ruhi təsir cəhətindən "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi, "Şur" şən, lirik əhvali-ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər" dərin kədər, "Çahargah" həyəcan və ehtiras, "Bayatı-Şiraz" qəmginlik, "Hümayun" isə "Şüştərə" nisbətən daha dərin kədər hissi oyadır" (*M.C.*).

III

1925-1926-cı illərdə Qərb musiqi alətləri ilə Şərq musiqisini icra etməyi qeyri-qanuni sayan primitiv mülahizələrə qarşı çıxaraq Üzeyir Hacıbəyov elmi şəkildə sübuta yetirirdi ki, Şərq musiqisini Qərb musiqi alətləri ilə icra etmək mümkün və lazımdır. Məsələn, o, sübut edir ki, bizim kamançanın yoldaşı olan violo (skripka), xüsusi tembri olan alət, füsunkar sədalı fleyta, məşhur klarnet və sair Qərb musiqi alətləri ilə Azərbaycan musiqisinə aid bütün havaları, "Segah", "Çahargah", "Şüştər", "Bayatı-Şiraz", "Bayatı İsfahan", "Hicaz", "Bayatı-kürd" və s. dəstgahları müvəffəqiyyətlə ifa etmək olar (*M.C.*).

## ŞƏRTİ İXTİSARLARIN VƏ QISALTMA SÖZLƏRİN YAZILIŞI

**§ 392.** Oxuyun, şərti ixtisar edilmiş və qısaldılmış sözləri seçib yazın.

1. Respublikanın Azərxalça İstehsalat Birliyi bir çox yerlərdə öz sexlərini açmışdır. 2. Yoldaşlar çox fikirləşib

belə məsləhət gördülər ki, Azneftin rəhbər işçilərindən biri ilə mən Moskvaya gedək (*Q.İ.*). 3. Çox isti olduğundan Azərnəşrin kiçik bağçasına enib burada gözləməyə qərar verdik. 4. Qonaqların içində Bakıya təkrar gələn BMT müşahidəçiləri şəhəri tanımaları və hər şeyə bələdlikləri ilə dərhal seçilirdilər. 5. ADPU-nun tələbələri adətən əksəriyyəti qızlardan ibarət olur. 6. BDU nəinki Azərbaycanda, həmçinin müstəmləkə Şərqində ilk universitet idi. 7. Tərkibə daxil olan sözlərdən biri sinonimlərlə ifadə edilə bilərsə, bunlar həmin sözdən sonra mötərizə içərisində verilir; məs.: əldən (ayaqdan) düşmək (*"Azərb. lüğ"*). 8. Bir sıra mühüm kitablar siyahısında ADİL-in təkrar nəşr olunması xəbəri sevindiricidir. 9. Kənd təsərrüfatı alətlərinin təkmilləşdirilməsi torpağı daha yaxşı becərməyə, buğda, arpa, darı və s. əkinini genişləndirməyə imkan verirdi (*"Azər, tarixi"*). 10. Mingəçevir şəhərindəki Azərkabel zavodu bizim diqqətimizi daha çox cəlb etdi. 11. Azərelektroizolyasiya zavodunun fəhlələri ilə keçirilən görüş olduqca maraqlı idi.

### 1. Şərti ixtisar edilmiş sözlərin yazılışı

**§ 393.** Aşağıdakı sözləri ixtisar edilmiş şəkildə yazın.
***Nümunə:*** mələn – *məs*.

Qiymət, nüsxə, təcrübi, dil, tədris ili, arxiv, astronomik, filial, filoloji, dəftər, mətbəə, tiraj, fakültə, redaktor, şəkil, əlyazması, tərtibçi, məqalə, cild, səhifə, rəsmi, müqəddimə, mündəricat, kitab, müxbir, referat, qəzet, jurnal, fəsil, tərcümə, məcmə, Bakı, Naxçıvan, Şamaxı, Sumqayıt, Mingəçevir, azərbaycanca, rusca, qazaxca, gürcücə, farsca.

**§ 394.** Köçürün, hər sözün qarşısında ixtisar edilmiş formasını yazın.

| C/N | Bütöv sözlər | Şərti ixtisarı |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1 | akademik | akad. |
| 2 | professor | Prof |
| 3 | dosent | |
| 4 | doktor | |
| 5 | adına | |
| 6 | Müəllif vərəqi | |
| 7 | Çap vərəqi | |
| 8 | Cild | |
| 9 | Hissə | |
| 10 | Səhifə | |
| 11 | Və başqaları | |
| 12 | və ilaxır | |
| 13 | və sairə | |
| 14 | və bu kimi | |
| 15 | bu kimi | |
| 16 | vətəndaş | |
| 17 | yoldaş | |
| 18 | məsələn | |
| 19 | manat | |
| 20 | kiloqram | |
| 21 | dəmir yolu | |
| 22 | ada | |
| 23 | göl | |
| 24 | çay | |
| 25 | dəniz | |
| 26 | yarımada | |
| 27 | aşırım | |
| 28 | dağ | |
| 29 | kənd | |
| 30 | şəhər | |

| 1 | 2 | 3 |
|---|---|---|
| 31 | kanal | |
| 32 | kurort | |
| 33 | stansiya | |
| 34 | liman | |

**2. Qısaltma sözlərin yazılışı**

**§ 395.** Aşağıdakı qısaltmaları bütöv şəkildə yazın.

***Nümunə:*** TEC – *Tələbə Elmi Cəmiyyəti*

KT, ADPU, BMT, RƏF, ADİL, İH, MDB, UE, BDU, ABU, BOK, DYP, BTMİ, ADMİ

**§ 396.** Verilmiş ifadələri qısaldılmış formada yazın.
***Nümunə:*** Xəbərlər Mətbuat Agentliyi – *XMA*
1. Dövlət Yol Polisi. 2. Su Elektrik Stansiyası. 3. Beynəlxalq Olimpiya Komitəsi. 4. Azərbaycan Həmkarlar İttifaqları Şurası. 5. Dağlıq Qarabağ Muxtar Vilayəti. 6. Azərbaycan Elmi-Tədqiqat Məlumat İnstitutu. 7. Azərbaycan Respublikası Rabitə Nazirliyi. 8. Şəhər Avtomat Telefon Şəbəkəsi. 9. Elmi Texniki Şura. 10. Beynəlxalq Təbiəti Mühafizə İttifaqı.

**§ 397.** Aşağıdakı sözlərin hər birinə dair iki cümlə yazın.

Azərqaz, Azərsu, Univermaq, Azərkitab, Azərnəşr.

**3. Həm ixtisar və həm də qısaltmadan ibarət olanların yazılışı**

**§ 398.** Verilmiş ifadələri qəbul olunmuş ixtisar və qısaltma formasında yazın.

1. Azərbaycan Milli Elmlər Akademiyası
2. Bakı Tikinti və Abadlaşdırma Departamenti
3. Mingəçevir Su-Elektrik Stansiyası
4. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi
5. Bakı Dövlət Universiteti

**99.** Qəzetdən qısaldılmış və ya ixtisar edilmiş iyirmi söz seçib və səbəbini izah edin.

## SÖZÜN HİSSƏSİNİN SƏTİRDƏN-SƏTRƏ KEÇİRİLMƏSİ QAYDALARI

**§ 400.** Verilmiş sözləri hissələrə bölün, bunların nə zaman sətirdən-sətrə keçirilməsi mümkün olduğunu aşağıdakı formada göstərin.

| Olar | Olmaz |
|---|---|
| pros-pekt | pro-spekt |

Fərziyyə, nəbatət, tərbiyə, cemper, məskən, məkan, şahadət, analogiya, ailə, təbii, angina, ictimai, şəxsiyyət, konveyer, pünhan, şayiə, təfavüt, tikan, perron, kompressor.

**§ 401.** Oxuyun, dəftərin vərəqini bir neçə sütuna ayırın, sözləri hecalara bölüb sütunlarda yazın. Sözün hissəsinin sətirdən-sətrə keçirilməsi qaydalarına ciddi riayət edin.

Fərhad haçandan-haçana gözlərini açdı. Elə bil zülmət içindən bir cüt ulduz parladı. Əvvəlcə heç bir şey görmədi. Bir-iki dəfə gözlərini yumub açdı. Ona elə gəldi ki, çox yaxşı dincəlmişdir. Uzandığı yerdən tərpənmək istəmirdi. Get-gedə gözlərini geniş açdı, intəhasız göyləri, əngin üfüqləri, göz işlədikcə uzanan boşluqları seyr etməyə başladı. Ancaq o, burada niyə uzandığını, nə üçün belə dincəldiyini əsla xatırlamırdı. Göy üzündəki qalaq-qalaq buludlar, onun vətənindəki pambıq tarlalarını yadına saldı. Könlün-

də gözəl bir duyğu çarpırdı. Sanki Fərhadın ürəyi elə bu an işlədi, onun vücudu bu dəqiqə hərəkətə gəldi. Bir az qabaq tamamilə dinc olan bədən indi yorğunluq və əzginlik hiss etdi. Ürəyi zəifliyindən bulanırdı. Başı bərk ağrıyırdı. Sağ qıçı çox sancırdı. Tərpənmək, böyrü üstə dönmək istəyirdi, ancaq elə bil yerə mıxlanmışdı. Qalxmaq, oturmaq, ətrafa baxmaq, bu möcüzənin sirrini bilmək istədi. Mümkün olmadı. Fərhad nə qədər fikirləşdisə uzandığı yeri tanıya bilmədi. Bura nə üçün gəldiyini, niyə bu vəziyyətə düşdüyünü yadına sala bilmədi. Birdən gözlərinə qaranlıq çökdü, sanki hava qaraldı, ürəyini möhkəm bir əl tutub bərk-bərk sıxdı. Alnını soyuq tər basdı. Bədəni üşüyüb açıldı. Ani üşütmə hiss etdi. Bu hissləri duyunca yenə də gözlərini yumdu. Çox dərindən və yavaş-yavaş nəfəs aldı. Onun bənizi ağarmışdı, gözləri çuxura düşmüşdü (*Ə.V.*).

## ORFOQRAFİYAYA DAİR TƏKRAR ÇALIŞMALAR

**§ 402.** Mətni diktə ilə yazın, sonra yazınızı orijinalla tutuşdurun.

İlk günlərdən məni bir məsələ xüsusilə düşündürürdü; uşaqlar məni yalnız müəllim kimi deyil, həm də bir ana kimi sevməlidirlər. Bu isə o qədər də asan olmayacaqdı...

Mən evdəki işlərimə səliqə-sahman yaratmaqdan başladım. Uşaqlar üçün ayrıca guşə düzəltdim. Hərəsinə öz yerini tanıtdım. Başa saldım ki, dəftəri, kitabı hara gəldi atmaq olmaz. Evdə hər şeyin öz yeri olmalıdır. Bir də görürdün, otaqlar bir-birinə dəyib, nə var, nə var, Qədir bığını düzəltmək üçün qayçı axtarır. Qayçı bəzən kitab şkafından, bəzən mətbəxdən, bəzən də bufetin gözündən tapılırdı...

Qədirin özü hədsiz dərəcədə pinti və səliqəsiz idi. Uşaqları da ona çəkmişdilər. İlk günlər gördüm ki, Qədir

ayaqqabısının bağını açmadan ayağına keçirir, bir neçə dəfə döşəməyə tappıldadandan sonra güc-bəla ilə ayağına yer eləyirdi. Buna görə də təptəzə ayaqqabının dabanı beş-on günün içində partlar, yaraşığı itərdi. Yaxud Qədir əynindən çıxartdığı paltarı hara gəldi tullar, səliqə-sahman gözləməzdi. Özü dərzilik atelyesində işləsə də, Qədir ev pal-paltarı, iş paltarı, gəzinti paltarı arasında qətiyyən fərq qoymazdı. Yaxşı yadımdadır, bir gün Qədirgilin idarə işçiləri hansı restorandasa bayram şənliyi təşkil etmişdilər. Mən təzə kostyumunu ona zorla geyindirdim. Zarafata salıb deyirdi ki, özgə yer deyil ha geyinib-keçinəm. Öz işçilərimizdir, onlar da təzə kostyumumu görüblər, bilirlər ki, varımdır (*Ə.Q.*).

**§ 403.** Mətni diktə ilə yazın, sonra yazınızı orijinalla yoxlayın.

Bizim müasir cəmiyyətin ideal qəhrəmanlarının xüsusiyyətləri nədir? Böyük ictimai ideallar, bəşəri arzularla yaşamaq, müstəsna uzaqgörənlik, gələcəyi aydın görmək qabiliyyəti, fikir, ideya, məqsəd aydınlığı, bu aydın məqsəd uğrunda fədakarlıq, mərdlik, cəsarət, sarsılmaz iradə, böyük ağıl, böyük ürək, tükənməz enerji, xalqın, ümumi insanlığın mənafeyi üçün görülən işin böyüklüyünü, əzəmətini dərindən dərk etmək qabiliyyəti; qüvvətli ehtiraslara çevrilmiş coşğun xalq, vətən məhəbbəti, özündə xalq müdrikliyini təcəssüm etdirmək qabiliyyəti; hər cür miskinliyə, meşşanlığa, fərdiyyətçiliyə, qüssə, kədər fəlsəfəsinə, ruh düşkünlüyünə, köləliyə, mənəvi boşluğa düşmən olan yüksəktəbiətlilik, müstəqilfikirlilik, bir sözlə, əsrin qabaqcıl adamına məxsus olan bütün mənəvi zənginliklər, gözəlliklər!

Çox çətin ki, belə qəhrəmanı yalnız və yalnız mücərrəd romantik boyalar, romantik ifadə üsulları ilə vermək mümkün olsun!..

İndi bizim cəmiyyətin qabaqcıl adamlarını realistlər, romantiklər deyə iki hissəyə bölmək, "saf' romantikləri

realistlərdən üstün tutmaq, romantikləri, – onlar hər nə qədər gözəl arzular, xəyallar bəsləsələr də, – daha fövqəladə adamlar hesab etmək çox çətindir. Bunun üçün əsas yoxdur. Ancaq cəsur, fədakar mübariz realist adamlarımız, yeni həyatı qurub-yaradan qəhrəmanlarımız, eyni zamanda, böyük əməllər, yüksək bəşəri ideallarla yaşayan coşqun romantiklərdir – deməyə bütün əsaslar vardır.

Keçmişdə, hələ elm və fəlsəfədə cəmiyyətin inkişaf qanunlarının kəşf edilmədiyi, arzu edilən ideal cəmiyyət quruluşunun nümunəsi yaradılmadığı dövrlərdə mövcud cəmiyyət həyatı ilə, cəmiyyət qanunları ilə barışmayan, başqa bir həyat arzusu, xəyalı ilə yaşayan romantiklər, mövcud cəmiyyət qanunlarına uyğunlaşanlara nisbətən həqiqətən çox-çox yüksəkdə durub, mənəvi cəhətdən üstün, fövqəladə, ideal adamlar kimi görünürdülər. Bu da çox təbii idi. Çünki arzu edilən ideal həqiqət, real həqiqətdən çox-çox üstün idi və gözəl həyat haqqında xəyal bəsləməkdə mövcud cəmiyyət quruluşuna qarşı mübarizənin bir yolu idi (*M.C.*).

**§ 404.** Mətni diktə ilə yazın, sonra yazınızı kitabla tutuşdurun.

Bir az davadan danışdılar, sonra dedilər ki, əsgərlərə isti paltar paylayırlar, sovqat göndərirlər. Gərək biz də göndərək. Musanın sözü ağzında qaldı. O qədər çəpik çaldılar ki, məktəb uşaqları dərsi yarımçıq qoyub çölə çıxdılar. Sonra da Sayad oğlu İbrahim, Qulaməli oğlu Fərəc, Cəfərqulu qızı Xanım danışdı. Sonra elə ev oldu tək, elə ev oldu ikisi bir yerdə sovqat göndərməli oldular. Ha gözlədim, bizim adımız çıxmadı. Cin vurdu beynimə, iclasdan düz çıxdım. Evə nə təhər gəlmişəm, xəbərim yoxdur. Dedim gör nə günə qalmışıq ki, bizim adımız daha çəkilmir... Eh, ay kişi, iraq İldırımın canından, qara pul sikkədən düşən kimi biz də sikkədən düşdük, getdik. Anası ölmüş

Kamal nə qədər ki, sağ idi, hər yerdə başdan sənin adın yazılardı. Bütün məclislərdə qabaqca sənin adın çəkilərdi. İndi bizi kimin səbəbinə sayacaqlar?.. Vur-tut bir İldırım idi ki, o da belə oldu. And olsun Kamalın yaralı ruhuna, elə bilirəm Kamal bu gün ölübdür.

Camal əminin də alnı qırışdı. Sifətinə ötəri bir məhzunluq çökdü. Arvadın danışığı onun da ovqatını təlx elədi. Ancaq Camal əmi arvadı başa salmağa səy etdi:

– Ay Qərənfil, qoca olduğumuz üçün onlar bizə əziyyət vermək istəməyiblər. Ona görə də bu qədər fikirləşməyə, qan qaraltmağa dəyməz. De görüm, sovqatları nə vaxt göndərəcəklər?

– Yox... Adamı qonşudan ayırmaq, adını çəkməmək adama yer eləyir. Yoxsa... Sovqatları bazar günü göndərəcəklər (*Ə.V.*).

**SUALLAR:**

1. Orfoqrafiya nəyə deyilir?
2. Orfoqrafiyanın qrafika ilə əlaqə və münasibəti hansılardır?
3. Orfoqrafiyanın əhəmiyyəti nədən ibarətdir?
4. Orfoqrafiyanın səciyyəvi cəhətləri hansılardır?
5. Azərbaycan orfoqrafiyası hansı prinsiplər əsasında qurulmuşdur?
6. Fonetik prinsipin mahiyyəti nədən ibarətdir?
7. Morfoloji prinsip nəyə deyilir?
8. Ənənəvi prinsip nəyə deyilir və Azərbaycan yazısında bunun mövqeyi necədir?
9. Şəkilçilər neçə cür yazılır?
10. Bir cür yazılan şəkilçilər hansılardır?
11. İki cür yazılan şəkilçilər hansılardır?
12. Dörd cür yazılan şəkilçilər hansılardır?
13. Hansı mürəkkəb sözlər bitişik yazılır?
14. Niyə bəzi mürəkkəb sözlər defislə yazılır?

15. Mürəkkəb sözlərin bir qismi nə üçün ayrı yazılır?
16. Sözlərin baş hərflərinin böyük yazılmasının əhəmiyyəti nədən ibarətdir?
17. Nə zaman sözün birinci hərfi böyük yazılır?
18. Qısaltma ilə ixtisarın fərqi nədən ibarətdir?
19. Bütöv sözlərin hissələrini sətirdən-sətrə keçirilməsinə dair hansı qaydalar vardır?
20. İxtisar olunmuş sözlərin və qısaltmaların sətirdən-sətrə keçirilməsinə aid hansı qaydalar mövcuddur?
21. XX əsrin 20-ci illərində orfoqrafiyamızın vəziyyəti necə olmuşdur?
22. XX əsrin 80-ci illərində hansı dəyişikliklər edilmişdir?
23. XXI əsrdə – hazırda orfoqrafiyamızın vəziyyəti necədir?

**ƏDƏBİYYAT:**

1. Afad Qurbanov. Müasir Azərbaycan dilinin qrafika və orfoqrafiyası. Bakı, 1963.
2. Afad Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 2003.
3 Əziz Əfəndizadə. Azərbaycan dili orfoqrafiyası tədrisinin elmi əsasları. Bakı, 1968.
4. Əziz Əfəndizadə. Orta məktəbdə imla. Bakı, 1983.

* * *

5. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 2004.
6. Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə, Bakı, 1976-1986; 1997, 1999, 2000.

# ŞƏRTİ İXTİSARLAR

## 1. Əsərlərindən istifadə olunmuş yazıçı və alimlər

*A.Ş.* – Abdulla Şaiq
*Aş.A.* – Aşıq Abdulla
*Aş.V.* – Aşıq Valeh
*B.B.* – Bayram Bayramov
*B.V.* – Bəxtiyar Vahabzadə
*Bi.T.* – Bisavad Teymur
*Q.Z.* – Qasım bəy Zakir
*Q.İ.* – Qılman İlkin
*Ə.H.* – Əbdürrəhim Haqverdiyev
*Ə.Ə.* – Əbülhəsən Ələkbərzadə
*Ə.Z.* – Ələkbər Ziyatay
*Ə.V.* – Əli Vəliyev
*Ə.Əs.* – Əli Əsgərov
*Ə.Q.* – Əlfi Qasımov
*Ə.Əl.* – Ənvər Əlibəyli
*Ə.Y.* – Ənvər Yusifoğlu
*Ə.M.* – Ənvər Məmmədxanlı
*Əf.* – Əfqan Əsgərov
*Ə.C.* – Əhməd Cəmil
*İ.Ə.* – İlyas Əfəndiyev
*İ.N.* – İmadəddin Nəsimi
*İ.Q.* – İmran Qasımov
*İ.Ş.* – İsmayıl Şıxlı
*Y.V.Ç.* – Yusif Vəzir Çəmənzəminli
*Y.Ə.* – Yusif Əzimzadə
*M.Sü.* – Manaf Süleymanov
*M.S.* – Mirmehdi Seyidzadə
*M.H.* – Mehdi Hüseyn

*M.A.* – Məmməd Aranlı
*M.Ar.* – Məmməd Arif
*M.R.* – Məmməd Rahim
*M.S.O.* – Məmməd Səid Ordubadi
*M.Cəf.* – Məmməd Cəfər
*M.C.* – Mir Cəlal
*M.H.* – Məryəm Həsənzadə
*M.Ə.* – Məhərrəm Əlizadə
*M.Müş.* – Mikayıl Müşfiq
*M.D.* – Mirvari Dilbazi
*M.Ə.S.* – Mirzə Ələkbər Sabir
*M.F.A.* – Mirzə Fətəli Axundov
*M.V.V.* – Molla Vəli Vidadi
*M.P.V.* – Molla Pənah Vaqif
*N.X.* – Nəbi Xəzri
*N.N.* – Nəriman Nərimanov
*N.V.* – Nəcəf bəy Vəzirov
*N.R.* – Nigar Rəfibəyli
*O.Sa.* – Oqtay Salamzadə
*O.S.* – Osman Sarıvəlli
*R.R.* – Rəsul Rza
*S.Rəh.* – Sabit Rəhman
*S.Q.* – Salam Qədirzadə
*S.Ə.Ş.* – Seyid Əzim Şirvani
*S.Şami.* – Seyfulla Şamilov
*S.V.* – Səməd Vurğun
*S.M.Q.* – Soltan Məcid Qənizadə
*S.S.A.* – Süleyman Sani Axundov
*S.Rəh.* – Süleyman Rəhimov
*S.R.* – Süleyman Rüstəm
*T.Ş.* – Tağı Şahbazi
*T.B.* – Tofiq Bayram
*Füz* – Füzuli

*X.H.* – Xalidə Hasilova
*Xət.* – Xətai
*H.N.* – Hacıbaba Nəzərli
*H.S.* – Həsən Seyidbəyli
*H.A.* – Hüseyn Abbaszadə
*H.A.* – Hüseyn Arif
*H.C.* – Hüseyn Cavid
*Cə.M.* – Cəlil Məmmədquluzadə
*C.C.* – Cəfər Cabbarlı

**2. Folklor əsərləri**
"A.S." – Atalar sözü
"Ba." – Bayatı
"Ki.D.Q." – "Kitabi-Dədə Qorqud" dastanı

**3. Kitab və lüğətlər**
"Azərb. lüğ." – "Azərbaycan dilinin izahlı lüğəti", I hissə
"Azərb. ta." – "Azərbaycan tarixi", I hissə
"İ.C.lüğ." – "İzahlı coğrafiya lüğəti"
"S.İ." – "Siyasi iqtisad", dərslik

**4. Qəzet və jurnallar**
"Azərb. müəl." – "Azərbaycan müəllimi" qəzeti
"E. və H." – "Elm və həyat" jurnalı
"Ə. və İ." – "Ədəbiyyat və incəsənət" qəzeti
"Kr." – "Kirpi" jurnalı

# MÜNDƏRİCAT


**ÖN SÖZ** ............ **5**

**GİRİŞ** ............ **17**

Azərbaycan dili və onun inkişafı ............ 17

Azərbaycan ədəbi dilinin normaları ............ 21

Azərbaycan ədəbi dilinin üslubları ............ 24

Suallar ............ 40

Ədəbiyyat ............ 41

**I. FONETİKA** ............ **42**

Danışıq üzvləri ............ 42

Səs və fonem ............ 42

Azərbaycan dilinin səsləri ............ 43

Saitlər və onların təsnifi ............ 43

Samitlər və onların təsnifi ............ 49

Azərbaycan dilindəki fonetik hadisə və qanunlar ............ 62

Assimilyasiya ............ 62

Dissimilyasiya ............ 64

Səsartımı ............ 65

Səsdüşümü ............ 69

Yerdəyişmə .......... 75
Ahəng qanunu .......... 76
1) Saitlərin ahəngi .......... 79
2) Samitlərin ahəngi .......... 98
3) Saitlərlə samitlərin ahəngi .......... 101
Cingiltiləşmə .......... 112
Müasir Azərbaycan ədəbi dilində heca .......... 114
Hecaların növləri .......... 117
Hecaların tipləri .......... 121
Müasir Azərbayan ədəbi dilində vurğu .......... 128
1) Heca vurğusu .......... 131
2) Məntiqi vurğu .......... 140
3) Həyəcanlı vurğu .......... 141
Yekunlaşdırıcı fonetik təhlil .......... 143
Suallar .......... 144
Ədəbiyyat .......... 146

**II. ORFOEPİYA .......... 147**
Orfoepiya haqqında .......... 147
Saitlərin tələffüzü .......... 153
Samitlərin tələffüzü .......... 161
Bəzi qrammatik formaların tələffüzü .......... 167
Yekunlaşdırıcı orfoepik təhlil .......... 171
Suallar .......... 179
Ədəbiyyat .......... 179

**III. ƏLİFBA** ........ **181**
Müasir Azərbaycan əlifbası ........ 181
Suallar ........ 187
Ədəbiyyat ........ 187

**IV. QRAFİKA** ........ **188**
Qrafika haqqında ........ 188
Sait səslərin əks olunması ........ 189
Samit səslərin əks olunması ........ 194
Suallar ........ 196
Ədəbiyyat ........ 196

**V. ORFOQRAFİYA** ........ **197**
Orfoqrafiya haqqında ........ 197
Azərbaycan orfoqrafiyasının prinsipləri ........ 200
Saitlərin yazılışı ........ 204
Samitlərin yazılışı ........ 243
Şəkilçilərin yazılışı ........ 289
Bir cür yazılan şəkilçilər ........ 293
İki cür yazılan şəkilçilər ........ 296
Dörd cür yazılan şəkilçilər ........ 300
Sözlərin bitişik, yarımbitişik (defislə) və ayrı yazılması ........ 312
Sözlərin ilk hərflərinin böyük yazılması ........ 325
Şərti ixtisarların və qısaltma sözlərin yazılışı ........ 334

1. Şərti ixtisar edilmiş sözlərin yazılışı ............ 335
2. Qısaltma sözlərin yazılışı ............ 337
3. Həm ixtisar və həm də qısaltmadan ibarət
olanların yazılışı ............ 337
Sözün hissəsinin sətirdən-sətrə keçirilməsi qaydaları ............ 338
Orfoqrafiyaya dair təkrar çalışmalar ............ 339
Suallar ............ 342
Ədəbiyyat ............ 343
**ŞƏRTİ İXTİSARLAR ............ 344**

**Afad Qurbanov.**
**Müasir Azərbaycan ədəbi dilinə dair praktikum.**
**I cild**

**Dizayn:** Novruz Novruzov
**Texniki tərtibat:** Gülnar Səfərova,
Vüsal Qurbanlı, Rüstəm Əliyev
**Məsul katib:** Jalə Muradova
**Korrektor:** Kəmalə Cəfərova

Çapa imzalanmış: 10.01.2019.
Kağız biçimi: 84x108 1/32.
Ümumi həcmi: 22 ç.v.
Sayı: 1000 nüsxə.
Ofset çap üsulu.
Sərbəst qiymətlə.

**www.afadgurbanov.az**

Kitab "Imak" (İstanbul, Türkiyə) mətbəəsində çap edilmişdir.